Firdovsi Cəfərxan

Səndən qalan bir sevgidir...

Bakı-2009

Redaktor: Əmirxan Xəlilov,
filologiya elmləri doktoru,
professor, "Qızıl qələm" və
"İti qələm" mükafatları laureatı

Rəyçi: Pənah Azəri,
şair-publisist

Firdovsi Cəfərxan. "Səndən qalan bir sevgidir..."
Bakı, "Nurlan" nəşriyyatı, 2009. 260 səh.

Kitabda müəllifin lirik şeirləri, publisistik yazıları və "...Hardan gəldi bu sevda" adlı lirik povesti toplanmışdır.

Kitab mənəvi həyatımızda baş verən hadisələrdən, əsasən də əxlaqi, estetik və digər dəyərlərin nisbəti məqamlarından bəhs edir. Burada valideyn övlad münasibətləri, ailə tərbiyəsinin cəmiyyətimizə olan təsirlərindən, gənclərimizin həyata baxışları, ötəri hisslərə meylliliyi və ya tam əksinə — milli-mənəvi dəyərlərə söykənərək keçmişimizdən ibrət götürüb gələcəyi yaşatmağa hazır olduqları barədə onlarla bağlı hadisələr və fikirlər ifadə olunmuşdur.

© "Nurlan" nəşriyyatı, 2009.

YARADICILIQ VƏ MƏNƏVİYYAT ALƏMİ

Müasir poeziya aləmində bir sıxlıq, qarışıqlıq hökm sürür desək, yəqin ki, yanılmarıq. Bu mənada ki, təbiətən şair doğulanlar da yazır, əsl şairlikdən uzaq olanlar da. İlahidən vergisi olanlar da yazır, zəhmətlə, düşünməklə, vərdişlə yazıb yaradanlar da var. Belinski, Bualo, M.F.Axundov, Ə.Hüseynzadə, M.Hüseyn, S.Vurğun, M.Cəfər, Y.Qarayev kimi görkəmli şeir-sənət adamları əsasən belə bir elmi-nəzəri qənaətdə olmuşlar ki, əsl şair bu günün, gələcəyin carçısı olanlardır. Lirik əsərlərində insanpərvərliyi, humanizmi, bəşəri ideyaları təbliğ və tərənnüm edənlərdir. Həqiqi şair, içərisində doğulduğu və yaşadığı cəmiyyətə məxsus olur, onunla birgə nəfəs alır. Sənətkarın istedadı, yaradıcılığının inkişaf və dinamik xarakteri mənsub olduğu xalqın tarixi inkişafı ilə sıx əlaqədə olmalıdır. Necə deyərlər, yaşadığın cəmiyyətdə olub, ondan kənarda qalmaq qeyrimümkündür. Lakin etiraf etməliyik ki, hazırda bəşəri qaydalardan kənarda qalıb, intim, fərdi məhəbbət "moizə" edənlər xeyli dərəcədə artıb. Bu cür "şair bülbülləri" ilə, şübhəsiz ki, əsl poetik missiyanı — qlobal tarixi problemlərin yerinə yetirilməsi missiyasını həyata keçirmək yalnız sadəlövhlük olardı. Unutmaz olmaz ki, həyatın, insanlığın, cəmiyyətin problemlərindən kənarda poeziya yoxdur və ola da bilməz. Xalqın, Vətənin faciə və bəlalarını ən azı öz şəxsi faciən kimi yaşamağı bacarmalısan ki, ortaya əsil sənət əsəri çıxara bilərsən. Bu qısa dediklərimiz yalnız müqəddimə xarakteri daşıyır. Əsas məqsədimiz isə şeir-sənət gur səsi, nəfəsi ilə bir şəxsiyyət — Firdovsi Cəfərxan barədə, onun lirik şeirləri,

miniatür əsərləri barədə oxucularda müəyyən təsəvvür yaratmaqdır. O, çoxtərəfli, şaxəli bir yaradıcılığa malikdir. Həm istehsalat adamı, həm publisist, jurnalist, həm təşkilatçı, həm də şair təbiətli bir insan kimi ətrafdakıların diqqətini özünə cəlb etmək hər kəsə nəsib olmur. Bu sahələrin hər birində o fərdi simasını, insanlıq xarakterini qoruyub saxlamış yeni mənəvi-ruhi cizgilərini həm daxilində, həm də zahirində mühafizə edə bilmişdir. Bütün ziyalılarla yaxınlığı, dostluğu onun özünün də ziyalılıq keyfiyyətlərini üzə çıxarmışdır. Tarixçi, iqtisadçı, fizik-kimyaçı, filoloq, filosof, həmçinin tanınmış və görkəmli şairlərlə ünsiyyəti dediyimizə canlı sübutdur.

F.Cəfərxan mətbuat aləmində özünəməxsus dəst-xətti ilə seçilən şəxsiyyətdir. Yazıb-yaratmaq eşqi onu daim cavanlıq ehtirası ilə işləməyə sövq edir. Yüksələn xətlə dinamik inkişafda olan şair-publisistin sükunətlə işi yoxdur. Çevik, fəal həyat və yaradıcılıq tərzi onu daim zirvələrə səsləyir. Elə bir gün olmur ki, o bir şeir, hekayə, mənsur şeir, poema və povest içərisində düşünməsin; düşünür və nəticəsi də bu janrların ayrı-ayrı nümunələri ortaya çıxır və mətbuatda ifadəsini tapır.

Rəhbərlik etdiyi "Yeganə Yol" qəzeti onun mənəvi potensialını daha da artırmışdır. İri formatda, 8-10 səhifəlik qəzetə indiki iqdisadi durumda və informasiya bolluğu əhatəsində yol açaraq ona hörmət gətirə bilmək asan məsələ deyildir. Əsas məziyyət budur ki, həm də təmsil etdiyin qəzetin simasını qoruya biləsən. Qəzeti də qoruyub saxlayan onun sözü və səsidir. "Yeganə Yol"un sözü də, səsi də, nəfəsi də yerindədir. Qısa vaxt ərzində xeyli oxucu qazanması da məhz bu məntiqdən doğur. F.Cəfərxanın şair-publisist kimi bir üstünlüyü də

bundadır ki, o öz ətrafına əsl qələm sahiblərini, şeir-sənət əhlini yığa bilmişdir. Görkəmli şəxsiyyətlər barədə samballı məqalə və oçerklər dövrümüzün tale yüklü problemləri haqqında canlı faktlarla danışan mənalı yazılar verilməsi bu qəzetin əsas missiyasıdır. Elə buna görədir ki, onu hər yerdə alır, oxuyur və məmnun qalırlar.

F. Cəfərxanın şeir yaradıcılığı da diqqəti çəkəndir. O, bir ziyalı kimi yaxşı dərk edir ki, poeziyada zamanın əks-sədası, cəmiyyətin siyasi-mənəvi ifadəsi öz əksini tapmalıdır. Buna görədir ki, bu məsələlər redaktorun başçılıq etdiyi qəzetdə va poetik yaradıcılığında özünü açıq büruzə verir. Ulu öndər Heydər Əliyevin açdığı siyasət yolunu ən düzgün və yegənə yol adlandıran Firdovsi müəllim lirik əsərlərində də bu ideyaya sadiq qaldığını sübuta yetirir:

Vətən sənə oğul deyib güvəndi,
Haqq dünyanda ruhun şad olsun, Dədə!
Yaxşı-yaman el gözündə ələndi,
Haqq dünyanda ruhun şad olsun, Dədə!

Xalqımın söhbəti, şirin sözüsən,
Yanar ürəklərin sönməz közüsən.
Bu haqsız dünyada haqqın özüsən,
Haqq dünyanda ruhun şad olsun, Dədə!

Səni düşünürük, hər bir an səni,
Dahi yaradıbdır Yaradan səni,
Unuda bilərmi Cəfərxan səni?
Haqq dünyanda ruhun şad olsun, Dədə!

Biz yaxşı bir şeirdən yalnız kiçik bir parçanı misal gətirdik. Və burada şairin səmimiliyini, hiss və duyğusunu, ülviliyini görməmək mümkün deyildir. Adi və sadə misralar böyük həyat həqiqətini bir daha təsdiq edir. Necə deyərlər, o bu cür şeirlərlə sadəlikdə böyüklüyü, adilikdəki qeyri-adiliyi bir şair intuisiyası ilə görür, hiss edir və oxucusuna da eyni dərəcədə təsir göstərir. F.Cəfərxan sözünün-söhbətinin dəyərini bilən şəxsiyyətdir. O, ötəri meyllərdən, ötəri həvəslərdən uzaq, mehriban, təvazökar, eyni zamanda öz insanlıq və iş prinsiplərindən heç vaxt dönməyən bir adamdır. Təbii istedad və ilhamdan doğulan sözlər, misralar sadə olduğu qədər də mənalıdır.

Atalı-analı yetimlər kimi,
Ağlama, Xan Araz, ağlama, belə!
Bir Vətən həsrətli didərgin kimi,
Ağlama, Xan Araz, ağlama, belə!

De, niyə bölündün solun-sağına?
De, kimlər göz dikdi daş-torpağına?
Qardaş necə dözsün qardaş dağına?
Ağlama, Xan Araz, ağlama, belə!

Sözün sehrinə, sadəliyinə və ülviliyinə nüfuz və müdaxilə etmək lazımdır ki, söz canlı və təsirli olsun. Çünki canlı söz nə qədər təntənəli, ibarəli və təmtəraqlı görünsə də canlı deyil, deməli, poeziya deyil. Söz də onun yaradanı kimi canlı olmalıdır. Belə yerdə deyirlər ki, yaşasın səs salan, nəfəs alan, yaşayan, sirli, sehirli söz!..

Məhz bu cəhətdən Firdovsi Cəfərxanın şeirlərində, kiçik həcimli nəğmələrində, miniatür hekayə, novella və lirik povestlərində insan ruhunun, həmçinin sevgi və gö-

zəlliyin fəlsəfəsini görmək və duymaq mümkündür. Onun əksər şeir-nəğmələrindən həyatın poetik dərki və ifadəsi özünü aydın göstərir. Azərbaycanın, elin-obanın qeyrətini çəkən igid şəhid oğullara həsr olunan şeirlər də bu qəbildəndir.

Günəşmi göydən endi?
Hər yan zülmətə döndü,
Elin çırağı söndü
Başın sağ olsun, Vətən!

Ömrü vermədik yelə,
Arxa idiz bu elə.
Neçin tez köçdüz belə?..
Başın sağ olsun, Vətən!

Layiq idiz diqqətə,
Ülvi, saf məhəbbətə.
Qovuşduz bu ölümlə,
Ölməz əbədiyyətə;
Başın sağ olsun, Vətən!

Siz olduz pənahımız,
İşıqlı sabahımız.
Yerdə qalmaz ahımız
Başın sağ olsun, Vətən!

Bu qəbildən olan şeirlərdə humanist, vətənpərvərlik duyğuları başlıca motivlərdir. F. Cəfərxanın yazılarında həm də həzinlik, hüzn və məhəbbət, şirinlik və musiqilik hakimdir. Musiqi ilə poeziya isə həmişə bir-birlərini gözəl tamamlayır. Onun lirik şeirlərində musiqi, mu-

siqidə isə təbii ki, poeziya vəhdət təşkil edir. Bəlkə buna görədir ki, onun əksər şeirlərində musiqəyə yatımlı olduğundan lirik-emosional mahnıya çevrilir və yaddaşlara qovuşur. Hələ hörmətli şair-publisistin poeziya qayığı bir qədər kiçik və kövrəkdir. Amma inanırıq ki, bu qayıq gəmiyə çevrilərək dəniz dalğalarına davam gətirəcək və mahir bir qəvvas kimi dərinlərə baş vuracaqdır...

Əmirxan Xəlilov,
filologiya elmləri doktoru,
professor, "Qızıl qələm" və
"İti qələm" mükafatları laureatı

Bu haqsız dünyada haqqın özüsən...



RUHUN ŞAD OLSUN, DƏDƏ

Ulu öndər Heydər Əliyevə ithaf

Vətən sənə oğul deyib güvəndi,
Haqq dünyanda ruhun şad olsun, Dədə!
Yaxşı-yaman el gözündə ələndi,
Haqq dünyanda ruhun şad olsun, Dədə!

Dünyaya səs saldı şöhrətin, şanın,
Səndən qüdrət aldı Azərbaycanın.
Qurtardın zülmdən bu xalqın canın,
Haqq dünyanda ruhun şad olsun, Dədə!

Xalqımın söhbəti, şirin sözüsən,
Yanar ürəklərin sönməz közüsən.
Bu haqsız dünyada haqqın özüsən,
Haqq dünyanda ruhun şad olsun, Dədə!

Xoşbəxt övladısan Azərbaycanın,
Düşünən beynisən cümlə-cahanın.
Əziz bəndəsisən tək yaradanın,
Haqq dünyanda ruhun şad olsun, Dədə!

Əqidən, məsləkin işıq saçıbdır,
Nurlu sabahlara yollar açıbdır.
Bütün arzuların çiçək açıbdır,
Haqq dünyanda ruhun şad olsun, Dədə!

Hər an minnətdarıq, borcluyuq sənə,
Sən dayaq olmusan Ana Vətənə.
Davamçın İlhamdır, layiqdir sənə,
Haqq dünyanda ruhun şad olsun, Dədə!

VƏTƏN OĞLU

Ölkə Prezidenti İlham Əliyev cənablarına ithaf

Xalqın qismətinə sən doğulmusan,
Xalqın sevimlisi, ay vətən oğlu!
Sən dünya şöhrətli Heydər oğlusan,
Xalqın sevimlisi, ay vətən oğlu!

Günəştək həmişə nurludur üzün,
Zəhmətdən yoğrulub gecən, gündüzün,
Səsin haqq səsidir, gövhərdir sözün,
Xalqın sevimlisi, ay vətən oğlu!

Əzəldən xalqımız duz-çörəklidir,
Polad biləklidir, şir ürəklidir,
El bilir məramın xoş diləklidir,
Xalqın sevimlisi, ay vətən oğlu!

Unutmaq olarmı Ulu Öndəri?
Qoy Allah qorusun nəvə Heydəri.
Mən arzu edirəm xoşbəxt günləri,
Xalqın sevimlisi, ay vətən oğlu!

MƏNİM ALLAHIM

Bu yerin, bu göyün tək yaradanı,
Mənim Allahımdır, mənim Allahım!
Bu eşqim, bu ruhum, cümlə-cahanım,
Mənim Allahımdır, mənim Allahım.

Bu fani dünyadı, heç kəsə qalmaz,
Tökülən sularla quyular dolmaz.
Heç kimi nahaqdan bəlaya salmaz,
Mənim Allahımdır, mənim Allahım.

Allahım böyükdür, hər an ucadır,
O, bu varlıq üçün nurdur, ocaqdır.
Hikməti dərindir, sirri-xudadır,
Mənim Allahımdır, mənim Allahım.

Yaradan da sənsən, xəlq edən də sən,
Səni sevənləri daha çox sevən.
Ruzilər paylayan, qismətlər verən,
Mənim Allahımdır, mənim Allahım.

Yaratdığı ərşin-kürşin hikməti,
Dahilərin haqla bağlı söhbəti,
Titrəyən qəlbimin sevgi sərvəti,
Mənim Allahımdır, mənim Allahım.

Allahım, söndürmə yanan közləri,
Gələn günahlardan qoru bizləri.
Ümidsiz qoymayan kimsəsizləri,
Mənim Allahımdır, mənim Allahım.

ANA

Sənintək müqəddəs de, varlıq varmı?
Sənsiz ürəklərə sevinc dolarmı?
Anasız körpə də xoşbəxt olarmı?
Ölərəm, adını danmaram, ana!

İncisən od tutub alışaram mən,
Öpüb əllərindən barışram mən,
Sən sağsan, gülərəm, danışaram mən,
Sən yoxsan, inan ki, ağlaram, ana!

De, nədən narahat belə olursan,
Hər addım səsinə niyə dolursan?
Vaxtsız qocalırsan, vaxtsız solursan,
İnan ki, haqqını danmaram, ana!

Artıq dediklərim inan əbəsdi,
Günahkar dilimdi, dibindən kəsdi,
Sən sağsan inan ki, bu mənə bəsdi,
Sənsiz ömrü ömür sanmaram, ana!

Firdovsiyəm, dərdə çarə görməsəm,
Kor olub kimsədən kömək istəsəm,
Xain gülləsindən qəfil can versəm,
Tək səni düşünüb, anaram, ana!

ATA NƏSİHƏTİ

Tale yollarında, kövrəlib dolsam,
Payız yarpağıtək saralıb, solsam.
Bir gün bu dünyadan köçəsi olsam,
Ata nəsihətin unutma, oğlum!

Çıxarma yadından, səbr kəlməsin,
Atanın nəfəsin, Ananın səsin.
Yaşamaq həvəsin, həyat nəğməsin,
Ata nəsihətin unutma, oğlum!

Ulduzlar göylərdə düzülər qatar,
Günəş görünməsə çətin ay batar.
Atalar düz deyib: "Axtaran tapar",
Ata nəsihətin unutma, oğlum!

Namərddən heç zaman ümid gözləmə,
Açıb ürəyini ona söyləmə.
Bu qədər daralıb belə göynəmə,
Ata nəsihətin unutma, oğlum!

Dağların başını boran-qar alıb,
Bu dünya çoxların kəməndə salıb.
Deyirlər: "Əl tutmaq Əlidən qalıb"
Ata nəsihətin unutma, oğlum!

Ümid alovunu köksündə qala,
Kimsəsiz görəndə başın sığalla.
Qoyma bu həyatda naümid qala,
Ata nəsihətin unutma, oğlum!

Tutma sən yükünü dünya malından,
Çıxart naqisliyi öz xəyalından.
Dönmə əqidəndən, pak amalından,
Ata nəsihətin unutma, oğlum!

Çalış bu dünyada ağılla yaşa,
O həm bir oyundur, həm də tamaşa.
Onunla qalanda hər an baş-başa,
Ata nəsihətin unutma, oğlum!

Hər kəsin yoludur getdiyin bu yol,
Səni sevənlərə sədaqətli ol.
Məni xatırlarkən nə sıxıl, nə dol,
Ata nəsihətin unutma, oğlum!

ÜRƏK NEYLƏSİN

Böyük şairimiz Şəhriyara həsr edirəm

Şəhriyar babamı anar ürəyim,
Həsrət sazağından donar ürəyim.
Alışıb köz kimi yanar ürəyim,
Ayrılıq zalımsa, ürək neyləsin?!

Sən orda qardaşım, dözüb susmusan,
Elə sozalmısan, elə solmusan,
Ürəyim ağrıyır, niyə dolmusan?
Bəxtimiz qarasa, ürək neyləsin?!

Yuxuda gördüm ki, küsübsən məndən,
Dinib-danışmırsan bilmirəm nədən.
Ayılıb, ağlayıb, qışqırdım birdən:
— Dünya günahkarsa, ürək neyləsin?!

Nədir yaşamağın, nədir mənası,
Əbədi qalarsa həsrət yarası.
Firdovsi, ağırdır düşmən yarası,
Ürək bacarmırsa, ürək neyləsin?!

QUBADLI

Qurban olum torpağına, daşına,
Kimə qaldı o dağların, Qubadlı?!
Zalım düşmən nələr gətdi başına,
Sağalarmı yaraların, Qubadlı?!

Yazıq Əliyar, nələr gəldi başına?!
Heç ölüm də yaraşmırdı yaşına.
Kişi olan papaq qoymaz başına,
Yoxmu igid oğulların, Qubadlı?!

Payız gəldi, soyuq boran yol aldı,
Yetim-yesir düzənlərdə ac qaldı.
Torpaq gedib, daha bizə nə qaldı?
Yəqin solub o bağların, Qubadlı?!

Firdovsiyəm, mən bu dərdə dözmərəm,
Mən ölüncə səni deyib gözlərəm.
Vallah, bir də səni görsəm ölmərəm.
Qayıdarmı o çağların, Qubadlı?!

DÜNYA YAMAN DƏYİŞİB

Həmişəyaşar şairimiz Məmməd Araza

Çaşqın düşmüş xalq xəyala dalıbdır,
Biganəlik bizi əldən salıbdır.
Ümidimiz tək Allaha qalıbdır,
Məmməd Araz, dünya yaman dəyişib.

Görünmür ulduzlar, gün bata-batda,
Sevgimiz əsirdir yeddinci qatda.
Daha gördüklərin yoxdur həyatda,
Məmməd Araz, dünya yaman dəyişib.

Xeyir-bərəkətə haram qatılır,
Şorda, balda bir qiymətə satılır.
Vicdan tapdalanır, qeyrət atılır,
Məmməd Araz, dünya yaman dəyişib.

Gəzir ürəklərdə nə vaxtdır təlaş,
Önəmli olubdur hər kəsə daş-qaş.
Qalmayıb vəfalı nə dost, nə sirdaş,
Məmməd Araz, dünya yaman dəyişib.

Həsrət, qübar hər an bizi üşüdüb,
Ülvi sevgi çoxdan bizdən gen düşüb.
Ömür ötüb, saçımıza dən düşüb,
Məmməd Araz, dünya yaman dəyişib.

Gündüz də, gecə də hər an çalışdın,
Haqsızlıq odunda yandın, alışdın.
Sonda bu dünyayla sən də barışdın.
Məmməd Araz, dünya yaman dəyişib.

QALDI

Kövrək olan ürəyimdə,
Deyilməmiş sözüm qaldı.
Doğma, əziz o elimdə,
Mollu, səndə gözüm qaldı.

Dörd tərəfin bostan, bağdı,
Düşmən üçün göz dağıdı.
Dost yanında üzün ağdı,
Mollu, səndə gözüm qaldı.

Firdovsinin sözü səndə,
Gözəllərin gözü səndə.
Məhəbbətin özü səndə,
Mollu, səndə gözüm qaldı.

AĞLAMA, XAN ARAZ

Atalı-analı yetimlər kimi,
Ağlama, Xan Araz, ağlama, belə!
Bir vətən həsrətli didərgin kimi,
Ağlama, Xan Araz, ağlama, belə!

De, niyə bölündün solun-sağına,
De, kimlər göz dikdi daş torpağına?
Qardaş necə dözsən qardaş dağına,
Ağlama, Xan Araz, ağlama, belə!

Öpüb oxşadıqca Xudafərini,
Deyirsən unutsun yazıq dərdini?
Sənsiz kim biləcək onun qədrini?
Ağlama, Xan Araz, ağlama, belə!

Vətən iki yerə necə bölünsün?
Ürək iki canda necə döyünsün?
Firdovsi yalandan necə öyünsün?
Ağlama, Xan Araz, ağlama, belə!

AMANDIR, SƏBR EYLƏ, DAYANMA, ÜRƏK

Nədən taleyimin dönübdür üzü,
Zülmətə dönübdür gecə-gündüzü.
Od tutub yandırır alovu, közü,
Amandır, səbr eylə, dayanma, ürək!

Buraya qədərmiş mənim qismətim,
İnanma qurtarsın mənim həsrətim.
Şükr, tər-təmizdir abrım, ismətim,
Amandır, səbr eylə, dayanma, ürək!

Kiminin həyatda bağlanıb baxtı,
Kiminin yıxılıb, uçubdur taxtı.
Kimi can üstədir çatıbdır vaxtı,
Amandır, səbr eylə, dayanma, ürək!

Yanan pərvanəyəm, şamım sönübdür,
Nədən bu həyatım heçə dönübdür?
Bəlkə can sirdaşım, ruhum ölübdür?
Amandır, səbr eylə, dayanma, ürək!

Gəl qanatma qaysaq tutan yaramı,
Yarım vurub, sağalmayan yaranı.
Firdovsiyəm, sevməmişəm haramı
Amandır, səbr eylə, dayanma, ürək!

AĞLAMA ANAM, AĞLAMA

Şəhidlərin məzarı önündə düşüncələr

Vətən üçün doğulmuşuq,
Ağlama, anam, ağlama!
El üçün şəhid olmuşuq,
Ağlama, anam, ağlama!

Qəlbimiz qanla doludur,
Hər kəs vətənin oğludur,
Getdiyimiz haqq yoludur,
Ağlama, anam, ağlama!

Daha mənə yas saxlama,
Oğul deyib qan ağlama.
Sinəni çarpaz dağlama,
Ağlama, anam, ağlama!

İgid oğul tapılacaq,
Düşməni lərzə salacaq,
Qisasımızı alacaq,
Ağlama, anam, ağlama!

Vətənin başı sağ olsun,
Hər evdə igid doğulsun,
Torpağımız azad olsun,
Ağlama, anam, ağlama!

Düşmən töküb qanımızı,
Qurban verdik canımızı,
Sevdik Azərbaycanımızı,
Ağlama, anam, ağlama!

AY DƏLI QANLI

Allahın göndərdi tam istəyini,
Qoru qismətini, ay dəli qanlı!
Canını təslim et, ver ürəyini,
Qoru qismətini, ay dəli qanlı!

Tökmə zəhərini sevgi aşına,
O sənin payındır çıxıb qarşına,
Fürsət ver dolansın o yar başına,
Qoru qismətini, ay dəli qanlı!

İnanma fitvaya, hər söz-söhbətə,
Göndər onları sən uzaq qürbətə.
Gözləri yollarda qalsın həsrətə,
Qoru qismətini, ay dəli qanlı!

Əlindən qaçırma sən qismətini,
O gözəl mələyin bil qiymətini.
Gün gələr çəkərsən sən həsrətini,
Qoru qismətini, ay dəli qanlı!

AY İNSAFSIZ

Haqsızlığın həddi ərşə çatıbdı,
Ay insafsız, bir insafa gəl görək!
Çərxi-fələk bəlkə hələ yatıbdı
Ay insafsız, bir insafa gəl görək!

Abırlı insanlar müflis oldular,
Abırsızlar hər nə vardı uddular
Həm göz-gözə, həm üz-üzə durdular
Ay insafsız, bir insafa gəl görək!

Kiminin amacı bir parça çörək
Kiminin bu həyat nəyinə gərək?
Söylə, varmı sizdə insaf, de, ürək?
Ay insafsız, bir insafa gəl görək!

Od tutub bazarlar beləcə yanır,
Kimi yalan deyir, haqqını danır
Ağılsız özünü ağıllı sanır
Ay insafsız, bir insafa gəl görək!

1992-ci il

AY QƏLBI QARA

Xain doğulmusan sən təməlindən,
Allahın bəlası, ay qəlbi qara!
Əl çəkə bilmirsən şər əməlindən,
Allahın bəlası, ay qəlbi qara!

Özünü incitmə, özünü üzmə,
Sən bu pislikləri yan-yana düzmə.
Əlindən yaxşılıq gəlməz, üzülmə,
Allahın bəlası, ay qəlbi qara!

Nə qədər hər kəsi sən pusacaqsan?
Nə qədər qəlbləri sən qıracaqsan?
Darıxma, gün gələr, sən qusacaqsan,
Allahın bəlası, ay qəlbi qara!

İnsanlıq həm abırdı, həm də ki, ardı,
Hər şeyin həyatda bir həddi vardı,
İnan ki, bu dünya başıma dardı,
Allahın bəlası, ay qəlbi qara!

BELƏ QALMAZ BU DÜNYA

Lalə Qubadlıya dost töhfəsi

Lalə xanım, nədən belə dolmusan?
El həsrəti sıxıb səni, solmusan,
Vətənində sən didərgin olmusan,
Keçər gedər, belə qalmaz bu dünya.

Qeyrətli xanımsan, bunu kim danar,
Odlu sözlərindən ürəklər yanar,
O təmiz qəlbini duyanlar anar,
Keçər gedər, belə qalmaz bu dünya.

Çayın dibi durulmamış görünməz,
Haqq nazilər, inan, bacım, üzülməz,
Acı çəkmə, fələyin üzü dönməz,
Keçər gedər, belə qalmaz bu dünya.

Viran etmə gəl qəlbini bu qədər,
Qanmaza söz demə, hədərdir, hədər.
Lalə xanım, nəyə lazım qəm-kədər,
Keçər gedər, belə qalmaz bu dünya.

BU VƏTƏN DƏRDİ

Yazdığım sözlər də qana bələnib,
Nə vaxt bitəcəkdir bu vətən dərdi?!
Düşmənin xəlbiri çoxdan ələnib
Nə vaxt bitəcəkdir bu vətən dərdi?!

Mirsədi babanın çırağı sönüb,
Neçə şəhidimiz torpağa dönüb.
Ulu məzarları tapdağa dönüb,
Nə vaxt bitəcəkdir bu vətən dərdi?!

Həsrət yükün içimizdə daşıdıq,
O yerləri xəyallarda yaşadıq.
Kösöv kimi tüstülənib alışdıq
Nə vaxt bitəcəkdir bu vətən dərdi?!

Deyirlər dözgünən, mən necə dözüm?
Gülmür neçə vaxtdır həsrətdən üzüm.
Donub dodağımda, dilimdə sözüm
Nə vaxt bitəcəkdir bu vətən dərdi?!

Döyüb qapımızı təzə il gəlir,
Dəhnəmiz bulanıb yenə lil gəlir,
Nisgilim üstünə bir nisgil gəlir
Nə vaxt bitəcəkdir bu vətən dərdi?!

XOCALI

Hələ ki, mən sağam, qanını alım,
Eylə sən haqqını halal, Xocalı!
Düşmənin canına vəlvələ salım,
Eylə sən haqqını halal, Xocalı!

Gör neçə vaxtdır ki, sızlayır yaran,
Tapılar dərdinə bir həyan duran.
Olarıq qoynunda yaradan, quran,
Eylə sən haqqını halal, Xocalı!

Tapdanıb namusum, sınıb qürurum,
Düşmən qarşısında yoxmu bir durum?
Məqam gözləyirəm düşməni qırım,
Eylə sən haqqını halal, Xocalı!

Səni itirəndən qərib olmuşam,
Yaman kövrək olub, yaman dolmuşam.
Əli uzanılı haqqa qalmışam,
Eylə sən haqqını halal, Xocalı!

Səbr elə, bir az döz, belə ağlama,
Dağlı sinələri bir də dağlama.
Vardır igidlərin, yersiz qarğama,
Eylə sən haqqını halal, Xocalı!

Yoxdursa haqqımız, bir yerdə ölək,
Qanlı cığırlarda biz daşa dönək,
Qismət ola səni biz azad edək,
Eylə sən haqqını halal, Xocalı!

AĞLA, ÜRƏYİNİ BOŞALT, HƏKƏRİM

Yaman bu fələyin üzü dönübdü,
Elimin ocağı, közü sönübdü.
Ümid çırağımın özü sönübdü
Ağla, ürəyini boşalt, Həkərim!

Fələk Qubadlını bəlaya saldı,
Yağılar dörd yandan üstünü aldı.
Allah, doğma yurdum nə günə qaldı?
Ağla, ürəyini boşalt, Həkərim!

Nə vaxtdı o yerlər xəyala dalıb,
Sanki can üstədi, fərmanın alıb.
Gördüyün cavanlar dərddən qocalıb
Ağla, ürəyini boşalt, Həkərim!

Səni darda qoyub demə ki, getdik,
Küləyə qarışıb, boranda itdik.
Bu dərdin əlindən tükəndik, bitdik
Ağla, ürəyini boşalt, Həkərim!

Bilirəm, ömür-gün keçir yarıdan,
Yaman nigaranam Vətən sarıdan.
Üzmə ümidini ulu Tanrıdan
Ağla, ürəyini boşalt, Həkərim!

BİGANƏ DÜNYA

Bu fani dünyanın yaşı bilinməz,
Torpağı bilinməz, daşı bilinməz.
Ağlayan gözlərin yaşı silinməz,
Əzəldən olubsan biganə, dünya!

Alınmaz qəlbimin sevgi qalasın,
Niyə viran etsin, o, yetim qalsın?
Nədən dağlarını, qəm-kədər alsın
Əzəldən olubsan biganə, dünya!

Qazanan sən oldun, itirən ki, mən,
Mənim taleyimə dərd gətirən sən.
Bitməmiş ömrünü, bitirən də sən,
Əzəldən olubsan biganə, dünya!

O gözəl günlərin bilmədik qədrin,
Bahar çiçəyitək duymadıq ətrin,
İndi peşman olub çəkirik dərdin
Əzəldən olubsan biganə, dünya!

HƏKIM

Gözlərim tor görür nə vaxtdan bəri,
Nə qədər çəkim mən bu dərdi-səri?
Yığmışam içimdə qəmi, kədəri ,
Yaşamaq ümidim sənədir, həkim!

Dünyaya gəlmişik ölmək üçünmü?
Yanıb alışmamış, sönmək üçünmü?
Murada çatmamış, dönmək üçünmü?
Onu da ümidi sənədir, həkim!

Biri var-dövlətçün daim çalışır,
Başı pul-paraya hər an qarışır,
Biri əzab çəkir, dərddən alışır
Onu da ümidi sənədir, həkim!

Ölümü hiss edir özü xəstənin,
Donur dodağında sözü xəstənin.
Yumular-yumulmaz gözü xəstənin,
Yenə də ümidi sənədir, həkim!

Firdovsiyəm, qaneyəm öz həddimə,
Tale niyə yükün töküb qəddimə?!
Bir ümidim MirMəhəmməd cəddinə,
Ölmərəm, ümidim sənədir, həkim!

MƏRD DOĞULMUSAN

Xeyriyyəçi Əvəz Hüseynquluyevə

Qəribə həyatın, taleyin olub,
Bax belə, anadan mərd doğulmusan.
Dəyişməz əqidən haqdan yoğrulub
Bax belə, anadan mərd doğulmusan.

Taleyin acısın sən də cəkmisən,
Rəbbin qismətinə şükür etmisən.
Hər zaman düzünə, haqqı demisən
Bax belə, anadan mərd doğulmusan.

Hər kəsi özünə bir doğma sandın,
Vətən ülvi sevgin, şəhidlər andın.
Sağikən özünə rəhmət qazandın
Bax belə, anadan mərd doğulmusan.

Yenə kədərlisən yenə dolmusan,
Sıxıb yurd həsrəti, yaman dolmusan.
Sən elə, obaya arxa olmusan
Bax belə, anadan mərd doğulmusan.

Edilən dualar qəbul olunsun,
Səni qadalardan, şərdən qorusun
Yolların həmişə qoy açıq olsun
Bax belə, anadan mərd doğulmusan.

2008-ci il

VİDA NƏĞMƏSİ

Günəşmi göydən endi?
Hər yan zülmətə döndü,
Elin çırağı söndü
Ağla, Qubadlı, ağla!

Bu dünyanı dolan, gəz,
Varmı ona bir əvəz?
Köç etdi oğlun Əvəz
Ağla, Qubadlı, ağla!

Bu dərddən yana-yana,
Sızlayır bacı, ana,
Bu həsrətə, hicrana
Ağla, Qubadlı, ağla!

Eşidəndə ki, dünyasını dəyişib Əvəz Orduxan oğlu Hüseynquluyev, bizi-bizdən eylədi ürək didən bu səda. Bürünmüşdü matəmə o gün hər ev, hər oda… Doğrusu

qulaqlarımıza inana bilmədik. İnanmadıq ki, içində Azərbaycan boyda vətən, yurd sevgisi daşıyan, xalqın illər boyu ümidlərinə çıraq tutaraq ülvi hisslərlə yaşayan cəsarətli, qeyrətli, dəyanətli, vətənpərvər bir insan belə tezliklə ölümə təslim ola. Sarsıtdı bizi bu xəbər, yaman sarsıtdı. İçin-için göynədik bu ağrıdan-acıdan. Hara getdik, hara döndük o günü sanki nalə, acı fəryad eşidirdik hər qardaşdan, bacıdan.

Gül-çiçək soldu, qardaş,
Saçını yoldu, qardaş.
Neçin bu vaxtsız ölüm,
Sənə tuş oldu, qardaş?!

De, nədən doyub getdin?
Ürəklər oyub getdin,
Bəs kimin ümidinə
Bizi sən qoyub getdin?!

Heç kəsə fikir vermədən, heç kəsdən ümid gözləmədən o günü sən bir yol gedirdin Tanrı dərgahına. Ölümün üzünə dik baxa-baxa, gülə-gülə. Dostların, tanışların, ən yaxın sirdaşların səni o günü göz yaşları içərisində son mənzilə yola salırdı. Bu həsrətin, nisgilin içində sənli ötən acılı, şirinli xatirələrə dalırdı. Ürəklərdən axıb gələn ağılar, bayatılar beləcə dodaqlardan süzülərək göylərə ucalırdı:

Sən idin pənahımız,
İşıqlı sabahımız.
Neçin tərk etdin bizi
Nə idi günahımız?!

Yolumuz qaldı yarı,
Pozdun əhdi-ilqarı.
Ay Allah, necə çəkək
Bu qəmi, bu qübarı?!

Əridik bu kədərdən, əridik qətrə-qətrə. Amansız, vaxtsız ölüm yamanca dəydi xətrə. Beləcə ürəklərimizdə həsrət, gözlərimizdə yaş hara gedirdiksə bizi tərk etmirdi o günü həyəcan, təlaş. İçimizdəki "sarı sim"in göynərtisindən qopan ahın, nalənin səsində qovrula-qovrula beləcə səni son mənzilə yola saldıq, qardaş! Sanki qan ağlayırdı ayaqlarımız altında o torpaq, o daş. Bu həyatda ömür saymaq olmaz hər ömrü. Bir ömür yaşadın sən adına layiq kişi ömrü, ər ömrü. Vətən üçün, el üçün, sevgi üçün yaşadın. Bu gün ona görə də məhəbbətlə, sədaqətlə çəkilir qoşa adın.

Kim bilir neçə dəfə
Ömrü atəşə, oda,
Sən beləcə atmısan.
Lakin neçə insana
Sən ümid, inam verib,
Həyatda yaşatmısan.

Etdiyin hörmət, göstərdiyin sevgi, diqqət illər ötsə də səni daim xatırladacaq. Yatdığın mənzil, uyuduğun torpaq el üçün, oba üçün olacaq bundan belə ziyarətgah, pir, ocaq. Səni yad etmək üçün axacaq məzarına çiçəklər qucaq-qucaq. Çünki bu xalq yolunda tükənməyib hörmətin, çox olub qayğıların, bəzən özün-özünü unudaraq bir

qədər sızlayıb, göynəmisən içində ağrıların. Bəli, yad edəcəkdir səni hər vətən oğlu, ismətli vətən qızı. Görüşünə gələcək ürəyində məhəbbət, dodağında rəhmət. İçdən gələn sevgi hissləri bir an da olsun səni unudulmağa qoymayacaq. Ürəyində sənə olan sonsuz sevgidən usanmayacaq, doymayacaq.

Sən ey ürəyi yuxa, qəlbi həlimdən, həlim! Qalma bizdən nigaran, rahat yat, rahat uyu, ay əziz Əvəz müəllim! Həyatda hər birimiz üçün göstərdiyin qayğı, diqqət sayəsində sənə Allahdan rəhmət diləyirik. Müqəddəs Tanrı dərgahında yerin behiştlik olsun, qəbrin nurla dolsun. Bizə əlvida demədən köçdün haqq dünyana. Heç olmasa son olaraq bu misraları biz tərəfdən vida nəğməsi kimi qəbul et, Əvəz müəllim!

Ömrü vermədin yelə,
Arxa idin bu elə.
Neçin tez köçdün belə?
Layla, ay qardaş, layla!

Qəlbi nisgilli dağıq,
Nə qədər ki, biz sağıq
Səni oxşayacağıq,
Layla, ay qardaş, layla!

Layiq idin diqqətə,
Ülvi, saf məhəbbətə.
Qovuşdun ölümünlə,
Sonsuz əbədiyyətə,
Layla, ay qardaş, layla!

Fevral, 2009-cu il

Mənola bilmədim sən

BƏLKƏ QAYIDASAN, QURBANIN OLUM

Sənsiz bir anlığa yaman darıxdım,
Bəlkə qayıdasan, qurbanın olum.
Sən gedən yollara həsrətlə baxdım,
Bəlkə qayıdasan, qurbanın olum.

Axı nə dedim ki, xətrinə dəydi,
Küskün baxışların qəddimi əydi ,
Sən dildən incidin, qəlb nə edəydi,
Bəlkə qayıdasan, qurbanın olum.

Köksümdə döyünən ürəyim dolu,
Unutmaq olarmı bu izi, yolu?
Onsuzda qısadır bu həyat yolu,
Bəlkə qayıdasan, qurbanın olum!

Baş alıb bilmirəm gedim haraya,
Gözləmə mən ölüm, gəl sən haraya.
Gəl etibar etmə zalım dünyaya,
Bəlkə qayıdasan, qurbanın olum.

Səni xatırlayıb, səni düşündüm,
Bu acı həsrətdən dondum, üşündüm.
Nə günlərə qaldım, nə günə düşdüm,
Bəlkə qayıdasan, qurbanın olum!

Bir telinə belə qıymam, mələyim,
O ki, qalmış belə xətrinə dəyim.
Firdovsiyəm, daha dözmür ürəyim,
Bəlkə qayıdasan, qurbanın olum!

AĞLAMA GÖZƏLİM, AĞLAMA GÜLÜM

Bu fani dünyadan, gəldi gedərik,
Ağlama, gözəlim, ağlama,gülüm!
Taleyi yazan var axı biz kimik,
Ağlama, gözəlim, ağlama, gülüm!

Sanma bu əzablar təkcə sənindir,
Bax, həm sənindir, həm də mənimdir,
Sənin sadiqliyin məhəbbətindir,
Ağlama, gözəlim, ağlama, gülüm!

Biri şahzadədir, biri nökərdir,
Biri qaniçəndir, biri mələkdir,
Heç kim qalan deyil, bir gün gedəndir,
Ağlama, gözəlim, ağlama, gülüm!

Qoyma mən kövrəlib, beləcə dolum,
Payız yarpağıtək saralıb, solum,
Başına dolanım, qurbanın olum,
Ağlama, gözəlim, ağlama, gülüm!

AXTARMA MƏNİ

Vüsal dağlarını boran, qar alıb,
Axtarma gözəlim, axtarma məni.
O ülvi sevgidən daha nə qalıb?
Axtarma gözəlim, axtarma məni!

Nə vaxtdı etmisən əsir, sən məni,
Niyə için-için kəsirsən məni?
Mən o mən deyiləm, neynirsən məni?
Axtarma gözəlim, axtarma məni!

Qaytara bilməzsən ötən illəri,
Həsrətdən saralıb, solan gülləri.
Barmaqla sayılan qalan günləri,
Axtarma gözəlim, axtarma məni!

Gözlərin dörd olub axtaracaqsan,
Gələndən, gedəndən hey soracaqsan.
Bir gün Firdovsisiz sən qalacaqsan,
Axtarma gözəlim, axtarma məni!

BU QIZ NƏ TEZ BÖYÜDÜ

Bir baxışdan tutulardı, dolardı,
Hər kəlməni ürəyinə salardı.
Sonra çaşqın xəyallara dalardı
Aman Allah, bu qız nə tez böyüdü?!

Açılmamış çiçək idi, gül idi,
Təravəti bağçamızı bürüdü.
Həsrətindən oxuyan bülbül idi
Aman Allah, bu qız nə tez böyüdü?!

Bulaq üstə boylanardı, baxardı,
Baxışıyla məni oda yaxardı.
Gözlərimdə sanki şimşək çaxardı
Aman Allah, bu qız nə tez böyüdü?!

Bir baxışla unutdurar dərdi də,
Tanıyardı namərdi də, mərdi də.
Gözlərində bir ayrılıq, sevgi də
Aman Allah, bu qız nə tez böyüdü?!

Bax beləcə günlər ötüb keçərdi,
Biçinçilər son zəmini biçərdi.
Vaxtı çatmış qızlar gəlin köçərdi
Aman Allah, bu qız nə tez böyüdü?!

Oda düşdü, qəlbi yandı beləcə,
Bir sevgidən alovlandı beləcə.
Gün yetişdi nişanlandı beləcə
Aman Allah, bu qız nə tez böyüdü?!

AY AĞ DƏNIZIM

İnan ki, hüsnünü görəndən bəri,
Vurğunun olmuşam, ay Ağ dənizim!
Unudub hər şeyi, hər dərdi-səri,
Sevincdən dolmuşam, ay Ağ dənizim!

Unutmaq olarmi layla səsini?
Bas məni bağrına, ver nəfəsini,
Boğma içimdəki bu həvəsimi,
Heyrətdən donmuşam, ay Ağ dənizim!

Günəş görünəntək, ürək döyünər,
Ay buna dözməyib, qoynuna enər.
Bir göz qırpımında ulduzlar sönər,
Pərişan olmuşam, ay Ağ dənizim!

Eldə gözəllərin başı sən oldun,
Altun üzüklərin qaşı sən oldun.
Ağlayan qəlbimin yaşı sən oldun
Mən sənin olmuşam, ay Ağ dənizim!

Nədən bu ayrılıq qismətim oldu?
Həsrətin sevgimin saçını yoldu.
Baş alıb getdiyim de, bu ne yoldu?
Bulud tək dolmuşam, ay Ağ dənizim!

Firdovsiyəm, ayrılığa dözməsəm,
Bir acı həsrətdən ah-nalə etsəm.
Qismət olub bu yerlərə gəlməsəm,
Bil ki, mən solmuşam, ay Ağ dənizim!

Türkiyə, 1976

AY NOVRUZGÜLÜ

Qış gəldi yolları tamam qar aldı,
Bir də görünməyin bahara qaldı.
Yollara baxmaqdan gözüm saraldı,
Bir az insaf eylə, ay Novruzgülü!

Çovğuna dözmürsən, közə dözmürsən,
Acı bir tənəli sözə dözmürsən.
Sənə tamarzıyam, bəyəm görmürsən?
Bir az insaf eylə, ay Novruzgülü!

Gəl bu sevincimi sənlə bölüm,
Sənsən yaraşığı çəmənin, çölün.
Şirin xoş avazı şeyda bülbülün,
Bir az insaf eylə, ay Novruzgülü!

Nazlanmaq peşəndir, at bu nazını,
Onsuz da yaradan yazıb yazını.
Neynirsan payızı, gözlə yazını,
Bir az insaf eylə, ay Novruzgülü!

AY QIZ

Mənim bu qəlbimi sindırmaqla sən
Belə fərəhlənib, sevinmə, ay qız!
Hərdən qürrələnib acı dillə sən
Bu eli özünə güldürmə, ay qız!

Özün alışdırıb, yandırdın məni,
Bəs necə sevməyim, gözəlim, səni.
Axı sən ovladın mənim qəlbimi
Sevgi atəşimi söndürmə, ay qiz!

İnsanın qəlbi də bir şüşədir, bil,
Sınan şüşələrsə yamanan deyil.
Bir qəlb bir şüşəyə sığınmışsa, bil
Əl saxla, sındırıb, öldürmə, ay qız!

Sənə mane olur, sındır qəlbimi,
Başqası bilərmi sənin qədrini?
Sən rəzil eyləyib yetim sevgini
Taleyi özündən küsdürmə, ay qız!

AYRILIQ

Ayrılıb getdiyim yollarda o gün,
Sanki dağlar qopub üstümə gəldi.
Sonu yetişibdi düşündüm ömrün,
Vida üçün görüş yerinə gəldim.

Sənin xəyalınla durdum üz-üzə,
Düşündüm ki, yenə əlini sıxdım.
Baxışından qəlbim od alan gözə,
Özümü qısqandım, xəlvəti baxdım.

Eşqin alovundan alışanda mən,
Sənin soyuqluğun məni üşütdü.
Tale ulduzunu gəzdim göylərdə,
Tapmadım, deyəsən yerə düşübdü.

Görüş yerimizdə heykələ döndüm,
Düşündüm çağırsam, görən gələrsən?
Özüm öz oduma alışıb, söndüm
Çətinmiş, sevəsən, sevilməyəsən.

BƏNÖVŞƏ

Könlüm qubar etdi, yenə bu gecə,
Dedi necə dözüm, belə mən necə?
Yanıb-yaxılaraq, elə-beləcə,
Təkcə səni anıb, ağlar, bənövşə!

Gör necə Muğanı, Mili yaşatmış,
Su axan yerlərdə lili qalarmış.
Sən demə, suyun da dili olarmış,
Sənə layla çalıb ağlar, bənövşə!

Gəzib yaylaqları, donan dağları,
Həsrətdən saralıb, solan bağları.
Küləyin dərd çəkib, qanan çağları,
Səni soraqlayıb, ağlar, bənövşə!

Həyatda bilməyən qədrini sənin,
İncidib, artıran dərdini sənin.
Vaxtında duymayan ətrini sənin,
Sonra yada salıb, ağlar, bənövşə!

DAĞLAR

Səndən qalan bir sevgidi,
Atma onu qana, dağlar!
Bu nə sevda, bu nə dərddi?
Doymuşam mən cana, dağlar!

Bilə-bilə çəkdiyimi,
Aldız əldən dincliyimi,
Puç eylədiz gəncliyimi
Girdiz min bir dona, dağlar!

Mən bixəbər bəxti qara,
Bu həsrətə yoxdu çara.
Qəm gölündə düşdüm dara,
Saldız məni qana, dağlar!

Dönüb bəxtin üzü məndən,
Ayırdılar sizi məndən
Eylədiniz məni məndən,
Qalın yana-yana, dağlar!

Sizin üçün tək ölən mən,
Niyə qoyduz büküləm mən.
Artıq gecdir ölürəm mən,
Çatıb ömrüm sona, dağlar!

DAŞIN DƏRDİ YADDA QALA

Mən öləndə istərəm ki,
Göz yaşların mənim ola.
Bir də bunu istərəm ki,
Gözlərimdə izim qala.
Neçə-neçə illər ötsə,
Ürəyində közüm qala.
Mən demədim sən sev məni,
Əsas budur mən sevmişəm.
Bu sevgiyə, bu atəşə
Yandığımı mən bilmişəm.
Qeys Leylasından ötrü
Məcnun olub əbədilik.
Mən istərəm səndən ötrü,
Daşa dönüm həmişəlik.
"Leyli Məcnun" əfsanəsi
İstərdim ki, yalan ola.
Sevənlərin ürəyində,
Mən tək daşın dərdi qala.

GƏRƏK DEYİLƏM

Tale üz çevirmiş qəmli bülbüləm,
Yaşayan ölüyəm, gərək deyiləm.
Çətin bundan sonra sevəm, seviləm,
Yaşayan ölüyəm, gərək deyiləm.

Uçub taleyimin qismət körpüsü,
Varmı ayrılığın həddi, ölçüsü?
Atlanan könlümün kədər yolçusu,
Yaşayan ölüyəm, gərək deyiləm.

Ayrılıq hər kəsin qədərində var,
Ağrısı, acısı ürəyində var.
Demə ki, tək mənim qismətimdə var,
Yaşayan ölüyəm, gərək deyiləm.

Demirəm həyatda gövhərəm, lələm,
Don vurmuş ağacam, kəsilən ələm.
Kədər qismətimdir, çətin ki, güləm,
Yaşayan ölüyəm, gərək deyiləm.

Donub neçə vaxtdır damarımda qan,
Daha üzülübdü bu cismimdə can.
Bəxtim gətirməyir, düşüb məndən yan,
Yaşayan ölüyəm, gərək deyiləm.

YAMAN TƏSƏLLİYƏ EHTİYACIM VAR

Yadıma düşübdür yenə o çağlar,
Yaman təsəlliyə ehtiyacım var.
Pənah gətirmişəm sizə, a dağlar,
Yaman təsəlliyə ehtiyacım var.

İllərlə sevgiyə möhtac qalanlar,
Həsrətin odunda yanıb solanlar,
Anlayar dərdimi dərdi olanlar,
Yaman təsəlliyə ehtiyacım var.

Niyə mən bu qədər qərib olmuşam?
Neçin kövrəlmişəm, neçin dolmuşam?
Sanki taleyimdən kəm doğulmuşam,
Yaman təsəlliyə ehtiyacım var.

Dərd yükünü ürəyimdən qoparın,
Demirəm ki, xəyallara aparın.
Məni bu dünyada mənə qaytarın,
Yaman təsəlliyə ehtiyacım var.

Məhəbbət sevginin arzularıdır,
Ürəyin ağrısı, acılarıdır.
Axı nə görmüşəm, ömür yarıdır,
Yaman təsəlliyə ehtiyacım var.

İçimdə ümidlər bitməsin deyə,
İnsafmı ömrümü kədər, qəm döyə?
Qoymayın ah-naləm ucalsın göyə,
Yaman təsəlliyə ehtiyacım var.

Arzularım yarpaqlar tək solmasın,
Didələrim göz yaşıyla dolmasın.
Firdovsiyəm, könlüm sizsiz olmasın,
Yaman təsəlliyə ehtiyacım var.

GERİ DÖN

Dolub boşalmağın məqam çağıdır,
Canım, dərd ortağım, getmə, geri dön!
Bizi bu dərdlərə salan yağıdır
Canım, dərd ortağım, getmə, geri dön!

Hər kəsin qisməti fələkdən gəlir,
Dağların sorağı küləkdən gəlir.
Qınama sevgimi, ürəkdən gəlir
Canım, dərd ortağım, getmə, geri dön!

Mənim son ümidim, son baharımsan,
Qənirsiz gözəlim, tacidarımsan.
Sevgi bəhərimsən, sevgi barımsan
Canım, dərd ortağım, getmə, geri dön!

Bu, vəfasız dünya kimlərə qaldı?
Laləydi, bitmişdi çöllərə qaldı.
Dərdimin əlacı illərə qaldı
Canım, dərd ortağım, getmə, geri dön!

Söylə, ayrılığın indi yerimi?
De, kimə söyləyim dərdi-sərimi?
Sənsiz bundan sonra bu can dirimi?
Canım, dərd ortağım, getmə, geri dön!

GEDİRƏM

Üz tutub yalvarsan qadir Allaha,
Bir də hüzuruna gəlmərəm daha.
Qoymaram, qoymaram qalsın sabaha
Məndə nəyin varsa qoyub, gedirəm.

Neçin inadından qala bilmirsən?!
Mənə nə vermisən, ala bilmirsən?!
Kövrəlib, mənim tək dola bilmirsən
Sənin xislətini duyub, gedirəm.

San ki, bu dünyayla yarışıram mən,
Həsrətə, möhnətə alışıram mən,
Küskün taleyimlə barışıram mən,
Ağlar gözlərimi oyub, gedirəm.

Heç bilmədin ürəyimdə nəyim var,
Güman etdin sevinc dolu gəmin var,
Düşünmədin dərya boyda qəmin var,
Daha bu dünyadan doyub, gedirəm.

İNSAF EYLƏ

Yandı bağrım közə döndü,
"Üzün məndən niyə döndü"?
Şam əriyib muma döndü,
İnsaf eylə, insaf eylə.

Ay baxışlı nazlı pəri,
Çiçəklərin təzə-təri.
Gəl qınama sevənləri,
İnsaf eylə, insaf eylə.

Sən ey gözəllərin şəni,
Gəl dolaşaq bu gülşəni.
Yad eyləyək bənövşəni,
İnsaf eylə, insaf eylə.

Bu ömrümə, bu yaşıma,
Qəmli-qəmli baxışıma.
Gəl sən qıyma göz yaşıma,
İnsaf eylə, insaf eylə.

ƏL ÇƏK DEMƏDİM

Ey ürək, bu qədər üzmə özünü,
Mən ki, bu sevdadan əl çək demədim.
Söndürmə içində yanan közünü,
Mən ki, bu sevdadan əl çək demədim.

Nədən sən ayırdın candan özünü,
Niyə kor eylədin ağlar gözünü.
Günahsız kimdir de, sən düzünü,
Mən ki, bu sevdadan əl çək demədim.

Çətin qisasını o yardan alım,
Mən sənə o canı haradan alım?
Götür bu canımı, qadasın alım,
Mən ki, bu sevdadan əl çək demədim.

MƏNƏ GÖRƏ

Toxunma bu kövrək simə,
Gülüm, gəl döz mənə görə.
Sən Allah dəymə xətrimə,
Gülüm, gəl döz mənə görə.

Sevgin qəlbdə yurd salıbsa,
Dağları duman alıbsa,
Əgər insafın qalıbsa,
Gülüm, gəl döz mənə görə.

Bir ürəyim var mənim də,
Bu ürək sənin əlində,
Səbrin olsun qoy sənin də,
Gülüm, gəl döz mənə görə.

Kövrəlib baxanda aya,
Dolub ağlaya-ağlaya,
Çağır məni sən haraya,
Gülüm, gəl döz mənə görə.

Gün gələr peşman olarsan,
Həsrətimdən sən dolarsan.
Firdovsini hey ararsan,
Gülüm, gəl döz mənə görə.

NƏ OLAR

Nədən belə fələk durub qəsdimə?!
Məni məndən soruşmayın, nə olar?
Şələlənib dərd yığılıb üstümə,
Məni məndən soruşmayın, nə olar?

Necə qıydı, bülbül qana boyana?!
Çətin ki, dərdlərə dözə, dayana.
İnanmıram , yatan bəxtim oyana,
Məni məndən soruşmayın, nə olar?

Arpa çayı aparanda Saranı,
Ürəklərə vurdu neçə yaranı.
Harda gəzək, de, axtaraq çaranı?
Məni məndən soruşmayın, nə olar?

Güman bağçasının gülü solubdu,
Duman keçmir, bulud yaman dolubdu.
Firdovsiyəm, mənə olan olubdu,
Məni məndən soruşmayın, nə olar?

NEYLƏYİM

Niyə zülm edirsən mənə, ey fələk?
Eşqsiz bu həyat nəyimə gərək?
Məni əsir edib o gözəl mələk,
Yoxdu çarə, qismət, qədər, neyləyim?!

Ürəyini oxuyuram gözündən,
Baş açmıram söhbətindən, sözündən,
Nədəndisə çox razıdır özündən,
Ürəyi saf, dili zəhər, neyləyim?!

O qara gözləri xəyala dalıb,
Nə vaxtdı əqlimi başımdan alıb.
O sağlam canımdan daha nə qalıb?
Tələşdayam, boğur qəhər, neyləyim?!

Solub həyatımın sevgi bağları,
Sağalmaz içimdə həsrət dağları.
Görən gələcəkmi xoşbəxt çağları?
Ötmür gecə, gəlmir səhər, neyləyim?!

NECƏ UNUDUM SƏNİ

Sənli keçən günləri,
O xoş xatirələri,
Ülvi, büllur sevgini
Deyirsən ki, unudum,
Unutmaq asandımı?
Barmağını kəsirsən,
Yerinə duz səpirsən.
Dözürsən göynərtiyə
Məni unutdun deyə?!
Düşünürsən asandır,
Unutmaq ötənləri?
Həyat dolu sevgini,
Sənli keçən günləri.
Çəməndə topladığım
Gülləri, çiçəkləri,
Sevə-sevə hördüyüm,
Gül-çiçək çələngini.
Yamyaşıl meşələri,
Qurtum-qurtum içdiyin,
Bumbuz çeşmə suyunu.
Məni məndən eyləyən,
O gözəl vücudunu,
Unutmaq asandımı?
Dəli etmisən məni
Necə unudum səni?

* * *

Gedəndə kəndimizə,
Tələsik mən qaçardım,
O görüş yerimizə.
Bağlanardım ürəkdən,
Bir vaxt dolaşdığımız,
O çəmənə, o düzə,
Yollarına göz dikib
Hey səni gözləyərdim,
Zərif duyğularımla,
Səni əzizləyərdim.
Sıxsa da bu qəlbimi,
Ayrılığın həsrəti
Yenə gözlərdim səni.
Sakitcə dayanaraq,
Yollarına baxardım,
Qız-gəlinin içində,
Səni hey axtarardım.
Sənə bənzər bir qızı,
Bir gözəli görəndə,
Karıxıb utanardım,
Özümü qınayardım...
Hətta soyuqdan o gün,
Yamanca üşümüşdüm,
Sənin biganəliyin
Yenə yada düşmüşdü.
Məni tənha qoyaraq,
De, hara çıxıb getdin?
Niyə ümidsiz edib,
Təzələdin dərdimi?
İçimdə baş qaldıran,
Qırdın ümidlərimi.

* * *

Ağırdı inan mənə,
Ayrılıq həsrətinə,
Qəlbin göynərtisinə,
Vicdanımın səsinə,
Vallah dözə bilmirəm.
İstəsəm də unudum
Mən unuda bilmirəm.

* * *

Mənə olan sevgini,
İçində boğmaq üçün,
Qəlbində gor qazırsan.
Sən məni yaddaşından,
Əbədi silmək üçün,
Elə bil ki, hazırsan.
İnandırıb sən məni
Sevgi adlı körpəni,
Beşiyində boğursan.
Vallah dəli olmusan.
Bu həsrəti, nisgili,
Yoxsa asan sanırsan?
Yazırsan bu fərmanı
Nədən mənim üstümə?
Yoxsa ki, sevinirsən
Atəşimə, tüstümə?!
Qorxursan ki, sevgimin,
Qarğışı tutsun səni?
Axı necə, mən necə.
Gülüm, unudum səni?
Düşünürəm yenə də
Sevə bilərdin məni.

Lakin əlvida dedin,
Mənlə olan hər şeyə
Boyun əyib taleyə,
Səni unudum deyə
Unutmaq asandımı?!
Necə unudum səni?
Necə unudum səni?

ŞƏKƏR DİLLİ NURAYIM

Allahın verdiyi nəvə payımsan,
Qaragözlü, şəkər dilli Nurayım!
Allahın verdiyi candan canımsan
Qaragözllü, səkər dilli Nurayım!

Gözəllər içində, hər an incisən,
Bu həyatdan nə küsüb, nə inci sən,
Ömrümün günümün sən sevincisən
Qaragözlü, səkər dilli Nurayım!

Dil çıxarıb niyə mənə gülürsən,
Naz eyləyib, nədən belə küsürsən?
Ağlayanda, sən babanı üzürsən
Qaragözlü, şəkər dilli Nurayım!

Qoy Allah qorusun gözəlliyini,
Xöşbəxtliyə yazsın bu taleyini,
Baban qurban versin öz ürəyini
Qaragözlü, şəkər dilli Nurayım!

SƏN OLMADINMI...

Səni şam bildilər, pərvanə məni,
Səni huri-mələk, divanə məni.
Günahsız çəkdirib divana məni
Oduna yandıran sən olmadınmı?

Yersiz bəhanəni sözümdə gördüm,
İçimdə sızlayıb, üzümdə güldüm.
Sən ki, həqiqəti gözümdə gördün,
Könlümü sındıran sən olmadınmı?

Gecə-gündüz dolanarkən başına ,
Necə qıydın gözlərimin yaşına.
Bu müqəssir qəmli baxışlarıma
Həsrəti andıran sən olmadınmı?!

Dandın, elə dandın, imanı, dini,
Mənə haram etdin ülvi sevgini
Neçin ağlar qoydun sən Firdovsini
Eşqimi donduran sən olmadınmı?!

RUHUMU ŞAD EDƏRSƏN

Doğrudanmı kiməm mən?
Sənə bir söz söyləyəm.
Heç insafmı könlünün
Budağını de, əyəm?
Hərdən də hirsləndirib
Ürəyinə hökm edəm.
Səni sevdiyim üçün,
Gözünə görünmərəm.
Sənin məhəbbətini,
Ürəyimdən üzmərəm.
Qolların ağrıyırsa,
Ürəyimlə əvəz et.
Ürəyin ağrıyırsa,
Al canımı rahat et.
Onsuz da əriyirəm,
Biganəlik əlindən.
Qorxuram nakam gedəm
Səni xoşbəxt görmədən.
Sonralar xoşbəxt olub
Həyatında sevinsən,
O sevginin xətrinə,
Qəbiristana gələrsən.
Məzarımın önündə,
Bir anlıq diz çökərsən.
O xumar gözlərindən
Göz yaşları tökərsən.
Hələ də səni sevən,
Ruhumu şad edərsən.
Firdovsi Cəfərxanı
Beləcə yad edərsən.

YALAN DÜNYA KİMƏ QALAR

Ömür ötüb yaşa dolar,
Yalan dünya kimə qalar?!
Göz ağlayıb yaşla dolar,
Yalan dünya kimə qalar?!

Gəl qınama bu dünyanı ,
Gedən getdi, qalan hanı?
Biz itirdik haqqı-sanı,
Yalan dünya kimə qalar?!

Hər sözünə deyirəm can,
Yaşa Vətən — Azərbaycan!
İncitdilər səni yaman,
Yalan dünya kimə qalar?!

Ürək yanar, göz ağlayar,
Dodağımda söz ağlayar.
Ocaq sönər, köz ağlayar,
Yalan dünya kimə qalar?!

Haray salıb çəkirsən car,
Mərdin haqqın namərd alar.
Ay Firdovsi, sənə nə var
Yalan dünya kimə qalar?

YANAN OLMUŞAM

Yenə də könlümü boran qar alıb,
Vücudum həsrətdən solub, saralıb,
Vallah gözləməkdən səbrim daralıb,
Həsrətdən alışıb yanan olmuşam.

Gözüm güldandakı güllərə baxır,
Göz yaşım durmadan sel kimi axır,
Bu yazıq ürəyim dözmür, darıxır,
Heyrətdən alışıb yanan olmuşam.

Deyirdim qəlbindən atıbsan məni,
Nə vaxtsa səhv edib tapıbsan məni,
Danıbsan sevgimi, danıbsan məni,
Minnətdən alışıb yanan olmuşam.

Sən yoxsan, çiçəkli bağa girmirəm,
İçimdə qəhəri boğa bilmirəm,
Buludtək dolmuşam, yağa bilmirəm,
Möhnətdən alışıb yanan olmuşam.

Mən niyə beləyəm, ya rəbb, bilmirəm,
Mənə zülm edirlər, susub dinmirəm,
Bir ürək dolusu heç sevinmirəm,
Zillətdən alışıb yanan olmuşam.

YANAR ÜRƏYİM

Sənsiz sənlənəyəm, kədərim çoxdu,
Hicran soyuğundan donar ürəyim.
Harda olursansa ol, fərqi yoxdur,
Gülüm, hər an səni anar ürəyim!

Sənsiz xəstəyəm mən, axı kim bilir?
Gözlərim yaş tökür, əllərim silir.
Səni sevdiyimi bütün el bilir,
Atəşdən alışıb yanar ürəyim!

Gözlərim gözünün qurbanı olub,
Sevgi karvanının sarvanı olub.
Məhəbbət bağının gülləri solub,
Heyif səndən düşüb kənar ürəyim!

YAŞAMAĞA DƏYƏRMİ

Acıları çəkə-çəkə yaşadım,
Yaşamağa bundan belə dəyərmi?
Olan olmuş, daha gecdir, anladım,
Yaşamağa bundan belə dəyərmi?

İllər ötdü, zaman keçdi, bilmədik,
Dərdi bölüb bir araya gəlmədik.
İçimizdən keçənləri görmədik,
Yaşamağa bundan belə dəyərmi?

Bu halal ömrümü sən etdin haram,
Unutdun ki, sənin üçün mən varam.
İçərimdə necə sızlayır yaram,
Yaşamağa bundan belə dəyərmi?

Sən heç çəkdiyimə vermədin dəyər,
Qorxmadın tənhalıq qəddimi əyər.
Bir anda ürəyim dərddən əriyər,
Yaşamağa bundan belə dəyərmi?

Bax beləcə ömür keçdi, gün keçdi,
Ümidlə yaşamaq onsuz da gecdi.
Mənim yaşamağım vallah bir heçdi,
Yaşamağa bundan belə dəyərmi?

MƏN OLA BİLMƏDİM SƏN DEYƏN KİMİ

Həsrəti könlümə yığıb gedirəm,
Sevgi sarayımı yıxıb gedirəm.
Daha həyatından çıxıb gedirəm
Mən ola bilmədim sən deyən kimi.

İlahi, bu sitəm bilmədim nəydi,
Məni kədər əydi, məni qəm əydi.
Sənin soyuqluğun qəlbimə dəydi
Mən ola bilmədim sən deyən kimi.

Göz yaşım sel oldu, axdı beləcə,
Şimşəklər başımda çaxdı beləcə.
Hey məni yandırıb yaxdı beləcə
Mən ola bilmədim sən deyən kimi.

Nə qədər ömrümü eyləyim fəda?
Bu ülvi sevgini sən verdin bada.
Məni düşünmədin, salmadın yada
Mən ola bilmədim sən deyən kimi.

Firdovsi beləcə köçür dünyadan,
Məni bundan sonra nə düşün, nə an.
Demirəm.., demirəm taleyimə yan
Mən ola bilmədim sən deyən kimi.

BİR BƏNDLİK ŞEİRLƏR

Ey dünya, sirrini bilən yox hələ,
Dost olub dərdini bilən yox hələ.
Vaxtsız bu dünyadan köçən insanın
Vaxtında qədrini bilən yox hələ.

* * *

Siz deyin, qismətdən keçmək olarmı?
Əkməsən zəmini biçmək olarmı?
Sənə uzadılan o qızıl badə
Ürəkdən deyilsə, içmək olarmı?

* * *

Dinlə ürəyimi, ay ömrüm-günüm,
Başına dolanım, başına dönüm.
İsti əllərinin hərarətini
Məndən ayırmasın heç zaman ölüm.

* * *

Bir baxışla bir ürəyi rahat etdin,
Can verərəkən dünya boyda həyat verdin.
Bəs nə üçün sevinc dolu həyatımı
Həsrət adlı göz yaşıyla əvəz etdin?

* * *

İnsanı valeh edən,
Səma gözəl olsa da,
Gözəlliyin itirər
Ulduzlar olmyanda.
Varım, dövlətim ola,
Güzəranın xoş keçə.
Ürəyim xəstə olar
Bil ki, sən olmayanda.

TALEYİMDƏN QORXURAM

Mənim qorxum səndən deyil, gözəlim,
Üzü dönmüş taleyimdən qorxuram.
Haqqa uzanılı qalsada əlim
Üzü dönmüş taleyimdən qorxuram.

Bu ürəyim nə sevindi, nə güldü,
Dolan gözlər gilələnib süzüldü,
Son ümidim, son qismətim üzüldü,
Üzü dönmüş taleyimdən qorxuram.

Ömür ötüb çatdı əlli yaşıma,
Dərd qarışdı gözlərimin yaşına.
Dəli sevda hardan gəldi başıma,
Üzü dönmüş taleyimdən qorxuram.

İllər necə gəlib keçdi bilmədim,
Dərdlərimi bir kimsəylə bölmədim,
Aman Allah, daha nələr görmədim?!
Üzü dönmüş taleyimdən qorxuram.

Tab gətirməz məşəqqətə hər sinə,
Mən çox dözdüm bu həyatın dərsinə...
Nə düşündüm, dönüb oldu tərsinə,
Üzü dönmüş taleyimdən qorxuram.

KÖNLÜM

Dərdindən olmuşam xəstə,
Göz yollarda, qulaq səsdə,
Üzülürəm mən ahəstə,
Yaman düşüb dərdə könlüm.

Tükənib səbrim, daralıb,
Həsrət içimdə yurd salıb,
Canımı atəş, od alıb
Yaman düşüb dərdə könlüm.

Deyirdin ki, birtəhər döz,
Harda qaldı verdiyin söz?
Ürəyimi etdin köz-köz,
Yaman düşüb dərdə könlüm.

Yolumuz olmayıb yarı,
Pozma bu əhdi, ilqarı.
Ömür keçir, qayıt barı...
Yaman düşüb dərdə könlüm.

Bağrım dönüb kaman, neyə,
Ahım sığmır yerə, göyə.
Gəl rəhm eylə Firdovsiyə
Yaman düşüb dərdə könlüm.

ÖMÜR VƏFA ETSƏYDİ...

Ömür vəfa etmədi. Nə qədər ürəyimizdə yığılıb qalan sözlər, gözlərimizin aynasında dolub qalan həqiqətlər qaldı...

Bu dünyadan elə beləcə, səssiz-səmirsiz köçəcəm. Nə edim ki, içərimdən keçənləri duyan olmadı. Yandım, atəşimi görən olmadı. Bir ilahi sevgiylə belə, sevənim olmadı.

Demirəm köçdüm bu dünyadan doymadım, xeyr, sadəcə, tanrının verdiyi qisməti yaşaya bilmədim. Bir baxın, əzəli və sonu görünməyən bu haqq yolundan keçmək hər birimizin qismətinə yalnız bir dəfə düşür. Hər kəs bilir ki, bu yolun ikinci tərəfi yoxdur. Əgər belədirsə, niyə o paklığa, layiq ola biləscək sevgilərimizə dönük çıxırıq? Nədən bir-birimizin ömrünü uzadıb yaşada bilmirik? Nədən dərdi verib, ömrümüzü çürüdürük. Ona görə də sonda bir-birimizi kimsəsiz, tənha qoyuruq? Niyə? Nə üçün? Nədən? Bir eqoizmə görəmi? Heyf! Heç əlimizin istisini belə bölə bilmədik. Heyif! Tək bir addım, yalnız qarşılıqlı bir addım qabağa ata bilsəydik, illərlə küsən ruhumuz qayıdıb rahat olardı, ürəklərimizdə solub qalan sevgilərimiz baş qaldırar, çiçək açardı, eşqin səltənəti varlığını sübut edərdi.

Onda düşünərdik, bundan sonra yaşamağa dəyərmi? Əlbəttə! Yalnız, olanlardan sonra ömür vəfa etsəydi...

NƏ, YAXŞI Kİ, SƏN VARSAN...

Elə bilirdim dünyanın sonudur. Nəfəsim tutulur, ürəyim az qala dayanacaqdır. Düşünürdüm ki, yəqin sevgimi sənə isbat edə bilməmişəm. Özümü günahkar, sevgimi isə ata-anadan yetim qalmış körpəyə bənzədirdim. Biləsən ki, bu səsli-küylü dünyada necə səssiz olmuşam? Səninlə ancaq içimdə söhbət edirəm. Heyif ki, sənə olan iradlarımdan xəbərin olmayacaqdır. Düzü ,səndən çox incimişəm, hətta deyərdim bir az da küsmüşəm. Düşünmə ki, mənə olan soyuqluğundan usanmışam. Əsla, yox. Sən soyuq bir buz heykəl olsan belə, yenə səni seçərdim, həyatım! Nə olsun ki, bir az dilli, bir az ərköyün, bir az da səbirsizsən. İnan ki, mən səni elə-beləcə sevmişəm, olduğun kimi. Biləsən ki, sevgilim, səndən çəkdiyim zülmlərdən necə məmnunam. Yazan belə yazıb. Qismətimdən çox razıyam, şükürlər olsun.

Nə yaxşı ki, sən varsan! Bu həyatda arzuladığım o ülvi sevgimi, həyatımın və yaşamağımın mənasını da səndə tapmışam, sevgilim. Yetər ki, sən xoşbəxt ol. Sənin varlığın mənim üçün hər şeydir. Aldığım hava da, içdiyim su da, döyünən ürəyim də, düşünən beynim də, hətta bu zavallı canım da sənsən, sevgilim.

Nə yaxşı ki, sən varsan! Mənim idealım, ilahi sevgim, qibləgahım sənsən. Heyif ki, sənə olan sevgimdən içiniçin yandığımı görməyəcəksən. Sənə səcdə edən təmənnasız sevgimi duymayacaqsan. Çat-çat olub qaysaqlanmış dodağımdan axan qanı silməyəcəksən. Dözməyib həsrətdən axan göz yaşlarımı görməyəcəksən. Canımı yolunda fəda edib, ruhumu sənə əmanət etdiyimi bil-

məyəcəksən. Beləcə öləcəm, heç üzümü görməyəcəksən.

Yadında saxla, sevginə layiq, özünə tay olmasam da səni layiqincə, təmənnasız sevən bir kövrək ürəyim var. O ürək ki, əllərinlə qəfəsə atıb bir dəfəlik susdurmusan. Hərdən qorxa-qorxa sənə baxan gözlərim bu yazıq ürəyimə can, yaralı qəlbimə məlhəm istəyir. Eşit! Ey yaşayan ölüyə can verən insan! Nə yaxşı ki, nə yaxşı ki, sən varsan!

ANASIZ GÖRMƏYƏY-DIM, ANALI DÜNYAMIZI

* * *

Zülmətə qərq olmuş bir gecədir. Yalquzağın və küləyin səsi olmasaydı, sanki sakitlik bir qorxu, bir həyəcandan xəbər verirdi. Bu an bir gənc qadın yaxındakı meşənin kənarına gələrək qucağındakı körpənin ağlamağına məhəl qoymayaraq onu ağacın altına qoydu.

"Həsrətdən qorxaraq saçından tutan ana körpəsinin əlini açdı, insafsız bir tərzdə torpağa atdı, arxaya baxmadan tez uzaqlaşdı.

Gecə keçmir, qorxurdumu bilmirəm, səhər olmur, qorxurdumu bilmirəm, hər ikisi şahidlikdən qorxurdumu bilmirəm. Gecə bir ah çəkib, dedi: — Nə etsin, qatil bir anaya yazıq nə desin, o dahi sayılan ana adını ucuz tutanlara artıq nə desin? Səhər görürdü ki, gecə ağlayır, zalım dərd əlindən necə ağrıyır, ona əl uzadıb atılan körpə ana əvəzində ümid bağlayır."

Ağlım kəsəndən, gözlərim işığı seçəndən anam məni atsa da mən onu unutmadım. Heç zaman görməsəm də hər zaman içimdə yaşatdım. Həmişə düşünmüşəm ki, mənim anam nurlu, bütün analardan seçilən xanımdır. Onun uca boyu, ağ bənizi, uzun saçları var.

Bir gün sevdiyim qız anamın onlara nə zaman elçi gələcəyini soruşanda mən kövrəlib onun gələ bilməyəcəyini söylədim. Səbəbini soruşanda pıçıltı ilə, üzülə-üzülə mən doğulanda anam canını mənə tapşırıb — deyə ona bu dünyadan köçdüyünü, müqəddəs yalanımı söylədim.

Mən sevdiyim o gözəldən, indiki həyat yoldaşımdan mənə həm ana, həm bacı, həm də ömür yoldaşı olmağını ummuşam...

Yüzdən çox ana şəkli çəkmişəm. Ancaq nədənsə mən özümü onların yanında boynubükük, nisgilli görürəm.

Bəlkə də qorxuram ki, ürəyimdən keçən uydurduqlarım yalan olar. Ana rəsmlərinin içində ən gözəlini, yaraşıqlısını, "anam bildiyimi" öz otağımda divardan asmışam. Hətta uşaqlarıma nənələri haqqında fəxrlə nələr danışmamışam. Ana adını layiqincə göylərə ucaltmışam. Heyif ki, mənim hisslərimdən, ona olan sevgimdən xəbəri olmayacaq, yaşadıqlarımı isə heç zaman duymayacaqdır.

Beləcə mən körpəliyimdən qanadları sınmış bir quşam. Uçmaq istəsəm də uça bilməmişəm. Yüksəkliklərdən qorxmuşam, oraya heç zaman qalxmamışam ki, yıxılsam, qurtaracaq kimsəm yoxdur.

Ana sevgisindən, nəvazişindən danışılan məclislərdən uzaq oluram. Qorxuram ki, bu yaşımda da anasızlıqdan əzab çəkdiyimi hiss edərlər, həyatda olan ana sevgisini deyil, uydurduğum ana sevgisini yaşadığımı duyarlar.

Hara getsəm də, harada olsam da gözlərim anamı axtarır. Bu həsrət məni içimdən söküb-dağıdır. Neyləyim ki, Allah məni belə həssas yaradıb. Özümlə bacarmıram.

İstəyərdim ki, anasızlıqdan bütün anaların qarşısında od vurub özümü yandıraydım, onlara çatdıraydım ki, heç bir ana heç zaman körpəsini atmaq fikrinə düşməsin. Bilsinlər ki, anasız körpə heç vaxt xoşbəxt ola bilməz. Bəli, bunu unutmasınlar!..

Bir məclisdə qonaq oldum,
Çoxunu ziyalı gördüm.
Bir nəfərlə tanış oldum,
Xoş deyildi halı, gördüm.

* * *

Buludtək dolmuşdu gözü,
Dilində donmuşdu sözü.
Marağım güc gəldi, düzü,
Dərdin nədir? — deyə sordum.

* * *

Dedi: — «Qardaş, soruşma gəl,
Dərdim, qəmim ərşə çatıb.
Mən anadan olduğum gün,
Anam məni çölə atıb.

* * *

Canı canından olan,
Öz ciyər parasını
Axı nə üçün atsın?
Günaha niyə batsın?
Yoxsa ki, bu həyatda
Tale üzə gülməyib?
Sevgisi daşa dəyib?
Onu nə məcbur edib?
Düz doqquz ay bətnində
Gəzdirdiyi körpəyə
Can verib, həyat verib.
Nədir mənim günahım?
Ucalıb göyə ahım.
Axı mən də insanam,
Qismətim, taleyim var.
Tanrı yazıb yazımı,
Bütün cümlə cahantək,
Mənim də Allahım var.

Acı düşüncələrdən,
Yorulmuşam inanın.
Dərdim güc gəlir mənə,
Görənlər edir tənə.
Daha yoxdur taqətim,
Sıxır məni həsrətim.
Soyuq bir qış gecəsi,
Dalaraq xəyallara,
Beləcə düşünürəm.
Bu dərddən üşünürəm.
Bu bir yuxu olaydı,
Bir yalquzaq səsindən,
Kaş hamı oyanaydı.
Qəlbim qanla dolaydı.
Nəfəsim tutulaydı,
Ancaq o məzlum körpə,
Kaş ki, doğulmayaydı.

* * *

Böyüdüm yadlar əlində,
Kimsəsizlik məni əzdi.
Hara getdim, harda oldum,
Gözlərim anamı gəzdi.

* * *

Ana deyib haray çəkdim,
Ömrüm-günüm oldu hədər.
Qurumurdu göz yaşlarım,
Məni məndən aldı kədər.
Kösöv kimi qovrularaq
Külə döndüm için-için.
Artıq həyat mənasını

İtirirdi mənim üçün.
İndi özüm də atayam,
Kimsəsizlərə arxayam.

* * *

Lakin yenə gülmür üzüm,
Harda oluramsa olum,
Anamı axtarır gözüm,
Bu dərddi qəlbimi oyan,
Heç bir şeylə ovunmayan.

* * *

Bax beləcə hər vaxt, hər an.
Anasızlıq məni əyir.
Adi kəlmə, adi söz də,
Yamanca xətrimə dəyir,
Könlüm anamı istəyir.
Aman Allah, ürəyimdə
Gör nə qədər ahım var.
Mənə anamı verin
Bilim qibləgahım var.

* * *

Götürün gözlərimi
Ondan əziz nəyim var.
Mənə anamı verin,
Ayrı nə diləyim var.

* * *

İlahi, axı nədir
Görən mənim günahım?
Anamdır, ancaq anam

Son ümidim, pənahım.
Bircə dəfə baş qoyum,
Dizlərinin üstünə.
Heç olmasa bir anlıq,
İsinim istisinə.
İllərlə darıxdığım
Bir ana nəfəsinə,
Bir ana laylasına,
Yaman ehtiyacım var,
Bilirsənmi qəlbimdə,
Neçə ağrım, acım var?!»

* * *

Dedi, doldu gözləri,
Titrəyirdi dizləri.
Məni məndən etmişdi,
Söylədiyi sözləri.

* * *

Xatırladım bir anlıq,
Mən öz körpəliyimi.
Anamçün qəribsədim
Çoxaldı sanki dərdim.
Tab etmədi ürəyim,
Tələsdim, evimizə,
Qayıtdım bir nəfəsə.
Qucaqlayıb anamı,
Danışdım olanları.
Görməsəm də üzünü,
Bilməsəm də adını,
Qınadım özlüyümdə
Qınadım o qadını.

* * *

Çoxları elə bilir,
Körpə doğub, böyütmək
Həyatda asan olur.
Körpə böyütməyənlər,
Elə bilir körpəni
İtirmək asan olur.
Ev deyil ki tikəsən,
Ağac deyil əkəsən,
Naşı bağbanlar kimi,
Bar verməmiş kəsəsən.

* * *

Bir ana atarsa,
Körpə balasın.
Onda itirməzmi
Həyat mənasın?!
Quş da quşluğuyla
Atmaz balasın!

* * *

Allahım, körpəni
Atmaq olarmı?
İtirdin o canı
Tapmaq olarmı?
Özgə ocağından
Köz götürməklə
O közün oduna
Qızmaq olarmı?

* * *

Bəxş olunan incidir.
Çoxları həsrətində
Ailə sevincidir.
Vardısa qismətində

* * *

Sığal çəkdi saçıma.
Şərik oldu acıma.
Atamın yadigarı
Mənim ağbirçək anam,
Gül anam, çiçək anam.
Dedi: — «Oğul, uşaqsan,
Yaşamaq deyil asan.
Nə olsun ki, babasan,
Bu həyatda çox şeyi
Bilməyirsən sən hələ.
Analar körpəsini,
Atmaz heç zaman çölə.
Tanımadığın kəsi
Qınama, nə bilirsən,
Uşaq doğulan zaman
Bəlkə ölüb anası,
Hər şeyə gəlir güman,
Dünya gidi dünyadı.
Hər cürə oyunu var,
Hər şey sirri-xudadı,
Qurdu var, qoyunu var.
Odur ki, gəl özünü
Bu qədər üzmə, bala.
Düşüncələr içində,
Düşmə belə xəyala.

Get o dostunu gətir,
Olum onun anası,
Sevgim ona da yetər,
Daralmasın dünyası!»

* * *

Dən düşən saçlarıma
Anam baxıb ah çəkdi,
Düşündüm ki, getməsəm,
Anam inciyəcəkdi.
Gedim gətirim deyə
Ana dərdi olanı,
Bəlkə hər ikimizə,
Anam desin laylanı.

* * *

Beləcə çimir etdim,
O gecəni bir təhər.
Fikir, xəyal içində,
Durdum, ertədən səhər.
Gedib tapdım o şəxsi,
Yenə əvvəlki kimi
Titrəyirdi hey səsi.
Anamın dediklərin
Danışdım ona bir-bir.
Sözlərim o dostuma
Yaman etmişdi təsir.
Bir doğma qardaş kimi,
Boynumu qucaqladı.
Qapılıb aləminə
İçin-için ağladı.

* * *

O gündən illər ötür,
Düşünürəm hey onu.
Hər gün, hər an, hər saat,
Lakin yenə nədənsə,
Narahatam, narahat.
Bir səs gəlir içimdən,
Deyirəm kaş həyatda
Anasız görməyəydim,
Bir oğulu, bir qızı.
Anasız görməyəydim,
Analı dünyamızı,
Analı dünyamızı!

Publisistika

ZƏLİMXAN ÖMRÜ

Sevmək-fəzilət,
Sevilmək-xoşbəxtlikdir
L.Tolstoy

Bəzən həyatda elə adamlar olur ki, onların yaşayış tarixini yazmaq üçün bütöv bir xalqın, bir ölkənin tarixini yazmaq lazım gəlir. **(C.Cabbarlı)**



Bütün türk dünyasınınıtanınmış oğlu, Azərbaycanın xalq şairi Zəlimxan Yaqub da məhz belə xoşbəxt insanlardadır. Xoşbəxtlik isə zirvəyə aparan yolun üstündədir. Bəli, bu gün Zəlimxan ömrü bir zirvədə qərar tutmuşdur. Hörmətli şairimiz yaşadığı ömrün müəyyən zaman kəsiyində olanlardan təsirlənərək "Bir əli torpaqda, bir əli haqda" kitabında yazır: "1994-1996-cı illər mənim taleyimə türk dünyasını, İslam aləmini, qoca Şərqin müqəddəs yerlərini görmək və duymaq xoşbəxtliyini nəsib elədi. Elə bir xoşbəxtlik ki, bəlkə də onu bir insan ömrünə sığışdırmaq qeyri-mümkündür. Bu görgötür dünyasında gördüyümü götürdüm, duyduğumu yazdım, düşüncələrimi kağıza köçürdüm.

Borçalı mahalından, Bolnis-Kəpənəkçidən başlanan yollar Bakıdan keçdi, Altay dağlarına qədər uzandı, Tyan-Şan meşələrinə qalxdı, Alma-Atanın seyrinə çıxdı, İstanbula qovuşdu, Təbrizə, Tehrana yetişdi. Pekin-

dən, Şanxaydan keçdi, Çin səddindən aşdı, Məkkəni, Mədinəni, Ciddəni dolaşdı. "Manas" dastanının min yaşından keçdi, qırğız torpağını qucaqladı, Avropaya pəncərə açdı. Almaniyanın ilahi səliqə-səhmanınına, Tanrı gözəlliyinə malik olan yollarına birləşdi, axırda yenə gəlib Kəpənəkçiyə — Borçalıya-Bakıya qovuşdu."

Hərdən düşünürəm bu böyük türk oğlunda bu boyda ürək, təkrarsız zəka hardandır? Zəlimxan ürəyi elə-belə yaşamır, sevərək yaşayır və yaradır. Yaratdıqlarında da ilahi sevginin xoş nəfəsi, insan qəlbinin çırpıntıları duyulur. Onun elə bir misrası, elə bir kəlməsi yoxdur ki, bizi paklığa, səmimiyyətə, qeyrətə, vətən harayına, İlahi sevgiyə səsləməsin. Şairin "Bu sazımdı" şerində:

Bu sazdımı, ovsundumu,
Telə bax Allah, telə bax!
Pərdə üstə dalğalanan
Tülə bax Allah, tülə bax!

Bir dəlisov atdı yenə,
Haqqa çataçatdı yenə,
Yeri göyə qatdı yenə,
Zilə bax Allah, zilə bax!

Uçan dağım, dərəm oldu,
Yanan bəndim, bərəm oldu,
Mahmud döndü Kərəm oldu,
Külə bax Allah, külə bax!

Nəfsi təzə, nəğməsi tər,
Xan Əslinin düyməsi zər.
Açılıbdı gümüş kəmər,
Belə bax Allah, belə bax!

Ürəyimi qan eləyən,
Bağrımı şan-şan eləyən,
Məni Zəlimxan eyləyən
Elə bax Allah, elə bax!

Böyük şairimizin şeir-sənət yaradıcılığında ilahidən gələn səslərin tərənnümü duyulur. Zaman gələcək Zəlimxan fenomeni çoxlarını düşündürəcəkdir. Onun yaradıcılığında böyük Şərqin fəlsəfi dünyası geniş yer tutur. Müasir fəlsəfi fikir qarşısındakı xidmətləri ancaq geniş dil meydanının yaradılması ilə məhdudlaşmır. Yaratdığı meydanda ilk böyük abidələrin də müəllifi onun özüdür. Belə ki, Ulu Öndərimiz Heydər Əliyevə həsr olunmuş "Böyük ömrün dastanı" poemasından bəzi məqamlarını diqqətinizə çatdırıram.

Yemək istəyəndə çox,
yeyilməyə qoymadın,
Döymək istəyəndə çox,
döyülməyə qoymadın,
Sanki bu məmləkəti
əyilməyə qoymadın,

Yaşa Heydər varlığı
yaşa Heydər İnamı!

Başqa bir yerində:

Türbənə, heykəlinə,
qəbrinə baş əyirəm,
Elə bu sevgiylə də
Adı səninlə bağlı

Gücüm nəyə çatırsa
Yaratmaq istəyirəm,
yaşatmaq istəyirəm.
Çox "Dostlar" tanıyıb
çıxartmışam sınaqdan,
Dünən yaxın olanlar,
bu gün baxır uzaqdan.
Ürəyimə, qəlbimə,
Səndən əziz vəfalı,
Səndən yaxın Dost hanı?
Hələ nöqtə qoymuram,
Hələ davam edəcək
Böyük Ömrün Dastanı!!!

Əlbəttə, bu gün böyük şeir-sənət ordusunun sərkərdəsi Zəlimxan Yaqub haqqında layiqli söz demək üçün yalnız bu sərkərdənin yazıb-yaratdıqlarına müraciət etmək məcburiyyətindəyik. İnsanlığı kamil, mayası halal, ləyaqəti uca, şəxsiyyəti bütöv, ürəyi dünyalar qədər geniş, zaman-zaman böyük Türk dünyasında silinməz izlər buraxan, olmuşları, olanları və olacaqları ürəyinin süzgəcindən keçirən böyük və təkrarsız şairimiz Zəlimxan Yaqub 60 ilə layiq şərəfli bir ömür yolu keçmişdir.

ZƏLİMXAN ÖMRÜ

Hər an uzanıdı haqqa əlləri,
Böyük bir dastandır Zəlimxan ömrü.
Tarixə döndərdi ötən illəri,
Böyük bir dastandır Zəlimxan ömrü.

Heydər dühasını elə yayıbdır,
Paklıqdan, saflıqdan o yarıyıbdı.
Haqqı, ədaləti hey arayıbdı,
Böyük bir dastandır Zəlimxan ömrü.

Şəhidlər məzarı inamı, andı,
Vətənçün alışdı, vətənçün yandı.
İlahi sevgisin torpağı sandı,
Böyük bir dastandır Zəlimxan ömrü.

Ömür yollarında çox olub, bürkü,
Onunçün heç nədir, hər qorxu, hürkü.
Daim uca tutub o Ulu Türkü,
Böyük bir dastandır Zəlimxan ömrü.

Sözdən çələng hördü, tutdu çıraq da,
Heç vaxt dayanmadı, xalqdan qıraqda.
"Bir əli torpaqda, bir əli haqda"
Böyük bir dastandır Zəlimxan ömrü.

Yanvar 2009-cu il

SƏHNƏMİZİN SÖNMƏZ ULDUZU

Ulu tanrının yaratdığı ilahi gözəllikləri hələ heç bir rəssam olduğu kimi təsvir edə bilməmişdir. Bu gözəlliklərin içində gecələrin ayrı bir gözəlliyi olur, hər tərəf qaranlığa qərq olanda göyün üzünə səpələnmiş sayrışan ulduzların işığında təbiət bambaşqa görünür. Gündüzlərdən qaçıb gizlənən gecə quşları, işıldayan böcəklər, axan çayların şırıltısı bu gecələrin şəninə nəğmə qoşar, hərəsi öz avazıyla şirin-şirin oxuyarlar. Lakin dan yeri söküləndə, bu aləm yavaş-yavaş susar, ulduzlar sanki bir karvana dönüb, sonsuzluğa üz tutub, orada qeybə çəkilərlər. Səmada öz parlaqlığı ilə hər zaman diqqəti çəkən dan ulduzu sanki günəşin özündən yaranmışdır. Onu hətta günəşli gündüzün özündə belə axtarsan tapa bilərsən. Adama elə gəlir ki, bu ulduz heç zaman sönməyəcəkdir...

Azərbaycan müstəqilliyə qədəm qoyduğu bir zamanlarda milli mədəniyyətimizin intibahı adlanan dövrlərdə səhnəmizdə sönməz bir ulduz parladı. Bu ulduz bir günəşdən od almış, milli musiqimizin uzunmüddətli gələcəyinə işıq saça biləcək sönməz Fidan xanım Hacıyeva idi.

Özünəməxsus səs diapozonuna malik olan Fidan xanım Şərq musiqisi ilə Qərb musiqisini birləşdirərək musiqi mədəniyyətinə yeni üslub gətirmişdir. Bu üslub muğam, estrada, xalq mahnılarıyla bərabər, dünya musiqi mədəniyyətinə öz dəyərli töhfələrini vermiş dahi bəstəkarların yazdığı ölməz əsərləri özünəməxsus tərzdə, yüksək peşəkarlıqla ifa etməsidir. Sənətə daxilən bağlılığı ona bu sahədə ilham və istiqamət vermişdir.

Sənətə bağlılıq da insana bağlılıq kimidir, asanlıqla qopmaq uzaqlaşmaq, unutmaq olmur. Əgər insan yaradıcıdırsa düşdüyü mühitdən asılı olmayaraq o, öz daxili potensialını üzə çıxarmaq üçün məqam, imkan tapacaqdır.

Fidan Hacıyeva Bakı şəhərində dünyaya göz açmışdır. Körpəlikdən təbiətə, zərifliyə, insani duyğulara həssas olan balaca Fidan, öz daxili təmizliyi, səmimiyyəti və sadəliyi ilə özünü insanlara sevdirə bilmişdir. Haqsızlıqla heç zaman barışmayan Fidan xanım həmişə haqq işinə dəstək olmağa çalışmışdır. Ona görə də həyatda qazandığı nə varsa öz səmimiyyəti, sevgisi və zəhməti hesabına nail olmuşdur. Qazandığı uğurların əsasını doğma vətəninə, müqəddəs torpağına olan sevgidə tapmışdır. Bir vətəndaş olaraq xarici ölkələrə dəvət alanda, Azərbaycanın adını yüksəkliklərə qaldırılmasından ötrü bütün səylərini və bacarığını sərf etmişdir. Bundan başqa Fidan xanım harada olursa olsun azərbaycanlı olmağı ilə, bu milləti tərənnüm etməyi ilə hər zaman qürur duymuşdur. O, vətəninə layiq övlad, gözəl xanım, iki övladı üçün əvəzedilməz anadır. Qızı Xəyalənin 5, oğlu Davudun 3 yaşı var. Həyat yoldaşı ona həyatda həm dost, həm də sənətdə böyük dəstəkdir.

Fidan xanım Hacıyeva əldə etdiyi nailiyyətlərə və ya-

ratdığı obrazlara görə Azərbaycan Respublikasının Əməkdar Artisti fəxri adına layiq görülmüşdür. O, Ü.Hacıbəyovun "Koroğlu" operasında Xanəndə qız, "Arşın mal alan"da Asya, F.Əmirovun "Sevil" operasında Gülüş, dünya opera səhnəsi incilərindən Bizenin "Karmen" operasında Karmen, Cüzeppe Verdinin "Aida" operasında Amneris, "Trubadur" operasında Azuçino kimi təkrarolunmaz rollar yaradaraq opera sənətində silinməz iz buraxmışdır.

Uzun illərdir Opera və Balet Teatrının solistidir.

Fidan xanımın növbəti solo konserti bu günlərdə Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin dəstəyi ilə baş tutmuşdur. Fidan xanım üçün — Azərbaycan "Karmen"i üçün onun pərəstişkarları çox darıxmışdılar. Hətta, Türkiyənin Azərbaycandakı səfiri, nazirlər, Milli Məclisin deputatları, adlı-sanlı musiqiçilər və digər qonaqlar konsertə təşrif buyurmuşdular. Demək olar ki, teatr ağzına qədər dolmuşdur. Hamı həyəcan içərisindədir. Onun təkrarolunmaz səsi, səhnəyə yaraşan gözəlliyi, ariya və xalq mahnıları üçün çox darıxmışdılar. Konsertin gənc aparıcısı nəhayət ki, səhnəyə çıxır:

— Salam, axşamınız xeyir əziz tamaşıçılar, əziz Fidan sevərlər! Xoş gəlmisiniz!..

Sonra bu axşamkı konsertin gündəliyi açıqlanır. Birbirindən rəngarəng çıxışlar sanki tamaşaçıları nağıllar aləminə, qeyri-adi bir dünyaya — o dünya ki, insanların ruhları burada məmnun-məmnun gəzib dolaşır. Bura Fidan xanımın dünyasıdır. Burada elə bil hamı sehirlənib, ömür yollarından qalan xatirələrə dalaraq bir az da kövrəliblər. İllərlə küsüb gedən ruhumuz elə bil ki, ağlaya-ağlaya özümüzə qayıdıb hər kəsi bu həsrətdən azad edir. Elə ona görə də Fidan xanımın hər çıxışından

sonra dərin sükut, daha sonra sürəkli alqışlar başlayır...

Çox gözəl səhnə mədəniyyətinə malik olan Fidan xanım bu dəfə də öz davranışı, səhnəyə və tamaşaçılara münasibəti elə bil xüsusi ölçü ilə bir çərçivəyə salınmışdır. Azərbaycan səhnəsinin Karmeninin ifa etdiyi rolları canlı yaşaması hər kəsin diqqətini çəkir, özü ilə bərabər onları bu aləmin iştirakçısına çevirirdi. Fidan xanımla səhnə sanki bir-birini tamamlamışdır. Səhnəyə çox yaraşan Fidan xanım sürəkli alqışlar qarşısında öz sadəliyini göstərərək baş əyib pərdənin arxasına çəkilirdi.

Düzü, konsertdən o qədər zövq almışdım ki, sonda Fidan xanımdan qəzetimiz üçün bir neçə kəlmə söz almağı, gördüklərimi onunla paylaşmağı belə unutmuşdum. Nəhayət Fidan xanımla səhnə arxasında görüşə bildik. Bu günkü konsertin tamaşaçısı kimi konsertdən aldığım təəssüratı, gördüklərimi və duyduqlarımı paylaşandan sonra Fidan xanım Hacıyevaya bir neçə sualla müraciət etdim:

— Fidan xanım, səhnəyə çıxanda hansı hissləri yaşayırsınız?

— Səhnədə yaradacağım obrazın məsuliyyətinin həyəcanını yaşayıram.

— Səhnə sizin üçün nədir?

— Səhnə mənim yaşamağım üçün bir fürsət və həyatımın təkrarsız mənasıdır.

— Azərbaycan operasını necə görmək istərdiniz?

— Dahi bəstəkarlarımızın yaratdığı böyük əsərlər kimi əsərlərin yaradılmasını və bu əsərlərin ictimaiyyət tərəfindən sevilməsini istərdim.

— Bu günkü tamaşaçı auditoriyası sizi qane edirmi?

— Düzünü deyim ki, yox.

— Niyə?

— Türkiyədən və başqqa ölkələrdən çox fərqlənirik, canlı tamaşaçı nəfəsi duyulmur.

— Fidan xanım, səhnəmizin "Karmen"ini həyatda yaşayıb-yaratmağa ruhlandıran nədir?

— Mənim xalqım, ana vətənim, bir də ailəm.

Aldığım cavablar məni yaman tutmuşdu. Elə bil, Fidan xanımın cavabları xalqımızın keçmişinə, ulu-dahi sənətkarlarımıza yönəlmişdi. Çünki çağdaş zəmanəmiz bunları anlayacaq dahi sənətkarlar yetişdirmir daha. Təəssüf ki, yazanların, yaradanların, hətta oxuyanların çoxu qısa ömürlü sənət əsərləri yaratmaqla, özlərini bayağı şou-biznes aləmində itirməkdədirlər.

Fidan xanım isə yenə də öz ənənəsinə sadiq qalaraq səfərlərdə, xeyriyyə konsertləri verməkdə davam edir. O, bu günlərdə Ukraynada beşgünlük (dördüncü dəfə) səfərdə olmuş, Dünya Azərbaycanlılarının Həmrəyliyi günü münasibətilə Ukrayna Dövlət Konservatoriyasında konsert vermişdir. Burada Azərbaycanın Ukrayna-

dakı səfiri hörmətli Tələt Əliyevin iştirakı ilə "Azərbaycan Dünyası" jurnalının təsis etdiyi "Vətən Övladı" medalını jurnalın təsisçisi və baş redaktoru, "Dədə Qorqud" fondunun prezidenti Ukraynada yaşayan bir neçə soydaşımıza təqdim etmişdir. Bu münasibətlə tədbir iştirakçılarını Ukraynanın sabiq prezidenti Leonid Kuçma qəbul etmişdir.

Bu gün biz Fidan xanım kimi Azərbaycan vokal sənətinə yeni-yeni uğurlar gətirən sənətkarların zəhmətini layiqincə qiymətləndirməliyik. Xalqını yetərincə tərənnüm edən sənətkarlarımızın hər bir vətəndaşımızın dəstəyinə ehtiyacı vardır. Milli mədəniyyətimizə, musiqimizə layiq insanları qorumaq bizim mənəvi borcumuzdur. Mən isə üzümü Fidan xanıma tutub deyirəm:
— Sizin istedadınız və ilahi səsiniz tanrı payıdır, onu qoruyun!

AY ƏZİZ FIDAN XANIM

Təzə-tər çiçəklərin
Ətri var nəfəsində,
Şəlalə ahəngi var
Həzin, şaqraq səsində.
Qazandığın sürəkli
Alqış təntənəsində,
Sənət fədaisitək
Alış, xanım, yan, xanım
Ay əziz, Fidan xanım!

Bu haqqın, ədalətin
İmanı sən, dini sən,
Yaz ömür səhifəsinə

Hər şərəfli günü sən.
Sən bizim səhnəmizin
Layiqli "Karmen"isən.
Sevinc, fərəh olmasın
Heç vaxt səndən yan, xanım,
Ay əziz, Fidan xanım!

Şirin, xoş nəğmələrin
Şəkərisən, duzusan,
Xalqımızın dəyərli
Ən gözəl bir qızısan,
Səhnəmizin ən parlaq
Sönməyən ulduzusan!
Beləcə tapsın səni
Şərəf, şöhrət, şan, xanım,
Ay əziz, Fidan xanım!

28 dekabr 2008-ci il

GÖZLƏRIM HƏLƏ DƏ YOLLARDADIR

"Bir ayrılıq, bir ölüm
Heç biri olmayaydı..."



Ağsu dolanbaclarından düşəndə sol tərəfə 5 km məsafədə yerləşən Çaparlı kəndi elə bil düzənliyin ortasında dəryada lövbər salmış gəmiyə bənzəyir. Kim bilir, əzəli bilinməyən bu kənd nə qədər uğurlu və uğursuz talelərin şahidi olmuşdur. Bu kənddə yaşayan insanlar öz dədə-baba adət-ənənələri ilə, tarixdən keçib gələn xüsusiyyətləri ilə həmişə seçilmişlər. Bu haylı-küylü kənddə dünyaya göz aşmış Güləkbər atası rəhmətə gedəndən sonra anası Ürfət arvadla birlikdə yaşayırdı. Orta məktəbi kənddə bitirən Güləkbər Ağsu rayonunda traktorçu kursunu bitirdikdən sonra bir müddət kolxozda traktorçu işləyir. Tay-tuşlarının arasında öz fərasəti ilə seçilən Güləkbərə hamı hörmətlə yanaşır, işgüzarlığından məmnunluqla danışırdılar. Onun özünəməxsus qəribəliyi də var idi. Bir az kəmhövsələ, bir az da səbirsiz olan Güləkbərin ürəyi təmiz idi. Küsməyi ilə barışmağı heç beş dəqiqə çəkməzdi.

Həddi-buluğa çatmış Güləkbər tezliklə Sovet ordusu

sıralarına xidmətə çağırılır. Güləkbər əsgərliyini Minsk şəhərində Daxili Qoşunlarda çəkir. Hərbi xidmətini başa vuran Güləkbər 1972-ci ildə Sumqayıt şəhərinə gəlir və gələcək taleyini buraya bağlayır. Sumqayıt Alüminium zavodunda işə düzəlir. Burada bir müddət elektroliznik vəzifəsində çalışır. Sonralar Sumqayıt Kimya Birliyində və Sumqayıt Məişət Birliyində işləyir.

Erkən atasını itirən Güləkbər həmişə ürəyindən keçirirdi ki, öz evi olsun, ailə qurub ev-eşik sahibi olsun. Nəhayət, ürəyi istədiyi, gözü tutduğu bir ağıllı və gözəl qızla ailə qurur. Dörd övladları olur, bir qız, üç oğlan. Ailəsi ilə bərabər uşaqları böyüdür, onların gələcəyi üçün gün-güzəran düzəldirlər. Həyat öz axarına düşür. Ailəsini dolandırmaq üçün hər zəhmətə qatlaşan Güləkbər həyatının xoşbəxt anlarını yaşayır. Hər dəfə evə qayıdanda həyat yoldaşı Qızbəs xanımın onu gülərüz, xoş əhval-ruhuiyyə ilə qarşılaması ona mənəvi zövq verir, həyata olan yaşamaq həvəsini daha da artırır. Hər gün evə əlidolu gəlməyi sevən Güləkbər həmişə bazarlığı xüsusi zövq ilə edər, sanki uşaqlıqda ürəyində yatıb qalan arzuları hissə-hissə doldurardı. Hər qaranlıq gecənin bir işıqlı sabahı olduğu kimi, hər işıqlı sabahın da bir qaranlıq gecəsi olur. Necə deyərlər sən saydığını say, gör fələk nə sayır.

Müstəqillik arzusu ilə yaşayan xalqımız, öz müstəqilliyini övladlarının qanı və canı bahasına qazandılar. Azərbaycanımızın ürəyi olan Qarabağı nankor qonşularımız Ermənistan respublikasına birləşdirmək istəyi xalqımıza baha başa gəlmişdi. Çox təəssüf ki, onlar rusların və digər havadarların köməyi ilə buna müəyyən mənada nail olmuşlar. Ermənilərə qarşı döyüşlərdə xalqımızın qeyrətli oğulları öz igidliklərini göstərərək şəhidlik zirvəsinə ucalmışlar.

Güləkbərin böyük oğlu, 1974-cü ildə anadan olmuş Aqşin Məmmədov Sumqayıt Hərbi Komissarlığına çağrılaraq müharibə zonasına, Qarabağa, Ağdam bölgəsinə göndərilir. Bir ildən artıq vuruşmalarda iştirak edən Aqşin 1993-cü ilin iyul ayının 5-də Ağdərənin Levanan kəndi uğrunda gedən döyüşlərdə itkin düşür. Tankda nizamlayıcı olan Aqşin neçə-neçə düşməni məhv edib, ərazilərimizin azadlığı uğrunda gedən döyüşlərdə dəfələrlə fərqlənmişdir...

Aqşinin itkin düşməyi xəbərini ailəsi eşidəndə uzun müddət özlərinə gələ bilmirlər. Hər kəsin nəzərləri biçarə Güləkbərə tuşlanmışdı. O isə özünü elə bil dünyanın günahkar adamı hesab edirdi. Dolaşıq fikirlərdən çıxış yolu axtaran Güləkbər hərbi komissarlığa gedərək, könüllü olaraq onu döyüş bölgəsinə Ağdama göndərilməsini xahiş edir. Bununlada o, içində yanan atəşi söndürmək, ermənilərə qarşı olan nifrətini döyüşdə təsdiqləmək istəyirdi. Beləliklə 1993-cü ilin oktyabr ayından 1995-ci ilin dekabr ayının sonunadək Qarabağ uğrunda gedən döyüşlərdə iştirak edir. O vaxtdan bu vaxta qədər dəfələrlə Qırmızı Xaç Cəmiyyətinə və Dövlət Komissiyasına müraciət etsə də hələ bir nəticəsi olma-

mışdır.

Bir nisgilli həyat yaşayan Güləkbər ailəsi, övladları və nəvələri ilə sakit bir həyat yaşayır. Oğlanları və qızı ailə qurublar. Altı nəvəsi var. Oğlu Aqil tanınmış futbolçudur. Hal-hazırda "Karvan" futbol komandasında oynayır. Güləkbərdən soruşanda nədən qorxursan? Deyir: "Tənhalıqdan, istəmirəm məni sonsuzluğa çəksin, ona görə başımı işlə və nəvələrimlə qatıram, amma inanın elə bil dərdim buz bağlayıb çıxmır ürəyimdən, gözlərim hələ də yollardadır ."

Oktyabr 2008-ci il

ŞƏHİDLİK ZİRVƏSİ MÜQQƏDDƏSDİR

Qəhrəmanlar doğulmurlar, Vətənini sevən hər kəs üçün o ülvi ada layiq görülürlər. Vətən təkcə sərhəddən deyil, bir kiçik daşdan, bir kiçik çiçəkdən başlayır. Vətən onu sevib, əzizləyənin, onun üstündə qan tökənindir. Vətən uğrunda qan töküb, şəhidlik zirvəsinə ucalmaq hər kəsə qismət olmur. Əvəzsiz canını qurban vermək, döyüşə-döyüşə qəhrəmancasına həlak olmaq, hər Vətən övladının payına düşmür. Belə insanlar doğma xalqı tərəfindən heç zaman unudulmurlar və dövlət tərəfindən öz layiqli qiymətlərini alırlar.

Bəli, belə xoşbəxt insanlardan biri də, Azərbaycanın torpaqları uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak olmuş xalqımızın igid oğlu, Azərbaycanın Milli qəhrəmanı Əliyar Yusif oğlu Əliyevdir. Onun çox qəribə taleyi olmuşdur. O, orta məktəbdə oxuyarkən idmana həvəs göstərmiş, yaxın qohumu, məhşur pəhləvan, Qubadlının cəngavəri sayılan Bahadur Həziyevdən pəhləvanlığın sirlərini öyrənmiş, ondan mərdlik, qorxmazlıq dərsi almışdır. Elə ona görə də bu həvəs onu 1975-ci ildə S.M.Kirov adına Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutuna gətirmiş və imtahanlardan yüksək bal toplayaraq instituta qəbul olmuşdur.

Əliyarın qeyri-adi xasiyyəti, həyat haqqında düşüncə-

ləri başqalarından fərqli idi. Məhz gənc olmağına baxmayaraq, özünü ağıllı, təkəbbürlü göstərməyi, ətrafında olanların ona qarşı olan sevgisini qazandırmışdır. O, zəhmətkeş, idmançı, dərs əlaçısı olduğuna görə şəkli daima institutun şərəf lövhəsində olardı.

1979-cu ildə institutu fərqlənmə diplomu ilə bitirən Əliyar doğma rayonuna qayıdır, kənddə müəllimlik edir. Hərbi xidməti başa vurduqdan sonra o, nüfuz qazanmış güləşçi kimi Saransk şəhərində Dövlət Universitetinə dəvət olunaraq bir müddət müəllimlik etmişdir. Atasının vəfatından sonra o, doğma elinə-obasına qayıdır. Əliyar təşkilatçılıq qabiliyyətinə görə 1985-ci ildə "Məhsul" kənd könüllü Bədən Tərbiyəsi və İdman Cəmiyyəti Rayon Şurasının sədri seçilmişdir. O, Yunan-Roma güləşi üzrə dəfələrlə Respublika çempionu, keçmiş Ümumittifaq və Beynəlxalq yarışların qalibi olmuşdur. O, həm də yüksək səviyyəli turnirlərdə hakimlik və baş hakimlik etmişdir. Əliyar müəllimin tələbələri dəfələrlə Beynəlxalq yarışların qalibi olmuş, Olimpiya yığma komandasının üzvü olmuşdular...

Minlərlə insanların məhvinə fərman vermiş, günahsız qadın və uşaqların gözünü yaşlı qoymuş böyük imperiya için-için sökülüb dağılırdı. Bir zamanlar Qafqazda yeri olmayan ermənilərə Azərbaycanın qədim torpaqları hesabına dövlət bağışlamış imperiya son məqamda da Azərbaycanın ürəyi, dədə-babalarımızın bizə qoruyub saxladığı Qarabağ, torpaqlarını ermənilərin ərazilərinə qatmağa çalışırdılar. Ruslardan rəvac alan ermənilər ərazilərdə olan hərbi birləşmələrin köməyi ilə torpaqlarımızı zəbt etməyə başlamışdılar.

Ermənilərin Qubadlı rayonunun Eyvazlı kəndinə od vurmağı hamı kimi Əliyarı da hiddətləndirmişdir. Respublikamızın idarəolunmaz bu məqamında Əliyar

özünümüdafiə dəstələrinin yaradılması zərurətini anlamış və özü ilə həmfikir, həmdost olan insanları ətrafına toplayaraq onları torpaqlarımızın erməni işğalçılarının hücumlarından müdafiəyə səfərbər etmişdir. Əliyar tez bir zamanda keçmiş SSRİ qüvvələrində xidmət etmiş gənclərdən ibarət kəşfiyyat taboru yaratmışdır.

Əyin, Seytas, Aşağı Cibikli kəndləri uğrunda vuruşmalarda Əliyar və onun döyüşçülərinin düşmənə vurduqları zərbələrdən sonra düşmənin itki verməsi və çoxlu sayda əsir götürülməsi barədə o zamanın şahidi olmuş insanlar indi də söhbət açırlar.

Şuşanın itirilməyi, Laçının boşalması Əliyara yaman təsir etmişdir. O, bu da ikinci xəyanətdir deyərək fəryad qoparmışdır. Sonra isə biz Qubadlını və Qarabağı qorumaq üçün mütləq Laçını geri qaytarmalıyıq demişdir.

Güclü hazırlıqdan sonra 1992-ci ilin sentyabr ayının 30-da komandirlik etdiyi taborla Laçın torpaqlarının

azadlığı uğrunda güclü əməliyyata başlayan Əliyar düşmənin 30-dan çox mövqeyini darmadağın edərək Laçın şəhərinə doğru yaxınlaşmışdı.

3 oktyabr 1992-ci ildə Laçın şəhərinin 2 ikilometrliyində yerləşən Şurum yüksəkliyində gedən ölüm-dirim döyüşündə misilsiz qəhrəmanlıqlar göstərmiş Əliyar Əliyev və onun sürücüsü Əlisədat Əliyev şəhid olmuşlar. Ölümündən sonra Əliyara Azərbaycanın Milli Qəhrəmanı adı verilmişdir. Küçələrə, məktəblərə onun adı verilmişdir.

Əliyar Əliyevin böyük qardaşı Rüzgar Əliyevin dediklərindən: *«Əliyar təkcə bizim ailənin yox, bütövlükdə Azərbaycanımızın oğludur. Onun bu qəhrəmanlığı ilə biz həmişə fəxr edəcəyik. Mən çox xoşbəxt adamam ki, Əliyara Milli Qəhrəman haqqında verilən səkkiz ulduzlu medalı Ulu Öndərimiz, xalqımızın mənəvi atası Heydər Əliyev tərəfindən mənə təqdim olunmuşdur. Bu dahi insanın əlini sıxmaq mənim də qismətimə düşmüşdür. O dahi şəxsiyyətin dərin və mənalı çıxışı heç vaxt mənim yadımdan çıxmayacaqdır. Ulu Öndərimizin o vaxtlar dediyi sözləri, sonradan bir-bir, sətir-sətir əzbərlədim: Hər bir şəhid bizdən ötəri böyük itkidir. Çünki, hər bir şəhidin tökülən qanı Azərbaycanın müstəqilliyini təmin etmişdir».*

Şəhid ailələrinə diqqət və qayğı möhtərəm Prezidentimiz İlham Əliyev cənablarının daim diqqət mərkəzindədir və şəhidlərimizin ruhuna ehtiram olaraq Respublikamızın şəhidlər xiyabanları xüsusi qayğı ilə abadlaşdırılaraq, gələcək nəsil üçün əbədi and yerinə çevrilir.

Bəli, bir vətəndaş olaraq Vətənimizi seviriksə bizim andımız şəhidlərimizin ruhu, and yerimiz isə şəhidlərimizin məzarları olmalıdır!

Oktyabr 2008-ci il

ÖMÜRDƏN QALAN YALNIZ XATİRƏLƏRDİ

Tarixdə elə hadisələr var ki, onlar əbədi yaddaşlarda həkk olunur. Türkmənistan, Qızıl Arbad şəhəri, Ağcaqum çölləri yəqin ki, məşhur "26-lar"ın güllələndiyi torpaq hamıya məlumdur.

İranın Sarabdan şəhərində öz hörmət, ad-sanları və mərhəmətli olmaları ilə seçilən Məşədi İbadın ailəsi hər zaman diqqət çəkirdi. Məşədi İbad və qardaşlarının əsas işi başqa ölkələrə mal verib, mal almaqla, daha doğrusu tacirliklə məşğul olmaları idi. Onların dəvə karvanları demək olar ki, bir çox ölkələrə səfər edir, qazandıqlarını mülkə çevirərək ata-baba sərvətlərini genişləndirirdilər. 1919-cu ildə Məşədi İbad və qardaşları Türkmənistana səfər etməyi qərara alırlar. Adətən tacirlər belə uzaq səfərlərə ailə və uşaqlarının təhlükəsizliyi üçün özləri ilə apararDılar. Onlar bilmirdilər ki, başlarına nələr gələcəkdi. Bəli, Məşədi İbadı və qardaşlarını aparan karvan o məlum tarixi yerdə Qızıl Arbadda, Ağcaqum çölündə bolşeviklərin Qızıl Ordusu tərəfindən dağıdılıb talan edilib, öldürüldülər.

Məşədi İbadın və qardaşlarının ölümü hamıya təsir etmişdi. Gözlənilməz hücuma məruz qalmış günahsız qadın və gənclər bölüşərək hərəsi bir tərəfə üz tutdular. Məşədi İbadın oğlanlarından biri Nadir müəllimin atası Məmməd isə Bakıya gəlib qalan ömrünü öz doğma millətinə — azəri qardaş bacılarına bağladı. Sonralar Əhliyyə adlı bir qızla ailə həyatı quran Məmməd ətrafı ilə ünsiyyət yaradaraq öz zəhməti hesabına ailəsini dolandırmağa başlayır.

Bu günkü həmsöhbətimiz yaşı yetmişi ötmüş **Nadir**



Məmməd oğlu Nəsirovdur. Hörmətli Nadir müəllim 10 sentyabr 1937-ci ildə Bakıda doğulmuşdur. Bakıda boya-başa çatmış Nadir müəllim maraqlı və zəngin həyat yolu yaşamışdır. Uşaqlıqdan sakit, təmkinli və qəlbən təmiz olan Nadir hər kəslə ünsiyyət qurmağı bacaran, zəhməti və qabiliyyəti hesabına hörmət qazanardı. Elə ona görə də işi ilə əlaqədar Rusiya və digər məmləkətlərdən orada yaşamağı üçün təkliflər alsa da heç zaman doğma Bakını tərk etməmişdir. Bu barədə söhbət düşərkən o həmişə: — Qurbanı olduğum millətimi və doğma Bakımı heç nə ilə əvəz edə bilmərəm — demişdir. Nadir müəllimin çox qəribə taleyi olmuşdur. Topoqrafiya və Makşeyderiya üzrə orta ixtisas məktəbini yüksək qiymətlərlə bitirən Nadir SSRİ Nazirlər Kabinetini nəzdində Azərbaycan Geologiya İdarəsində işə qəbul olunur. Nadir müəllim hörmət etdiyi, dəfələrlə haqqında xoş sözlər danışdığı Aydın Əliyevin rəhbərlik

etdiyi Rusiya Hidrologiya ekspedisiyasının iştirakçısı olmuşdur. O, Azərbaycanın rayonlarını, qədim Naxçıvan torpağını qarış-qarış gəzmişdir. Azərbaycan-Gürcüstan sərhəddində yerləşən Qırmızı Körpüyədək; Qazax, Tovuz, Gədəbəy, Balakən və Zaqatala rayonlarında qızıl və digər qiymətli metalların axtarış əməliyyat işlərində əməyi olmuşdur. Qazaxda ilk qızıl yatağının topoqrafik xəritəsini hazırlamışdır. Ordubadda Piyazbaşı dağlarında qızıl kəşfiyatı ekspedisiyasında fəal iştirak etmişdir. Kələki kəndində qaldığı zamanları belə xatırlayır: —İnsanları çox mehriban və qonaqpərvərliyi ilə yanaşı həm də çox qoçaq və işgüzardırlar.

Ulu Öndərimiz Heydər Əliyevin təşəbbüsü ilə tikilən yeni Hava Limanının geodeziya işlərinin 90%-ni Nadir müəllim aparmışdır. Heç təsadüfi deyildir ki, Hava Limanında işlərin davam etdirilib başa çatdırılması üçün 1996-cı ildə iş icraçıları -Türkiyədən gəlmiş mütəxəssislər məhz Nadir müəllimi dəvət etmişlər. Burada Nadir müəllim sahib olduğu mükəmməl bilik və bacarığı ilə bir daha yerli mütəxəssis kimi özünü təsdiq etmişdir.

Demək olar ki, Azərbaycan müstəqilliyə qədəm qoyduqdan sonra, əsası Heydər Əliyev tərəfindən qoyulmuş hüquqi dövlətimiz möhkəmləndikcə onun iqtisadiyyatı sürətlə inkişaf edərək, dünya dövlətləri ilə eyni iqtisadi sferada inkişaf etməyə başlamışdır. Buna misal olaraq Beynəlxalq layihələr — Bakı-Supsa neft kəmərinin, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin, Bakı-Tbilisi-Qars dəmiryolunun çəkilməsi sübutdur. Bu bir faktdır ki, Azərbaycan öz inkişaf tempinə görə dünya dövlətlərinin birinciləri sırasına çıxmışdır.

Yuxarıda adı çəkilən layihələrin işlənib hazırlanmasında Nadir müəllimin əməyini qiymətləndirməmək

mümkün deyildir. Bundan başqa 1997-ci ildə Supsaya gedən neft kəmərini birləşdirən Neft terminalının I hissəsinin və 2000-ci ildə II hissəsinin tikinti layihə işlərində qeodoziya-topoqrafiya hissəsinin işlənməsi Nadir müəllimə tapşırılmışdır. 1999-cu ildə "Lukoyl" şirkətinin Əhmədlidə tikilən neft terminalının və ora dəmir yolunun çəkilişi, Bakı-Novorossiysk neft kəmərinin Şirvanovkadan Bakıya qədər hissəsinin, "Azpetrol" firmasının terminallarının, 28 may və Müşfiq qəsəbələrinin kanalizasiya sisteminin, Bakıda Qanlı gölün qurudulması üçün yeraltı ötürücü tunelin tikinti-layahə işlərinin yerinə yetirilməsində "Cənubsənayetikinti" İdarəsinin tərkibində Nadir müəllim qeodoziya-topoqrafiya işlərini yerinə yetirmişdir.

Nadir müəllim dönə-dönə "Cənubsənayetikinti" İdarəsinin rəisi Xalis müəllim Zöhrabovun idarəçilik qabiliyyətindən, gözəl insani xüsusiyətlərə malik olmasından, 7 il bir yerdə çalışmaqlarından zövq almasından söhbət açır, xatırlayır və deyir: — Nə yaxşı ki, həyatda belə insanlar var.

Bəli, bu gün Nadir müəllimin respublikamızda gördüyü işlərdən çox danışmaq olar.

Nadir müəllim hazırda Türkiyənin "Primer Mühəndislik" firmasının işçisi olaraq Azərbaycanda Heydər Əliyev fondunun, Səhiyyə Nazirliyinin və Gömrük Komitəsinin təşəbbüsü və dəstəyi ilə bir çox layihələrin həyata keçirilməsində iştirak edir. "Primer Mühəndislik" firmasında işləmək sanki Nadir müəllimə bir az da ruh verib, onu cavanlaşdırmışdır. Firmada rəhbərliyin çalışan insanlara olan münasibəti onun ürəyincədir. Firmada işləyən işçilər haqqında nə deyə bilərsən — soruşanda o deyir: — Firmanın Azərbaycanda iş icraçısı

Mehmet Tahir Kayan, Təhlükəsizlik Texnikası üzrə mühəndis Mübariz Məmmədəliyev, Texniki Nəzarət bölümünün müdiri Firat bəy, elektrik mühəndisi Hüseyn bəy, havalandırma bölümünün müdiri Xeyrulla bəy, hamının sevimlisi, firmanın mühasibi Erol bəy Böyükyıldız, mexanik bölümünün mühəndisi Ənvər bəy və xəstəxananın işçiləri Nərgiz xanımla Əhəd müəllim haqqında ağız dolusu danışır, onlarla qürur duyduğunu söyləyir.

Nadir müəllim gözəl ailə başçısıdır. İki oğlu və üç nəvəsi var. Oğlanları Nahit və Emin evlidirlər, Bakı Dövlət Akademiyasının Geologiya fakültəsinin Dağkəşfiyyat Mühəndisi ixtisasını bitiriblər.

Nadir müəllimdən soruşanda:

— Nadir müəllim, bu keçən ömürdən nə deyə bilərsiniz?

— Nə deyim, qardaş, ömürdən qalan yalnız xatirələrdir. Sonra da ki...

Noyabr 2008-ci il

SEÇİLƏN KİMDİR?

Teatrın möcüzəsi aktyordur. Dramaturq da, rejisssor da, rəssam da, bəstəkar da, elə siz tamaşaçılar da bu möcüzənin sehrinə dalmaq üçün teatra, onun oyununa valeh olmaq naminə tamaşalara gəlirsiniz. Aktyorlar isə zəngin çalarlı zənglər kimi, müxtəlif olurlar. Təbii ki, zəngləri seçib-sevmək siz tamaşaçıların işidir.

Həsən Turabov,
xalq artisti

24 noyabr 2008-ci il. Bakı şəhəri Rus Dram Teatrı. Hamı həyəcanlıdır. Teatr binasının içərisi və çölü insanlarla doludur. Burada hər təbəqə və başqa-başqa sənətə mənsub olan insanlar toplaşıblar. Əslində məqsəd hamıya məlum olsa da, bu gün baş verəcək hadisənin şahidi olmaq, onun şirinliyini dadıb, mahiyyətini dərk etmək hər kəsin arzusu idi...

5 aya yaxın zəhmətlər və əsəblər hesabına başa gəlmiş, lakin məmnun bir əsərin Azərbaycan səhnəsinə və kinosuna yeni bir nəfəs gətirmiş ANS şirkətlər qrupunun prezidenti Vahid Mustafayevin ssenarisi əsasında İran rejissoru Məsudun quruluş verdiyi "Seçilən" filminin premyerası baş tutmuşdur.

Filmin premyerasının tamaşaçılar filmdə baş rolları ifa etmiş aktyorları, ssenari müəllifi və rejissoru xüsusi hörmət və ehtiramla qarşılayırlar. "Limuzin" markalı maşının qapıları açılır, yaradıcı heyət və aktyorlar maşından düşərək teatra tərəf gəlirlər, lakin onları qarşılayan sevinc, sevgi dolu baxışlar, gül-çiçək dəstələri onları kövrəldir, onlara olan qayğı və sevgiyə doğru baş əyirlər. Budur, Vahid Mustafayev xanımıyla, ardınca rejissor Məsud və baş rolların ifaçıları — Robert Koçaryan rolunun ifaçısı Nazir Rüstəmov, Serj Sarkisyan rolunun ifaçısı Əlibala Əsgərov, Zori Balayan rolunun ifaçısı Kazım Abdullayev, Azərbaycan Xüsusi Xidmət orqanlarının əməkdaşları rollarında: Əli-Elşən Rüstəmov, Natəvan-Sevinc Əlişova orada toplananların müşayiəti ilə teatr binasına daxil olurlar.

Həmin gün premyeranın açılışı, mötəbər kürsüdə Elm, Mədəniyyət və Dövlət işçilərinin söylədikləri, sanki bizim milli Azərbaycan kinosundan umduqları hər kəsin ürəyindən idi. Bir daha düşmənlərimizin məkirli niyyətlərini, ölkə rəhbərlərinin simasında onların millət olaraq iç üzlərini açıb göstərmək vəzifəsinin öhdəçindən bu yaradıcı və sənət adamları xüsusi məharətlə gəlmişlər.

Bu gün haqqında söhbət açacağımız insan Robert Koçaryan rolunun ifaçısı Nazir Mürsəl oğlu Rüstəmov 12 aprel 1956-cı ildə Ağcəbədi rayonunun Kəhrizli Sovetliyinin tərkibində olan Şərəfxanlı kəndində anadan olmuşdur. Tarixin yaddaşında qalmış Kəhrizli kəndi Cəlil Məmmədquluzadənin həyat yoldaşı Həmidə xanımın kəndidir.

Nazir Hindarxı kənd orta məktəbini bitirmişdir. Məktəb illərində Rəsul Rzanın "Lenin" poemasını ifa-

dəli şəkildə oxuyarkən hamını təəccübləndirmişdir. Elə o zaman ədəbiyyat müəllimi Rəfil müəllim: "Sən gələcəyin aktyorusan və olmalısan" — demişdir.

Şərəfxanlı kəndi aran kəndi olsa da yaşıllığa bürünmüş gölün kənarında lövbər salıb dayanmış gəmiyə bənzəyir. Kəndin haylı-küylü, özünəməxsus bir ab-havası vardı. Hətta kəndin kiçik bir klubu da vardı. Nazir ilk rollarını həmin klubda, özfəaliyyət dram dərnəyində oynamışdır.

Nazir Rüstəmov Azərbaycan İncəsənət Universitetinin aktyorluq fakültəsini bitirdikdən sonra Moskva Ermitaj Teatrında Levitinin rəhbərlik etdiyi rejissor laboratoriyasında təhsil alıb. O, 1980-cı ildən Azərbaycan professional teatrında çalışır. Onun sənətdə püxtələşməsində respublikanın xalq artisti, istedadlı rejissor Lütfü Məmmədbəyov və Oruc Qurbanovun əvəzsiz xidmətləri olmuşdur. Nazir Rüstəmovun sənət yolu Ağdam Dövlət Dram Teatrından başlayır. O, bir çox uğurlu rolları ilə sənətdə özünü tapıb. Aktyor onlarla tamaşalarda, o cümlədən Anarın "Təhminə və Zaur", Əfqanın "Qız atası", Ağalar İdris oğlunun "İnan mənə", Hidayətin "Məhəbbət yaşayır hələ", Cəfər Cabbarlının "Oqtay Eloğlu", Albert Kamyonun "Qismət", Yan Lermentovun "İki qardaş"ında müxtəlif rolları məharətlə oynamışdır.

O, sənətdə təcrübə qazanan aktyor, rejissor sənətinin çətinliyini dərk etsə də, bu məsuliyyəti üzərinə götürməkdən çəkinmir.

2005-ci ilin dekabrında Azərbaycan Teatr Xadimləri İttifaqının keçirdiyi "Boş məkanın dolğunluğu" teatr festivalında I yeri tutmuşdur. (Tamaşaya verdiyi quruluşa və ifa etdiyi rola görə). Hal-hazırda Nazir Rüstə-

mov Şuşa Dram Teatrının baş rejissoru vəzifəsində çalışır.

"Seçilən" filmində oynadığı Robert Koçaryan rolu ilə o peşəkar aktyor olaraq sənətdə yeni bir imza atmış oldu.

Bununla bağlı Nazir müəllimə bəzi suallarımıza cavablandırmaq üçün müraciət etdik.

— Nazir müəllim, Koçaryan rolunu ifa edərkən hansı hisslər keçirmisiniz?

— Birincisi insan olaraq insanların mənə münasibəti, ikincisi heç bir təsirə baxmayaraq düşməni olduğu kimi göstərmək, üçüncüsü əgər insanlar mənə yaratdığım obraza görə nifrət edəcəklərsə deməli bu rolu yaratmağa müvəffəq olmuşam.

— Nazir müəllim, ailəniz barədə danışardınız.

— Ailəliyəm, iki oğlum, üç nəvəm var.



— Siz istedadlı rejissor və aktyor olmaqla bərabər yaraşıqlı bir azərbaycanlı kişisi olaraq çəkildiyiniz rollarla bağlı ailə həyatınızda soyuqluq hiss etməmisiniz ki?

— Gəncliyimizdə bu hiss olunurdu. Lakin sonradan adi bir həyat normasına çevrilmişdir. Artıq hər kəs anlamışdır ki, sənətlə ailəni qarışdırmaq olmaz. Bu baxımdan mən çox xoşbəxtəm. Ona görə ki, ailəmi özümə hər zaman arxa bilmişəm.

— Bir az da sənət adamlarının dostluğundan danışardınız. Sənətkarlar arasında dostluq necə olur?

— Hər sahədə olduğu kimi burada da hər şey etibardan, səmimiyyətdən başlayır.

— Xalqımıza nə arzu edərdiniz?

— Arzu edərdim ki, torpaqlarımızı azad, xalqımızı isə sülh, əminamanlıq içərisində görüm.

Vahid Mustafayevin ssenarisi əsasında çəkilmiş "Seçilən" filmi hələ çoxalrını düşündürəcəkdir. Həm siyasətdə olanları, həm də sadə insanları. Seçilən kimdir? Vətənimizdir, ölkəmizdir, prezidentimizdir, iqtisadiyyatımızdır, mənəvi dəyərlərimizdir və xalqımızın bu günü, uğurlu sabahıdır.

Noyabr 2008

ANA VƏTƏN SEVGİSİ BÜTÜN SEVGİLƏR ÜÇÜN ŞƏRTDİR

"Dura-dura daş olar, yeriyə-yeriyə quş olar insan oğlu! Dənizdə üzmək də, torpaqda gəzmək də insanın xoşbəxtliyidir. Xoşbəxtlik nə zaman yaranır? O zaman ki, yolların yoldaşına, könüllərin sirdaşına dönəsən, enişlər enib, yoxuşlar çıxasan, zirvələrdən üfüqlərə boylanasan, əllərin günəşdən, ayaqların torpaqdan qüvvət ala! Ziyarətə gedəsən— "Yaxşı Yol"— deyələr. Ziyarətdən gələsən- "Ziyarətin qəbul olsun"— deyələr. Bu müqəddəs sözlərin şərəfini, böyüklüyünü ömrün boyu göz bəbəyi kimi qoruyasan, hikmətini dərk edəsən. Aylar-illər keçsə, qocala-qocala getdiyin ziyarətin bir parçasına çevriləsən!"

Zəlimxan Yaqub

Öz qaynağını milli mədəniyyətimizin ən dərin köklərindən alan Vahid müəllim Məmmədli yaradıcılığı şərqin estetik tarixi xüsusiyyətləri və bəşəri duyğuların romantizm ənənələri ilə bağlı olmuşdur. Müasir dövr üçün yazdığı "Tunc Allahın yükü", Rus Bestselləri seriyasında "Cəllad tələsməyi sevmir" və "Tunc Mələk" əsərləri zamanın süzgəcindən keçərək, dünyada baş verən hadisələrə biganə qalmayan Vahid Məmmədli düşüncələrinin insani təsdiqidir.

Mənbəni bilmək, mənbədən nə almaq istədiyini bilməkdən qat-qat əhəmiyyətlidir. Bəli, bu gün Vahid Məmmədli elmi və təcrübi biliklərə əsaslanaraq yazdığı əsərlərində Azərbaycan ədəbiyyatına və eyni zamanda deyərdim ki, dünya ədəbiyyatına yeni bir janr, yeni bir



nəfəs gətirmişdir. Əsərdə daxili insan duyğularının tərənnümü və hadisələrin ardıcıllığı sanki oxucunu müşayiət edir, sonda isə onu öz iştirakçısına çevirir. Müəllifin vətənpərvərlik düsturlarının uyğunluğu əsərlərinin bir çox mühüm ifadələrini, baş qəhrəmanlarının obrazlarını, romanların fabolasının özülünü təşkil edən hadisələrin məğzini anlamağa və düzgün yazmağa imkan vermişdir.

Bəzən müəllif yazılarında dinimizlə, mədəniyyətimizlə bağlı bu keşməkeşli zəmanədən yan keçərək, sakit bir ahənglə sanki nəfəs ala bilmir. İraq, Əfqanıstan ümumiyyətlə müsəlman dünyasına qarşı olan iddiaları elmi surətdə təkzib edir. O, bilir ki, ümumi problemləri meydana çəkmədən, ən kiçik məsələləri belə həll edə bilməzsən.

Tarix müasir dünyagörüşün formalaşmasında fəal iştirak edir. Qloballaşma gedən dünyamızda bəzi imperiya hegomonluğu mövqeyindən çıxış edən dövlətlərin insanlara saysız fəlakətlər gətirmiş metodları, əsərlərində müəllif tərəfindən əks olunmuşdur. Təəssüf ki, keçmişin faktlarından müasir ideyanın sübutu üçün hər zaman istifadə etmişlər.

Belə ağır keçid dövrlərində "şit, şıltaq" ədəbiyyatın susmağı şübhəsiz ki, daha önəmlidir. İndi siyasətlər,

qlobal hadisələr və ideyalar dövrüdür. Min bir şou düşünüb yaratmaq əvəzinə ciddi mənəviyyat formalaşdıran, insanı tarixi kökə, soya qaytaran, sözdə üst qatda deyil, məhz daxildə, əməldə, vətəndaşlıq qayələri yaradan və adamları irəliyə, kamilliyə, qeyrətə, hünərə qovuşduran ədəbi və əbədi sənət nümunələri meydana çıxarmaq lazımdır. Gələcəyimizi nişan verən Qarabağ dərdinə əlac qılan insanları keçirdikləri siyasi-mənəvi şokdan çıxarmağa qadir olan monumental əsər-lərə çoxdan ehtiyac du-yulur.

Dünyanın ilk türk Respublikası olan Azərbaycan Demokratik Cümhuriyyətinin yaranmasını sevinclə qarşılayan və böyük qürur hissi keçirən şair Əhməd Cavad da bu tarixi hadisəni tərənnüm edərək yazırdı:

Sən qüdrətin aşıb-coşan vaxtında
Mələklərin gülüşündən yarandın!
Sərinlətdin baxışınla könlümü
Buludların uçuşundan yarandın...

Əlbəttə, müasir Azərbaycan Respublikasının quruculuq işlərində Vahid Məmmədli kimi gənc alimlərimizin fəal iştirakı, dövlətimizin inkişafı, möhkəmlənməsi və tərəqqisinə təkan verərdi. Hər birimiz üçün qürur mənbəyi olan ana vətənimizi qoruyub yaşatmaq vətəndaşlıq, həm də övladlıq borcumuzdur.

Noyabr 2008-ci il

NİSƏ QALASI

Gözəl insan və istedadl şairimiz
Sakit İlkinə ithaf edirəm

"Bu qala bizim qala,
Həmişə bizim qala ,
Tikmədim özüm qalam,
Tikdim ki, izim qala."



İnsanlar bütün dövrlərdə tikib, yaratdıqları əzəmətli qəsrlər və qalaları qoruyub saxlayaraq gələcək nəsil üçün əmanət etmişlər. Keçmişimizlə, mənəviyyatımızdan, mədəniyyətimizdən, nəhayət kimliyimizdən xəbər verən tarixi qalalarımız çoxdur. Kim bilir bu qalalar nə qədər qanlı-qadalı, neçə açılmamış sirrlərin şahidi olmuşdur. Neçə zəngin hadisələrlə dolu, keçmişi olan öz möhtəşəmliyi və əzəməti ilə insanları heyrətə gətirən qədim qalalardan biri də Nisə qalasıdır. Keçmşimizlə dolu bir həyatı yaşamaq istəyiriksə, kifayət edər ki, Nisə qalasının qonağı olaq. Burada ürəklərdə qalıb deyilməmiş sözlərlə bərabər əmanət olunmuş sevgilərin ruhu dolaşır. Heyif ki, biz Nisə qalasını dindirib danışdırmaq iqtidarında deyilik. Çox istərdim ki, bu kövrək Nisə qalasına yaxınlaşanda ətrafına və ya içərisinə ayaq basan-

da, hətta danışanda belə ehtiyatlı olaq, çünki orada bükülüb qalan sevgi izlərini, kövrəlib dolmuş məhəbbətin nəfəsini poza bilərik. Nisə qalası həmişə insanlar üçün etibarlı dost və qeyrət rəmzi olmuşdur.

Bir az utancaq, bir az da təkəbbürlü olduğundan həmişə susur. Lakin o öz duruşu ilə, əzəməti ilə bizlərə içində olanları anladır. Qəmli çağlarında duman, çən, çiskin ona həmdəm olur, dərdini anlatmaq istəyəndə, şimşəklər çaxır, yağan leysan yağışları sanki onun qəlbindən axan yaşların özüdür.

Azərbaycanın dilbər guşələrindən olan Yardımlı rayonunun sıralanan vüqarlı dağlarının, təbiətin əsrarəngiz gözəlliklərinin, əfsanəvi Nisə qalasının şahidliyi ilə, gözəl insani duyğuları və min bir şeirləri ilə insanların sevgisini qazanmış nəğməkar şair Sakit İlkin dünyaya göz açmışdır. Sakit İlkin öz ilhamını doğma Yardımlı torpağının büllur çeşmələrindən, əzəmətli dağlarından, gözəl insanlarından və möhtəşəm Nisə qalasından almışdır. Elə yaşadığı doğma kəndin adı da bu əfsanəvi qalanın adı ilə bağlı olmuşdur. Sakit İlkin kədərlənib fikrə dalanda, sanki Nisə qalasındandan kömək umur, dağların başını buludlar alanda isə, dolub-boşalmaq istəyir.

Nisə qalası kimi Sakit İlkinin sadəliyi onun böyüklüyündən xəbər verir. Sakit İlkinin kövrək qəlbindən qopub, sətirlənən şeirlər sanki onun kimliyini təsdiq edir. Tanrımız Sakit İlkinə o qədər geniş ürək, təmiz qəlb verib ki, o hər kəsin dərdini özününkü bilir və hər zaman insanlarla paylaşmağı bacarır.

Onun Azərbaycan kişiliyinə xas olan mərdliyi, sözünü yerində deməyi, etinasızlığı və xəyanəti bağışlamamaq kimi xüsusiyyətləri vardır. Bundan başqa Sakit

İlkin deyərdim ki, Azərbaycanın çağdaş poeziyasında özünəməxsus dəsti-xətti olan şairdir. Onun şeirlərində vətənpərvərlik hissləri, önəmli yertutur. Keçmiş tariximizə, mədəniyyətimizə ehtiyatla yanaşması bir daha göstərir ki, o öz xalqının milli-mənəvi dəyərlərini dərindən dərk edib, onu qiymətləndirən şəxsiyyətlərdəndir. Şeirlərindəki poetik deyimlər əsasən qəhrəmanlığa, humanizmə, sülh və əminamanlığa yönəlmişdir. O, hər zaman xalqının dərdi və kədəri ilə bərabər olmuşdur. Sakit İlkini anlamaq üçün, onun təkrarsız şerlərinə nəzər salmaq kifayət edər.

Qaranlıq düşməkdə ikən günəş yavaş-yavaş qürub edirdi. Nisə qalası elə bil ki, tənhalıqdan qorxurdu. Bir azdan onu ziyarətə gələnlər onu tərk edəcəklər, yenə də o tək başına öz xəyalları ilə baş-başa qalacaqdır...

Sakit İlkin fikirli-fikirli evlərinə tərəf gedirdi. Birdən ayağı daşa dəyib diksindi, əyilib yerindən qopan daşı yerinə qoydu. Gözləri yenə də yarıqaranlığa bürünmüş, yaşıl meşələrə qərq olmuş Nisə qalasına dikildi və dərindən ah çəkdi bir ah çəkdi...

5 oktyabr 2008

POEZİYANIN NURUNDAN SAÇILAN İŞIQ

Əsrlərdən bəri Azərbaycanımızın ayrılmaz hissəsi olan Şirvan bölgəsi öz dahiləri ilə sayılıb-seçilən bölgələrimizdən olub. Dünyaya Əfsələddin Xəqani, İmaməddin Nəsimi, Seyid Əzim Şirvani, Mirzə Ələkbər Sabir, Xəlil Rza Ulutürk, Əlibəy Hüseynzadə və Əliağa Kürçaylı kimi görkəmli söz sərrafları bəxş edən bu bölgə, bu gündə öz yenilməzliyini qoruyub saxlamaqdadır. Ümumiyyətlə öz həyat tərzlərini babalarımızdan miras qalan adət-ənənələrimizə uyğun şəkildə formalalaşdıran insanlar burada daha fərqlidir. Səmimiyyət, dəyanət, ülviyyət və s. bu kimi hisslər burada yaşayıb, yaradan hər bir kəsin qürur mənbəyidir. Dünənə qədər Əlibayramlı kimi tanınan Şirvan şəhəri də bu bölgənin bir parçasıdır desək yanılmarıq.

Bu şəhər həyat bəxş etdiyi övladlarına daha doğma, daha müqəddəsdir. Bu doğmalıq, müqəddəslik oradakı insanların həyata baxışından, aydin şüur təkamülündən, səmimiyyətindən, sadəliyindən doğan bir haldır. O sevgini, o səmimiyyəti içində yaşadan yaradıcı şəxslər burada daha çoxdur.

Gözəl insan, dəyərli həkim, istedadlı söz adamı və bu bölgənin quruculuğuna, abadlığına yeni nəfəs gətirən Bələdiyyə sədri, şair-publisist, AYB-nin üzvü və “Qızıl

qələm” mükafatı laureatı Əfsəlağa Miraslan oğlu da bu sırada var.

Mirəfsəl müəllimlə inanın ki, heç bir tanışlığım yoxdur. Nə dostluğumuz var, nə də qohumluğumuz. Sadəcə olaraq bu dəyərli vətəndaş haqda dildən-dilə gəzən xoş sözlərin şahidiyik. Bir də onun 2007-ci ildə “Mütərcim” nəşriyyatı tərəfindən buraxılan “Daha üz çevirmək mümkün deyildir” adlı şeirlər kitabı ilə tanışlığım var. Bu kitabı vərəq-vərəq mütaliə etdikcə hiss edirsən ki, Mirəfsəl Təbib həyatın bütün təzadlarına sinə gərərək, içində Azərbaycan boyda sonsuz vətən, yurd, torpaq sevgisi yaşadan, zamanla məkan arasında üzü aydınlı sabahlara doğru bir yol gedən, təbib kimi bir cəmiyyətin sağlam şüur,və sağlam əqidə ilə yaşaması üçün narahat hisslər keçirən, vətən gözəlliklərini zərif duyğulara çevirib ağ vərəqlərə çözələyərək narahat anların yaşayışçısına çevrilib yorulmadan yazıb yaradan vətəndaş bir şairdir.

Qoyma həyatını məhv ola gedə,
Qoru bəbəyintək ləyaqətini.
Yaxşı bir əxlaqın şərtini ödə,
Gözəlim, hifz eylə heysiyyətini.

Dörd misralıq bir bənddə insanlıq dünyasının ən mühüm şərtlərindən ibarət gözəlliklərin dəyərləri ilk olaraq gözə çarpır. Burada ləyaqət, dəyanət, sədaqət, ülviyyət vəhdət yaradır. Öz ağrı-acılarını unudub insanların həyatı üçün narahat hisslər keçirən bir təbib şairin özünməxsus dünyası ilə qarşılaşırsan. Bu müqəddəs təbib dünyasının anlamı, qarşısında ucalan əl çatmaz, ün yetməz bir zirvədir. Bu gün bu zirvədən boylanıb onun

həyat fəaliyyətinə diqqət yetirsək bir çox gərəkli, önəmli, canlı hadisələrin şahidi olarıq.

1990-cı illərin əvvəllərində səriştəsiz insanların hakimiyyətə gəlməsi bir ziyalı kimi Mirəfsəl müəllimi çox narahat etmişdir. Bir tərəfdən daxili çəkişmələrə məruz qalan, digər tərəfdən erməni, rus hərbi birləşmələri tərəfindən işğal olunmuş torpaqlarımız, yüz minlərlə soydaşlarımızın öz doğma yurdundan qaçqın və didərgin düşmələri onun narahatlığının ən böyük səbəblərindən idi. Bu ağrıları yaşayan hər bir vicdanlı Azərbaycan vətəndaşı istər-istəməz həyəcan təbili çalmalı idi. Ona görə də Mirəfsəl müəllim bu məsələlərin həllini-yalnız və yalnız dünya şöhrətli siyasətçi, dövlətçilik təcrübəsininin əsasını dünya dövlətlərinə anlatmış -böyük insan, Azərbaycanın, Türk dünyasının dahi oğlu Heydər Əliyevin Naxçıvandan paytaxta qayıtmasının vacibliyində görürdü. Vətəni yalnız bu bəladan o qurtara bilərdi. Bu münasibətlə Mirəfsəl müəllimin o illərdə həyata keçirdiyi tədbirlər yaddaşlarda qalmış və indi də söylənilməkdədir. Mirəfsəl müəllimin bu günkü həyata baxışı haqda soruşanda o deyir:

— Heydər Əliyev təcrübəsini öyrənib faydalansaq, xalqımızın qüdrətli və müdrik oğlunun həyat və yaradıcılığını dərindən öyrənsək, vətənə, xalqa olan ülvi sevginin nə olduğunu daha dərindən dərk edərik.

Məhz onun nəticəsidir ki, bu günlərdə keçirilən prezident seçkilərində Mirəfsəl müəllim Azərbaycan prezidentliyinə yeganə layiq insan cənab İlham Əliyevin çəkinmədən ictimai yerlərdə fəaliyyətini təbliğ edərək demişdir: “Önəmli xalqın seçimidir”.

Xalq isə öz seçimini etmişdir. Bəli, bu günlər Azərbaycanda yüksək səviyyədə seçkilər keçirilmişdir. Və-

təndaş fəallığını bu seçkilərdə görməmək mümkün deyildi. İnsanlar axın-axın məntəqələrə gəlmiş və rəğbət bəslədikləri, xalqin sevimli oğlu İlham Əliyevə səs vermişlər.

Əsası Heydər Əliyev tərəfindən qoyulmuş hüquqi dövlətimizin günü-gündən daha da çiçəklənməsinə yeni vüsət gətirən cənab prezidentimiz İlham Əliyev tərəfindən və dövlətçilik ənənələrinin layiqincə davam etdirilməsi Azərbaycan xalqının uğurları deməkdir. Bu münasibətlə xalqına, ulu öndərinə və rəhbərinə böyük sevgi bəsləyən Mirəfsəl Təbibə üzümüzü tutaraq deyirik:

— Dövlətçiliyimizin möhkəmləndirilməsi, inkişafı yolunda bəhrə verən xidmətlərinizə görə sizə dərin təşəkkürümüzü bildiririk. Böyük yaradıcılıq uğurları bundan sonra da sizi tərk etməsin.

Qoy, son kitabınız olmasın sizin,
"Daha üz çevirmək mümükün deyildir".
Beləcə, qələmə sarılıb hər vaxt
Torpağı sevindir, çiçəyi güldür.

Baş vur duyğuların sonsuzluğuna,
Daim zirvələrə ucalsın səsin.
Şirinlik, şəkər qat hətta yuxuna
Hörmətin, izzətin heç tükənməsin.

Əqidən, amalın çoxuna örnək,
Hər an özün verdin öz qərarını.
Daha da inamlı, qürurlu görək
Sabaha yol gedən addımlarını.

Noyabr 2008

80 İLƏ LAYİQ ŞƏRƏFLİ ÖMÜR YOLU



Sumqayıt Dövlət Universitetinin akt zalı ağzına kimi dolmuşdur. Hər kəs sevinc həyacanı içərisində idi. Toplantı iştirakçıları Fəlsəfə elmləri doktoru, professor, Azərbaycan Respublikasının Əməkdar müəllimi, gözəl insan, şərəfli bir ömür yolu keçmiş Həsən Sadıqovun 80 illik yubiley tədbirinə qatılmışlar. Tədbir universitet rəhbərliyinin, şəxsən universitetin rektoru hörmətli professsor Nadir Qəhrəmanovun təşəbbüsü ilə şəhər səviyyəsində keçirilirdi. Tədbir üçün Sumqayıt şəhər İcra Hakimiyyəti başçısının adından icra başçısının müavini Ramiz Həsənov, Sumqayıt şəhər Bələdiyyəsinin sədri Əbülfəz Babayev, Qubadlı rayon İcra Hakimiyyətinin başçısı Malik İsaqov, Sumqayıt Şəhər Kommunal Təsərrüfatı Birliyinin baş direktoru Təvəkkül Məmmədov, habelə birlik, müəssisə rəhbərləri, müəllim həmkarları və digər qonaqlar gəlmişdilər.

Professor fəxri kürsüdə xüsusi məmnunluqla oturmuşdu. Bu mənzərə daha çox bağbanın bağda illərlə qulluq etdiyi ağacların meyvələrinin necə yetişməsinə tamaşa etməsinə bənzəyirdi.

Tədbiri giriş sözü ilə Sumqayıt Dövlət Universitetinin (SDU) rektoru professor Nadir Qəhrəmanov açdı.

O, çıxışında Həsən müəllimi tədbirli bir ağsaqqal və istedadlı alim, bu illər ərzində universitet kollektivinin və bütövlükdə sumqayıtlıların hörmətini, nüfuzunu qazandığını, eyni zamanda onunla dost münasibətində olduğunu vurğuladı. Sonra Həsən müəllimin həyat və yaradıcılığı ilə bağlı SDU-nun Rus dili kafedrasının müdiri, dosent, professorun dostu və qələm yoldaşı Ramazan Məmmədov yubiley iştirakşılarını məlumatlandırdı.

Həsən müəllim tərtəmiz dağ havasıyla, çınqıllı-daşlı, dərəli-təpəli, zəngin və heyrətamiz yaşıllıqlarla əhatə olunmuş kiçik Qafqaz sıra dağlarının Laçın rayonunun Yeddi bulağından başlayıb, kükrəyib keçən Həkəri çayının üstündə, Azərbaycanın xalq qəhrəmanları Qaçaq Nəbi və Qaçaq Həcərin doğulub boya-başa çatdığı Yuxarı Mollu kəndində dünyaya göz açmışdır.

Həsən müəllimin ailəsi öz saflığı və mərdanəliyi ilə fərqlənmişdir.

Həsən müəllimin uşaqlıq çağları Böyük Vətən müharibəsi ərəfəsinə və dövrünə təsadüf etmişdir. Ehtiyac və çətinliklər o dövrdə yaşayan uşaqlar kimi ondan da yan keçməmişdir. Yaşamaq eşqi, gələcək arzulara qovuşmaq istəyi onu dözümlü etmişdir.

Kiçik yaşlarından zəhmətə alışan Həsən müəllim həm də haqsızlığa qarşı hər zaman barışmaz olmuşdur. Sonralar da həyatın ağrı-acısını çəkmiş Həsən müəllim heç zaman əyilməmiş, çətinliklərə sinə gərərək şərəfli bir ömür yaşamışdır. Professorun xalqının, millətinin təbiətinə xas olan həyata baxışları vardır. O, heç zaman həyatda haqqı nahaqqa dəyişməmiş, hər zaman həyatda öz dəst-xətti olan Həsən Sadıqov olaraq qalmışdır.

1990-cı illərin ilk üç ili Azərbaycan xalqının tarixində çətin, ictimai-siyasi sabitliyi pozulmuş, hakimiyyət-

sizlik dövrü kimi xarakterizə olunur. Hakimiyyəti zorla ələ keçirmiş, ondan əl çəkməyən, cəmiyyətdə öz diqtəsini, iradəsini zor gücünə qəbul etdirmək istəyənlərin mütərəqqi fikrə təzyiq göstərdiyi bir vaxtda xalqımızın qabaqcıl ziyalıları (həmçinin professor Həsən Sadıqov da) özlərində kifayət qədər güc taparaq xalqın iradəsini ifadə etdilər. Azərbaycan xalqının qənaəti isə yekdil və birmənalı idi: Azərbaycanı düşmüş olduğu bəladan yalnız Heydər Əliyev xilas edə bilərdi. Bəli, Azərbaycan xalqının böyük oğlu, dahi şəxsiyyət Heydər Əliyev Bakıya dəvət olundu və nəhayətdə haqq öz yerini tapdı.

H.Sadıqov o zamanlar öz çıxışlarında yüksək tribunalardan qorxub-çəkinmədən H.Əliyevin Bakıya qayıtmasını israrla tələb etmişdir.

Sumqayıtda YAP sıralarına ilk daxil olanlardan biri də Həsən müəllim olmuşdur. Professor qaynar bir ömür yaşamışdır. O, həyatını tamamilə təhsilə, elmi axtarışlara sərf etmişdir. Professor minbir zəhmət hesabına qazandıqlarını gənc nəslə öyrətməkdən zövq alır. Filosof Azərbaycan tarixində fəlsəfi ideyaların təkrarsız nümunələrini yaradan, öz yaradıcılığında ümumbəşəri problemləri, humanizm, xalqlar dostluğu mövqeyindən işıqlandıran tarixi əsərləri ilə Azərbaycanın fikir, söz dünyasında alim olaraq, öz dəst-xətti ilə yeni bir mərhələ açmışdır.

H.Sadıqov və həmkarı Ramazan Məmmədov tərəfindən yazılmış və dünyanın 30-dan çox ölkəsində oxunan "Армяни в Сумгаите" kitabı xalqımız üçün vaxtında yazılmış təqdirəlayiq bir hadisədir, yüzlərlə erməni vəhşiliklərinin təcavüzünə məruz qalmış Azərbaycan xalqı üçün müəlliflər tərəfindən göstərilən borc və qayğının ifadsidir.

Zəmanəsinin qabaqcıl fikir və ideyaları ilə aşılanmış,

geniş yaradıcılıq diapozonuna malik, hərtərəfli hazırlıqlı alim Həsən Sadıqov özünün elmi əsərlərini əsasən azərbaycan və rus dillərində yazaraq hər zaman millimənəvi dəyərlərimizə istinad edən, vətənpərvərliyi, haqq-ədaləti hər kəsə anlatmaqla bərabər, yabançı sözlərin azərbaycan dilinə təsirini azaltmağa çalışan, yeni ədəbi dilimizin möhkəm əsasını yaratmağa müvəffəq olmuş alimlərimizdəndir. Çox hörmətli professorun yaradıcılığında əsas yeri ciddi mənəviyyat formalaşdıran, insanı tarixi kökə, soya qaytaran, sözdə üst qatda deyil, məhz daxildə, əməldə vətəndaşlıq dəyəri yaradan və adamları irəliyə, kamilliyə, qeyrətə və maariflənməyə səsləyən çağırışlar vardır. Professor oxucu auditoriyasının nüfuzunu qazanan şəxsiyyətlərdəndir. Filosofun əsərləri özünə sosial status qazandıra bilmiş və hər zaman onun elmi əsərlərinə müraciət olunmuşdur. Professorun əsərləri bu günkü tarixi özündə əks etdirən yüksək təfəkkürlü, əqli-hissi duyğularla zəngin olaraq xalqı, milləti tərəqqiyə çağıran elmi axtarış nümunələridir.

Çox zərif bir qəlbə, lakin böyük iradəyə malik olan Həsən müəllim "Bəlkə də hər şeyi həqiqətə qurban vermək olar, həqiqət isə həqiqiətdir, onu heç şeyin xətrinə qurban verməzlər" kəlamında deyilənlərə bütün ömrünü həsr etmişdir.

H.Sadıqov Qubadlı, Laçın, Kəlbəcər, Zəngilan və Cəbrayıl bölgələrindən olan yeganə Fəsəfə elmləri doktorudur. Demək olar ki, Həsən Sadıqov şəxsiyyət olaraq təqdirəlayiq böyük bir həyat yolu keçmişdir.

Azərbaycan xalqının Heydər Əliyev dövründə yaşayıb yaratmağıyla fəxr edən professor Həsən Sadıqova həyat dolu sevinc və yaradıcılığında uğurlar diləyirik.

VƏTƏNSİZ YAŞAMAQ OLMUR



Əli müəllim bir zamanlar ağlına belə gətirməzdi ki, çox sevdiyi Azərbaycandan uzaqlarda yaşaya bilər. Amma sən demə, bu insanın taleyinə nə az, nə çox, düz 1987-ci ildən 2002-ci ilədək Rusiya Federasiyasının Başqırdıstan Muxtar Respublikasının Ufa şəhərində yaşamaq da yazılıbmış. Sərbəst düşüncəyə malik, zəhmətsevərliyi, təşəbbüskarlığı ilə hər kəsin diqqətini cəlb edən Əli müəllim təsadüfi deyil ki, tezliklə Ufa şəhər İstehlakçılar Cəmiyyətinin direktor müavini vəzifəsinə təyin edilir. İstehlakçıların hüquqlarının müdafiəsində əlindən gələni əsirgəməyən Əli Mustafayevin işinə son dərəcə məsuliyyətlə yanaşması, tələbkarlığı, eyni zamanda yüksək insani keyfiyyətləri — alicənablığı, insanpərvərliyi onu kollektivin sevimlisinə çevirir. Vətəndən uzaqlarda çalışan həmyerliləri ilə də daim qaynayıb-qarışan Əli müəllim köməyə, ehtiyacı olanlardan heç vaxt yardımını əsirgəməyib.

Vətən həsrəti nə qədər böyük olsa da, ucsuz-bucaqsız, yamyaşıl meşələrə bürünən, təbiətin füsunkar gözəlliyi ilə əhatə olunan Ufa şəhəri qürbət taleyi yaşayanların könüllərindəki nisgili ovundurmağı bacarır. Şəhərə özünəməxsus bir əzəmət bəxş edən “Belaya reka” çayı, şəffaf suyu, dadlı balıqları ilə şöhrət qazanan “Ufimka”

çayı insanların ən çox üz tutduqları gözəl istirahət məkanlarıdır. Təsadüfi deyil ki, bu yerləri Rusiyanın İsveçrəsi adlandırırlar.

Əli müəllimin təbiəti də bu çaylara bənzəyir desək yanılmarıq. Zahirən nə qədər sakit görünsə də, daxili o qədər təlatümlü, narahatdır. Elə buna görədir ki, bu gözəlliklər içərisində yaşamasına, işi-gücü başından aşmasına baxmayaraq o, vurğunu olduğu Azərbaycandan uzaqlarda rahatlıq tapa bilmirdi. Övladları Nizami və Sənan ona nə qədər təskinlik versələr də, yenə də o vətən, el-oba ücün darıxırdı. Belə anlarda köməyinə hər zaman olduğu kimi ailəvi dostluq etdiyi həmvətənləri çatırdı. Goranboy rayonunda dünyaya göz açmış, taleyini Ufa şəhəri ilə bağlamış tibb elmləri doktoru, professor Camal Mehdiyev, əslən Qubadlıdan olan, Ufa şəhərinin Oktyabr rayon milis idarəsinin cinayət-axtarış şöbəsinin rəisi vəzifəsində çalışan Nizami Məmmədov kimi azərbaycanlılarla fəxr edən Əli müəllim vətən həsrətini onlarla bölüşür, "Vallah qardaşlar, vətənsiz yaşamaq olmur"— deyirdi. Əli müəllimin ürəyi qübar edəndə maşına əyləşib "Belaya reka" çayının kənarına gələrdi. Bu dəfə də belə oldu: sakit axan çaya baxa-baxa "bizim dağ çaylarının, Kürümüzün, xan Arazımızın yerini vermir bu çay"— deyə düşünürdü. Sakit axan çaya tamaşa edə-edə xəyalı onu uzaqlara aparırdı...

Əli Mustafayaev 1952-ci ilin fevral ayının sərt qış günlərindən birində Beyləqan rayonunun Təzəkənd kəndində anadan olub. İki qızdan sonra ailədə oğlan uşağının dünyaya gəlməsi valideynlərinin hədsiz sevincinə səbəb olmuşdu. Əlinin iki yaşı olarkən ailəsi Saatlı rayonunun Hacıqasımlı kəndinə köçür. Tanrı 5 qız, 2 oğlan övladının bəxş etdiyi bu böyük ailədən ruzisini da

heç vaxt əsirgəməmişdi.

Əli orta məktəbi Saatlıda bitirir. Məktəb illərində ciddiliyi, nizam-intizamlılığı, dərslərə həmişə hazırlıqlı olması, oxumağa çox həvəs göstərməsi müəllimlərində və valideynlərində onun gələcəyinə böyük ümidlər oyadırdı. Əli bu ümidləri döğruldur. O, 1969-cu ildə Ç.İldırım adına Azərbaycan Politexnik İnstitutunun Memarlıq fakültəsinə daxil olur. İnstitutu müvəffəqiyyətlə bitirən Əlini təyinatla Sverdlovsk şəhərinə göndərirlər. O, burada Giprodur Mədən İnstitutunda memar işləyir. Təyinat müddəti bitdikdən sonra Azərbaycana qayıdır. 1977-ci ildən 1987-ci ildək Kənd Təsərrüfatı Nazirliyində mühəndis vəzifəsində çalışır. Əmək fəaliyyətini Saatlı rayonlararası Qaz Təmir-Tikinti İdarəsində aparıcı mühəndis kimi davam etdirir. Onu da demək yerinə düşər ki, Saatlı, Sabirabad rayonlarının qazla təminatında Əli Mustafayevin xidmətləri az olmayıb. Mühəndis-texniki sənədlərin hazırlanması üzərində gərgin işləyən, gecə-gündüz çalışaraq layihənin təsdiqinə nail olan Əli müəllimin sevincinin həddi-hüdudu yox idi. Axı, doğma Saatlı, Sabirabad rayonlarının mavi yanacaqla təchizatında, əhalinin həyat şəraitinin yaxşılaşmasında onun da böyük əməyi olmuşdur. O, "sağ ol" eşitmək, mükafat almaq üçün can yandırmırdı. Ə.Mustafayev çəkdiyi bütün əziyyəti özünün vəzifə, ən başlıcası isə insanlıq borcu sayırdı. Ancaq o zaman Saatlı rayon Partiya Komitəsinin birinci katibi vəzifəsini tutan şəxsdən gördüyü haqsızlıq onu çox sarsıdır. Əli müəllimi vəzifəsindən azad edib yerinə öz bacısı oğlunu təyin edən bu rəhbər işçinin ədalətsiz hərəkəti onun bütün həyatını tamam dəyişir. O taleyindən, vətənindən küsərək uzaqlara üz tutur...

Əli müəllim xayallardan ayılır: "Mənə bax, məgər vətən bir neçə kəsdən ibarətdir? Vətən bütövlükdə Azərbaycan xalqınındır. Şükürlər olsun ki, müstəqil Azərbaycan dövlətimiz var. Deməli yaşamağa dəyər!"

Bu inamla Ə.Mustafayev heç nəyə heyfislənmədən 2002-ci ilin sonlarında Ufa şəhərindən ayrılır. Ailəsi ilə bərabər doğma Azərbaycana qayıdır. Hazırda o, sahibkarlıq fəaliyyəti ilə məşğuldur. Layiqli ailə başçısı olan Əli müəllimin 2 oğlu, 2 qızı, 9 nəvəsi var. Övladlarına gözəl tərbiyə verən atanın indi onlarla fəxr etməyə doğrudan da haqqı var. Əli müəllimdən soruşanda ki, Azərbaycana dönməyindən peşiman deyilsən ki? Cavabı bu olur: Başqa ölkənin padşahı olmaqdansa, öz məmləkətinin qulu olmaq daha yaxşıdır. Bu gün dövlət başçısı İlham Əliyevin inamla apardığı islahatlar öz bəhrəsini verməkdədir. Uğurlarımız bir vətəndaş olaraq məni çox sevindirir. Xalqımın işıqlı gələcəyi mənim və övladlarımın sabahı, gələcəyidir. İnanın ki, vətənsiz yaşamaq bir heçdir".

...Hardan gəldi bu sevda

(Lirik povest)

"HƏR SEVDA BİR SEVGİ OLA BİLMƏZ"

(Ön söz əvəzi)

Məhəbbət insanın özünü
başqasında tapmasıdır.
Hegel

İnsanlar arasında ünsiyyət hələ heç də mənlər arasında ünsiyyət deyil. Qəlblərin təması ünsiyyətin ən ali formasıdır.

Qəlbin səsinə qulaq asmaq nə deməkdir? Daha dəqiq desək, qəlb hansı vəziyyətdə olduqda onun hökmünə qulaq asmaq olar? Axı adam gündəlik qayğılardan, cismani cazibələrdən tam xilas ola bilməyibsə, onun qəlbi haqqı göstərə bilməz. Əvvəlcə qəlbin təmizlənməsi lazımdır. Ağlına güvənənlər hər şeyi özləri ölçüb-biçmək və (düzgün) qərar qəbul etmək iqtidarındadırlar. Lakin, sən saydığını say, gör fələk nə sayır.

Qönçə idim, gül oldum,
Boy atdım sünbül oldum,
Bir dilbilməz quş idim
Oxudum bülbül oldum.

Və bülbül gül həsrətiylə yanmağa başlayır. Yeniyetmənin könlündə əks-cinsdən olan ideal obraz yaranır. Bu da əslində genetik olaraq ötürülmüş hissiyatdır. Əlbəttə, bu obraz hələ tam formalaşmamışdır. Amma fərqi yoxdur. Yeniyetmə özü də bilmədən kənarda bu obrazın gerçəyini axtarır. Və hər hansı bir təsadüf, gerçəyin hər hansı bir əlamətinin bu obraza uyğun gəlməsi, yeniyetmədə axtardığını tapmaq duyğusu tam eyniyyət

əminliyi yaradır. Bu möhtəşəm və əsrarəngiz duyğudur. Bundan sonra yeniyetməni inandırmaq çətindir ki, bu gerçək əslində onun ideyalından çox fərqlidir. Çünki o, daha gerçəyi deyil, onun simasında öz idealını görür (ilk məhəbbət kor olar) və bu aldadıcı eyniyyət duyğusunun parçalanması üçün neçə-neçə faktların möhkəm zərbələri ilə üzləşmək lazım gəlir. Ağıl deyir ki, bu o deyil. Amma qəlb yenə də görmək istədiyini görür.

Müəllifdən

* * *

Gecədən xeyli keçməsinə baxmayaraq Fərid hələ yatmamşıdı. Gözlərini otağın tavanına zilləyib həyacandan özünə yer tapa bilmirdi. Həyatında birinci dəfə idi ki, insani gözəllik qarşısında beləcə təsirlənmişdi. Universitetin dayanacağında eyni vaxtda gördüyü qızı ilk dəfə idi ki, çox yaxından görürdü. Gözlərini geniş açaraq qıza heyranlıqla baxdığını qız da hiss etmişdi. Fərid isə qızın yanından maşınını sürərək uzaqlaşdı. Yox, deyərdim ki, maşın onu bu vəziyyətdən qurtarmışdır. İndi bu ötənlərin hesabını içindən keçirən Fərid, onunla nələr baş verdiyini anlamağa çalışırdı.

Fərid Bakı Dövlət Universitetinin sonuncu kursunda oxuyurdu. O, imkanlı ailədən olsa da ağıllı və çox sadə bir gənc idi. Özünü gələcəyin hörmətli və savadlı bir hüquqşünası kimi görmək istəyirdi. Anası Validə xanım həkim idi. Həkim-kardioloq çalışan Validə xanımın xəstələri onu ürəklərinin dostu və sirdaşı kimi qəbul edirdilər. Atası Mahmud Respublikanın Xarici Siyasət idarəsində mühüm vəzifədə çalışırdı. Mərdliyi və işgüzarlığı ilə diplomatlar arasında "sirdaş atası" kimi ləqəb qazanmışdır. Ən aqressiv adam belə ona hörmətlə müraciət edər və onunla ünsiyyətdən rahatlanar, istədiyini aldığına görə minnətdarlıq hissi ilə ayrılardı.

Fərid ailənin yeganə övladı idi. Uşaqlıqdan sərbəst böyüyən Fərid özündən böyüklərin xüsusiyyətlərini özündə cəmləşdirmişdi. Hamı onu hələ uşaq vaxtlarından "ağsaqqal" deyə çağırırdı. Ata-ana və övlad ailədə üç dost idilər...

Hər baxışda bir məna görən Fərid tez yaxına gələr, yardımçı olmağa çalışardı. Universitetdə təhsil aldığı qrupda on altı oğlan, doqquz qız təhsil alırdı.

O, qrupda hər kəslə bir dost, bir sirrdaş olmağa çalışırdı. Əsasən də qızların sevimli dostu idi. Az qala qızlar ən kiçik sirlərini belə, onunla bölüşdürər, ondan məsləhət alardılar. Gördüklərini və eşitdiklərini ağlının süzgəcindən keçirən Fərid sanki gənclik dövrünü yaşamır, yaşadıqlarını isə xüsusi proqrama uyğun bir çərçivəyə sığışdırmışdır. Hətta, bir gün gecə şənliyindən qayıdan Fərid qrup yoldaşı Solmazı evlərinə ötürməli olur. Solmazın hündürboyu, ağbənizi, şabalıdı saçları vardı. Dəyirmi sifətinə iri göy gözləri və uzun qara kirpikləri xüsusi gözəllik verirdi. Bu illər ərzində müəllimtələbə münasibətində və yoldaşları arasında bir dəfə də olsun hörmətsizlik yaratmamışdır. Fəridə qarşı xüsusi rəğbətlə yanaşan Solmaz onunla danışanda sifəti allanar, səsini qaldırmadan pıçıltıyla danışardı. Fərid isə buna əhəmiyyət verməz, hərdən deyərdi: — Solmaz nə olub, dilini pişik aparıb?

Solmaz isə çiyinlərini qaldırıb pıçıltı ilə: — bəlkə də — deyərdi.

Fəridin maşını Solmazgilin evinə yaxınlaşanda o yenə də sakit-sakit Fəridə: — maşını beş dəqiqəliyə saxlaya bilərsənmi?— dedi.

Fərid maşını yolun sağına çəkərək saxladı və səbirsizliklə: — Nə olub Solmaz, gecə şənliyində kimsə xətrinə dəyib?

— Yox, Fərid, illərlə məni sıxan bir fikri sənlə bölüşmək istəyirəm. Ancaq bilmirəm buna daxili gücüm çatacaqmı?

— Solmaz, uşaqlarla dil-dil ötürsən, məni görəndə isə elə bil lal olursan, danış görək!

— Bilmirəm necə deyim.

— Ay qız, bir danış görək... Bu qız məni lap hövsələ-

dən çıxarır!

— Fərid, qurban olum, gəl sıxma məni, lazım deyil, elə bilməsən yaxşıdır.

Fərid bir az da coşdu:

— Solmaz, məni əsəbləşdirmə. De görüm nə olub?

Solmazın göy gözləri dolmuş, sanki söz deməyə gücü qalmamışdı. Yavaş-yavaş onun hıçqırığını hiss edən Fərid ona sarı dönüb sakitcə:

— Solmaz, bilirsən, mən sənin xətrini dünyalar qədər istəyirəm. Mənə də sözünü deməyib, bəs kimə deyəcəksən?

Sonra da zarafatyana:

— Ağzının-burnunun suyunu niyə selə döndərirsən?

Fərid cibindən dəsmalını çıxarıb Solmazın gözünün yaşını sildi, yüngülcə çiyninə toxundu və: möhkəm ol — dedi.

Somaz birdən dözməyib elə bil ürəyində yığılıb qalmış dərd yükünü yerə qoydu. Ağlaya-ağlaya birnəfəsə:

— Mən bu illəri biləsən ki, sənsiz səninlə olmuşam. Gələcək həyatımı sənsiz təsəvvür edə bilmirəm. Sənin sağlamlığın, xoşbəxtliyin üçün həyatımı qurban verməyə hazıram. Heç bir dostum olmadığından sənə olan hisslərimi kimsəylə bölüşdürə bilməmişəm. Bu da Allahın bir qisməti idi ki, sən özün məni evimizə ötürməli oldun— deyərək maşının qapısın açıb evlərinə tərəf qaçmağa başladı.

Fərid elə bil şoka düşmüşdü. Bir müddət yerində donub qaldı. Sonra əlini üzünə, alnına sürtərək özün ayıltmağa çalışdı. Maşını sürərək iti addımlarla addımlayan Solmazın yanında saxlayıb onun qolundan tutaraq:

— Solmaz, sən lap dəli olmusan. Mən səni bacım bilirəm. Ağıllı ol bir az...

Solmaz qolunu Fəridin əlindən qopararaq uca səslə: — Mən sənin bacın-zadın deyiləm, bildin! Mən səni!.. Mən səni!.. — hönkürə, hönkürə uzaqlaşdı.

Səhəri Solmaz dərsə gəlməmişdi. Üç gündən sonra dərsə gələn Solmazı heç kim tanımadı. Fərid isə öz fikrindən dönməmişdi.

Fərid yenə də maşını astadan sürərək Politexnik institutunun dayanacağının yanından keçdiyi zaman yenə də o qızı görür. O, maşından düşərək dayanacağa sarı yaxınlaşır. Bu zaman orada dayanan o gözəl qız Fəridə sarı gələrək köhnə tanışlar kimi əl uzadaraq:

— Zülfünazdır adım — deyərək özünü təqdim edir.

Zülfünazın gözəl çöhrəsi və qaməti qarşısında tab gətirə bilməyən Fərid qızın bu jestinə dözməyib az qala özünü itirmişdi. Qızın bir az da mülayim münasibəti Fəridin bir aydan artıq ona olan münasibətinin gerçəkləşməsinə bir fürsət idi. O, ilk dəfədən Zülfünazı evlərinə ötürmək istəyində olduğunu bildirdi. Zülfünaz maşına yaxınlaşaraq gözünün ucuyla Fəridin qız kimi utancaqlıqdan allanan sifətinə baxaraq maşına oturdu. Qız sanki mahir bir oyunçu kimi Fəridin xasiyyətini tutmuşdu...

Fərid gecəni səhərə açıq gözlərilə açdı. Zülfünazın zərif əlindən keçən istilik sanki elektrik cərəyanı kimi ürəyinə adlamışdır. Fərid ömründə birinci dəfə idi ki, özünü belə zəif və məsum hiss edirdi. İdmanın Karate növü ilə iki dəfə respublika çempionu olan Fərid, heç vaxt bu qədər aciz olmamışdı. Qarayanız, suyu şirin Fəridin bənizi ağarmış, halsızlığı hiss olunurdu. Anası Validə xanım oğlunun səhər-səhər bu halına dözməyib:— Fərid, qurban olum, nə olub sənə? Xəstələnməmisən ki? — deyə narahatlıqla soruşdu.

— Heç, ana, bir az halsızlaşmışam.

— Bəlkə bir spazmagen həbi qəbul edəsən?

— Ehtiyac yoxdur, bilirsən ki, dərman qəbul etməyi sevmirəm.

— Bala, özünə bax. Özünü pis hiss edirsənsə həkimdən arayış ala bilərəm.

— Yox ana, keçib gedər, sonuncu kursdur, dərs buraxmaq istəmirəm. Dərsə getsəm daha yaxşı olar.

Səhər yeməyinə otursa da boğazından bir şey keçmədi. Dodağı çay stəkanında fikir onu Zülfünaz ilə olan ilk görüşünə çəkirdi. Bu onun ilk sevgisi, ilk görüşü idi. Bu gözəl qız Fəridi yamanca sehirləmişdi. Doğrudan Zülfünazda qeyri-adi bir gözəllik var idi. Boyu-buxunu, duruşu, baxışı, şirin-şirin gülüşü, hətta ağappaq saf dişlərinin parıldaması belə Zülfünaza xüsusi gözəllik verirdi. O isə gözəlliyindən çox məmnun idi. Bu cür gözəllik qarşısında bağlı qapılar belə öz-özünə açılardı. Dünənki görüşdə Fərid özünü itirdiyindən heç danışa da bilməmişdi. Zülfünaz ordan-burdan danışır, o isə elə bil nağıllar aləminə düşmüşdür, aylarla qovuşmaq həsrətində olduğu qız özüdə gözləmədən lap ovcunun içinə düşmüşdü. Qızı evlərinin yanında düşürəndə həyacandan güclə "sağ ol" deyə bilmişdi. Sabah harada, nə zaman görüşəcəklərini belə unutmuşdu.

Bütün dərsboyu Fərid susmuşdu. Elə bil dərsdə yox, hansısa bir göylərdə, çəkisizlik aləmində idi. Qrup yoldaşı Eldarın səsi onu ayıltdı:

— Fərid, xeyir ola, xəyalların göylərdə uçur, olmaya vurlmusan?

Nadir isə: — o fərasət onda olsaydı nə var idi. Bu işlərdə mən onu yaxşı tanıyıram.

Həbib müdaxilə etdi:

— Uşaqla işiniz olmasın...

Dərsin başa çatmasını eşidəndə Fərid sevindi. Kitab-dəftərini yığışdırıb çantaya qoyaraq qapıdan çıxdı. Gəlib maşına oturub mühərriki işə saldı. O, bir az düşünüb maşını sürərək universitetin həyətindən H.Cavid prospektinə çıxaraq sağa döndü. Dayanacağın yaxınlığında maşını saxladı. Ürəyi az qala dayanacaqdı. Zülfünaz yeni qiyafədə çox gözəl görünürdü. Qızın gülümsəməyi gözəl çöhrəsinə bir az da yaraşıq verirdi. Fərid özü-özünü tanıya bilmirdi. O bu zərif qızın əlində aciz qalmışdı. Özü də necə...

Zülfünaz maşına yaxınlaşdı və Fəridin donub qalan üzünə sarı əlini sağa-sola yellədərək:

— Fərid, nə baxırsan? Qapını aç.

Fərid sanki yuxudan ayıldı. Uşaq kimi sevincək düşüb maşının qapısını açdı: — Buyurun.

Zülfünaz maşına əyləşdikdən sonra:

— Fərid, necəsən, canım?

— Sağ ol, Zülfünaz. Sən necəsən?

— Mən əlayam. Sən isə gözümə bir təhər dəyirsən.

— Mən deyəsən bir az halsızlamışam.

— Belə şeylər olur, üzülmə. Mən qoymaram sən xəstələnəsən. Deyirəm bəlkə, bir yerdə əyləşib yemək yeyək, həm də bir az söhbət edərik.

— Olar, niyə də olmasın. Biz artıq tanışıq.

Fərid ürəyində: — Zalım qızı, tanış nədir, ölürəm e sənin üçün...

Onlar Bulvara “Mirvari” kafesinə gəldilər. Əyləşdilər. Zülfünaz Fəridin həyacandan danışa bilmədiyini hiss edib sükutu pozdu:

— Fərid, niyə bu yeri seçdin?

Fərid tutula-tutula: — bilirsən bura açıqlıqdı, həm də dəniz adamın zövqünü oxşayır.

— Heç mən bilməzdim ki, sən bu qədər romantik oğ-

lansan.

— Düz deyirsən. Uşaqlıqdan təbiət vurğunu olmuşam. Atam məni özüylə həmişə dağlara, meşələrə ova aparıb.

— Fərid, sənin ovçuluğunda varmış, başımıza xeyir— deyərək gülümsədi.

— Hə, pis nişan almıram...

Bu zaman isti kabab gətirdilər. Zülfünaz nə qədər iştahla yeyirdisə, Fərid həyacandan tikəsini güclə udurdu.

Yeyə-yeyə Zülfünaz birdən:

— Fərid, yeməklə oynamaq olmaz, çörək onda adamdan küsər.

Fərid bir az qımışıb:

— Düz deyirsən— deyərək yeməyini yeyinləşdirdi.

— Bax belə, qadasın alım. Bəs, anası balasına öyrətməyib iştahla yeməyi — deyəndə ikisidə bir-birinə baxıb şaqqanaq çəkib gülüşdülər.

Zülfünazın Fəridə nisbətən bir az şıltaq, bir az da açıq olması arada olan münasibəti bir az da yaxınlaşdırırdı. Fəridin ona olan münasibətini bilə-bilə Zülfünaz söhbəti ordan-burdan açır, onu bir az da sıxıntıda saxlayırdı. Onlar hansı ali məktəbdə təhsil almaqlarından, qrup yoldaşlarından bəhs edərək uzun-uzadı danışdılar. Fərid restoranda hesabı kəsərək masaya qayıtdı və sonra təklif etdi:

— İstəyirsən bir az sahildə gəzişək?

— Problem yoxdur, gəzişək.

Onlar bulvarboyu gəzişir, qağayıların uçuşuna baxır, uzaqlarda lövbər salmış gəmiləri seyr edirdilər.

Bu il yaz vaxtından qabaq gəlmişdi. Havaların qızması insanlara xoş əhval-ruhiyyə gətirmişdi. Yaz bütün

zamanlarda insanları qəflət yuxusundan ayıraraq onları hərəkətə gətirmişdir.

Zülfünaz bir qız şıltaqlığı ilə:

— Üşüdüm, olar Fərid müəllimin qoluna girim?— deyib Fəridin qoluna girdi.

Fəridin aylarla düşündükləri, əlçatmaz arzuları bir neçə gündə gerçəkləşmişdi. Fəridin daxili həyacanı onun istədiyini, Zülfünazı artıq sevdiyini elan etməsinə imkan vermirdi. Bu gün də beləcə keçdi...

Fərid evə qayıdanda elə bil sevginin sevincini yaşayırdı. Üzərində ki, ağır dağı Zülfünazın əliylə qaldırıb kənara qoya bilmişdi. Qızla onun həyatına bir həzinlik, bir doğmalıq gəlmişdi. Bir günlük görüş onun titrəyən qəlbinə bir dünya boyda sevinc gətirmişdi.

Böyük Allahın bir gün bizim könlümüzə və qəlbimizə nələr gətirəcəyini təəssüf ki, biz insanlar anlaya bilmərik. Ulu tanrının böyük qüdrəti, təkcə yerin-göyün, kainatın bizə görk etməsi deyil, onun ağlasığmaz böyüklüyü ruhumuza vəsf etdiyi heç nəylə əvəz oluna bilməyən ilahi sevgidir. O ruh ki, cismindən ayrılarsa can ola bilməz. İlahi sevgi yoxdursa insan oğlu, hətta gözündən ağlayan hər bir canlının yaşadığı həyat mənasız bir sonsuzluqdur. Yaşamağımızın əsl mənası isə yalnız və yalnız ülvi sevgilərimizlə bir-birimizi yaşatmağımızdadır...

Fərid gözünü dünyaya açanda ailəsində saflıq, səmimiyyət, qarşılıqlı hörmət və sevgilərlə dolu bir həyat görmüşdür. Atası Mahmud müəllim ailənin başçısı olmaqla sadiq dostu və təmənnasız sirrdaşı olmuşdur. Fərid onunla düşündüklərini bölüşdürəndə onda bir rahatlıq, bir də gələcəyə inam ümidiylə yaşamaq həvəsi olardı. Anası isə ona həm ana, həm bacı, həm də sirr dostu

idi. Bəli, bu kiçik ailəni böyük bir məhəbbət birləşdirirdi. Bura, insanların inandığı bir ocağı xatırlatmaqla zəhmət, etibar və saflıq üstündə bitən köklü bir ağaca bənzəyirdi. O ağac ki, kökləri acı çəksə də, meyvələri həmişə şirin olardı.

Bu gecəni də başa vurmaq Fərid üçün asan deyildi. Aylarla keçirdiyi həyacanın belə tez bitəcəyinə inanmaq istəmirdi. Deyirlər sevənlərin gözü kor, dili lal olar. Fərid heç Zülfünazın kim olduğunu, ailəsi barədə heç nə soruşmamışdı. Zülfünaz isə fürsət tapıb Fərid haqqında hər şeyi öyrənmişdi.

Bütün gecəni dünənin xəyalıyla yaşayan Fərid, gözləmədən onun qəlbinə hakim kəsilmiş Zülfünazın sadiq quluna çevrilmişdir. Kifayət edərdi ki, Zülfünaz ona zəng edib çağırsın, o isə ayaqyalın onun hüzurunda olmağa belə hazır idi. Bəli, Fəridin ürəyi onu tutmuşdu, onu sevmişdi. Artıq özü də onun olmuşdur. Bu sevgi qarşısında artıq Fəridə nə isə demək mümkün deyildi. Fərid Zülfünazı valideynləri ilə tanış edib xeyir-duaларını almaları barədə düşünürdü...

Gecəni yatmadığından Fəridi səhərə yaxın yuxu aparmışdı. Saat səkkizin yarısını keçirdi. Fərid isə hələ durmamışdı. Anası Validə xanım onun otağının qapısını döyüb:

— Fərid, dur, saat səkkizdir. Dərsə gecikirsən.

Fərid yerində bir az eşələndikdən sonra gözünün ucuyla saata baxdı və tez durub vanna otağına keçdi. Başı bərk ağrıyırdı. Yuxusuzluq onu haldan salmışdı. O ani düşündü ki, duş qəbul etməsə özünə gəlməyəcək. Duş qəbul edib ev xalatında mətbəxə keçdi. Validə xanım artıq qapıdan çıxırdı:

— Fərid, ana qurban, son zamanlar sınıxmısan, ye-

məyinə fikir ver— deyib qapını çöldən örtdü.

Fərid səhər yeməyini yeyib öz otağına qayıtdı. O, qalstuk taxmağı xoşlamazdı. Amma bu gün ən gözəl kostyumunu geyinib qalstuk da taxdı. Universitetə çatanda artıq birinci dərsə gecikmişdi. Fakültənin qarşısında dekan müavini Əli Mustafayevlə qarşılaşdı:

— Fərid, sən də deyəsən gözə gəldin. Səndən çıxmayan iş, nə əcəb gecikmisən, olmaya xəstələnmisən?

— Əli müəllim, həyatımda birinci dəfədir ki, yatıb qalmışam, üzrlü hesab edin.

— Belə şeylər olur, keç içəri. Professora deyərsən mənim xəbərim var.

— Təşəkkür edirəm müəllim, siz həmişəki kimi yenə də mərhəmətlisiniz.

— Neynim ay bala, ömürlük burda qalası deyiləm ki, həyatda bir kimsə başqasına dərdini deməsə, bilə bilməzsən. Hamımız bu dünyaya necə gəlmişiksə eləcə də gedəcəyik. Bir odur ki, hərə bir adla gedir.

— Müəllim, bu uşaqların alqışı sizə bəsdir.

Fərid içəri girəndə professor Namiq Axundzadə mühazirə söyləyirdi. O, salam verib, üzr istədi. Professor Fəridi zəhmətsevər, çalışqan gənc kimi tanıyırdı. Oturmasına başı ilə işarə edib, mühazirəyə davam etdi.

Dərs fasiləsində Fərid başı ağrıdığından başını əlinin üstünə qoyub körpə uşaq kimi gözlərini yumdu. Bu zaman qrup yoldaşları Almaz və Həmidənin bir-biri ilə söhbəti istər -istəməz Fəridin qulağını deşməyə başladı:

— Almaz, Solmazdan xəbərin var?

— Yox, Həmidə, o yazıq qız o gedən getdi. Bir xəbərin varsa danış.

— Mən Solmazın dayısı qızını gördüm. Özü danışdı ki, Solmaz stres keçirib. Əvvəlcə evdə qalıb, sonra xəs-

təxanaya aparıblar.

— Deyirəm e Almaz, harda yaxşı insanlar var, hökmən başlarına bir şey gəlməlidir. Qurban olum Allaha, bütün dərdləri yaxşılara verir. Yazıq qız, nə oldu ona birdən-birə?

— Doğurdan da Həmidə, Solmaz həmişə biz qızların içində ürəyi təmiz, sadə, qayğıkeş olmağıyla seçilib. Ancaq boynumuza alaq ki, Solmaz həm də hamımızdan yaraşıqlı və gözəldi.

— Elədi, onun yerli-yerində olan boy-buxunu, gözqaşı, bədən quruluşu. Adam qızlığı ilə onu görəndə az qala vurulsun.

— Ancaq Həmidə, bu yazıq başı batmamışın nə qədər imkanlı ailələrin oğlanları istəsə də gələn elçiləri geri qaytarıb.

— O qızın nəyisə var. Həmişə qapalı olub. Heç kimlə dostluq etməyib.

— Qoy Allah köməyi olsun, cavandı.

Bu zaman zəng çalındı. Hamı auditoriyaya qayıtdı. Fərid bu söhbətdən yamanca tutulmuşdu. O öz-özünə: — Axı, mən də ona qarşı heç bir hiss olmamışdı?! Yazıq qız... Allah köməyi olsun.

Düşündü ki, aralarında olan söhbəti heç vaxt heç kimə açmayacaqdır. Ən azından ona görə ki, doğrudan da Solmaz həm yaxşı qız, həm də ona olan hisslərə hörmətlə yanaşaraq gələcəkdə insan olaraq onun yolun saxlasın.

Dərsin qurtarmasına baxmayaraq Fərid hələ də partasında uzun-uzun düşüncələrə dalmışdı. Qrup yoldaşı Eldarın səsi onu ayıltdı.

— Fərid, nə olub, dəryada gəmilərin batıb? Niyə oturmusan? Uşaqlar çoxdan gedib.

Fərid heç nə demədən çantasını götürüb auditoriyanı tərk etdi. O, maşını sürərək İnşaat və Memarlıq universitetinin düz qabağına gəldi. Zülfünaz universitetin qapısının ağzında 35-40 yaşlarında hündürboy, yaraşıqlı bir kişi ilə söhbət edirdi. Bu kişi Zülfünazı açıqca süzür və hərdən də nə isə deyib ucadan gülürdü. Zülfünaz hiss etmiş kimi dönüb arxaya baxanda Fəridin maşınını gördü və yaraşıqlı kişiyə nə isə deyib maşına sarı gəldi. Maşının qapısını açaraq oturdu və:

— Salam Fərid, söhbət etdiyim adam bizdə baş müəllim işləyir.

— Mən ki, heç nə soruşmadım.

— Elədir, ancaq bilməyin yaxşıdır.

— Evə tələsmirsən?

— Yox, vaxtım var.

— Onda bərabər yemək yeyək sonra bir plan cızarıq.

— Hə, olar.

Onlar yenə də "Mirvari" kafesinə gəldilər. Zülfünaz balıq yeməklərini xoşladığı üçün yenə də balıq kababı sifariş olundu.

— Fərid, bu kostyum, qalstuk sənə çox yaraşır.

— Sağ ol, elə mənim də bu geyimdən xoşum gəlir. Ancaq qalstuk taxmaqla heç aram yoxdur.

— Niyə? Sənə çox yaraşır.

— Zülfünaz, səndən ayrılandan heç özümdə olmamışam. Fikrim elə sənin yanında olub.

— Elə mənim də. Bilirsən, Fərid, mən sənə çox etibar edirəm. Nə qədər deyib-gülsəm də mənim də özümə görə dərdim var. Sənin kimi yaxşı bir insana rast gəldiyimə görə yaradanıma minnətdaram — deyib dolxsundu.

— Sən tək deyilsən, nə olursa olsun heç zaman səndən ayrılmayacağam. Düzü neçə gündür ürəyimdəkiləri

sənə çatdırmaqda çətinlik çəkirdim. Necə ki, sağam bu dünyada sənin bütün arzularının, istəklərinin həyata keçməsinə çalışacağam. Yetər ki, mənim sevgimə hörmətlə yanaşıb, hisslərimə dəyər verməyi bacarasan.

— Söz verirəm, heç vaxt səndən ayrılmayacağam. Lazım olsa lap qulun olacağam. Açığı, səndən çox xoşum gəlir — deyib əlini Fəridin əlinin üstünə qoydu.

Fərid sanki göylərdə uçurdu. O da sevincdən dolmuşdu. Birdən Zülfünaz:

— Fərid, balığımız buza dönüb ki, sən ye mən də yeyim.

İkisi də iştahla yeməyə başladılar. Artıq onlar rahat idilər. Hər ikisi onları sıxan yükü yerə qoyub rahatlaşmışdılar. Yeməklərini yeyib qurtardıqdan sonra əl-ələ verib parka gəzməyə çıxdılar. Fərid bilmirdi nə etsin. Onlar beləcə qol-qola bir-birinə sığınaraq xeyli gəzdilər. Artıq saat axşam səkkizi keçirdi. Fəridin "Toyota" markalı maşınına sarı gəldilər. Zülfünaz artıq qabaqda Fəridin yanında əyləşmişdi. Birdən Fərid:

— İstəyirsən Dağüstü parkdan şəhərə və dənizə tamaşa edək?

— Nə deyirəm. Çox gec olmasın.

Fərid cəld maşını Azneftin yanından Prezident aparatı binasına, oradan isə Dağüstü parka sürdü. Onlar Şəhidlər xiyabanının alt tərəfindən keçərək keçmişdə Kirovun heykəlinin dayandığı yerə qalxdılar. Və birlikdə Bakını seyr etdilər. Zülfünaz Fəridin əllərini tutaraq:

— De görüm, məni lap çox istəyirsən?

— Əzizlərim qədər çox istəyirəm.

— Qurban olum sənə Fərid— deyib onun boynunu qucaqladı.

Fərid özünü itirmişdi. İnana bilmirdi ki, aylarla həs-

rətində olduğu dünya gözəli onun qolları arasında idi. Onlar yanlarından keçən insanların öskürək səsini eşidib özlərini ələ aldılar. Tez oradan aralanıb maşına otuturaraq yollarına davam etdilər. Gənclər heç ayrılmaq istəmirdilər. Metronun Qara Qarayev stansiyasının qabağında Fərid maşını saxladı. Zülfünaz əvəlcə onun üzündən, sonra isə titrəyən dodaqlarından öpüb ayrıldı.

Fərid evdə heç nə yemədən öz otağına çəkildi. Soyunub yatağına uzandı. Bu neçə müddətdə birinci dəfə idi ki, belə rahat yatırdı. Heç nə haqqında düşünmək istəmir, bu günkü günün şirinliyinin dadını belə pozmaq istəmirdi. O, şirin bir yuxuya daldı.

Fəridin səhər yeməyinə erkən oturmasına Validə xanım məəttəl qalmışdı:

— Nə xəbər, Fərid, xeyir ola belə?

— Heç, ana, bir az tez gedəcəyəm.

— Şükür ki, sifətin üstünə gəlib. Fərid tez geyinib evdən çıxdı. Yenə "Qara Qarayev" stansiyasında Zülfünazdan ayrıldıqları yerdə maşını saxlayıb dərindən nəfəs aldı. Bir azdan Zülfünaz evlərinin qarşısında görününcə Fərid maşınından düşüb qapını açdı. Fəridin şux duruşu Zülfünazın gözündən yayınmadı. Həmişə ikiqat dayanan fərid indi dim-dik dayanmışdı.

— Fərid, sabahın xeyir!

— Sabahın xeyir olsun, həyatım!-deyən Fərid özünü çox xoşbəxt hiss etdi. O, maşınının sükanı arxasına oturub motoru işə saldı və yollarına davam etdilər. Yolda Zülfünaz:

— Bilirsən, Fərid, mən axşam bizim gələcəyimiz haqda nələr düşünməmişəm...

— Elə mən də. Ancaq bu gecə birinci dəfə idi ki, rahat yatmışam.

— İstədim sənlə olan münasibətimi anamla bölüşüm. Sonra çəkindim. Düşündüm ki, hələ tezdir.

— Mənim fikrim qətidir. Sən çəkinmədən anana söyləyə bilərsən. Mən yəqin ki, bu günlərdə sənlə olan bağlılığımı anama söyləyəcəm ki, o da atama desin.

— Sən danışdıqca mən rahat oluram. Artıq hiss edirəm ki, bu həyatda tək deyiləm, güvənc yerim, arxam var.

— Var, əlbəttə var. Bəs mən kiməm? Ölənə qədər arxayam sənə.

Onlar artıq Memarlıq və İnşaat Universitetinə çatmışdılar. Fərid maşını saxladı və Zülfünaz sağ ol— deyib maşından uzaqlaşdı.

Beləliklə günlər keçir, gənclər günbəgün bir-birlərinə daha da bağlanırdılar. Fərid Zülfünaz üçün əyin-baş almış, hətta evlərinə telefon da çəkdirmişdi.

Fərid bir gün evə döndükdə anasının üzündən öpüb onunla şəxsi söhbəti olduğunu söylədi. Mahmud müəllim adəti üzrə iş otağına idi. Onlar Fəridin otağına keçib ana-bala dərdləşməyə başladılar:

— Ana, qurban olum, istəyirəm ürəyimi sənə açım. Axı biz dostuq.

— Əlbəttə, Fərid, sən bilirsən atan da, mən də sənin gələcəyin haqqında çox düşünürük.

— Bilirsən, ana, mən Zülfünaz adlı bir qıza vurulmuşam. Bir neçə aydır ki, görüşüb söhbət edirik.

— Xeyirli olsun, bala, ancaq sənə düzünü deyim ki, mən elə bilirdim ki, öz qrupunuzdan birini seçəcəksən. Elə odur ey, nədir qızın adı, sənin vasitənlə anasını ürəyinə görə mənim yanıma gətirmişdi.

— Sən Solmazı deyirsən?— Fərid bir az tutuldu.

— Hə, o qızı, Solmazı deyirəm. Düzü, qız çox xoşu-

ma gəlmişdi. Çox səmimi, gözəl, bir də tərbiyəli olması mənim diqqətimdən yayınmadı. Görünür ziyalı ailəsindəndir.

— Doğrudur ana, Solmazın ata-anası Elmi Tədqiqat İnstitutunda ikisi də elmi işçilərdir. Solmaz onların böyük övladıdır. Lakin anacan, mən Zülfünazı sevmişəm.

— Nə deyirəm. Ancaq bilmirəm bu sevda birdən-birə hardan gəldi başına. Mən heç səndə bunları hiss etməmişəm.

— Düzü özüm də bilmirəm ki, bu sevda hardan gəldi başıma. Bircə onu deyə bilərəm ki, qızı görsən çox bəyənəcəksən.

— Heç olmasa öyrənmisənmi qızın ata-anası kimdi, və nə işlə məşğul olurlar? Ailə necə ailədir?

— Əsas odur ki, mən qızı, qız da məni sevir. Axı ailələri ilə mənim nə işim var?!

— Atalar deyib ki, "Ot kökü üstə bitər", başa düş, sən bizim gözümüzün ağı-qarası bircə oğlumuzsan. Sənin gələcək həyatın bizim üçün hər şeydən vacibdir.

— Ana, mən doğrudan Zülfünazı çox sevirəm. Biz artıq qızla əhd-peyman etmişik. Mən qıza söz vermişəm.

— Nə deyirəm ay oğul, Allah xeyir versin. Heç olmasa öyrən, gör kimlərdəndir?

— Mənim gözəl anam, öyrənərəm, narahat olma.

* * *

İmtahanlara az qalırdı. Solmaz sağalıb dərsə qayıtmışdı. Fərid auditoriyaya girəndə Solmazı gördü və salam verdi. Əhvalını soruşdu.

— Sağ ol, Fərid, şükürlər olsun sağ-salamatıq. Sən

mənə fikir vermə. Hər gün dua etmişəm ki, sənin işlərin yaxşı olsun. Xoşbəxt ol həyatda. Sən buna layiqsən, Fərid. Sənə ürəyimi açdığıma görə məni bağışla. Ancaq bil ki, sənin yolunda hər şeyə — ölümə belə hazıram. Bundan sonra sən mənim çox sevdiyim dostumsan. Dost isə dostu üçün her şeydən keçməyi bacarmalıdır.

Fəridin dili tutulmuşdu, heç nə deyə bilmirdi. Bir elə deyə bildi ki: — Solmaz sən də məni bağışla və bil ki, mən sənin yolunda bir dost kimi hər şeyə hazıram.

Zəngin səsinə onlar ayıldılar və hərə keçib öz yerində əyləşdi. Belə bir qarşılaşmanı Fərid heç ağlına belə gətirmirdi.

Dərsdən sonra Fərid yenə də Zülfünazı qarşılayıb birlikdə yemək yedilər, sonra isə gəzməyə getdilər.

— Zülfünaz, Primorski çimərliyinə sarı gedəkmi?

— Gedək, niyə də yox.

— Zülfünaz, mən anama bizim münasibətimiz barəsində danışmışam. Anamın marağı səni görməkdir. Niyə də gələcək gəlinini görməsin, hə, nə deyirsən?

— Nə deyirəm, sən necə deyirsən elə də olsun.

— Məndən sənin valideynlərini soruşdular. Dedim ki, deyəsən Zülfünaz anasına deyib. Ata-ananın doğrudan xəbəri yoxdur? Düzü səni o qədər istəyirəm ki, heç valideynlərinin kim olduğunu, ailəniz haqqında heç nə soruşmamışam. Bir də mənim üçün əsas sənsən.

Zülfünaz bir az susub, sonra:

— Gərək mən özüm danışaydım. Ancaq bizim münasibətimiz o qədər dərinə gedib ki, düzü həmişə istəmişəm danışam, nədənsə bir az çəkinmişəm.

— Niyə çəkinirsən? Necə var elə də danış. Valideynlərinin kim olmağı, vəziyyətləri məni az düşündürür. Əlbəttə, mən onlara hörmətlə yanaşacağam, onları da va-

lideynlərim kimi qəbul edəcəyəm. Sən bilirsən ki, əlimdə imkanım olsa hətta ulduzları, ayı, günəşi də məcbur edərdim ki, sənə səcdə etsinlər. Həyatım, mən səni çox sevirəm! Sənsiz bu işıqlı dünya mənim üçün bomboş olardı. Zülfünaz Fəridin boynuna sarılaraq onu öpüşlərə qərq etdi. Fəriddə onu qolları arasına alaraq möhkəm-möhkəm özünə sıxdı. Sonra bir az özündən aralayıb təkrar-təkrar öpməyə başladı.

Onlar düşündüklərini unutmuşdular. Fərid artıq Zülfünaza qarşı özündə bir kişi ehtirası duyurdu. Hər dəfə onlar qucaqlaşanda o bir müddət ehtirasdan özünə gələ bilmirdi. Zülfünaz öz dadlı öpüşləri ilə onu məst etmişdi. Fəridə isə həmişəki kimi daxili tərbiyəsi güc gəlmişdi. Onun yerində başqası olsaydı çoxdan cızığından çıxmışdı. Nə isə...

Onlar qayıdıb maşına oturdular və yenə Zülfünaz əyilərək Fəridi öpdü:

— Səndən heç doya bilmirəm — dedi.

— Elə mən də, əzizim. Mənə elə gəlir ki, dünyanın ən xoşbəxt adamı mənəm. Bu qismətimə görə isə Allahıma minnətdaram. Sən çox şirin qızsan, lap bal kimi.

Zülfünaz Fəridə qıyqacı baxaraq ailəsi haqqında danışmağın məqamı çatdığını düşünüb dedi:

— Əgər bilmək istəyirsənsə, atam burada yoxdur. Rusiyada işləyir. Anam isə Metropolitendə çalışır. Məndən başqa bir bacım da var. O da evdədir.

— Mən ki, sənə heç nə demədim. Mənim üçün əsas sən varsan.

Fakt isə bu idi ki, Zülfünazın atası neçə illərdi ki, onlarla yaşamır. Deyilənlərə görə bir rus qadınla evlənib. Bacısı Lalə isə ailə qurandan üç ay sonra evlərinə dönmüşdü. Ailəni saxlayan anası Hüsnü xanım idi. Anaları

göyçək, gözəgəlimli bir qadın idi. Anasının dostluq etdiyi kişi açıq-açığına onlara gəlib gedir, kömək edir, əllərindən tuturdı. Lakin bu imkanlı kişiylə Hüsnü artıq qanlı bıçaq idilər. Qızının ərə gedib qayıtmasının səbəbkarı kimi Hüsnü onu bilirdi. Həqiqətdə də belə olmuşdur. Zülfünazın bacısı Lalə doqquz illiyi bitirdikdən sonra məktəbə getməmişdir. Həmişə evdə qalar, ev işlərinə kömək edərdi. Anasının dostu Müzəffər müəllim (onu belə çağırardılar) evə gəlib-gedəndə qızlarla çox yaxın münasibət qurmuşdu. Onun 40 yaşı ola-olmazdı. Beləliklə o, meylini Hüsnüyə və qızlarına salmışdı. O, onlarda qaldığı gecələrin birində səhər tezdən saat altıda Hüsnü işə getdikdən sonra Laləni aldadaraq anasının yatağına çəkmişdi. Bundan sonra onların arasında "isti" münasibət başlamışdı. İşin üstünün açıldığını hiss edib, tez qıza bir oğlan tapıb evləndirmişdi. Oğlan qızın bakirə olmadığını bildikdə Müzəffər müəllim onu dilə tutaraq heç olmasa üç ay saxlamasını xahiş etmişdi. Oğlandan ayrıldıqdan sonra Lalə dözməyib hamısını anasına danışmışdı. Müzəffər müəllim bu arada Zülfünazı də tora sala bilmişdi. Belə ki, Zülfünaz onuncu sinifi bitirib ali məktəbə qəbul olanda Müzəffər müəllim çox canfəşanlıq etmiş, qıza hətta bir qızıl boyunbağı da almışdı. Bir gün universitetdən çıxarkən gördü ki, Müzəffər müəllim universitetin qarşısında onu gözləyir. Zülfünaz yaxınlaşaraq:

— Xeyir ola, Müzəffər müəllim?

— Heç, burdan keçirdim, döndüm, dedim səni də götürüm.

— Sağ ol— deyib maşına oturdu.

Yolda Müzəffər yüz dollar çıxarıb: — mən ölüm bunu götür — dedi.

Zülfünaz: — çox sağ ol, minnətdaram, — deyib pulu aldı.

— Zülfünaz, deyirəm bəlkə tələbə adını qazanmağını bir "yuyaq", nə deyirsən?

— Nə deyirəm. İstəyirsən belə olsun.

Onlar şəhərdən çıxaraq, şəhər ətrafında olan kafelərdən birinə gəldilər.

* * *

Solmazın Bakı Dövlət Universitetinin hüquq fakültəsinə qəbul olmasının öz tarixi, öz səbəbləri vardır. 1991-ci ildə Azərbaycanımız müstəqilliyə qədəm qoyanda Solmazın dayısı Xalid Məhərrəmov Xarici İşlər Nazirliyində idarə rəisi vəzifəsində çalışırdı. Lakin, yenicə müstəqilliyini elan etmiş Azərbaycanın rəhbərliyi hər kəsi savad və qabiliyyətinə görə yox, keçmiş quruluşa xidmətlərində günahlandırırdı. Xalid müəllim vətənini, xalqını sevən insanlardan biri idi. O, Sovetlər birliyinin siyasi və praktiki həyatına yaxşı bələd olan, siyasi aləmdə tanınan şəxsiyyətlərdən biri idi. Təzə hakimiyyətə can atan insanlar keçmişlə əlaqəni kəsib yeni bir quruluş, yeni həyat qurmaq istəyirdilər. Onlar anlamırdılar ki, biz keçmişimizi bilmədən gələcəyimizi qura bilmərik. Ən əsası isə milli irsi keçmişimizə sadiq olaraq adət-ənənələrimizi yaşatmaq, xalq olaraq milli dəyərlərimizi hər zaman uca tutaraq gələcək nəsilə ötürmək hər birimizin vətəndaşlıq borcumuzdur. Bu vaxtdan Xalq Cəbhəsinin bəzi hakimiyyətdə olan nümayəndələri Sovetlər birliyinin yenicə yarandığı dövrünü nümayiş etdirirdilər. Belə ki, keçmiş hakimiyyətdən incikli olaraq can-fəşanlıq edənləri keçmişdəki kimi matrosu — Milli Bankın idarə heyətinin sədri, traktorçunu isə İqtisadi İnkişaf Nazi-

ri təyin edirdilər. Ona görə də Xalid müəllim kimi insanlar çalışırdı ki, heç olmasa ətrafında olan insanlar öz hüquqlarını bilməkdən ötrü, övladlarına hüquq təhsili versinlər. Bu vaxt Solmazın atası İqtisad elmlər namizədi Murad Mərdanov övladlarına hüquq elminə yiyələnmək istiqaməti vermişdir. Ailədə olan birlik və onları birləşdirən ailə sevgisi hər zaman yumruq kimi birləşməyin təlim və tərbiyəsini öyrətmişdir. Ailə isə özüözlüyündə hakimiyyətin bir təcəssümü, hər hansı bir formasıdır. Bizim ən önəmli arzu və məqsədimiz insanların hüquq və bərabərliyinin təmin edilməsi və demokratik dəyərlərinin bərqərar olunmasıdır. Solmazın qardaşı Hüseyn də keçənilki test imtahanlarından keçərək Azərbaycan Politologiya İnstitutuna qəbul olunmuşdur. Hüseyn hündürboy, enlikürək bir gənc idi. Sərt baxışları hər kəsi yerindən tərpədərdi. Uşaqlıqdan ağır təbiətli, az danışan idi. Onlar evdə bir qardaş bir bacı idilər. Hüseyn Solmazı çox sevərdi. Heç yadına gəlməzdi ki, Solmaz nə vaxtsa üstünə qışqırıb, ya da onu danlayıb. Əksinə analarının atalarına hər zaman cavabı olan "hay can" kəlməsi uşaqlara da keçmişdi. Solmaz Hüseyndən beş yaş böyük olsa da onlar çox yaxın münasibətdə idilər. Onlar uşaq olanda Hüseynin arxa eyvana çıxdığını görməyən Solmaz haray-həşir çəkir, ağlaya-ağlaya: — Ana, ay ana, qaradaşım yoxdur, yəqin eyvandan düşüb — deyib, az qala ürəyi yatacaqdı. Solmazın anası Dilbər xanım tez gəlib Hüseyni arxa eyvandan içəri gətirib: — A bala, özünü niyə öldürürsən qardaşın burdadı: — Solmaz ağlaya-ağlaya duz kimi qardaşını yalamağa başladı: — Qardaşım mənim, sənsiz ölərəm mən. Bilirsən bunu?

Hüseyn də bacısını qucaqlayıb ağlamağa başladı.

Dilbər xanım hər iki övladını qucaqlayıb ürəyində bu sevgini alqışladı. Dilbər xanım öz uzaq qohumu Murad müəllimlə ailə qurmuşdu. Onlar qohum olsa da bir-birlərini tələbəlik illərindən tanımışdılar. Hər ikisi uzaq dağ rayonlarının birindən idilər. Dilbər xanım sifətinə boya çəkməsədə, yanaqları həmişə boyalı kimi görünərdi. Solmazın qaş-gözü və boyu atasına, sifətinin boyalı çöhrəsi və incə cizgiləri anasına çəkmişdi. Ailədə heç zaman yalan söylənilməzdi. Murad müəllim ağır təbiətli ciddi bir insan idi. Hələ cavanlığdan şit zarafatları xoşlamazdı. Bu baxımdan oğlu Hüseyn (rəhmətlik atasının adını oğluna qoymuşdu) elə bil atasının burnundan düşmüşdü. Ancaq bu ciddiliyin arxasında bir ürəyi yumşaqlıq, həlimlik, mərdlik və nəhayət bir insanlıq duyulurdu. Çevrəsində ona "insaflı Murad" təxəllüsü vermişdilər. İnstituta daxil olandan sonra Murad yataqxanada, Dilbər isə dayısıgildə qalırdı. Beş il bir yerdə oxumaqlarına baxmayaraq bir-birilərini istəsələr də özlərini sındırmırdılar, hisslərini qoruyub saxlayaraq yalnız elçi getdikdən, hə cavabı aldıqdan sonra Murad Dilbəri ötürər, ara-sıra söhbət edərdilər. Dilbər Muradın kişiliyə xas olan hərəkətləri ilə fəxr edər, ona çox güvənərdi. Neçə illər bir yerdə ailə qurub yaşasalar da abır-həya pərdəsini götürməmişdilər. Dilbər xanım hər zaman həyat yoldaşı Murad müəllimə ailədə və kənarda hörmət bəsləməklə onu dəyərləndirərdi. Həmişə deyərdi ki, allah onu bizim başımızın üstündən əksik etməsin. Onun böyük ürəyinə qurban olaram. O, bizim ailənin döyünən ürəyidir. Murad müəllim də Dilbər xanımın milli adət-ənənələrimizə hörmətlə yanaşmasını dəyərləndirər, öz xanımı ilə qürur duyardı. Ən azından o, öz ailəsi və uşaqları ilə fəxr edərdi. Valideynlər də, uşaqlar-

da çalışırdılar ki, ailənin sevinc ovqatını pozmasınlar. Ailənin adına zərrə qədər xələl gətirməsinlər. Lakin Solmazın birdən-birə həyatda belə qırılması hər kəsə təsir etmişdi. Birdən-birə qızının stres keçirərək yatağa düşməsinə Murad müəllim dözməyib dəfələrlə keçib vanna otağında ağlamışdı. Əlbəttə ailədə heç kim onun ağlamağını görməmişdi. Solmaz həmişə atasına xüsusi qayğı ilə yanaşardı. Həkim Solmazın bu vəziyyətini keçici gənclik dövrü ilə bağlayırdı. Şükürlər olsun ki, Solmazın vəziyyəti çətin olsa da (az qala havalanmışdı) özünə qayıtdı. Ata, ana sevgisi ilə pərvazlanıb böyüyən bu sülh göyərçininin yenidən yaxşılaşması hamını sevindirirdi. Anası Dilbər xanım, qardaşı Hüseyn ən kiçik işi belə özləri yerinə yetirir az qala onun nazı ilə oynayırdılar. Solmaz səhhətinin düzəldiyini desə də onlar çalışırdılar ki, Solmazı bütün işlərdən azad etsinlər. Solmaz hərdən öz otağına çəkilər tələbəlik illərinə qədəm qoyduğu vaxtdan bəri onunla bağlı hadisələri gündəliyinə yazar, sonra təkrar oxuyub bir həyəcan yaşayardı. Yazılarının demək olar ki, çoxu Fərid ilə bağlı idi. Ürəyini Fəridə açdığı gündən təsirlənən Solmaz yazırdı: — "Əzizim Fərid, həyatımda ilk dəfə sevdiyim insan. Mən düşünməzdim ki, səni sevməyim mənə bu qədər baha başa gələcək. Mən sadəcə səni içimdə sevgi dolu təmiz körpə kimi böyüdüb boyuna baxıb sevinmək istədim. Lakin, nə edim ki, sən layiq olduğumu dəyərləndirib görə bilmədin. Yəqin qismət qədərində deyilmiş. Bağışla Fərid, bağışla ki, mən səni tək başına, səndən xəbərsiz sevdim. Sən məni yalnız bacı kimi sevə bilərsən deyib ağzımdan vurdun. Mən səni sevmədim ki, unudum. Düşünmə asan işdir, inşallah başına gələndən sonra bilərsən ki, məhəbbətin ağrı-acısının bu qədər ağır olacağ-

ını heç bilməmişdim. Boyuna qurban, Fərid, eybi yoxdur, mənə nə olursa olsun, qoy sənə heç nə olmasın. Allah eləməmiş sənə bir şey olarsa bir gün belə yaşamaram. Mən sənin o təmiz, kişi qeyrətli baxışlarını həmişə dəyərləndirmişdim. Sən çox yaxşı oğlansan, bilirsən, sən daha böyük sevgiyə layiqsən. Fərid, mən çox pərişanam, üzgünəm. Ancaq istəyirəm biləsən, sənə olan sevgim qarşılıqlı olmasa da, bu mənim ilk və son sevgim olacaqdır. Allah sənə dəyməsin, təki sən xoşbəxt ol. Ölsəm belə ruhum səninlə olacaq və səni hər zaman qoruyacaqdır. Arxayın ol, heç vaxt yoluna çıxmayacağam, get xoşbəxt ol. Mən bundan yalnız rahat ola bilərəm. Hələlik, mənim Fəridim, sevgisini qazana bilmədiyim insan, hələlik".

* * *

Kafedə istirahət otaqları var idi. Müzəffər müəllim bir lüks otaq sifariş verdi. Zülfünaz və Müzəffər müəllim həmin gün həyatlarında yadda qalan ən gözəl günü keçirdilər. Bir neçə saatdan sonra Müzəffər müəllim Zülfünazı gətirib evlərinin yanında düşürdü. Beləcə onlar üç aydan artıq, Zülfünazın bacısı Lalə üzüqara evlərinə dönənə kimi gözəl günlər keçirdilər. Hər ikisi artıq bir-birinə bağlanmışdı. Lakin Lalənin başına gələnlərdən xəbərdar olduqdan sonra, Zülfünaz da Müzəffər müəllimdən üz çevirmiş, hətta təhqir edib onu yanından qovmuşdu. "Sənin bu qədər alçaq olduğunu bilməmişdim" demişdi.

Bu müvəqqəti ayrılıq zamanında Zülfünazın toruna Fərid düşmüşdü. Ona görə də Zülfünaz onunla tez bir zamanda ailə qurmaq niyyəti ilə yaşayırdı. Fərid Zülfünazdan üç yaş böyük idi. Zülfünazın institutun

qarşısında söhbət etdiyi kişi elə Müzəffər müəllim olmuşdu. Zülfünaz ona Fəridlə nişanlandığını bildirmişdi. Müzəffər nə qədər ailəsindən ayrılıb onunla evlənəcəyini israrla desə də Zülfünaz: — Anamla, bacımla aranda olan o biabırçılıqdan sonra biz bir yerdə ola bilmərik — demişdi. Müzəffər müəllim isə:

— Zülfünaz, mən sənə çox bağlanmışam, heç olmasa qoy hərdən üzünü görüm, bilki sənlə olduğum o ilahi gözəlliyin şirinliyi ilə yaşayacağam.

— Unut məni, xahiş edirəm, unut, mənim gələcək xoşbəxtliyimi əlimdən alma. Bir də məni dediyin qədər çox istəyirsənsə toy günündən bir gün qabaq məni həkimə aparıb qüsurumu aradan götüzdürərsən.

— Baş üstə, yetər ki, məni unutmayasan.

* * *

Artıq yaz ayı başa çatmaqda idi. Son kursda oxuyan tələbələr bir tərəfdən ayrılığın, digər tərəfdan qarşıdan gələn dövlət imtahanlarının necə olacağının həyəcanını yaşayırdılar. Onlar bir-biri ilə çox mehriban, həm də hörmətlə davranırdılar. Budur, artıq iyun ayıdır. Hər kəs həyacan içərisindədir. Dövlət imtahanlarının zəhmi ürəklərini sıxsa da müəllimlərin mehriban davranışı onları ürəkləndirir, fikirlərini cəmləməyə şərait yaradırdı. İmtahanlar başa çatmış, həyəcan sona yetmiş, hər kəsdə qəribə bir rahatlıq hiss olunurdu. Gənclər bir yerə yığışıb məşvərət aparırdılar. Birdən uşaqların arasından bir kövrək, titrək səs eşidildi. Bu uşaqlar arasında çox zəif görünən Həmidənin səsi idi. “Uşaqlar, vallah mən sizdən heç doymamışam, bu illərin necə tez gəlib, keçdiyini heç hiss etmədim” — deyib ağlamağa başladı. Onun bu kövrəkliyi hamıya təsir etdi. Bu zaman həmi-

şəki kimi Eldar gurultulu səs ilə:

— Niyə ürəyimizi üzürsən, Həmidə? Onu da bil ki, hansı oğlanla ailə qurursan qur, Allah səni xoşbəxt eləsin, sözüm yox. Amma nə vaxtsa o köpəkoğlu sənin xətrinə dəysə bil ki, bax bu qardaşın onu "eşşək sudan gələnə qədər" döyməyə hazırdı. Mənim doğma bacım olmasa da siz qızlar bu illər ərzində mənə doğma bacıdan artıq olmusunuz.

Uşaqlar vida gecəsini "Zümrüd" kafesində keçirtməyi qərara aldılar. O gecə çox haylı-küylü keçdi. Onlar tək-tək, qrup halında oynayır, gülür bəzən də qucaqlaşıb ağlayardılar. Lakin bu haylı-küylü gecədə ən sakit görünənlər Fərid və Solmaz idilər. Uşaqlar onların bu hərəkətsizliyini birinin xəstəliyi, digərinin isə xasiyyəti ilə əlaqələndirirdilər. Gənclər onları araya çəkib "Ləzginka" rəqsini sifariş etdilər. Hamı dairə formasında onları dövrəyə alıb rəqs etməyi tələb etdilər və gözlərinə inanmadılar. Fəridlə Solmaz əsil rəqqaslar kim oynayırdılar. Fərid bir qafqazlı kişisi kimi Solmazı müşaət edir, Solmaz isə onun qarşısında su sonası kimi süzürdü. Musiqi bitir, hamı əl çalır, sonra qucaqlaşırlar. Qrupda bir neçə gün bundan əvvəl nişanlanan Almaz və Nadir üçün bir "Nazeləmə" rəqsi sifariş edilir və onlar meydana çıxarıldılar. Bu iki gəncə qrupun böyük hörməti var idi. Oğlanların ara-sıra spirtli içki içmələri məclisi daha da nəşələndirirdi. Qızlar oğlanlara məclisin bitməsinin vacibliyini bildirsələr də oğlanlar getmək fikrində deyildilər. Amma buna baxmayaraq onlar qızların sözünü yerə salmayıb gecəni bağlı elan etdilər. Bu vida gecəsi onları çox kövrəltmişdi. Bir anlıq hamı arxada qalan dörd ilin beləcə tez keçməsinə təəssüflənirdilər. Bu müddət ərzində bir-birindən küsən də olmuşdu,

inciyən də. Ancaq bütün məqamlarda bu qrupun uşaqları yumruq kimi olmuşdular. Kiminsə problemi olarsa bir araya gəlib o məsələni həll etməsəydilər sakitləşməzdilər.

İstəməsələr də elə bil ki, bu gecə ötən illərə bir yekun vururdu. Gənclər xüdahafizləşib ayrılırdılar. Solmaz da Fəridlə xüdahafizləşib əlində tutduğu dəftəri ona uzadaraq: — Fərid, bu mənim xatirə dəftərimdi. İçərisində yazılanların çoxu sənə aid olduğu üçün onu sənə verirəm. Dəftərin arasında bir qurumuş qızıl gül də var. Vərəqləri gül boyda kəsib ora yerləşdirmişəm. Yəqin yadından çıxıb iki il öncə 8 martda mənə bağışlamışdın. Səndən xahiş edirəm, bu dəftəri heç kimə vermə. İstəmədim sənlə bağlı yazdığım bu sözlər belə məndə qalsın, deyirlər düşər-düşməzi olar. Qoy sənlə bağlı hər şey sənin olsun. Özü də mənə yazığın gəlməsin. Arxayın ol, mən qız olsam da, çalışacağam sənə arxa olum. Hələlik Fərid, xoşbəxt ol!

Fəridə bıçaq vursaydın qanı çıxmazdı. Dözməyib, Solmazı qucaqlayaraq: — Bağışla məni — deyib kövrəldi. Sonra əlindən öpüb tez uzaqlaşdı. Həyəcandan əliayağı əsirdi. Həyatda heç kimin xətrinə belə dəyməyən Fərid anlaşılmazlıq nəticəsində Solmazın qəlbini qırdığını özünə bağışlaya bilmirdi. Yenə də "axı sənə qarşı bir şey hiss etməmişən " deyə özü-özünə pıçıldayırdı.

Motoru işə salıb yoluna davam etdi. Sonra nə düşündüsə maşını küçə lampalarının birinin altında saxladı. Solmazın verdiyi xatirə dəftərinin gül olan səhifəsini açıb oxumağa başladı:

— "Fərid, qurban olum, bilirəm ki, acığın gələcək bu hərəkətimdən, ancaq nə edim ki, sənlə bağlı hər şey mənə çox əzizdir. O gün 8 mart qadınlar günü 9 qızıl gül

almışdın. Qrupda olan doqquz qızın hərəsinə 1 qızıl gül verdin. Mən o gül əzilməsin deyə icazə alıb dərsdən evə tez getdim. Sonralar mən evdə o gülə günlərlə nəzarət edərək onu qurudub gündəliyim üçün saxladım. Yadındadır, həmin gün sən qara kostyum, göy köynək geyinmişdin. Bu geyim hündür boyuna və qarayanız şirin simana necə də gözəl yaraşırdı. Hamıya gülə-gülə qızıl gülü təqdim etdin, mənə çatanda isə "bu gül də sənin olsun, ay mənim həmişə susan gülüm,"— deyib əlimi sıxdın. Bilirsən Fərid, həmin an ürəyimdən dəlicəsinə, necə edim ki, əlim ömürlük əlində qalsın, heç zaman ayrılmayaq, məni götürüb dünyanın o başına aparasan arzusu keçdi. Hamımız həmin gün universitetin həyətinə çıxmışdıq. Orada xan çinarın budaqlarında qalan sonuncu qurumuş yarpaqları süzülə-süzülə yerə düşürdü. Sən o yarpaqlardan birini əllərini açıb göydə ovcunda tutdun. İstədim qışqırım deyim ki, o yarpağı buraxma o mənim əlimdir. Amma cəsarətim buna imkan vermədi. Sonra ürəyim sözümə baxmamış, yıxılmışdım. Eşitdiyimə görə sən də bərk qorxmusan, tez qaçıb mənə su gətirmisən. Heyf ki, həmin gün yıxılmağımın səbəbini heç kim bilməyəcəkdir. Mən isə ürəyimi sıxan səbəbi heç kimlə bölmək fikrində deyildim. Kaş, həmin gün ürəyim dayanaydı bu günü görməyəydim. Heyf, çox heyf. Hələlik, qurban olum, təki Allah sənə dəyməsin!"

Fəridin Solmaza lap yazığı gəldi, istədi ki, qayıdıb yenidən üzr istəsin. Universitetin həyətində Solmazın yıxıldığını və xan çinarın yarpağını tutarkən necə həyəcanlandığını gözləri ilə görmüşdü. Amma bu xatirə dəftəri bütün olanları sanki kino lenti kimi ona yenidən hər şeyi xatırlatdı.

* * *

Səhər-səhər Validə xanım telefonda Zülfünazın səsini tanıdı və hal-əhval tutduqdan sonra:

— Hə, bu dəqiqə Fəridi çağırıram— dedi. Fərid yuxulu-yuxulu telefonun dəstəyini qaldırdı.

— Hə, Zülfünaz, lap yatıb qalmışam e bağışla.

— Ayə Fərid, bağışlamaq elə bilirsən asan işdir? Sən bunun səbəbini mənə aydınlaşdırmalısan. Mən bütün gecəni yatmayıb yatağımda səni düşünmüşəm, səndə deyirsən bağışla. Heyf ki, yanımda olmamısan. Yaxşıca aşının suyunu verərdim.

— Ay dəli, mən bu yolda özümü çoxdan qeyb etmişəm. Artıq bütün həyatım sənin əlindədir. Qalan həyatımın necə olacağı isə sənin vicdanından, insafından asılıdır.

— Sən mənə insaf və vicdan fəlsəfəsindən dərs keçmə, tez gəl, səni gözləyirəm.

— Baş üstə, həyatım, artıq ucuram.

Fərid tez əynini geyinib evdən çıxdı. Artıq maşın Zülfünazgilin evinin qarşısında dayanmışdı. Zülfünaz Fəridin ona aldığı yazlıq paltarında lap tovuzquşuna bənzəyirdi. Başını dim-dik tutmuşdu. Elə bil gözəlliyindən ləzzət alırdı. Tellərini gözünün üstünə tökmüş, hərdən-birdən də gözünün üzərinə tökülən tellərini sağa-sola üfüləyirdi. Kənardan diqqət etsəydin elə bil qız hər kəsə gözəlliyi ilə meydan oxuyurdu. Fəridin gözündən bu abı-hava yayınmadı. Qapını açdı, qız oturandan sonra: — Sən bu gözəlliyinlə yoldan keçənləri dəli eləyərsən ki, — dedi.

— Elə fikrim də budur. İstəyirəm sən başda olmaqla hamını dəli edim, bildin, cavan oğlan? Olmaya qısqandın məni?

— Mən də insanam, niyə olmasın ki?

— Ay dəli, mənim yüz ürəyim yoxdur ki. Vur-tut bir ürəyim var, o da zati-alilələri Fərid müəllimə məxsusdur. Anlada bildimmi?

— Hə, indi deyəsən çatdı.

— Fərid, qurban olum, bu şəhərin içində lap sıxıldım, bəlkə şəhərdən kənara çıxaq?

— Nə deyirəm. Amma birdən gec olar, anan səni danlayar ha.

— Narahat olma, bu gün anam axşam saat 6-dan səhər saat 6-ya kimi işdə olacaq. Sən Allah götür apar məni burdan. Çox sıxıldım.

— Yaxşı Zülfünaz, narahat olma, bu dəqiqə şəhərdən çıxarıq.

Onlar şimala doğru hərəkət edirdilər. Nəhayət Nabran deyilən istirahət və əyləncə məkanına çatdılar. Yolda çimərlik paltarı da almışdılar. "Dostluq" istirahət mərkəzində müdiriyyətin yanına gələrək iki nəfərlik furqon sifariş etdilər. Saat 12 idi. Artıq nahar vaxtı idi. Onlar istirahət mərkəzinin kafesinə yaxınlaşıb təzə balıq sifariş etdilər. Yeməklərini yeyib yenidən furqona qayıtdılar. Paltarlarını dəyişib çimərliyə getdilər. Zülfünazın özünəməxsus bədən quruluşu ətrafdakıları cəlb edirdi. Hər dəfə qız nəfəs alanda, sinəsi qalxıb-endikcə elə bil Fərid həyəcandan tənginəfəs olurdu. Onlar bir az uzandıqdan sonra, dənizdə çimib, qurulanıb nazik paltarlarını üstdən geyinib furqona qayıtdılar. Zülfünaz birdən: — Fərid heç sənin diplomunu yumadıq axı, nə deyirsən, bəlkə bir şey götürəsən?

— Nə götürüm, bilmirəm ki?

— Yeməyimizi yemişik, meyvəmiz də var, bəlkə bir şirin şərab götürəsən.

— Bu dəqiqə gəlirəm — deyib Fərid uzaqlaşdı. Yarım saatdan sonra təbii sok və şərabla qayıtdı. Furqonda, stolun üstündə bir şirinlik stolu düzəldib oturdular. Zülfünaz özünü çox sərbəst aparırdı. Fərid qədəhlərə şərab və təbii sok süzdü. Zülfünaz birinci qədəhi qaldırıb söz deməyə başladı: — Fərid, əzizim Allah baba səni mənə çox görməsin. Hərdən mənə elə gəlir ki, sən zamanında məni tapmasaydın mən bu qarışıq dünyada məhv olardım. Bu dünya əjdahalarla doludur, hamısı da ağzını açıb gözləyirlər ki, mənim kimi yiyəsiz və məzlumları udsun. Ona görə də bu badəni sənin kimi təmənnasız sevgisinə sadiq bir insanın şərəfinə qaldırıram deyib - Fəridi ürəkdən öpdü.

Hər ikisi içdilər. Danışıb, gülür, lətifələr söyləyirdilər. hərdən də bir-birlərini itələyib yerə yıxırdılar. Çox keçmədi ki, şərab şüşəsini sona qədər içdilər. Zülfünaz hər dəfə Fəridin qədəhini doldurar özü isə az-az içərək nəzarəti əlində saxlayardı və budur heç zaman içməyən Fəridi şərab yamanca tutmuşdu. Zülfünaz da sərxoş olmuşdu. O qurban olum deyə-deyə Fəridin hisslərini oyadır, hərdən də kövrələrək: — İstəyirəm sən mənim olasan, yalnız mənim, təkcə mənim ,bildin, Fərid — deyərdi.

— Mən çoxdan sənin olmuşam, Zülfünaz — deyib Zülfünazı qucaqlayır. Zülfünaz bir az geri çəkilib bayaqdan düymələrini açdığı xalatı birdən-birə əynindən çıxartdı. Xalatdan başqa əynində heçnə olmadığından qızın çılpaq bədəni Fəridi bihuş etdi. Ömründə birinci dəfə idi ki, belə bir ilahi aləmə düşmüşdü. Zülfünazın onu necə soyundurduğunu da hiss etməmişdi. Zülfünaz isə birdən hıçqıra-hıçqıra əgər məni istəyirsənsə xoşbəxt et, heç zaman qollarımın arasından çıx-

mayasan — deyərək Fəridi qucaqlayır. Hər şey bir anda olmuşdu, deyəsən Fəridin ərgənlik bakirəliyi pozulmuşdur. Onlar qan-tərə batmışdılar. Zülfünaz Fəridin qolları arasında yenidən onu öpməyə başladı və birdən Fəriddə bir cəsarət baş qaldırıb, hücuma keçdi. Beləcə bu bir kişi və bir qadın yaxınlaşmasına, yeni bir həyatının başlanğıcına qədəm qoyuldu. Onlar danışmır, ancaq bir-birlərini öpüşlərə qərq edir və biri-birlərinə sarılırdılar. Bir azdan Fəridi Zülfünazın qucağında şirin yuxu aparmışdı. Zülfiyə isə istədiyinə nail olduğu üçün özünü çox xoşbəxt hiss edirdi. Lakin Müzəffər müəllimlə yataqda fərqli gün keçirtmələri yaddından heç cür çıxmırdı. Düşündü, heyf ki, Müzəffər müəllim yaxındakı furqonların birində deyil yoxsa Fəridi beləcə yuxuya verib, onun qolları arasında gizlənməyə qaçardı. Fərid onun gözündə isə bir məzlum körpəyə bənzəyirdi.

* * *

Solmaz, ata-anası və qardaşı Hüseynlə bu yayı Qaxda "İlisuda" dincəlməyi qərara almışdılar. Murad müəllim dördgüz "Mersedes" markalı maşınıyla yola çıxmışdı. 2 saatdan sonra artıq onlar Şamaxıdan yenərək İsmayıllının demək olar ki, yaxınlığında idilər. Yolda maşını saxlayıb yemək yeyir, sərin bulaq suyundan içirdilər. Solmazla Hüseyn isə birlikdə çiçək yığır, ağaclarda yetişmiş meyvələri qoparıb, gətirib ata-analarına verirdilər. Onlar İsmayıllını keçib, Vəndam kəndinə yaxınlaşdılar. Yolun qırağındakı kafenin yanında maşını saxlayıb oturdular. Stola qoyulan təzə qatıq, yağ və qaymaq bir də isti lavaş hamıya ləzzət etmişdi. Murad müəllimin sifariş verdiyi quzu və hinduşka kababları da stolun üstünə gəldi. Onlar süfrənin üstündə olanların

hamısını iştahla yeyib bitirdilər. Hamı bu günki yemək-dən çox məmnun qaldı. Bu bir ildə Murad müəllimin ailəsinin ağır günlərlə bərabər, sevincli günləri də az olmamışdı. Keçən il Hüseyn Prezident yanında Politologiya Akademiyasına qəbul olmuş, Solmaz isə bu il Bakı Dövlət Universitetinin Hüquq fakültəsini bitirmişdir. Hətta, atası Bakının rayon məhkəmələrinin birində Solmaza iş də tapmışdır. O, qızının bir də bədbinləşməsinə imkan verməyəcəyinə söz vermişdi.

Xatirə dəftərini Fəridə verdiyi üçün ürəyində özündən çox razı qalmışdı. Ancaq, bir az peşman idi. Heç olmasa tək olanda dəftəri vərəqləyər, ötüb keçənləri xatırlayırdı. Deyirlər ana ürəyi həssas olur. Dilbər xanım Solmazla olanların səbəbini çoxdan hiss etmişdi. Hələ Solmaz stres keçirən zamanlarda gecələr sayıqlamalarında tez-tez ”Fərid, qurban olum” və ya “Fərid boyuna qurban” deməyi, qızının eşqə düşdüyünü özündə yəqinləşdirmişdi. Lakin, Solmaz anasıyla nə qədər yaxın olsa da bu məsələlərdə çox ehtiyatlı idi. Bir dəfə də olsun hissləri barədə ona heç nə söyləməmişdi. Dilbər xanım qızının bu acılarına dözməyib, dəfələrlə Fəridlə görüşmək istəmişdi. Övladının bu uğursuz sevgisinə biganə qalmayan ana bəzən də öz-özünə danışar, “Ya Rəbbim, axı mənim balam bu cür acıya layiq deyil” — deyib, doluxsunardı. Sonrada Solmazın otağına keçib qızına baş çəkər, üstünü örtər, uşaqlıq illəri ilə bağlı o xoş günləri xatırlayardı. Bir gün Solmazı ən yaraşıqlı paltarını geyinib, özünə bəzək-düzək verərkən görmüşdü. “Bu gün hara gedəcəksiniz, qızım?” — deyə soruşanda Solmaz bir uşaq ürəyaçıqlığı ilə:— Ana, bilirsən bu gün bizim qrupda Fərid adlı bir oğlanın ad günüdür. O, çox səmimi həm də yaxşı oğlandır. Öz saf-

lığı ilə bütün oğlanlardan seçilir, heç zaman qrupda artıq söz danışmaz, çox ağır oğlandı. Maşallah, özü də boylu-buxunludur. Eşitdiyimə görə valideynlərinin sözü ilə durub-oturur. Mən onun gələcəyinə inanıram. Allah ana-atasını ona görə imtahana çəkməsin. Dilim qurusun mən nə düşünürəm. Hə ana, nə isə mən gecikirəm getdim — deyə cavab vermişdi.

O zamanlar heç nəyim fərqinə varmayan Dilbər xanıma indi hər şey gün kimi aydın idi. İndi Solmazın yaxşılaşıb özünə gəlməsi onu bir az rahat etsə də, qızının qəlbinin belə tez qırılması, sevgisinin daşa dəyməsini öz üzərində böyük bir yük kimi hiss edirdi. Bilirdi ki, insanın həyatında silinməz izlər buraxan bu hisslər çoxuna baha başa gəlmişdi.

Murad müəllimin səsi, Dilbər xanımı ayıltdı:— Dilbər, aç artıq gözünü 15 dəqiqədən sonra İlisuda olacağıq, uşaqları da oyat, mən onları oyatmağa qıymıram. Lap uşaq vaxtı olduğu kimi yatıblar.

Dilbər xanım, əliylə övladlarının özünü, saçını sığallaya-sığallaya, oxşaya-oxşaya oyatmağa çalışırdı.

* * *

Fərid Zülfünazı evlərinə çatdırıb səhərə yaxın evə qayıtmışdı. O Zülfünaz ilə aralarında olanlardan hələ də baş açа bilmirdi. Sakitcə qapını açıb barmağının ucunda yeriyərək öz otağına keçdi. Soyunmadan yatağına uzandı. Fərid gözünü açanda artıq 12-ni keçmişdi. Başı ağrayırdı. Dünən olanlar haqqında düşünməyə belə halı yox idi. Evdə heç kim olmadığından keçib çayı qızdırdı. Çayın rəngini bir az tünd edib qurtum-qurtum içməyə başladı. O, yamanca qorxmuşdu. Olanları gələcəkdə valideynlərinə necə anladacağı haqda

düşünürdü. Bu anda telefon zəng çaldı. Fərid qaçıb tələsik dəstəyi qaldırdı:— Alo, haycan, sənsən, Zülfünaz, niyə ağlayırsan?

— Heç özüm də bilmirəm nə edim? Anam bilsə məni öldürəcək, mənə kömək elə Fərid, az qalır ürəyim partlasın. Heç bilməzdim ki, adam sevgisi yolunda hətta,.. qurban versin. Bu mənim səhvimdir, gərək oraya getməyə səni məcbur etməyəydim. Mən səni çox sevirəm, Fərid! Mən öz sevgimin alışqanlığından, bir də sevincimdən sənin qarşında dözə bilmədim. Bilmirəm bundan sonra nə olacaq?! Ancaq onu bilirəm ki, sevgilimin yolunda hər şeydən keçə biləcəyimi özümdə isbat etdim. Bu ürək artıq mənim deyil, səninkidir, Fərid.

— Yox, günah səndə deyil, məndədir. Gərək mən dözməyi bacaraydım. Mən sənə xəyanət etdim. Gərək bir o qədər içməyəydim. Belə olmasaydı indi sən bu qədər üzülməzdin. Özümü bağışlaya bilmirəm ki, səni belə çıxılmaz vəziyyətdə qoymuşam. Bir də bütün günahlara mən cavabdehəm, mən də yeri gəlsə sənin yolunda hər şeyə hazıram. Sevgisini isbat etmiş insana hər zaman layiq olduğu sevgilərlə cavab verəcəyəm. Qorxma, həyatımızda olanları ikimiz bilirik, ikimizin də arasında bir sirr olaraq qalacaq.

Zülfünaz ağlaya-ağlaya: — sağ ol, Fərid, mən elə belə də bilirdim. Sən etibarlı kişisən, bilirsən, mən nə qədər sənə güvənirəm?

— Ağlama, indi dalınca gələcəyəm.

— Sən evdə təksən?

— Hə nə olub ki?

— Heç, deyirəm ki, əziyyət çəkməyəsən, mən bir taksi tutub özüm sizə gələrəm.

— Gəl həyatım, gözləyirəm səni.

Yarım saatdan sonra Zülfünaz artıq Fəridgilin qapısının zəngini basırdı. Fərid sevincək qapını açıbdı, Zülfünaz içəri daxil olub, Fəridin boynunu qucaqlayaraq hıçqırmağa başladı.

— Bu nə iş idi başımıza gəldi, ay Fərid?

— Ağlama, qurban sənə, görərsən, hər şey yaxşı olacaq, təkrar edirəm, qorxma, yeri gəlsə olanlarda mənim günahımın olduğunu anama söyləyəcəyəm. Darıxma, ona kimi çox var, əsas odur ki, mən səni sevirəm və etibar edirəm.

— Gözlərimə inanmıram ki, mən gəlin köçəcəyim evə öz ayaqlarımla gəlmişəm.

— Görürsən, bu da Allahın işidir, hər şey yaxşılığa doğru gedir. İnşallah əsgərliyimi çəkib, qayıdan kimi toyumuzu edəcəyəm.

Onlar qucaqlaşıb bir-birini duz kimi yalamağa başladılar. Sonra da Fərid Zülfünazı evlə tanış etdi.

Öz otağını göstərib:— bu da mənim otağımdır, ancaq başığla yığışdırmamışam — deyərək üzrxahlıq etdi.

— Fərid, bura bizim otağımızdır deyirsən, qadasın alaram,— deyib Fəridin əllərindən tutub, onun yatağının üstündə oturub ağlamağa başladı. Görən bu yataq mənə qismət olacaqmı?

Zülfünazın yarıaçıq sinəsi qalxıb, yendikcə Fərid özünü güclə saxlayırdı.

— Nə deyirsən edim Zülfünaz, ancaq ağlama.

— Qollarının arasına al, heç vaxt buraxma məni.

Fərid uşaq sevinci ilə Zülfünazı qucaqlayıb öpməyə başladı.

— Fərid, donumu əzdin qoy çıxardım.

Fəridin hə-yoxun almamış Zülfünaz artıq soyunub onun yatağına girmişdi.

Bu gün də beləcə keçdi...

* * *

Yunan filosoflarından hansısa demişdir: "Allah əvvəlcə adamın ağlını, sonra isə canını alır"

İndiki həyatımızda, arzuladıqlarımızla, yaşadıqlarımız üst-üstə düşmür. İllərlə avar çəkə-çəkə üzüb çayı bu tərəfə keçmək istədiyin zaman bir də görürsən üzüb başqa bir tərəfə keçmisən. Axı hər bir tərəfin də öz abı-havası, öz qanunları var. Cəzb edilən tərəfə keçmisənsə, deməli o tərəf güclüdür. Güclülər isə hər zaman öz sözlərini deməklə tabe etdirməyi bacarıblar. Bizim isə başımıza nə gəlirsə təklikdən və ya biganəlikdən gəlir. Bəzən xasiyyətimizə, bəzən də ətrafda cərəyan edən hadisələrə görə itirə-itirə gedirik. İnsanlar maddiyyat qalsın bir yana, bir-birinə mənəvi dəstək verməkdən də ehtiyat edirlər. Hər kəs bu münasibətdə olduğuna görə sonda görürük ki, kimsəsiz qalmışıq. Deyirlər ayın batan, günəşin isə çıxan vaxtı olur. Ancaq birdən elə olur ki, ay günəşlə bərabər fırlanır, batmır ki, batmır. Məsələ ondadır ki, biz özümüz milli-mənəvi dəyərlərimizə ləkə də gətirə bilərik, istəsək onları saflaşdıra da bilərik. Yetər ki, biz ana-vətən qarşısında qeyrətimizi, mərdliyimizi, paklığımızı, dəyanətimizi və ümumiyyətlə milli mənafeyimizi hər şeydən üstün tutaq. Bir dəfəlik Ana, Vətən qeyrətini və namusunu beynimizə həkk etdirib, ürəyimizdə yaşadaq. Qoy var-dövlət bizim gözümüzü tutmasın. Bir parça çörəyə görə insanları alçatmayaq. Yadımızdan çıxarmayaq ki, bu qisməti bizə verən bir gün də ala bilər. Olanlar isə yaddaşlarda qalacaq. Bizim qazancımız həyatda iki şey ola bilər. Onlardan biri məhəbbət, digəri isə nifrətdir. Sonda hər ikisinin acısını da, şirinliyini də özümüz çəkəcəyik, ya da övladlarımız. Bu

acı həqiqətləri yaxşı olar ki, unutmayaq.

* * *

Fərid Zülfünazı yola saldıqdan sonra evə qayıtdı. Evə nəzər yetirib yataq otağına keçdi. Burada qadın ətirinin iyi hiss olunduğundan pəncərələri açıq qoydu. Onun Zülfünaza qarşı olan şəhvət hissi beynini o qədər dumanlandırmışdı ki, heç nə haqda düşünə bilmirdi. Valideynləri gələnə kimi vanna otağına keçib bir duş qəbul etdi. Sonra öz otağının pəncərələrini bağlayıb, yatağını səliqə-səhmana saldı. Bu zaman telefon zəng çaldı. Fərid telefonun dəstəyini qaldırdı. Zəng edən qrup yoldaşı Nadir idi.

— Salam Fərid necəsən? O vida gecəsindən sonra səni görməmişəm.

— Sağ ol, Nadir, elə mən də sənin üçün, uşaqlarımız üçün çox darıxmışam.

— Düzü, dünən səhər saat 5-də qardaşım Ariflə fermamıza baş çəkməyə gedirdik, sənin maşınını Beşbarmaq Pirinin qabağında maqistralın kənarında tikilən məscidin qarşısında gördüm. Maşınında gözəl bir qız əyləşmişdi. İnan çox sevindim. Bizlə birlikdə olanda sən heç zaman hisslərin barəsində danışmazdın. Ariflə— qardaşımla sizi keçən il tanış etmişdim. Sən onu yaxşı tanıyırsan. Respublika çempionatında bir yerdə mübarizə aparmışdınız. Yadındadı, öz aramızda Ariflə sənin üstündə bir az da mübahizə etmişdim.

— Hə, əlbəttə, yadımdadı. Doğurdan o, indi nə işlə məşğuldur? Maşallah həm güclü, həm də mükəmməl texnikaya malik bir idmançıdır.

— Yəqin xəbərin yoxdur. Arif bu yaxınlarda Yunan-Roma güləşi üzrə Avropa Çempionatından qızıl medalla qayıtmışdır.

— Nə yaxşı olub. Fəxrimizdir. O, bizim ikimizin də qardaşımızdı. Xahiş edirəm təbrikimi ona yetirəsən.

— Hökmən çatdıraram.

— Nadir, sən Allah Almaz necədir? Hələ dalaşıb eləməmisiniz ki?

— Dalaşmağına dalaşmışıq. Ancaq bizim qızların xasiyyətinə sən yaxşı bələdsən. Onlar hələ qrupda olanda biz oğlanlara qaynanalıq edərdilər. Kimin həddi nə idi ki, artıq-əksik danışsın. Elə qadasın aldığım Solmazın bir qaş-qabağı bəs edirdi ki, hamımızı yerində oturtsun. Almaz bacında onun kimi, zalım qızı mənimlə bir tərəfə çıxmır, deyir ki, ayıbdı, dost-tanış var. Düzü o qız olmasa çoxdan cızığımdan çıxmışdım. Səni gördüm inan ki, həsəd apardım, o yanında olan qızla bir -birinizə çox yaraşırdınız. Amma açığını deyim ki, uşaqlarla söhbət düşəndə sənlə Solmazın bir-birinizə çox yaraşdığınız barədə danışardıq. İndi düşünürəm ki, kaş sizin yadınıza salıb bir-birinizə qarşı bir hiss oyadaydıq. Bax indi Almazla biz gör neçə ildir ki, bir -birimizi tanıyırıq. Bilirsən, qardaş, bir neçə ayda adam bir-birini tanıya bilməz, buna illər lazımdı. Elə sənə deyim dayım oğlu Lətifdən. Sağ olmuş, ata-anası dediyinə yaxın durmadı, getdi tanımadığı bir qızdan yapışdı, axırı da ki, belə.

— Necə belə, soyub-soyub quyruğunda qoyma.

— Nə bilim, qızın boyuna, uzun saçına, gözəlliyinə vurulubmuş. Qızın da ki, nazlanması yerə-göyə sığmırdı. Düzü birinci gündən heç o qızdan xoşum gəlməmişdi. Adamla danışanda günahkar adamlar kimi ora-bura baxa-baxa danışardı. Qurban olum allaha, atalar yaxşı deyib: oğurluqla, ... 40 gün gedər.

— Nadir, sən canın, məni intizarda saxlama danış .

— Fəxr ediləsi nə var ki, danışım. Toy gecəsi hər şey

aydın olub.

— Bəs sonra?

— Sonrası nə olacaq, qoçağım Lətif qızı eşşək kimi döyəndən sonra qız boynuna alıb ki, uzaq bir qohumları, imkanlı bir adamla "sevgi" məcarası yaşayıblar.

Fərid ah çəkib:— dünyanın işinə bir bax ee: — dedi.

— Almazın qadasın alım, yaxşı eləyib hər dəqiqə mənim ağzımdan vurub:— Biz ata-anamızı yerə vurub, pis vəziyyətdə qoya bilmərik — deyir.

— Almaz ağıllı qızdır əlbəttə düz deyir.

— Sən Allah Fərid, bağışla, elə özümdən danışdım. Yəqin ki, o gözəl qızla ciddi bir yaxınlığınız var. İncimə xasiyyətindən bilirəm ki, sənin avara-avara işlərlə aran olmaz. İstəsən qızları tanış edərik qoy dostlaşsınlar.

— İnşallah.

— Aradahərdən də zəng elə.

— Baş üstə.

Onlar sağollaşdılar və Fərid dəstəyi yerə qoyub, mətbəxə keçdi, qazı yandırıb, çaydanı alovun üstünə qoydu. Bir azdan anası işdən qayıdacaqdı. Sonra keçib televizoru yandırıb divanda uzandı. Gözü televizorun ekranında olsa da fikirləri uzaqlarda idi. Zülfünaz ilə birdən-birə dərinləşən münasibəti heç onu açmırdı. Nə qədər qıza çox bağlanırdısa, bir o qədər də həyəcan keçirib, narahat olmağa başlayırdı. Nadirin danışdığı əhvalat onu lap şoka salmışdı, anası Validə xanımın o zamanlar dediyi: — Ay bala, bu qızı sən haradan tanıyırsan, heç olmasa kimlikləri, keçmişləriylə maraqlanmısanmı — sözləri birdən-birə başında cərəyan etməyə başladı. Sonra da özü-özünə təsəlli verdi. — Mən niyə Zülfünazdən şübhələnməliyəm ki, o qız ki, hər şeyini mənə qurban verdi, indi isə mənim növbəmdir, mən onu

göz bəbəyim kimi qoruyacağam: — deyib, düşündü. Bu zaman qapının zəngi çalındı.

* * *

Əkinçidən yaxşı heç kim səpilən toxumun qədərini və şumlanan torpağın dərinliyini bilə-bilməz. Toxumdan da çox şey asılıdır. Belə ki, əgər növü əladırsa, əla növ taxıl gözlə, yox əgər toxumun xarab toxumdursa, ondan daha nə gözləyirsən? Atalarımız yaxşı deyib, "Nə atarsan aşına, o da çıxar qaşığına." Bir də deyərlər "Yalan ayaq tutar yeriməz." Düşünülmüş deyimlərdi. Bəli, bu gün yuxarıda sadaladığımız növlərdən olan ailələr də var. Ailənin tərbiyəsi başqalarından və ya ətrafdakılardan çox ailənin özü üçün əsas şərtdir. Ailə yalan yox, büllur kimi saf sevgi üzərində qurulmalıdır. Hər bir ailə bir qaladır. Qala öz əzəməti, orada yaşayanlar isə öz mənəvi dəyərləri ilə seçilmişlər.

Zülfünazgilin ailəsinin də özünəməxsus çox qəribə tarixi olmuşdur. Əsgərlikdən sonra Zülfünazın atası Həsən Bakıya gələrək "Leytenant Şmidt" adına zavodda işə düzəlir. Həsən bir az haylı-küylü, həm də səbirsiz adam idi. Kobud və şit zarafatları olardı. Uşaqlıqdan ona kənd camaatı "eşşək Həsən" ləqəbi vermişdilər. İşlədiyi müddətdə zavodda 14 yaş özündən böyük Reyhan adlı bir qadınla tanış olur. Reyhanın həyat yoldaşı Tahir bir adamı bıçaqladığına görə həbsxanaya düşmüşdü. Oradan çıxanda artıq vərəm xəstəliyinə tutulmuşdu. O, qan qusur, qarala-qarala tez-tez öskürürdü. Reyhan buna dözməz, çox vaxtlar işdən evə gec gələrdi. Onların bir qız uşaqları da var idi. Qızın adını Hüsnü qoymuşdular. Bir gün Tahir Reyhanın işdən niyə bu qədər gec gəldiyini öyrənmək üçün iş yerinə gedir. Keçid məntəqə-

sindən bir az aralı, ağacın arxasında dayanıb onu gözləyir. Xəstə olduğundan həm üşüyür, həm də qara öskürək ona rahat nəfəs almağa imkan vermirdi. Çox keçmir ki, Reyhan işdən çıxır və avtobus dayanacağının əksi istiqamətinə tərəf tez-tez addımlamağa başlayır. Tahir isə onun dalınca yavaş-yavaş, ehtiyatla hərəkət edir. Elə bu zaman görür ki, zavodun beton hasarının qurtaracağında hündür və yaraşıqlı bir kişi Reyhanı qarşılayıb, qucaqlayaraq öpməyə başlayır və:

— Ay Reyhan, harada qalmısan öldüm ki, gözləməkdən, gəl çıx da!

— Ənvər, qadan alaram, işdən vallah elə indi çıxıb qaça-qaça gəlmişəm.

— Gəl, tez gəl, arvad-uşağı cəhənnəm eləyib, göndərmişəm Lökbatana, atasıgilə. Bu axşam təkəm.

— Qadasın alaram, mən səhərə kimi sənlə qala bilmərəm, o vərəm tutmuş köpəkoğlu bilirsən nədi? Sənə axı söhbət etmişdim, mənə söz atan adamı bıçaqladığına görə həbsxanaya düşmüşdü də. Deyirsən indi başımıza oyun açaq? Gül kimi həyatımızı yaşayırıq da.

Gəlib-gəlib ağacın arxasından çıxan Tahir birdən qışqıraraq onların üstünə hücum edir:

— Binamuslar, mən sizin gül kimi həyatınızı indi cəhənnəmə döndərərəm— deyərək əlində tutduğu bıçağı Ənvərin qarnına soxur, Ənvər isə əli ilə onun boğazından yapışıb boğur. Reyhan isə onları bu vəziyyətdə qoyub qaçır. Həmin gecə Tahir evə gəlmir. Səhəri günü onunla Ənvərin meyidini milislər zavodun hasarının yanından tapırlar. Nə qədər milis şöbəsində Reyhanı çək-çevirə salsalar da o, bu işdən xəbərsiz olduğunu dəfələrlə israr edir və sonda necə deyərlər bu sudan da quru çıxmağı bacarır. Reyhan Ənvərlə olan münasibəti

dövründə onun saqqızını elə oğurlamışdı ki, Ənvər ailəsindən gizlətdiyi pulları həmişə saxlamaq üçün ona verərdi. Budur pullar tam zamanında ona lazım olmuşdu. O, sərrast atan ovçular kimi, necə deyərlər bir güllə ilə iki dovşan vurmuşdur. Ənvərin pulları ona qalmış, Tahirdən isə canını bir dəfəlik qurtarmışdı. Taleyin verdiyi bu fürsətdən Reyhan tam zamanında istifadə edə bilmişdi. Bu əhvalatdan sonra Reyhan bir müddət heç kimlə şəxsi əlaqə qurmamışdı. Lakin Həsənin zavoda gəlişindən sonra elə bil Reyhanda bir canlanma baş vermişdi. İdmançılara məxsus sağlam bədən quruluşuna malik olan Həsən hər dəfə onunla qarşılaşanda elə bil nə isə içində əriyir, bütün bədəni od tutub yanardı. Həsən işlədiyi sexdə Reyhan uzun müddət idi ki, laboratoriyada işləyirdi. Onlar demək olar ki, hər gün bir-birləri ilə salamlaşırdılar. Bir dəfə Reyhan növbədə bir yerdə çalışdığı Cəvahirə:

— Ay Cəvahir, bu oğlana baxanda adamın ürəyi ağrıyır. O da bizim balamız, deyirəm bəlkə hərdən onu isti çaya dəvət edək, bir stəkan çaydan biz kasıb düşməyəcəyik ki, nə deyirsən?

— Nə deyirəm, ay Reyhan, sən deyən olsun. Amma ehtiyatlı ol ki, bu cavan oğlan ağlını başından almasın ha!

— Arxayın ol, az, belələrini çox görmüşük, dedim yəni yazıqdır da. Sən də ki...

O gündən Həsən laboratoriyaya ayaq açmağa başladı. Axırda o qədər yaxın münasibət qurdular ki, yeməklərini də bir yerdə yeyirdilər. Hamının yanında deyirdilər ki, guya bacı-qardaş olublar. Ancaq günbəgün Reyhan çiçək açırdı, Həsən isə vacib bir tapşırığı yerinə yetirmək üçün komandaya hazır olan əsgər kimi məqam

gözləyirdi. Bir-birlərinin əllərinə, çiyinlərinə toxunardılar. Bir gün sexdə material olmadığından hamı təmizliklə məşğul olurdu. Sonra növbə rəisi işçiləri evə buraxıb Həsənlə başqa bir işçini sexdə nəzarətçi saxlayır. Cəvahirin isə körpə uşağı olduğuna görə Reyhan onu evə buraxıb özü tək qalır. Həsənin də iş yoldaşı yaşlı olduğundan o onu evə buraxır. Bəli, bu cütlüyə arzu etdiklərini zaman özü yetişdirmişdir. Onlar səhərin açılmağını istəməsələr də dan yeri sökülür, səhər yelinin sərinliyi tezliklə havanın işıqlanacağından xəbər verir... Aralarında olan bu yaxınlıqdan sonra, onlar artıq bir-birlərindən ayrı dayana bilmirdilər. Reyhan bu ayrılığa dözməyib, Həsəni işdən çıxandan sonra evlərinə dəvət edir.

Reyhanın ərindən qalma 3 otaqlı mənzili var idi. O, artıq Həsənə 10-cu sinifdə oxuyan çox gözəl bir qızı olduğunu danışmışdı. Hətta demişdi ki, mən bu dünyanı tutub gedəsi deyiləm ki, sizi Hüsnü ilə evləndirib evi də sizin adınıza keçirəcəyəm. Həsən demək olar ki, arada bir onlarda qalırdı. Sonra isə birdəfəlik onlara köçdü. Otağın birində Həsən, o birində Hüsnü, digərində isə Reyhan yatırdılar. Gecənin bir aləmindən sonra Reyhan və Həsən səhəri bir yerdə açırdılar. Beləcə günlər davam edir, Hüsnü böyüyüb həddi-buluğa çatmışdı. Növbəli işlədiklərinə görə Həsən və Reyhan qızı səhər dərsə yola saldıqdan sonra yenə də öz həyatlarını davam etdirərdilər. Reyhan qızının nəzərini yayındırmaqdan ötrü tez-tez Hüsnünün qulağına : —“Maşallah birbirinizə yaman yaraşırsınız ha, inşallah sizi ev qızı, ev gəlini edəcəyəm ” deyərdi. Gözəl günlərin birində Reyhan Həsənin və Hüsnünün əllərini bir-birinə verərək dedi:

— Mən çox arzu edirəm ki, siz birlikdə xoşbəxt ola-

sınız. Mən də həyatda bir gün olmasam mənim ruhumu özünüzlə gəzdirəsiniz. Reyhanın bir kimsəsi yox idi, o yetimlər evində böyümüşdü. Hüsnü orta məktəbi bitirib, Dəmiryol Texnikumuna daxil olmuşdu. Hərdən Həsən onu qarşılayar evə kimi ötürərdi. Belə-belə artıq onlar bir-birlərinə meyl salmışdılar. Həsənin ürəyindən çox şeylər keçsə də Reyhandan keçə bilmirdi. Belə bir xoş günlərin dadını çıxarıb, həyatın ləzzətini duymaq həmişə davamlı olmur. Hər şeyin əvvəli olduğu kimi, sonu da olur. Həsən axşam evə qanı qara gəlmişdi. Hüsnüyə nə deyəcəyini bilmirdi. Hüsnünün gözündən heç nə yayınmadı.

— Nə olub, qurban olum, nə olub? Anam haradadır, niyə indiyənə kimi işdən qayıtmayıb, axı siz həmişə bir yerdə gələrdiniz, nə olub danış. Ay Allah, ürəyim lap sıxıldı.

— Hüsnü, şükürlər olsun yaxşı qurtardıq, bilmirəm heç necə deyim.

— Danış, susma, nə olar.

— Zavoddan biz çıxanda mən qabaqda iş yoldaşımla söhbət edə-edə gəlirdim, birdə gördüm qışqırtı səsi gəldi. Mən dönüb arxaya baxanda gördüm ki, mama böyrü üstə yerə yıxılıb, bir az üzü göyərmişdi. Sən demə zavoda qaz balonu gətirən "Zil" yük maşını adam çox olduğundan mamanı görməyib ona toxunub (ağzından qan gəldiyini qorxusundan danışmadı). Təcili yardım maşını gəlib mamanı xəstəxanaya apardı. Mən indi oradan gəlirəm, hər şey yaxşıdır. Həkim məsləhət gördü ki, səhərə kimi həkim nəzarəti altında qalsın.

— Mən anamın yanına getmək istəyirəm, məni ora apar.

Həsən nə qədər dil töksə də Hüsnü dediyindən əl çək-

məyib: — Sən aparmasan da tək gedəcəyəm — deyib qapıdan çıxmaq istəyəndə Həsən:— yaxşı gözlə birlikdə gedək — dedi. Səhərisi günü Reyhanın dili tutulmuşdu. Həkimlərin verdiyi rəyə görə onun qara ciyəri dağılmış, beyni isə tərpənmişdi.

Reyhan heç bir həftə də yaşamadı. Tale yolları burada sona çatdı.

Budur, aylar, illər arxada qalmışdı, Həsən və Hüsnü artıq evlənmişdilər. Artıq, iki qız övladları var idi. Çox mehriban və şən bir həyat sürürdülər. Lakin Sovetlər birliyi dağılandan sonra bir çox zavod və fabriklərdə iş olmadığından işçilər ixtisara düşürdülər. Beləliklə ailədə olan maddiyyat tükəndikcə söz-söhbət də çoxalırdı. Hətta, o vəziyyətə çatırdı ki, kimin düz, kimin səhv olmağı araşdırılırdı.

Bir gün hirslənən Hüsnü açdı sandığı, tökdü pambığı: — Sən elə bilirsən mən heç nə bilmirəm, o vaxtlar gecə sən bizdə qalanda yuxum gəlmirdi. Durub vanna otağına keçəndə gördüm ki, anam orada otaqda yoxdur. Sənin yatdığın otağın qapısı azca açıq idi. Nə görsəm yaxşıdı? Anamla sən ikiniz də çılpaq vəziyyətdə bir-birinizə sarmaşmışdınız. Mən elə o vaxtdan sənə nifrət etmişdim. Sonra da anamım xətrinə üstünü vurmadım, indi hara istəyirsən get, gözüm səni görməsin.

Həsən qapını çırpıb getdi. Lakin bir daha geri qayıtmadı. Deyilənlərə görə Rusiyaya gedib. Orada evlənib qalmışdı. Bir qız övladı da var idi.

* * *

Fərid qapını açdı. Gələn anası Validə xanım idi. Anasını öpüb, adəti üzrə əlində olanları alıb yerləşdirdi. Hal-əhval tutduqdan sonra Validə xanım öz otağına ke-

çib paltarını dəyişdi və Fəridə:

— Ana qurban, çaydanı odun üstünə qoy, ciyərim yanır.

— Çayımız istidi, bu dədiqə süzərəm.

— Yox əvvəlcə duş alım sonra.

— Sən necə istəyirsən.

Fərid televizoru açıb kanalları çevirməyə başladı. Nəhayət kanalların birində gedən hava haqqında məlumatı dinlədi. Sonra düşündü ki, vaxt nə tez gəlib-keçib. Bir neçə gündən sonra sentyabr ayı başlayır. Nədənsə bir anlığa fikrə daldı. Uşaqlar dərsə gedəcəkdi. Ata və anası həmişə dövlət işində olduqlarına görə səhər gedib, axşam evə qayıdardılar. Uşaqlıq dövrünü körpələr evində, uşaq bağçasında, sonra isə məktəbdə başa vuran Fərid sərbəst böyümüş, hər hansı söhbətlərdə sözünü deməyi bacarmışdır. Dördüncü sinfi bitirdikdən sonra karate idman növü ilə ciddi məşğul olurdu. Bu isə ona bir az da həyatda qarşılaşdığı hadisələrə qarşı müəyyən mövqedə dayanmağa kömək edirdi. O, döyülsə də, döysə də heç vaxt kinli qalmazdı. Bir də olanları evdə danışmağı xoşlamazdı. Atasının diplomat olmağının ona çox böyük təsiri olmuşdu. Fikir söyləməkdə tələsməz, qarşısındakı adamı sona qədər dinləyərdi. Bir də zəhmətkeş və müəyyən texnikaya yiyələnmiş idmançı olsa da həmişə təvazökarlığı ilə qrup yoldaşlarından seçilməzdi. Bir gün yaddaqalan bir hadisədən sonra qrup yoldaşları Fəridə daha hörmət və etiramla yanaşmağa başladılar. Belə ki, idman hazırlığında razılaşma əsasında başqa fakültələrin tələbələri ilə voleybol oynamağı qərara alırlar. Fəridgilin qrupu həmin zamanlarda zəif oynayırdı. Uşaqlar əsəbləşir, bir-birlərini günahlandırırdılar. Hakimlik edən isə yuxarı kurs tələbələrindən

olduğundan onun oyuna nəzarəti hər iki tərəfi qane edirdi. Lakin Fəridgilin qrupu topa zərbəni vuranda əks tərəf bloka qalxdı. Bu zaman setkanın sağ tərəfində dayanan Eldar qalxaraq bir az oyunun qaydasını pozdu. O, setkanı əlində əyərək topu setkanın dibinə atdı. Hakimlik edən şəxs bu topu saymadı. Eldar öz kobudluğuna üstünlük verərək oğlanın üstünə hücum etdi. Bu zaman əks tərəfdə oynayan komandanın üzvləri və oğlanın qrup yoldaşları Eldara əks hücum etdilər. Hamı donub qalmışdı. Fərid vəziyyətin Eldarın xeyrinə olmayacağını görüb bu qarışıqlığa müdaxilə etdi. Heç kim gözlərinə inanmırdı. 10-15 adamı cəld hərəkətlərlə hərəsini bir tərəfə ataraq Eldarı ortadan çıxartdı və qayıdıb uca cəngavər səsi ilə:

— Sakit, bir dəqiqə sakit! Burada Eldar birmənalı səhvdir. Ancaq siz deyin, biz razılaşıb oyun təşkil etmişik ki, münasibətlərimiz bir az da yaxşılaşsın. Biz bir-birimizə düşmən ola bilmərik. Bizim bir düşmənimiz var o da ermənilərdi. İnşallah torpaqlarımızın azadlığı uğrunda döyüş başlasa, hamımız gedib orada sözümüzü deyərik. İnanıram ki, vətənimizin sizin kimi oğlanları ilə bərabər buna biz fürsət tapacağıq. Eldarın adından və öz adımdan hamınızdan üzr istəyirəm.

O, yaxınlaşıb hakimlik edən oğlanın üzündən öpüb: — Qardaş, sən allah bağışla — dedi. Həmin oğlan da onu öpüb, sonra isə: — Nə yaxşı ki, sizin kimi qabiliyyətli və cəsarətli oğlanlarımız var qardaş, çox sağ ol — deyib, oradan çıxıb getdi.

Bir müddət hamı Fəriddən danışdı. Qrupda və demək olar ki, universitetdə hamı ona hörmətlə yanaşır, bəzən də ondan məsləhət alırdılar.

Validə xanımın səsi sanki Fəridi xəyallardan ayırdı.

— Fərid, gəl bir yerdə çay içək.

— Gəldim ana— deyib mətbəxə keçdi.

Anasının gətirdiyi biskivitlərin bir-bir dadına baxmağa başladı.

— Ana, vallah deyirəm ki, türklərə halal olsun ki, belə keyfiyyətli məhsul istehsal edirlər.

— Elədir bala, hələ sən onları görəsən necə sanitar qaydalara riayət edirlər. Saçlarından tutmuş, əl-ayaqlarına kimi xüsusi geyimlərlə təmin olunmuşlar. Zaman gələr bizdə də bu qaydalara əməl olunar. İnşallah, nədi yenə sözlü adama oxşayırsan.

— Nə bilim ee, ay ana, istədim səndən öyrənim görüm atamın bu işlərə fikri necədir. Mənimlə də danışanda elə ciddi danışır ki, adam onunla danışmaqdan çəkinir.

— Mən həmişə sənin tərəfində olmuşam, amma ailəmizin başçısı atandır. Bu ailənin fikrini bizdən çox o edir. Bilirsən ki, hamı onunla məsləhətləşir. Bütün xeyir və şər məclislərində başda oturdurlar. Elə nazırləri də çox yaxşı rəğbət bəsləyir. Ona görə ki, o, yerini bilir. Özün görürsən, işimdə mən kim oluram olum, evdə mən onun quluyam. Elə məsələlər olur ki, o mənə heç nə deməsə də mən öz payımı götürürəm. Onun baxışları mənə hər şeyi deyir. Mən çox fəxr edirəm ki, bizim belə hərtərəfli ailə başçımız var. Oğul, sənin məsələnə qalanda isə, münasib fürsət tapıb atanla danışdım. Bilirsən mənə nə dedi?

— Nə dedi, ana?

— Dedi ki, Fərid bizim övladımızdırsa o heç zaman həyatda səhv etməməlidir. Fərid həmişə həyatı dərk edən insanların arasında olub. Bir də dedi ki, əsl kişini ürəyi yox, ağıllı başı idarə etməlidir. Həyatda çətinliyə

düçar olanların çoxu ürəyinin iradəsinə görə düşür. Sonra dedi ki, Fərid üçün hələ tez deyilmi? O ki, hələ əsgərliyə getməyib, maqistraturaya qəbul olmayıb, iş məsələsi də ki, hələlik məlum deyil. Mən belə tələsik heç bir qərar verə bilmərəm. Heç sizə də məsləhət görmürəm. Fərid ağlı başında olan gəncdir. Qoy bir də yaxşı-yaxşı düşünsün.

Fərid az qala körpə uşaq kimi ağlayacaqdı. Qalmışdı iki daşın arasında. Sonra az qala yalvara-yalvara:

— Ana, mənim üçün dünyada ən dəyərli bir şey varsa o da sizsiniz. Siz məni necə sevirsinizsə mən sizi daha çox sevirəm. Ancaq, ana, əvvəldən düşünməyib bir az Zülfünaz ilə ikimiz də tələsmişik. Əhd-peyman etmişik. Bir-birimizə söz vermişik. Hələ yazıq qız anasına da deyib. Bəs indi mən neyləyim? Mən axı Zülfünazı çox sevirəm. Vallah, əvvəllərdə məndə belə hisslər heç zaman olmayıb. İcazə ver mən onu sənin iş yerinə gətirib, sənlə tanış edim.

— Biz ki telefonda artıq tanış olmuşuq. İstəyirəm üzbəüz tanış olasınız.

— Düzü, o qızın mənimlə ürəkli-ürəkli danışmağı heç məni açmır.

— Bəs çox istədiyindən ürəkdən danışır daaa.

— Eh, Fərid, Fərid sən lap uşaq kimisən. Nə deyirəm, gətir tanış elə. Ancaq ehtiyatlı ol, oğul. Mənim ürəyim bu işlərdən arxayın deyil.

— Narahat olma, ana. İnşallah hər şey yaxşı olacaq. Mən demirəm ki, bu dəqiqə mənə toy eləyəsiniz. Hələlik bir kiçik üzük də bəs edər.

— Bunu qız sənə deyib, ya özün düşünmüsən?

— O qız kiçik üzüklə qane olursa daha sözüm yoxdur. Elə onu sən də alıb ona bağışlaya bilərsən.

— Ana, sən bir onun gözəlliyi ilə bərabər sadəliyini də görsən, bu yad fikirlərdən uzaq olarsan.

— Nə deyirəm a bala, xeyirlisi nədirsə qoy o olsun.

— Yenə bir münasib vaxt tapıb atanla təkrar danışaram.

Fərid anasını öpüb: — Sağ ol, ay ana, sən olmasan mən görəsən nə edərdim? — deyib, rahatlandı.

* * *

Azərbaycan müstəqillik əldə edəndən sonra ölkənin ticarəti dünyanı gəzməyə başladı. Hər bir millətin özünəməxsus ticarət təfəkkürü, ticarət mədəniyyəti, ticarətdə özünün idarəetmə qaydaları vardır. MDB bazarlarında özlərinə önəmli yer tapan həmyerlilərimiz, kənd təsərrüfatı məhsullarının bu ərazidə təmin olunmasında xüsusi fəallıq göstərirlər. Ərzaqdan başqa qeyri ərzaq məhsullarının da MDB məkanında ticarət dövriyyəsinə qoşulmasında respublika rəhbərliyinin BƏƏ ilə Türkiyə respublikası ilə apardığı danışıqların müsbət nəticəsi olaraq bu dövlətlərlə olan ticarət özəlliyi başqa dövlətlərə nisbətən nəzərə çarpacaq dərəcədə fərqlidir. Bu münbit vəziyyətin ilk istifadəçiləri Azərbaycan bazarında artıq özlərinə yer tutmuşlar. Bu cür ticarətlə məşğul olanların böyük bir hissəsi Abşeron yarımadasının Aeroport ərazisində yerləşən ticarət mərkəzlərində özlərinə yer tutmuşlar. Bu ticarət mərkəzində qoyulmuş konteynerlərdən üçünün sahibi bizim tanıdığımız Müzəffər müəllim idi. Müzəffər müəllim Tanrının xoş günündə dünyaya gəlmişdi. Onun ailəsi artıq həyatda maddiyyat yükünü tutmuş, imkanlı insanların çevrəsinə daxil olmuşdular. Müzəffərin atası Xudaverdi müəllim kasıb bir ailədə dünyaya göz açmış, bir neçə müddətdən sonra

isə atasını itirmişdi. Anası Sovet dövrünün əzablı günlərini yaşamışdır. Bir parça çörəyə görə kim bilir nə qədər dost-qohum yanında üz qızartmış, hansısa bir bığıburmanın qarşısında boyun əymişdir. Xudaverdi uşaq olsa da sovxozun anbardarının onlara gəlib-getməsi, bəzən də onlarda gecələməsi heç yadından çıxmazdı. Bu yekə burun və daz baş, həm də xırıltılı danışan eybəcər kişini Xudaverdi heç sevməzdi. Onun siqaret çəkməkdən dişləri sapsarı idi. Evə gəlib-gedəndən sonra ağzından gələn üfunət iyi uzun müddət çəkilməzdi. Xudaverdi dərslərini yaxşı oxuyar, bu insanların acığına nəyin bahasına olursa-olsun gələcəkdə söz sahibi olacağına əmin idi. Beləcə, illər əzabla, sıxıntı ilə bir-birini əvəz edir. O, isə böyüyürdü. Artıq orta məktəbi fərqlənmə attestatı ilə bitirmişdi. O, çox düşündükdən sonra sənədlərini V.İ.Lenin adına APİ-nin Filologiya fakültəsinə verir və bu sınaqdan müvəffəqiyyətlə çıxır. İnstitutun yataqxanasına düzəlir. Onun atası olmadığına görə hamı hörmət edir. İmtahanlarda güzəştlər olunurdu. Həyatın ağrı-acısını görmüş Xudaverdi özünə aid nə varsa səbrlə, təmkinlə onun əldə olunmasına çalışırdı. Onun hündür boyu, ağ sifəti, çatma qaşları, uzun kirpikləri və dodağının kənarındakı yekə qara xalı ona xüsusi yaraşıq verirdi. Fakültənin dekanı Firudin müəllim ona bir mehr salmış, hər gün səhər-səhər işə gələndə onu axtarar, hətta, cibinə bəzən pul da qoyardı. Xudaverdi həyatından çox razı idi. İstər institutda, istərsə də yataqxanada hər kəs ona qayğı ilə yanaşardı. Bir gün fakültənin dekanı Firudin müəllimin yanına gələndə, onun yanında sarışın, göygöz, uzun kirpikli bir qız gördü. Bağışlayın — deyib qapını örtmək istəyəndə Firudin müəllim:

— Gəl, gəl bura, gör səni kiminlə tanış edəcəm. Ta-

nış ol, bu mənim qızım Sevdadır.

— Xoş gördük, Sevda xanım! Tanış olmağıma çox şadam.

— Mən də şadam, Xudaverdi, evdə heç atamın dilindən düşmürsən.

— Allah Firudin müəllimə dəyməsin. Ömrü uzun olsun. Mənim atam olmasa da, onu özümə doğma ata bilirəm.

O, üzürxahlıq edib qapını örtdü. Xudaverdi sonradan öyrəndi ki, Firudin müəllimin qızı Sevda xanım bir nazir oğluna nişanlı olub, lakin oğlan narkotikdən istifadə etdiyinə görə Firudin müəllim qızının nişanını geri qaytarmaq istəyib. Oğlan bunu bilib, Sevda institutdan qayıdarkən dostları ilə bərabər qızı qaçırıb şimal bölgələrinin birində gizləmişdir. Firudin müəllim həyatda nə qədər yumşaq olsa da, bir o qədər də sərt adam idi. Ona görə də o oğlanı polisə verib, qızı geri qaytarmışdı. Bir müddət Sevda öz otağında, yatağının üzərində üzüquylu qalmışdı. Nə qədər məcbur etsələr də o öz otağından çölə çıxmaq istəməmişdi. Beləcə, 3 aydan sonra nəhayət ki, Sevdanı normal həyata qaytara bildilər. Qızın bənizi qaçmış, xeylək arıqlamışdı. İnstitutun sonuncu kursunda oxusa da dərsə getmirdi. Firudin müəllim bu hadisənin təsirindən kəskin stres keçirdiyindən bir ay xəstəxanada yatmışdı. Lakin deyirlər zaman çox yaraları sağaldır, həyat isə öz növbəsində davam edir. Artıq Sevda institutu bitirmiş, orta məktəblərin birində dərs deyirdi. Bu hadisəni eşidən Xudaverdi düşünüb, daşındıqdan sonra Sevda ilə evlənməyi qərara aldı. O Sevdadan 3 yaş balaca olsa da həyatını və gələcəyini bu ailəyə söykənməyində görürdü.

Xudaverdi qış tətilindən qayıdanda bir az pay, bir

dənə də böyük balıq gətirmişdi. O bunları götürüb axşam Firudin müəllimgilə gəldi. Qapını professorun kiçik oğlu Məhərrəm açdı. O Xudaverdini tanımadığından:

— Ata səni istəyirlər— dedi.

Professor gözlərinə inanmadı, Xudaverdi onlara gəlmişdi.

— Keç içəri Xudaverdi, qapıda dayanma.

— Yox müəllim, anam bir az pay göndərmişdi, dedim sizə çatdırım.

— Keç içəridə danış, bu ev sənə yad deyil, mənim sənə olan münasibətimi bilirsən.

— Sağ olun professor, allah sizdən razı olsun.

— Ancaq anan nahaq əziyyət çəkib, kasıb arvaddır.

— Nə bilim? İstəmədim xətrinə dəyim.

— Düz eləmisən. Zibeydə, gəl gör kim gəlib, həmişə haqqında xoş sözlər danışdığım Xudaverdi bu oğlandır.

— Xoş gəlmisən, ay oğul, ayaqqabını çıxart keç içəri.

— Yox ey, sağ olun getsəm yaxşıdır.

— Keç otağa Xudaverdi:— professor bir az hökmlü danışdı.

— Yaxşı, müəllim, amma...

— Amması, zadı yoxdur, buranı öz evin kimi bil, özün də gəl-get.

— Sağ ol müəllim, allah razı olsun .

Xudaverdi keçib, oturdu. Sonra Sevda da öz otağından çıxaraq gəlib ona xoş gəldin elədi. Onlar artıq professorun iş otağında tanış olmuşdular. Xudaverdi hündür, cüssəli olsa da, özünü sakit, mülayim aparırdı. Dodağının üstündəki qara xal ona bir az da gözəllik verirdi. Ara-sıra Zibeydə xanım oğlanı süzür, ürəyində:—

Mərifətinə halal olsun — deyirdi.

Professor artıq ona etibar eləməyə başlamışdı. Ona göndərilən payları və ya evə alınası şeyləri alıb onunla göndərirdi. Evdə də artıq hamının üzü-gözü ona öyrəşmişdi. Bir gün gəlməyəndə evdəkilər narahat olurdular:

— Niyə Xudaverdi görünmür, bir şey zad baş verməyib ki?

— Narahat olmayın, bu gün görmüşəm onu yaxşıdır. Doğrudan çox qabiliyyətli, qanacaqlı oğlandır. Özü də dərslərində çalışqandır. Çalışır ki, mənim köməyimə ehtiyac olmasın.

— Halal olsun, özü də maşallah boylu-buxunlu, tərbiyəli oğlandır. Nə olar adam yetim olanda, onun da allahı var.

— Elədir ay Zibeydə, mən çalışacağam əlimdən gələn köməyi ona edim. Göydən allah baxır, hər halda bizim xeyirxahlığımızın faydası olar.

Evdə yaxşı yemək bişiriləndə hamı professordan xahiş edərdi ki, Xudaverdini axşam yeməyinə dəvət etsin.

İllər ötüb-keçdikcə Xudaverdi gənclik dövrünü arxada qoyub, kişiləşirdi. Nazik, yumşaq bığları ona çox yaraşırdı. Bir gün o gəlib Sevdanın dərs dediyi məktəbin qapısından bir az aralı dayanıb, onu gözləməyə başladı. Bir azdan Sevda müəllimə həmkarları ilə birgə məktəbdən çıxıb qapının ağzında sağollaşdılar. Sonra hərəsi öz yoluna davam etdi. Sevda qarşıdakı küçəni keçib avtobus dayanacağına yaxınlaşanda Xudaverdini görüb ona yaxınlaşdı.

— Xudaverdi, salam. Sən xeyir ola buralardasan?

Xudaverdinin dolduğu hiss olunurdu, hətta gözünün kənarından kipriyini sıxanda bir damla yaş da düşdü.

— Heç Sevda elə-belə dayanmışam daa.

— Gəl bura görüm sözlü adama oxşayırsan, sənin bu boy-buxununa axı kövrəlmək yaraşmır.

Sevda Xudaverdinin qoluna girib, "Səməd Vurğun" bağındakı oturacaqların birinin yanına çəkdi. Onlar yan-yana oturdular. Xudaverdi gözlərini yerə dikərək Sevdanın üzünə baxmamağa çalışırdı. Sevda bir şıltaqlıqla, onun çənəsini yuxarı qaldırıb:

— Nə olub, niyə danışmırsan?

— Heç nə...

— Bəs onda danış görək, sənin nə qəmin var axı? Maşallah allah sənə hər şey verib. Gör nə qədər insanlar səni çox istəyir. Kaş sənin qədər məni də çox istəyərdilər. Hamımız sənin fikrini edirik, evdə söhbət ancaq səndən gedir. Biz artıq sənin üçün doğmayıq. Sən papa canı nə olub?

— Ömrümün sonuna qədər sizin hamınıza minnətdar olacağam. Mən ki, narazı deyiləm. Şükürlər olsun Allaha.

— Bəs onda nə olub? Niyə dolmusan? Dərdin nədir?

— Sevda, mən də insanam da , bəyəm mənim dərdim ola bilməz?

— Ay Allah, bu Xudaverdi lap ürəyimi partladacaq. A bala, mənə dərdini de, qorxma heç kimə deməyəcəyəm. İnan ki, ikimizin arasında qalacaqdır.

— Elə mən də ürəyimi məhz sənə açmaq istəyirəm, amma... Amma...

O, sözünü deyə bilməyib hönkürdü. Elə ürəkdən ağladı ki, nə qədər daş ürəkli adam olsa idi, dözə bilməzdi. Zalım dərdin acısını çəkmiş Sevda da buna dözməyib özü də hönkür-hörkür ağladı. Onu qucaqlayıb:

— Bilirsən ki, mənim dərdimi bir dəvəyə yükləsən belə çəkə bilməz. Məgər sənin dərdin mənimkindən

böyükdür? Danış, qurban olum, mən əlimdən nə gəlirsə edəcəyəm.

— Sevda, həqiqətən mənim sizdən və tək bir anamdan başqa heç kimsəm yoxdur.

— Əlbəttə, biz sənin ailənik. Sənin ki, buna şübhən yoxdur?

— Allah eləməsin, elə mən də sizi itirməyimdən qorxuram da.

— Xudaverdi, atam sənə nə isə deyib?

— Yox, yox. Biz bir-birimizə çox bağlanmışıq, o özü də mənə çox etibar edir. Mən isə heç vaxt bunun qarşısında ona dönük çıxmaram.

— Mənim taqətim qalmayıb. Özünü də, məni də üzmə. De görək nə olub?

— Bilirsən ki, bu yaxınlarda mənim dövlət imtahanlarım başlayacaq. Özü də atanın sayəsində (son zamanlar o, Firudin müəllimə ata deyərdi) məni institutda saxlamaq istəyirlər. Ancaq bu mənə qismət olmayacaq.

— Nə olub ee, elə bil ki, bir dövləti cinayət eləmisən. Sən sözünü de, cəzan nədirsə birlikdə çəkərik.

— Elə məsələ də ondadır ki, sənə hər şeyi söyləyəndən sonra, yəqin ki, mən buralardan çıxıb gedəcəyəm.

— Dəli zad olmusan? Qorxma dedim ki, heç kimə deməərəm.

— Bilirsən, Sevda, mən sizə o qədər bağlanmışam ki, sizdən heç vaxt ayrılmaq istəməzdim — deyib yenidən kövrəldi.

Sevda onun əllərini tutub sıxdı.

— Xudaverdi, bu dəqiqə səni də, özümü də bu camaatın arasında yerə sürtəcəyəm. De görək nə olub?

O, hıçqıra-hıçqıra:

— Onda mən imtahanları qurtarana kimi, sənə de-

diklərimi heç kimə demə. Sonra cəhənnəm olub buralardan gedəcəyəm.

— Arxayın ol demərəm, ancaq yazıqsan, danış, ürəyini boşalt.

O, burnunu çəkə-çəkə: — Mən uşaq deyiləm, lakin kimsəsiz bir insanam. Bir anam var o da xəstədir. Nə vaxtsa yenə də tək qalacağam. İstəyirəm ürəyimdə olanları sənə danışım, ancaq cəsarətim çatmır.

Sevda ona bir az da yaxın oturub:

— Boşalt ürəyini sakitləş, mən dözərəm.

— Deyirəm ee Sevda, adam bəzən ürəyinin hökmünə dözmür. Eşitmişdim, ancaq inanmırdım. Budur başıma gəldi.

— Ə, Xudaverdi, bəlkə vurulub eləmisən, xəbərimiz yoxdur.

— Elə məsələ də ondadır ki, mənim bu zalım ürəyim, mənim layiq ola bilməyəcəyim bir gözəli sevir. Halbuki mən o xanımın əlinə su tökməyə belə layiq deyiləm.

— Xudaverdi, sən niyə belə danışırsan? Sən niyə öz qiymətini bilmirsən? Sənin kimi bir yaraşıqlı kişi, ən əsası etibarlı, vicdanı pak bir adam Bakıda varmı? Sən mənə göstər o qızı, gedim onun ciyərini çıxardım.

Xudaverdinin gözlərindən yaş sel kimi axdı.

— Sevda, mən o canımdan çox istədiyim, özümü layiq bilmədiyim, o gözəl qız sənsən.

— Aaaaa...

— Sözümü kəsmə, layiq deyiləmsə, məndə özünə qarşı bir şey hiss etmirsənsə heç nə demə xahiş edirəm. İmtahanlardan sonra dərhal çıxıb gedəcəyəm. Arxayın ol mən sənə heç vaxt yük olmaq istəmərəm. Sənin nəzərində mən yoxamsa, bil ki, mən də bu həyatda yoxam. Gördüyün bu can isə diri deyil, ölü bir candır. Hərəkət

edən ölü.

O, ürəyini boşaldıb, o ki, var ağladı. Sevda donub yerində qalmışdı. Xudaverdi gözünün yaşını silə-silə:

— Sizin haqqınız mənim boynumda çoxdur. Mən bunu ölənə qədər itirmərəm. Sən özün də yaxşı bilirsən ki, sənə qarşı sözümdə də, hərəkətlərimdə də diqqətli olmuşam. Şükürlər olsun ki, tərbiyəsizliyimi görməmisən. Mən istədim ki, içərimdə olan hiss və həyəcan həqiqətlərini sənin özünə çatdırım. Qurban olum, əgər səni üzdümsə bağışla. Bəlkə də yerimi bilməmişəm. Acı da olsa doğrusu budur.

Sevda Xudaverdinin əllərini hələ də buraxmayıb, onun dediklərinə mat-məəttəl qalmışdı. Sonra əlini çəkərək iki əlləri ilə başını hər iki tərəfdən sıxdı. Beləcə dayanıb birdən o Xudaverdiyə altdan yuxarı diqqətlə baxdı. Elə bil birinci dəfə idi onu görürdü. Sonra içindən bir ah çəkərək:

— Xudaverdi, bilmirəm sən düşünüb dediklərində nə qədər səmimisən. Özün yaxşı bilirsən ki, mənim yaram hələ qaysaq bağlamayıb. Həmişə çalışmışam insanlardan uzaq olum. Amma istəyirəm biləsən. Qəlbim o qədər nazilib ki, bir sapdan da nazik olub. Əgər bundan sonra mənə qarşı yeni bir haqsızlıq olarsa dözmərəm. O, dediyim sap tab gətirməz. Həmin an qırılar. Başa düşdün məni?

— Mən bunu çoxdan başa düşmüşəm. Sən də bil ki, əgər həyatını, sevgini mənə etibar etsən onu göz bəbəyim kimi qorumağa hazıram. Mən ilk dəfə atanın iş otağında səni görəndə içərimdə elə bil ki, nə isə qırıldı. Sonra sevgi qarışıq bir dərd yükünə çevrildi. O, günbəgün böyüdükcə, gördüm artıq çəkə bilmirəm. Taqətim qalmayıb. Sonda bunun yolunu isə ürəyimdəkiləri sənə

çatdırmaqda gördüm. Düşündüm ki, deməsəm bu mən tərəfimdəm haqsızlıq olar.

— Vallah, heç bilmirəm sənə nə deyim? Doğrusu biz səni ailəvi o qədər çox istəyirik ki, bunu nəinki gözləyib heç ağlıma belə gətirməzdim. Bir də mən səndən yaşda üç yaş böyük olduğuma görə səni həmişə uşaq sanmışam. Sən nə qədər boylu-buxunlu olsan da heç sənin barəndə düşünməmişəm. Ancaq düzünü deyim ki, sən çox layiqli bir insansan. Allah sənə bütün xoş xasiyyətləri verib. Daha nə deyim?

— Bundan sonra istəsən də, istəməsən də xahiş edirəm mənə nifrət etməyəsən. Çünki gözümü açıb idealım sandığım yeganə xanım sənsən. Axı sən bilmirsən, bu illərdə sənin könlünü alacaq, hərdən də öz evimizdə hər dəfə başına dolanaraq, sadiq qulun kimi səcdə edəcəyim günlərin xəyalı ilə yaşamışam. Nə bilim, sən bunları mənim tərəfimdən günah bilirsənsə bağışla. Bağışla məni, Sevda.

O, kövrəlmiş halda ayağı durub:

— Sevda, dur səni yola salım, mən də görüm hansı cəhənnəmə gedirəm. Yəqin ki, bir də sizə gələ bilməyəcəyəm. Buna yəqin ki, cürətim catmayacaqdır. Atam öləndə tək qaldığım kimi, yenə də tək qalacam.

— Hara gedirsən? Mən səni heç yerə buraxmaram. Gəl birlikdə gedək evə, yəqin ki, heç nə yeməmisən.

— Sağ ol, Sevda, boğazımdan onsuz da heç nə keçmir.

— Gəl-gəl, düş qabağıma, ay Allahın mənə göndərdiyi bəla. Gedək, görək başımıza nələr gəlir.

Sonra isə birdən ucadan gülərək :

— Axı mən sənə söz vermişdim ki, o qızı mənə göstər onun ciyərini çıxardacağam.

— Əgər o qız mənəmsə, mənim nə ciyərim, nə də ürəyim qalıb. Gedək, əgər qalıbsa qoy sənin olsun. Bir də burnunu sallayıb leysan yağışı kimi gözünün yaşını tökmə.

— Sevda, qurban olum, mamagil bilməsin.

— Həm qız istəyirsən, həm də deyirsən heç kim bilməsin. Gedək səni ailə məclisində müzakirəyə verəcəyəm.

— Sən get, mən sonra gələrəm.

— Nə oldu, qorxdun?

— Yox ee, yaxşı deyil.

— Belə qorxaqlıqla mənə necə arxa olacaqsan? İndidən hər şeyi mənim üstümə atıb qaçmaq istəyirsən.

— Allah eləməsin.

— O ev həm də bizim ikimizindir. Sonrası ata-anadan asılıdır.

Dünyada qəribə şeylər olarmış. Kimə nəyin haradan gələcəyini fələkdən başqa heç kim bilmək iqtidarında deyildir. Onlar birlikdə 145 saylı avtobusa minib evlərinə sarı getdilər. Avtobusda Sevda ara-sıra Xudaverdini süzür, o isə özünü görməməzliyə vururdu.

Zibeydə xanım bu xəbəri Firudin müəllimə çatdıranda, kişi eşitdiyinə inanmadı, sonra:

— Bəs sən nə düşünürsən?

— Düzü, budur ki, o uşaq bizdən düz yol seçib, sadəcə o bizdən ayrılmaq istəmir. Burada pis nə var ki, hər halda biz onu yaxşı tanıyırıq, o bizə qarşı inanmıram ki, naxələflik etsin.

Firudin müəllim çiynini çəkib:

— İşə bax ee, heç ağlıma belə gətirməzdim. Bəs Sevda bu işlərə nə deyir?

— O da sənin kimi, o qədər saf münasibətdə olubdu-

lar ki, heç ağlına belə gətirməyib. Deyir siz bilərsiniz.

— Mən də düşünürəm ki, elə yaxşı olardı. Daha nə deyim, allah xeyir versin!

Sabahı günü Xudaverdi utandığından Firudin müəllimlə görüşəndə başını qaldırıb üzünə baxa bilmədi, o isə üstünü vurmayıb gülümsündü.

Dövlət imtahanları yaxınlaşdığından Xudaverdi gecə-gündüz çalışırdı. Sevda isə bu olanlara hələ də biganə idi. Gözlərinə inanmırdı. O, hətta Xudaverdinin qabağına yemək aparanda onu diqqətlə süzür, ona qarşı hansısa hissləri yaşamağa çalışırdı.

İmtahanlar sona yetmiş, Xudaverdinin institutda qalmaq məsələsi həll edilmişdi. O, artıq demək olar ki, laborant olaraq institutun işçisi idi, özü də filologiya fakültəsində.

Xudaverdiyə bir il iki aydan sonra məzuniyyət vermişdilər. Artıq o püxtələşmiş, hər kəsin ona müəllim deməsinə nail olmuşdur. İnstitutda özünü rəsmi aparır, heç kimlə zarafat etmir, öz üzərində ciddi çalışırdı. O, işləyə-işləyə aspiranturaya da qəbul olmuşdur. Özünü fakültənin dekanı Firudin müəllimin köməkçisi kimi aparırdı. Özü də layiqincə onun qabiliyyəti və işgüzarlığı barədə bütün institut danışırdı. Başqa institutlara baş çəkər, yeni qabaqcıl təcrübələri öyrənib, dəftərinə yazar, fakültə də onu aşılamağa çalışardı. Ona görə də fakültə dərslərin tələbələr tərəfindən mənimsənilməsində elmi, simpozium və konfranslarda aktiv iştirakına görə qabaqcıl olardı.

Xudaverdi müəllimin şəxsi həyatında da irəliləyişlər olmuşdur. O, kənddə olan evini satmış və Bakının Xutor deyilən məhəlləsində bir otaqlı mənzil də almışdı. Anasını yanına gətirmiş, arasıra da onun müalicəsi ilə

məşğul olurdu.

Sevdaya qarşı diqqəti, ətrafdakıları şoka salmışdır. Biçarə Sevda gözlərinə inana bilmirdi. Hər hansı bir şeylə əlaqəli fikrini tamamlamamış Xudaverdi hər şeyi öz qaydasına qoyardı.

Zibeydə xanım qızının taleyinin belə uğurlu dönüşünə çox sevinirdi.

Məzuniyyətə çıxmamışdan öncə Firudin müəllimin fikirlərinə ehtiramla yanaşan Xudaverdi müəllim toyun bu ərəfədə bir yerdə keçirilməsini məqsədə uyğun hesab etmişdi və toy günü müəyyənləşdirilmişdir.

Toya çox adam dəvət edilməmişdi. Xudaverdi müəllimin anası bərk xəstə olduğundan toyda bir təhər iştirak etdi.

Xudaverdinin evi bir otaq və bir mətbəxdən ibarət olduğu üçün anası mətbəxtdə divanda yerləşdirilmiş, bəylə gəlin isə otaqda qalırdılar. Sevda xoşbəxtlikdən sanki bahar çiçəkləri kimi təravətli olmuş, həm də elə bil işıq saçırdı. Onlar doğrudan da bir-birlərinə çox yaraşırdılar. Beləcə bir ailə ömrünün başlanğıcına uğurlu bir qədəm qoymuşdular.

Yel qanadlı illər öz atını çapıb gedirdi. Xudaverdi müəllimin anası uzun sürən xəstəlikdən sonra vəfat etmişdir. Bu illərdə onların ailəsi bir az da böyümüş bir oğlan uşaqları dünyaya gəlmişdi. Körpəyə Xudaverdi müəllimin atasının adını-Müzəffər qoymuşdular. Bununla da o ətrafa kimliyini göstərmişdi. Müzəffər həm atasının, bir az da anasının bəzi cizgilərinin özündə cəmləşdirirdi. Sevda işə çıxdığına görə Müzəffərə demək olar ki, Zibeydə xanım baxırdı. Firudin müəllim elə bil ki, nəfəsini Müzəffərlə alırdı. Hətta onun üçün Sevdanın adına iki otaqlı mənzil də almışdı. Xudaverdi müəl-

lim isə o evi kirayə vermiş, özləri isə evlərini bir otaq da artıraraq orada yaşayırdılar.

O, elmi işini müdafiə edib, elmlər namizədi dərəcəsini almışdır.

Firudin müəllim maarif naziri ilə yaxın dost olduğuna görə, xahiş edib Xudaverdinin cavan olmasına baxmayaraq, Tibb texnikumlarının birinə direktor təyin etdirmişdi. Bu vəzifə də onu xeyli dəyişmişdi. Tibb texnikumunda işlər onun düşüncəsinə görə qurulurdu. O, təcrübəli texnikum direktorları ilə dostluq edir, pul qazanmağın və yuxarılarla təmasda olmağın sirlərini öyrənirdi. Artıq şəhərdə hörməti artır, müəyyən yerlərdə sözü keçirdi. Güc nazirliklərində yüksək vəzifədə işləyən həmyerliləri ilə tanış olur, bayramlarda onlara "pay" göndərir, hər hansı bir mərasimlərdə yaxından iştirak edirdi. Özünün düşündüyü kimi yuxarılarla yumşaq, aşağılarla çox sərt bir davranış tərzi seçmişdir. İşdə ən kiçik məsələləri belə dərinləşdirir, müəllim heyətinə nəzarəti gücləndirirdi. Müəllim və tələbələr arasında gözə görünməyən öz adamları var idi. İş əsnasında zidd olan söhbətlərin hamısı ona çatdırılırdı. Hamı onu nazirin adamı tanıdığından nə isə deməyə çəkinərdilər. Dərsə gecikən, məktəbdə nizam-intizam qaydalarını pozan uşaqlar həmin saat məktəbdən xaric olunardılar. Bir il ərzində məktəbdə nizam-intizam yüksək səviyyəyə çatmışdır. Direktorun kabinetinə hər kəs ayaq basa bilməzdi. Onun hərəkətlərində artıq özündən razılıq hiss olunurdu. Ailədə də başqalaşmışdır. Hər yerdə əsl söz sahibi kimi özünü göstərməyə başlamışdı. Firudin müəllim xəstə olduğundan öz ərizəsi isə dekanlıqdan azad olmuş, bir professor-müəllim kimi dərs deyirdi. Sevda isə Xudaverdinin birdən-birə belə dəyişəcəyinə inanmırdı.

Özünü quzu kimi aparan Xudaverdi, indi özünü qızmış şir kimi aparırdı. Evə gec gəlir, bəzən də içkili gəlirdi. Bir dəfə Sevda onunla kobud davranmasına dözməyib: — belə getsə bizim ailə münasibətlərimiz pozulacaq— demişdi.

O isə:

— Bununla dünya dağılmaz ki, — deyəndə, Sevdanın içində elə bil nə isə qırıldı. Sonra: — Doğurdanda insanları tanımaq olmazmış — deyəndə içkili Xudaverdi bir az da həyasızlaşdı:

— Yoxsa sən ömrünün axırına kimi dekan, professor qızı kimi qalmaq istəyirsən?

— Mən adam qızı olmuşam, adam qızı kimi də qalmaq istəyirəm.

— Mən sizin ailənin mənə etdiyi yaxşılıqların əvəzini on qat ödəmişəm.

— Xudaverdi, yaxşılıq heç vaxt əvəz olunmur, nə də ki, ödənilmir, sadəcə qanan insanlar tərəfindən qiymətləndirilir.

— Qanmaz sənin özünsən. Bir də ki, özün yaxşı bilirsən.....

— Tərbiyəsiz!

— Tərbiyəsiz olaram da, sənin kimi professor qızını düşdüyü zibildən çıxarıb arvad etmişəm.

— Deyib, qapını çırpıb getdi.

Biçarə Sevda bu görməmiş və tərbiyəsiz adamın əsiri olmuşdur. Qaysaqlanmış yarası birdən-birə çat-çat oldu, hönkürərək öz taleyinə acıdı və huşunu itirdi. Ayılanda gecə yarıdan keçsə də hələ Xudaverdi müəllim evə dönməmişdi. Sevdanın qərarı qəti idi. Səhəri o, yüngül əşyalarını yığıb, anasıgilə getdi. Müzəffər nənəsigildə qaldığından hər səhər anası ilə məktəbə gedir, sonra isə

anasıyla məktəbdən qayıdırdı. Müzəffər 8-ci sinifi başa vurmaqda idi. Sevda sonralar neçə dəfə hamilə qalsa da körpə tələf olurdu. O, ürəyində düşünürdü ki, nə yaxşı ki, belə adamdan bir uşağı var.

Xudaverdi müəllimin öz oturub durduğu çevrəsi, müəyyən vəzifəli adamlarla əlaqədə olurdu. O, texnikumda gözəgəlimli qızlarla müavini Arzu xanım vasitəsilə eşq macəraları yaşayırdı. Hətta Lamiyə adlı gözəl bir qıza ev də kirayə tutmuşdu. Bu qız ondan hamilə qalmışdı amma qorxusundan deməmişdi. Anasının xəstə olduğunu bəhanə edərək kəndə gedən Lamiyə hər şeyi olduğu kimi anasına danışmışdı. Fərasətli ticarətçi olan anası qızının uşağı tələf etməsinə imkan verməmişdi. Beləliklə 7 aydan sonra Lamiyə və anası Bakıya gəlmiş və Xudaverdi müəllimlə görüşüb olanlara cavab verməsini tələb etmişdi. Xudaverdi müəllim nə qədər pul təklif etsə də, hədə-qorxu gəlsə də bir faydası olmamışdı. Sonradan kəbinsiz Lamiyə ilə yaşamağa razı olmuşdu.

Zaman öz işini görür, hər şey ildırım sürətiylə arxaya baxmadan keçir. Xudaverdi müəllimin Lamiyədən bir qızı olmuşdu.

Bunları sonradan öyrənən Sevda xanım onunla əlaqəni kəsmiş və rəsmən ayrılmışdı. Hər dəfə Müzəffərə baxanda Xudaverdini xatırlayan Sevda:

— Kaş ki, o, alçağa oxşamayaydın — deyib özlüyündə düşünürdü.

Müzəffər orta məktəbi bitirib Dadaş Bünyadzadə adına Xalq Təsərrüfatı İnstitutuna qəbul olmuşdur. Lakin atası nə qədər etsə də onunla görüşmək istəmirdi. Xudaverdi müəllim Tibb Texnikumunun direktoru vəzifəsindən azad edildikdən sonra institutların birində

müəllimlik edirdi. Sevdanın qardaşı Məhərrəm Xarici dillər İnstitutunu bitirdikdən sonra Xarici İşlər Nazirliyində tərcüməçi, sonralar isə müəyyən vəzifələrdə çalışmışdı. Sonradan Ticarət Palatasında müavin işləyirdi. Atasının tələbələri artıq müəyyən sahələrdə yaxşı vəzifələrdə çalışırdılar. Əhatə böyümüş, ailənin problemləri Firudin müəllim təqaüddə olsa belə hörmətlə həll olunurdu.

Müzəffər institutu bitirəndə onun işlə bağlı problemləri olmamış, gənc olsa da Ticarət Nazirliyində şöbələrin birinə inspektor təyin edilmişdi. İstiqanlılıqda, mülayimlikdə elə-bil atasının burnundan düşmüşdü.

Sonralar Sevda xanıma ailə qurmaq üçün təkliflər edilsə də o, ömürlük bu həyata nöqtə qoyduğunu bildirmişdi. Xudaverdinin nankorluğu Firudin müəllimə və Zibeydə xanıma çox pis təsir etmişdi. Bəzən də Firudin müəllim:

— Qurban olduğum gərək bu haqsızlığa imkan verməsin— deyirdi. Sevdanın isə saçları çoxdan ağarmış, həyata baxışları çox soyuq və sərt olmuşdur.

Müzəffər özüylə oxuduğu qızı qaçıraraq, bir müddət ev tutub yaşayandan sonra, anasının razılığını alıb kiçik bir məclis təşkil etmişdilər. Anası isə evdə hirslənib ağlayaraq:— Köpək oğlu atasına çəkib ee, ancaq öz xeyrini güdür-demişdi.

Müzəffər isə hər kəsdən istifadə edir, öz biznesini genişləndirirdi.

O, ailəsi ilə babasının onun adına aldığı evə köçmüşdü. Sovetlər birliyi dağıldıqdan sonra Bakıda bir tikiş sexi açmış, aeroportda özünə ticarət mövqeyi tutmuşdu. Dayısının vasitəsi ilə əvvəlcə Türkiyə ilə sonra isə Çinlə ticarət əlaqələri qurmağa müvəffəq ol-

muşdu. Bir qonaqlıqda Hüsnü ilə tanış olan Müzəffər onlara gəlib-getməyə başlamışdı. İmkansızlığa və tənhalığa dözməyən Hüsnüyə onunla bərabər olmaq sərf edirdi. Ancaq vəziyyətin bu yerə çıxacağını heç ağlına belə gətirməmişdi. Qızı Laləylə bağlı olan hadisə sanki qadını ayıltmış, əlində əlacı olsaydı sanki, Müzəffərin başını kəsdirərdi. Hələ yaxşı ki, Zülfünaz ilə Müzəffərin arasında olan münasibətlərdən xəbəri olmamışdı. Onların isə qanının arasına Fərid girmişdi, sonrası nə olacaq bir Allah bilirdi.

* * *

Payızın artıq nəfəsi duyulurdu. Aram-aram yağışlar yağmağa başlamış, cənubdan və şimaldan əsən küləklər bir-birini əvəz etməyə başlamışdı. Xəzərin sahilinə gəlib-gedənlər yavaş-yavaş seyrəkləşirdi. Təbiətin də özünəməxsus qanunları var. İsti yay günlərində Xəzəri dövrəyə alıb ondan əl çəkməyən insanlar, soyuqlu havalar başlayanda onu özü ilə baş-başa qoyub, tənhalığa məhkum edirdilər. Küləklər də bir tərəfdən dənizə qarşı öz sərf üzlərini göstərməkdə idilər. Bu olanlara göz qoyan fırtınalar isə at oynadır, az qalırdılar dənizin yerindən oynatsınlar. Bələkə də dünyada elə şeylər var ki, biz insanlar hələ də gördüklərimizi duyub anlamaq iqtidarında deyilik. Təbiətin qan ağlamağının, hay-haray qoparmağının sirrini bəlkə də heç zaman bilməyəcəyik. Bir baxın, fırtına elə bil dənizin saçını yolur, ləpələr isə buna dözməyib göylərə qalxır, əlacsız qalaraq özünü dənizə çırpır. Biçarə dəniz isə olanların hamısına inildəyə-inildəyə dözür. Onun bir kimsəsi yoxdur ki, ondan "Ay dəniz dərdin nədir?"— deyə soruşsun. Bir kiçik ağrıya dözə bilməyən bizlər, dənizin bu boyda dərd qarşısında

necə də məğrur durmasına da paxıllıq edirik. Nə olsun ki, hər kəs onun gözəlliyinə vurulur. Daha bilmirik ki, hər gözəlin də bir dərdi var. İnsan gözəlliyi sevir, onunla əylənməkdən ləzzət alır. Bəs onda acıları kim çəkməlidir? Axı hər ikisini bizə tanrı bəxş edir. Məsələ ondadır ki, birini sevinc üçün verirsə, digərini anlatmaq üçün verir. Heyf ki, həyatda çəkdiklərimiz bizə dərs olmur. Bu azmış kimi yeni olaylara baş vururuq. Bəlkə də canlı-cansız gözə görünən bütün varlıqlar bir ilahi sevgi xətrinə yaranmışdır.

Təbiət bizə nələr bəxş etməyib, içdiyimiz su, aldığımız hava, yaşamağımız üçün qida, seyr etdiyimiz açıq səma, ulduzlar, ay, günəş daha nələr, nələr. Üstəlik də bizə olan sevgisi bizi işlədiyimiz günahlara görə bağışlaması. Bəs biz ona nə veririk? Olanlara qarşı nankorluq, bunun başqa adı yoxdur. Biz sevməyi bacarmırıqsa, deməli, haqq-ədalətin nizam tərəzisi çoxdan pozulub. Ona görə də hər kəsin həyatda qismət payı fərqlidir, özü də çox fərqlidir. Bu gün bir parça çörək axtaran insan, heyif ki, dünən ki, günü tez unudur. Ona verilən sevgiləri dəyərləndirmək əvəzinə ayaq altına atıb hörmətsizlik edir. Bilmirik ki, düz yola çıxmaqdan ötrü, hər şeydən əvvəl özümüz düz olmalıyıq. Sevgilərimizin qarşılıqlı olmasını istəyiriksə, bizi sevənlərin sevgisini sevgiylə qarşılamalıyıq. Əgər hər birimizdə bir sevgi ümidi olarsa, gözlərimizə nur, dizlərimizə taqət könüllərimizə isə sevgi ilə dolu yaşamaq eşqi, fərəh, sevinc içində dayanmadan, qaça-qaça gələr.

Fəridə hərbi komissarlıqdan payız çağırışı ilə əlaqədar çağırış vəsiqəsi gəlmişdir. Oktyabr ayının 10-da qeydiyyatdan keçib, hərbi hissələrin birində öz qulluq borcunu yerinə yetirmək vaxtı çatmışdı. O, çox dalğın

bir az da çaşqın idi. Zülfünaz ilə arasında olan yaxınlığın valideynləri ilə necə razılaşdırılmasının yollarını axtarırdı.

Səhər tezdən Zülfünazı instituta aparmaq üçün evlərinin qarşısında qarşıladı. Zülfünaz maşına sarı gəlir, Fərid isə onu süzürdü. Birdən o: — Vallah bu qız tələbədən çox təzə gəlinə oxşayır — deyib gülümsədi.

Doğurdanda Zülfünaz bir az kökəlmiş, qızdan çox nazlı gəlinlərə bənzəyirdi, ləngər vura-vura gəlib maşına oturdu. Sonra:

— Sabahın xeyir, Fərid. Sən niyə adama elə baxırsan?

— Necə baxıram?

— Müştəri mala baxan kimi.

— Yaxşı mala baxmağına dəyər.

— Maşallah, bu fağır oğlan biclərin bici olub.

— Doğru deyirsən. Sənlə tanış olanda dizlərim əsirdi, indi isə səni görəndə hər yerim əsir.

— Bu nə təhər olur, ayə?

— Olanda olur daaa, bunun da nə təhərisi yoxdur ki, Ya allah gedək.

— Nə deyirəm gedək də.

Onlar yollarına davam edə-edə söhbət edirdilər.

Fərid birdən:

— Zülfünaz bu gün anamla səni görüşdürəcəyəm.

— Bəs niyə dünəndən mənə deməmisən?

— Nə fərqi var?

— Heç olmasa dədə-baba qaydası ilə geyinərdim.

— Onsuzda əvvəl-axır geyindiklərinin hamısını görəcək də.

— Onda başqa, indi başqa.

— Heç nə olmaz, necə var elə görünsən daha yaxşı

olar.

— Özün bil, deyirəm sonra bir qənbərqulu çıxmasın.

— Çıxmaz inşallah, çıxmaz.

Zülfünazı institutun qabağında düşürüb gedəndə qız arxadan:

— Fərid, iki tamamda burda ol.

O, siqnal verib uzaqlaşdı. Fərid əskərliyə çağırılması barədə hələ heç kimə heç nə deməmişdi. O, artıq Zülfünazı qısqanmağa başlamışdı. Bu ayrılıq zamanına necə dözəcəyini bilmirdi. Zülfünazın sözü olmasın axı onu Bakıda əjdahaların arasında qoyub necə getsin? Utanmayıb şəxsiyyətinə sığışdırsaydı atasına deyərdi ki, başqaları kimi ona da xəstəliyə görə ağ bilet alsınlar. Ancaq o atasının xasiyyətini yaxşı bilirdi. O, vətəninə, xalqına qeyrətlə qulluq etmişdi. Mahmud müəllim həmişə bütün hərəkətlərində, fikirlərində və sözlərinin kəsərində "Misri qılıncı" kimi düz və iti kəsərli olmuşdur. Ona görə də belə sözləri ona deməyi Fərid ancaq yuxularında görə bilərdi.

Artıq Fərid qayıdıb gəlib, Zülfünazı gözləyirdi. Zülfünaz isə zamanında gəlib çıxmışdı. Onlar birlikdə 6 saylı xəstəxanaya gəldilər. Xəstəxananın girəcəyində qapıda Fəridi tanıdılar və onları 3-cü mərtəbəyə — kardioloji şöbəyə buraxdılar. Validə xanım demək olar ki, 20 ildən artıq idi ki, burada çalışırdı. Ondan son 7 ilini şöbə müdiri vəzifəsində işləyirdi. Hətta, ağır xəstə olardısa, gecə vaxtı ya Mahmud müəllimlə, ya da Fəridlə gəlib baş çəkər, lazımı tədbirlər görərdi. Hamı deyərdi ki, Validə həkimin əli yüngüldür. Onlar əvvəlcə Validə xanımın kabinetinin qapısını döyüb sonra içəri girdilər.

— Salam, ay ana, Zülfünazı gətirmişəm tanış olun.

— Xoş gəlmisən, qızım!

— Xoş gününüzə gəlmişik. Hər ikisi öpüşdülər. Sonra isə Fərid anasının üzündən öpdü.

— Oturun, ayaq üstə durmayın.

Zülfünaz utancaq halda sağ olun — dedi. Onlar bir az ordan-burdan, ötüb-keçənlərdən söhbət etdilər. Fəridin tez-tez qıza əli ilə toxunmasından, qızın isə qımışmasından illərlə insan pisxologiyasına bələd olan Validə xanım şübhələnmişdi. Və öz-özündə: — deyəsən bunların yaxınlığı sevgini zadı çoxdan ötüb keçmişdi.

Fərid ayağa durub: — Anacan, biz sənə mane olmayaq, sən işində ol biz getsək yaxşı olar.

Onlar görüşüb qapıdan çıxdılar. Yolda Zülfünaz Fəridə: — Fərid, maşallah anan ağappaq qadındır. Yəqin sən atana çəkmisən, ancaq ağız-burnunun incəliyində anana oxşamısan.

Onlar maşına oturandan sonra Fərid Zülfünaza üzünü çevirib:

— Bəlkə bizə gedək, hələlik evdə heç kim yoxdur.

— Nə deyirəm, yaxşısını sən bilərsən.

Onlar Fəridgilə gəlib çatdılar. Fərid qapını açdı, içəri girdilər.

— Nə ürəyin istəyir, Zülfünaz?

— Sən ki, heç nə yeməyəcəksən?

— Mən elə sənin acınam, səni yemək istəyirəm — deyib, onu otağına çəkdi...

Gənclərin hərəkətlərindən şübhələnən Validə xanım işdə bir az oturub, onların dalınca çıxdı. O, nə düşündüsə bir taksiyə oturub evlərinə gəldi. Fəridin maşını həyətdə dayanmışdı. Onun belə tez gəlməyinə bir az da şübhələndi. Açarını çıxarıb qapını açmaq istəyəndə, görgü qapı kilitlənməyib. Yavaşca qapını açıb içəri keçdi. Sonra orta orağa keçəndə Fəridin otağından qa-

rışıq səslərin gəldiyini eşitdi. Gümanı onu yanıltmamışdı. Hirsindən dodağını çeynəyə-çeynəyə oğlunun qarasınca:

— Bir elə bu çatmırdı. Tərbiyəsiz! — deyib Fəridin otağının qapısını açanda onların ikisini də çılpaq halda bir yerdə olduqlarının şahidi oldu.

Validə xanım hirslə qapını çırpıb geri döndü. Fərid tez durub, əyninə idman şalvarını geyinib çölə çıxanda anasının tez-tez pilləkənlərin düşərək, ağlaya-ağlaya getdiyini gördü...

* * *

Habil Bakı Dövlət Universitetini bitirəndən sonra Ədliyyə nazirliyində işə düzəlmişdi. Onun atası Rafiq müəllim uzun müddət prokurorluq orqanlarında respublikanın müxtəlif rayonlarında prokuror vəzifəsində çalışmışdı. Onun dədə-babası seyid nəslindən olduğuna görə camaat ona hərdən "Ağa, cəddinə qurban olum" deyirdilər. O, isə həqiqətən hansı rayonda qulluq etsəydi, orda əmin-amanlıq, haqq-ədalət hökm sürərdi. O, günün çoxunu sadə adamlarla keçirdiyindən, camaat onu "xalq adamı"— kasıbların dayağı kimi yüksək qiymətləndirirdilər. Üç övladı var idi. Onlardan ikisi oğlan, biri qız idi. Evin böyük qızı Sona, ortancılı Habil, üçüncüsü Arif idi. Uşaqların üçü də ali təhsil almışdılar. Sona arzusuna uyğun olaraq Tibb İnstitutunu bitirmiş, artıq ailə qurmuşdu. Hələ sarışın, gözəl bir qızı da olmuşdu. Ailəsi ilə öyünər, həmişə həyatından məmnun qaldığını deyərdi. Habilin demək olar ki, Almazla nişanlanmasının səbəbi də bacısı Sona idi. Beləliklə, Almazın böyük bacısı Tibb İnstitutunda onunla bir yerdə oxumuşdular. Sona onların ailəsinə yaxşı bələd idi. O,

bilirdi ki, Habil bu sağlam ailənin qızı ilə ancaq xoşbəxt ola bilər.

Ailənin kiçik oğlu Arif Bədən Tərbiyəsi İnstitutunun sonuncu kursunda oxuyurdu. O, həm də dəfələrlə respublika və Beynəlxalq yarışların qalibi olmuşdu. Arif öz ailəsi ilə qürur duyur, ailəsi isə onunla fəxr edirdi. Onların ailəsinin bu gün sevincinin həddi-hüdudu yox idi. Ona görə ki, neçə il nişanlı qalandan sonra Habilin toyu idi.

Habil Almazla çox xoşbəxt görünürdülər. Toy iki ailə arasında razılığa əsasən birlikdə "Tural" şadlıq evində keçirilirdi.

Habil və Almazın (bəy və gəlinin) qurup yoldaşları da toya dəvət olunmuşdular. Onlar bu toya xüsusi hazırlıqla gəlmişdilər. Bütün toy mərasimi boyu oynamaqdan doymur, oyun qurtaranda isə bəylə gəlinin yanına qalxıb bol-bol yadigar üçün şəkillər çəkdirirdilər. Təsadüfdən isə növbəti şəkili çəkdirəndə Fəridlə Solmaz bəylə gəlinin arxasında yan-yana dayanmışdılar. Təbrik üçün bəylə gəlinin qurup yoldaşlarına söz verilir. Bu iki gəncə hər kəs öz ürək sözünü, arzularını bildirir. Söz Solmaza verilir:

— Mən də öz uşaqlarımız dediyi arzulara qoşuluram. Bir də əlavə deyə bilərəm ki, bu cütlük inşallah xoşbəxt olacaqlar, ona gorə ki, onlar bir-birlərini yaxşı tanıyırlar, artıq öz sevgilərini bir-birlərinə sübut ediblər. Valideynlərə gözaydınlığı verirəm və gənclərə üzümü tutub deyirəm: — Tanrının sizə nəsib etdiyi bu qismət seçimini dəyərləndirməyi bacarın. Həyatınızın bu xoş təsadüfünü ömrünüzün sonuna qədər sevgilərinizdə yaşadın. Allah sizi xoşbəxt eləsin.

Yenə də musiqi, oyun davam edirdi. Solmazın həzin,

lakin həyəcanlı səsi elə bil Fəridi üşütmüşdü. O, ürəyində Solmazla elə bil bölüşürdü: "Solmaz, vallah mən həmin Fərid, sən tanıdığın adam deyiləm. Heyif ki, sən mənə ürəyində bu qədər dəyər vermisən, göylərə ucaltmışam. Bir dəfəlik bil, mən o mən deyiləm. Heyif ki, sənə qarşı zamanında sevgi qığılcımı tapa bilməmişəm. Bəlkə də bu həyatın bizə qarşı olan haqsızlığı, ya da ki, böyük bir imtahanıdır. Nə bilim. Düzünü ulu tanrı özü bilir." Fərid məlum hadisədən sonra toya nə anası ilə, nə də Zülfünaz ilə gələ bilmişdi. Qrup yoldaşları nə qədər onu belə kefsiz olmağının səbəbini soruşsalar da o əməlli-başlı bir cavab verə bilməmişdi. Bayaqdan onu müşahidə edən Solmaz onun bu halına dözə bilmirdi. Əlbəttə, başqa qurup yoldaşları kimi o da Fəridin Zülfünaz adlı bir qızla bir-birlərini sevməklərini eşitmişdi. Evlərində əvvəlcə canı sıxılsa da, sonra vanna otağına keçib doyunca ağlayıb ürəyini boşaltmışdı. Toyun axırına yaxın Solmaz Fəridin halına dözməyib foyedə ona yaxınlaşdı:

— Fərid, Allah eləməsin xəstələnməmisən ki, bəlkə ailənizdə bir sıxıntı var?

— Yox Solmaz, elə bir şey yoxdur.

— Bəs onda nə olub?

Fərid əskərliyə getməyi haqqında heç kimə, deməsə də, ancaq nədənsə Solmazı yaxın bilib, ona demək qərarına gəldi.

— Əslində səbəb var. Hələ ki, heç kimlə bu səbəbi bölüşdürməmişəm. Ancaq ürəyimdən bu dəqiqə keçdi ki, sənə deyim.

— De, Fərid, de, qurban olum. Nə çətinliyin olsa kömək olmağa hazıram. O vaxtı mən sənə bacın ola bilmərəm demişdim. Qardaş ki, arxa ki, ola bilərəm. Xahiş

edirəm heç çəkinmədən deyəsən.

Fərid iki kofe götürüb ayaqüstü hündür stolun üstünə qoydu.

— Solmaz, kofeni içə-içə danışaq, olarmı?

— Olar, öncə səni narahat edən səbəb haqqında danış.

— Heç evdəkilər belə bilmirlər.

— Saxlama, danış, eşidirəm.

— Mən oktyabrın 10-u əsgərliyə gedirəm.

O, çağırış vərəqini çıxarıb Solmaza göstərdi. Bu anda Solmazın birdən gözləri doldu. Elə bil bu dəqiqə Fəridi müharibəyə aparırdılar. Bu səhnə Fəridin gözündən yayınmadı.

— Qoy Allah səni qorusun, Fərid! İnşallah, mənim dualarım səni qoruyar.

— Sağ ol, Solmaz. Mən sənə hər şeyə görə minnətdaram. Bir də sən dediyin kimi, artıq sən mənim qardaşımsan. Ona görə də sirrimi sənə açdım. Özü də eşitmişəm ibadətlə də məşğulsan. O adamı güclü edir. Hər birimiz onsuzda rəbbimizin quluyuq. Hər halda sən məndən düz yoldasan. İndi isə toy qurtarır gedək uşaqlara qoşulaq.

— Gedək, ancaq sən həmişə cəsur olmusan, doğrusu bu halın sənə yaraşmır. Həyatda nə olursa olsun özünü itirmə, axı həyat davam edir.

Onlar birlikdə toyun ortasında oynayan yoldaşlarına qoşuldular. Mərasimin sonuna yaxın toyda çəkilmiş foto-şəkillər uşaqlara paylandı. Fərid də özünəməxsus olan şəkili alıb cibinə qoydu və sonra Solmaza yaxınlaşıb:

— İstəyirsən səni evə ötürüm.

— Yox. Çox sağ ol qardaşım Hüseyn gəlib. Aşağıda

gözləyir.

Toy sona çatmışdı. Hamı bəy və gəlini yola saldıqdan sonra bir-birləri ilə xudahafizləşib evlərinə sarı yollanırdılar.

Fərid toydan sonra evlərinə gəldi, qapını açıb içəri girdi. Anası erkən yatmış, atası isə hələ də iş otağında çalışırdı. O, sakitcə öz otağına keçib paltarlarını soyunub, yatağına uzandı. Nə qədər etsə də yata bilmədi. Toyda olanlar və Solmazla aralarında olan söhbət heç yadından çıxmırdı. O, yanındakı "tubuçkanın" siyirtməsini çəkib Solmazın ona verdiyi xatirə dəftərini vərəqlədi. Bir yerindən yazırdı. "Fərid, elə bilirdim ki, sən dərsə bir neçə günlüyə gəlməsən bu mənim üçün fərq etməz. Ancaq əslində elə deyilmiş. Yadındadır biz üçüncü kursda oxuyanda sən Türkiyəyə yarışa getmişdin. Heç bilmirsən sənin bu bir həftəlik dərsə gəlməməyin mənə necə baha başa gəlişdi. Sən demə mən heç özümü tanımamışam. Sənsiz mən elə bil dərsə sürünə-sürünə gəlib, sürünə-sürünə qayıdırdım. Hər axşam Allaha dua edirdim ki, siz qayıdan təyyarəyə heç nə olmasın. İstəyirdim orada qalib olasan. Ona görə ki, sənin bikef olmağına dözə bilmirdim. Yadımdadır, sən bir dəfə qrupda şəkilini bizə göstərmişdin. Onda sən çox qürurlu, boy-buxununa uyğun məğrur dayanmışdın. Paltonun üstündən şərfi düyünləyib bağlamışdın. Sənə bu xüsusi yaraşıq verirdi. Mən o, şəkili dəftərinin arasından götürmüşdüm. Sonra sən auditoriyada şəkilin kimdə olduğunu soruşanda mən susub heç nə demədim. O, şəkil sonralar mənim dostum, can yoldaşım, sirrdaşım oldu. Hərdən düşünərdim ki, nə yaxşı mənim öz otağım, bir də sənin şəklin mənim ixtiyarımdadır. Sən Türkiyədə olduğun zaman bilirsən sənin şəkilinlə nə qədər danışıb, ürəyimi

boşaltmışam. O zaman bir daha əmin olmuşdum ki, məni yaşadan yalnız sənin varlığındır. Hətta, sənə bir şeir də yazmışdım:

İnsanı valeh edən səma gözəl olsa da,
Gözəlliyin itirər, bil ki sən olmayanda.
Varım, dövlətim ola, güzaranım xoş keçə
Ürəyim xəstə olar, bil ki sən olmayanda.

Şəklini bir az hündür yerə qoyub gözlərinə baxa-baxa hərdən də sənə yalvarırdım ki, məni heç vaxt tək qoymayasan. Məni sənsizliyə öyrətməyəsən. Qurban olum Fərid, sənə olan sevgimi mən heç kəslə paylaşdıra bilmərəm. Hərdən az qalıram evin üstünə çıxıb qışqıram:

— Ey insanlar, nəyim var alın əlimdən, hətta gözlərimi də, qollarımı da kəsin götürün, istəsəniz canımı da alın, təkcə Fəridə olan əvəzsiz, təkrarsız, ülvi, pak sevgimdən başqa. Onu əlimdən alsanız ruhum da məni bağışlamaz!

Sənə bir söz deyim, ancaq mənə gülmə. Elə bil sən mənim içimdəsən. Ya yemək yeyəndə, ya da kimləsə söhbət edib, bir anlığa səndən uzaq olan kimi birdən içimdə nə isə qırılır. Sonra nəfəsim tutulur, gözlərimi isə tor alır. Onda hansısa bir qüvvə məni ayıldır. Həmin dəqiqə sənlə oluram. Üzüm gülür, hətta bayaqdan boğulan səsim də özümə qayıdır. Hərdən düşünürəm bəlkə Allah baba məni sənin varlığın üçün yaradıb. Məni sənə sadiq qul göndərib. Deməli sənin varlığın mənim üçün bir ilahi tərəfdən göndərilmiş sevgi payımdır. Ona görə də mən çox xoşbəxtəm. Sənin yolunda ən ağır cəzaya belə məhkum olmağa hazıram. Dönə-dönə

düşünürəm, nə yaxşı ki, sən varsan həyatım.

Elə bilirdim dünyanın sonudur. Nəfəsim tutulur, ürəyim az qala dayanacaqdır. Düşünürdüm ki, yəqin sevgimi sənə isbat edə bilməmişəm. Özümü günahkar, sevgimi isə Ata-Anadan qalmış körpəyə bənzədirdim. Biləsən ki, bu səsli -küylü dünyada necə səssiz olmuşam? Sənlə ancaq içimdə söhbət edirəm. Heyif ki, sənə olan iradlarımdan xəbərin olmayacaqdır. Düzü, səndən çox incimişəm, hətta deyərdim bir az da küsmüşəm. Düşünmə ki, mənə olan soyuqluğundan usanmışam. Əsla, yox. Sən soyuq bir buz heykəl olsan belə, yenə səni seçərdim, həyatım! Nə olsun ki, bir az dilli, bir az ərköyün, bir az da səbirsizsən. İnan ki, mən səni elə-beləcə sevmişəm, olduğun kimi. Biləsən ki, sevgilim, səndən çəkdiyim zülmlərdən necə məmnunam.Yazan belə yazıb. Qismətimdən çox razıyam, şükürlər olsun. Nə yaxşı ki, sən varsan. Bu həyatda arzuladığım o ülvi sevgimi, həyatımın və yaşamağımın mənasını da səndə tapmışam, sevgilim. Yetər ki, sən xoşbəxt ol. Sənin varlığın mənim üçün hər şeydir. Aldığım hava da, içdiyim su da, döyünən ürəyim də, düşünən beynim də, hətta bu zavallı canım da sənsən sevgilim. Nə yaxşı ki, sən varsan. Mənim idealım, ilahi sevgim, qibləgahım sənsən. Heyif ki, sənə olan sevgimdən için-için yandığımı görməyəcəksən. Sənə səcdə edən təmənnasız sevgimi duymayacaqsan. Çat-çat olub qaysaqlanmış dodağımdan axan qanı silməyəcəksən. Dözməyib həsrətdən axan göz yaşlarımı görməyəcəksən. Canımı yolunda fəda edib, ruhumu sənə əmanət etdiyimi bilməyəcəksən. Beləcə öləcəm, heç üzümü görməyəcəksən.

Yadında saxla, sevginə layiq, özünə tay olmasam da səni layiqincə, təmənnasız sevən bir kövrək ürəyim var.

O ürək ki, əllərinlə qəfəsə atıb bir dəfəlik susdurmusan. Hərdən qorxa-qorxa sənə baxan gözlərim bu yazıq ürəyimə can, yaralı qəlbimə məlhəm istəyir. Eşit! Ey yaşayan ölüyə can verən insan! Nə yaxşı ki, nə yaxşı ki, sən varsan!"

Ömründə ilk dəfə hiss etdi ki, onu həyatda olduğu kimi hiss etdib, anlayan adamdan çox-çox uzaqlardadır. İlk dəfə ürəyində dolub, gözlərini boşaltdı.

* * *

Elədiyimiz haqsızlıqlara görə müəyyən zaman kəsiyində cəzasız qalırıqsa bu o, demək deyildi ki, haqqı tapdalamaq, hüzursuz etmək olar. Gec-tez haqq öz yerini tapır. Necə deyərlər "Haqq nazilər, üzülməz" . Beləcə bəzən gözümüz tutulur, haqqı-nahaqdan ayıra bilmirik. Mərddən üz çevirib namərdi qoynumuza alırıq. Sonda isə namərd öz namərdliyində qalır. Onda da mərdə bir daha üz çevirməyə üzümüz qalmır. Sinəmizdə qəlb əvəzində küləklər başından əksik olmayan buzlayıb, sırsıra bağlamış bir dağ dayanır. O dağ ki, özü boyda dərdi var.

Fərid səhərə yaxın yatmaq istəsə də anasının səhərin gözü açılmamış evdəki əsəbi halda gəzişmələri onu ayıltmışdı, lakin onun hüzuruna çıxmağa üzü qalmamışdı. Bir anlığa anası ilə arasında olan səmimiyyət illərlə o xanımın ona öyrətdiyi saflıq, qarşılıqlı hörmət, ailə üçün önəmli olan onun namusu və qeyrəti əməlli-başlı pozulmuş, o toxunulmaz saf sevgilərin əvəzində çox çirklənmiş cuxurlar dururdu. Bir tərəfdən təcrübəsizlikdən, digər tərəfdən görmədiyi qadın gözəlliyi qarşısında çaşbaş qalmışdı. Hələ də Zülfünaz qarşısında verdiyi sözə etibarsız çıxmamaq, ona etdiyi namərdliyin qarşısında

(aralarında olanlarda hələ də özünü günahkar bilirdi) ona həmişəlik dayaq olacağı barədə düşünürdü. Yerində bir az qurcalanıb, yorğan döşəkdə Zülfünazın qoxusunu duymaq istədi. Elə bu dəqiqə, həmin an bir yerdə olmaq arzusu ilə yastığını qucaqlayıb yuxuya getdi.

Zülfünaz şənbə gününün axşamı Fəridin toyda olacağını bilirdi. Toya onu dəvət etməməsinin heç üstünü də vurmamışdı. Ancaq Fəridin anasının onların bir yerdə olmasının şahidi olacağını heç ağlına gətirməmişdi. Həmişə bu qadından ehtiyatlanan Zülfünaz bu dəfə ehtiyatı əldən vermişdi. Bu məsələnin onun xeyrinə düzələcəyinə gümanı qalmamışdı. Onu Fəridlə gələcək münasibətlərini necə davam etdirmək planları düşündürürdü. Birdən-birə Fəridi ittiham edib onunla aralarında olanlara onun cavabdeh olmasını tələb etməsini istədi. Sonra Fəridin ona səmimi münasibətini nəzərə alıb düşündüklərindən vaz keçdi. Fəridin telefon nömrəsini yığıb, sonra: — Qoy özü zəng etsin: — deyib, telefonun qırmızı düyməsini basdı. Hələlik özünün normal yaşamağının əlacını Fəridlə əlaqəni itirməməkdə görürdü. Telefonun zəngi onu düşüncələrdən ayıltdı.

— Alo.

— Ay can, qurban olum Fərid, harda qaldın?

— Bütün gecəni yata bilməmişdim. Ona görə yatıb qalmışam.

— Ömrümdə özümü bu qədər yalqız, kimsəsiz hiss etməmişdim.

— İnanıram, elə mən də.

— Fərid, nə deyirsən de, mən sənsiz bir gün belə yaşaya bilmərəm.

— Elə bilirsən mənə asandır?

— Ayrılmağımızı heç ağlıma belə gətirə bilmirəm.

Özün bilirsən ki, mənim ilk sevdiyim, ürəyimi açdığım, namusumu qurban verdiyim yeganə kişi sənsən.

— Əlbəttə mənəm. Məndən başqa kim olacaqdır? Bunların cavabdehliyini dərk etməyimlə bərabər mən səni çox sevirəm Zülfünaz. O qədər sənə bağlanmışam ki, səndən ayrılacağım barədə heç düşünmək belə istəmirəm.

— Sən indi nə iş görürsən?

— Səndən başqa inan ki, ağlımda heç nə yoxdur.

— Onda dur gəl bizə.

— Bəs Lalə, anan evdə yoxdular?

— Anamın iş yoldaşının qızının toyudur. Onlar orda kömək edirlər. Sonra isə toyun sonuna kimi orda olacaqlar.

— Gəlirəm.

Bir azdan Fərid artıq Zülfünazgilin evində idi.

— Xoş gəldin Fərid, niyə bizim xoşbəxtliyimizə mane olmaq istəyirlər? Axı biz çox xoşbəxtik — deyib Zülfünaz gözlərinin yaşını sel kimi axıtdı.

— Anam pis qadın deyil, o heç bu olanları məndən gözləmirdi.

— Qorxuram ki, anan bizim evlənməyimizə razı olmasın.

— Darixma, hər şeyin öz zamanı var. Vaxt gələndə hər kəs mən deyəni deyəcək. Baxma anamdı, bir az hirslənibdi. Nə qədər tərslik etsə də yadında saxla ki, məndən başqa onların övladları yoxdur.

— Hər nə isə. Düşündükcə adamın başının qapağı qalxır. Ən yaxşısı düşünməməkdi.

— Elədir ki var.

Onlar əl-ələ tutub Zülfünazın otağına keçdilər. Sanki yandırdıqları közün üstünə su səpib yavaş-yavaş

söndürdülər.

* * *

Fərid neçə gün idi yuxudan gec oyanır, axşamlar ata-anası yatandan sonra evə qayıdırdı. Lakin bu dəfə nə qədər gec qayıtsa da Validə xanım yatmayıb onu gözləyirdi. Atası isə çoxdan yatmışdı. Fərid içəri girib paltarını dəyişib, mətbəxə keçəndə anasının oturub ağladığını gördü. O, yaxınlaşıb onun boynunu qucaqlamaq istəsə də cürəti çatmadı. Bu neçə gündə o, anasını görməmişdi. Yazıq qadın sanki bu neçə gündə qocalmış, həm də xeyli arıqlamışdı. O, anasının bu halına dözməyib:

— Ana...

Validə xanım onun sözünü kəsdi:

— Otur, Fərid, otur burda. O, əli ilə qarşısındakı stulu işarə elədi. Validə xanım Fəridlə heç vaxt belə ciddi davranmamışdı. Əsəbdən əli-ayağı əsirdi:

— Baş verənləri mənə danış.

— Nə deyim ay ana, çox peşmanam.

— O, hələ bir tərəfə qalsın, de görək o qızı sənə kim calayıb?

— Heç kim, özüm tanış olmuşam.

— Necə? Harda?

— Məktəbdənmi tanıyırdın? Getdiyin idmanda tanış olmusan, bəlkə neçə illərdi tanıyırdın? Bəyəm tanışlıq hər yoldan keçənlə olar?

— Zülfünaz...

— O qızın adını mənim yanımda çəkmə!

— Yaxşı. İnşaat və Memarlıq İnstitutunda oxuyur. Mən hər dəfə institutun yanındakı dayanacaqda görürdüm. Sonra da yaxınlaşıb tanış oldum.

— O qız neçə dəfə sənin təklifini rədd edəndən sonra yaxın olmusunuz? İstəyirəm olduğu kimi danışasan.

— Hər dəfə keçəndə mən ona baxırdım. Sən demə o da məni görürmüş.

— Sonra?!

— Bir gün dözməyib, maşından düşdüm. O isə yaxınlaşıb əl uzadıb adını söylədi.

— Elə bu?

— Düzü ana, mən də neçə ay idi o qızın fikrini çəkirdim. Bu da allahın qismətidir ki, məni bu fikir əzabından qurtardı.

— Sən düşünüb danışdıqlarının fərqinə varırsan?

— Burda pis nə var ki?

— Pis odur ki, mənim ali təhsilli, hüquqşünas oğlum oxuduqlarından, gördüklərindən çox öz hisslərinin qurbanı olub. İstəyir ki, ata-anası da razı olsun.

— Mənim sizə, doğmalarıma olan sevgimi bilirsiniz.

— Bilsəydin, hər addımını, hər fikirini mənimlə bölüşdürərdin. Yadında saxla, sənin üçün həyatından keçə biləcək insanlar varsa o da sənin valideynlərindir.

— Mən nə deyirəm ki?

— Sən hələ nə isə demək də istəyirsən? Özün də bilirsən özünü də, bizi də çirkaba batırırsan. O qız haqqında danışmaq istəmirəm. Bax sən evin tək oğlu, ata-anasının tək ümid çırağı olan Fəridimiz gələcəyini necə görür?

— Ana, axı qızın nə günahı var? Məni həddindən artıq çox sevdiyindən heç bir sözümdən çıxa bilmir.

— Ata-ana xeyir duası almadan sənin yolunda namusundan belə keçməyə hazırdı?

Fərid başını aşağı salıb əl barmaqlarını şıqqıldadırdı.

— Niyə cavab vermirsən? Sənlə bir qrupda oxuyan

qızlar necə, onlar da belə idilər?

— Xahiş edirəm onları bura qarışdırmayaq.

— Soruşmaq istəyirəm görüm onlar da birinci dəfədən əl uzadıb hər kəslə tanış olurdular.

— Ay ana, sən nə danışırsan bizim qızlara bəyəm söz demək olardı?

— Ona görə ki, onların hamısının səviyyəli ailəsi, onlara tərbiyə verən ağıllı anaları olub. Onlarla bağlı hər şeyi zamanında anladıb. Bu neçə ildə niyə gözün kor olub? Bu qızların birini seçmədin?

— Mən onlari bacim kimi sevmişəm.

— Bəs yoldan keçənin birini nə tez gözün gördü. Ay burnunun ucundan gözü qabağı görməyən, hüquqşünas! Bilmirəm heç gələcəkdə insanlar sənin kimi birinə həyatlarını necə etibar edəcəklər? Heyf mənlə atanın zəhmətindən. Deməli sənin haqqında düşündüklərimiz hədərmiş. Biz isə həmişə sənlə fəxr edib, sənə güvənmişik. Bura sənin öz evindir, ancaq birdə mən səni o qızla hər hansı bir əlaqənizi görməyim.

— Ana...

— Dedim ki, bu söhbət qurtardı. Elə etmə ki, olanları atana danışım. Bilirsən ki, onun ürəyi xəstədir. Sən bilən bütün bunları bilsə onun vəziyyəti necə olar?

— Ancaq demək istəyirəm olanlarda o qızın heç bir günahı yoxdur. Bir də bu neçə gündə bir fürsət olmayıb sənə deyim ki, 3 gündən sonra məni əsgər aparırlar — deyib çağırış vərəqini göstərdi.

Validə xanımın elə bil beli büküldü. Bir təhər özünü dikəldərək dərindən nəfəs alıb:

— Sən nə danışırsan? — deyib, keçdi öz otaqlarına.

— Mahmud, ay Mahmud yatmısan?

Mahmud müəllim səksəkəli:

— Nə olub, Validə?

— Heç nə elə bir şey yoxdur, salamatçılıqdır.

Mahmud müəllim gözlərini açaraq:

— Elə-belə şeyə görə sən məni ayıltmazsan. De görək nə olub?

— Fərid elə indi mənə hərbi komissarlıqdan gələn kağızı göstərdi. Oktyabrın 10-unda onu əsgər aparırlar.

— 3 gündən sonra?

— Utandığından deməyib.

— Onun da tərbiyəsi bizi öldürəcək.

— İndi nə etmək fikrindəsən?

— Nə fikrim olacaq? Hər bir vətəndaşın borcudur vətənin qulluğunda olsun. Yat, sabah danışarıq.

Səhəri Fərid zəng edib telefonda əsgər getməyi barəsində Zülfünaza danışdı. O, isə peşəkar aktyor kimi gözünün yaşını tökdü, sonra isə:

— Fərid, qurban olum, atanla danış səni buralara saldırsın. Sən gedib torpağı azad edən deyilsən ki?

— Niyə Zülfünaz, lazım gəlsə lap cəbhə bölgəsinə gedərəm.

— Bəs məni düşünmürsən. Mən sənsiz buralarda nə edərəm? Bir də əlin mən yetimin üstündə olar.

— Darıxma, hər şey öz qaydasında olacaqdır.

Bir neçə gündən sonra Fərid hərbi kommissarlığa gəlib, qeydiyyatdan keçdi.

Səhər saat 9^{00}-da hərbi komissarlıqda olmalı idi. Komissarlıqdan çıxandan sonra Zülfünazgilə gəldi. Anası işdə olduğundan Zülfünaz bacısı ilə ikisi evdə idi. Onlar əvvəlcə üçü bir yerdə oturub ordan-burdan söhbət etdilər. Sonra Lalə bəhanə etdi ki, qonşunun qızı ilə işi var, — deyib Fəridlə xüdahafisləşdi. Onlar baş-başa qaldılar.

— Fərid, bilmirsən səni hara aparacaqlar?

— Yox, deyə bilmərəm.

— Bəs atan necə, heç nə demədi?

— Mən sənə atamın xasiyyəti barədə danışmışam.

— Xahiş edirəm özünü qoru.

— Mən istəmirəm sən hərbi komissarlığa gələsən.

— Onsuzda səhər dərsdə olduğumdan gələ bilməyəcəkdim.

Onlar qucaqlaşdılar.

Səhəri hərbi komissarlığa Fərid anası ilə gəlmişdi. Onlar hərbi komissarlığın əsas qapısının yanından keçəndə Fərid gözlərinə inanmadı. Solmaz tək-tənha dayanmışdı. İçində elə bil nə isə baş qaldırdı. Sonra nitqi tutuldu. Hər ikisi bir-birinin gözlərinə baxa-baxa lal kimi dayanmışdılar. Sükutu Validə xanım pozdu.

— Salam qızım, necəsən, anan necədir?

— Sağ olun Validə xanım, Allah razı olsun.

— Nazik geyinmisən, sənə soyuq olmaz ki?

— Nə bilim? Evdən tələsik çıxdım. Bura mənim iş yerimin üstüdür. O gün uşaqlarla bir yerdə idik. Eşitdim ki, Fəridi əsgər aparırlar. Düşündüm ki, əvvəlcə ona xeyir-dua arzulayım, sonra işə gedərəm.

— Lap yaxşı eləmisən, elə mən də Fərid də çox sevindik.

Validə xanım ora-bura baxıb:

— Siz söhbət edin, mənim tibbi komissiyada bir tanışım var, görüb qayıdıram.

Fərid Solmazla bir neçə dəqiqəliyə səssiz-səmirsiz dayandılar. Tutula-tutula Solmaz danışdı:

— Fərid, yəqin bura gəlməyimə acığın tutdu. Düzü Validə xanımı görəndə utandığımdan dizlərim əsdi.

— Eybi yoxdur, əksinə çox sevindim. Sən çox etibar-

lı qızsan. Hərdən verdiyin xatirə dəftərini oxuyuram. Bağışla məni Solmaz, bağışla ki, o zamanlar səni başa düşməmişəm. İndi isə mən sənə layiq deyiləm. Mən elə dua edəcəyəm ki, sən özünə layiq bir insanla xoşbəxt həyat qurasan.

— Yox, lazım deyil. Mənim bu yolda qismətim çoxdan qapanıb. Get, yaxşı yol. Nə çətinliyin olsa yaz, ya da ki, telefonla xəbər elə. Oldumu? İndi isə sağ ol.

Onlar bir-birilərinin əlini sıxıb xudahafizləşdilər. Solmaz üzünü çevirib gedəndə Fərid dözməyib:

— Solmaz, bağışla məni,— deyib doluxsundu.

Solmaz da dözməyib qayıdıb ağlaya-ağlaya Fəridi bağrına basdı.

— Fərid, ürəyini sıxma hər şey allahın qismətidir. Sən özündən muğayat ol.

— Vaxtın olsa da anama baş çək, mənim həyatda olan taleyimlə o da razı deyil. Biçarə heç olmasa sənin kimi bir qızı olsaydı heç olmasa hərdən dərdlərini bölüşərdilər.

— İmkan olan kimi görüşəcəyəm. Hələlik!

Aralıdan onları seyr edən Validə xanım şoka düşmüşdü. Fəridin bu işlərindən baş açа bilmirdi. Özözünə “o nə, bu nə” deyə sual verirdi. Sonra yaxınlaşıb Fəridin düz gözünün içinə baxanda, Fərid:

— Səndən artıq heç nə gizlətməyəcəyəm.

— Danış, danış görək nə baş verir?

— Sən demə Solmaz məni istəyirmiş.

— Bəs sən?

— Mən isə ona o zamanlar sən mənə ancaq bacı ola bilərsən demişdim.

— Atalar vallah yaxşı deyib.

— Nə deyib, ana?

— Deyib ki, “Eşşək nə bilir zəfəran nədir?”.

— İndi mən eşşək oldum?

— Elə belə dedim də.

— O vaxtlar artıq mən Zülfünazı sevirdim.

— Onun adını mənim yanımda çəkmə demişəm sənə. Bəs deyirdin səni çox sevir, bəs niyə buralarda görünmür?

— Axı o səhər-səhər dərsdə olur.

— Bəs Solmaz işdə deyil. O saat onun yarısına kimi sənin yanında olub, özü də onun hönkürüb ağlamasından səni necə sevdiyini hiss etdim. Allah sənə insaf versin.

— Elədir, çox sevir.

Bir azdan çağırışçılar bir-bir çağırılıb avtobusa yerləşdirildilər. Validə xanım ağlaya-ağlaya Fəridi öpüb qucaqladı: — Özünü qoru, — dedi.

— Narahat olma, Vətəni sevərək qorumaq baş ucalığı deyildimi?

* * *

Qəhrəmanlar doğulmurlar, vətənini sevən hər kəs o ülvi ada layiq görülürlər. Vətən təkcə sərhəddən deyil, o bir kiçik çiçəkdən, bir kiçik təpədən başlayır. Vətən onu sevib, əzizləyənin, onun yolunda canından keçənindir. Əvəzsiz canını qurban vermək, döyüşə-döyüşə, onun uğrunda şəhidlik zirvəsinə qalxmaq hər Vətən övladının qismətinə düşmür.

Fəridin and içmə mərasiminə atası Mahmud müəllim, anası Validə xanım gəlmişdilər. O hündür boylu olduğu üçün birinci sırada dayanmışdı. Onun uca boyuna və enli kürəyinə hərbi geyim çox gözəl yaraşırdı. Ciddi sifəti onu peşəkar hərbiçiyə bənzədirdi. Ata-anası onun

boy-buxununa baxıb sevinirdilər. Bu qırx gündə onlara sözün əsil mənasında olan-olmuşdu. Onlar Fəridsiz evi bom-boş görürdülər. Buna baxmayaraq, onlar heç biri üzə vurmur, övladlarının vətən qarşısındakı borcunu verməsiylə qürur duyur, həm də əsgərlik məktəbini keçməsində zərurət duyurdular.

And içmə mərasimindən sonra görüşüb xeylək söhbət etdilər.

Fərid qulluq etdiyi hərbi hissə Murov dağın ətəyində Çaykəndin yaxınlığında idi. Onu tağım komandiri təyin etmişdilər. Fərid sevinə-sevinə:

— Ata, bilirsiniz də, mənə zabit kimi maaş da verəcəklər.

— Çox yaxşı oğlum, belə getsə heç kimə ehtiyacın qalmayacaqdır. Onlar ayrılmaq istəməsələr də ayrılıq vaxtı gəlib çatmışdı. Validə xanım nə qədər istəsədə özünü ələ ala bilmirdi.

— Eh, ay ana, sən də ki, elə bil mən uşaq zadam.

— Nə deyirəm ki, valideyn olanda inşallah bizi başa düşərsən.

Onlar sağollaşıb ayrıldılar. Əvvəlcə Fəridə xidmət etmək çətin olsa da sonradan hər şey öz qaydasına düşməyə başlamışdı. O briqadada keçirilən əlbəyaxa döyüş üzrə I yer tutduqdan sonra isə hər kəs sıravi əskərdən zabitədək hamı onun xətrini çox istəyir, hörmətini saxlayırdılar. O isə bu hörməti itirmir, öz hərəkətləri ilə hərbi hissənin ümimilikdə isə bütün sevgisini qazanmağa çalışırdı. Fevral ayının sonları idi. Murov dağın ermənilərlə həmsərhəd olan hissəsində Fəridin rəhbərlik etdiyi bölüm keşik çəkirdilər. Bu zaman əsgərlərdən birinin ehtiyatsızlıq edərək siqaret çəkməsi, onların düşmən tərəfindən güllə-barana tutulmasına səbəb

oldu. Nəticədə əsgərlərdən ikisi ağır yaralanmışdı, Fərid isə baldırından yaralanmışdı. Əvvəlcə əsgərlərinə köməklik göstərən Fərid, sonra belindən kəmərini çıxardaraq baldırının yuxarısından bərk-bərk sıxdı. Onlara köməyə gələn əsgərlər yoldaşlarını tez dağdan düşürdərək hərbi hissədə yerləşən tibbi məntəqəyə çatdırdılar. Əsgərlərin üçü də xeyli qan itirmişdilər. Hərbi hissənin komandiri vertolyot tələb edib, onları təcili Ələtdəki qospitala göndərdi. Fərid ürək edib ata-anasına xəbər etməklə onları qorxudmaq istəmədi. O, bir neçə dəfə Zülfünaza telefon açsa da onun telefonu bağlı idi. Xoşbəxtlikdən güllə venanı kəsib dağıtmamışdı. Ancaq yara dərin olduğundan bir xeyli burada qalmalı olacaqdı. Yarası yuyulub, dərmanlanıb, sarıdıldıqdan sonra qostillərə söykənə-söykənə palataya gəldi. Nə düşündüsə əşyalarının arasından Solmazın xatirə dəftərini çıxarıb, vərəqləyib şeirlə yazılı bir səhifəni oxumağa başladı:

— Fərid, sənə könlümü açıb, ayrılandan sonra elə bil ürəyim qara qanla dolmuşdu. Əsəbimdən əlim-ayağım titrəyirdi. Son damla qanına, son sözünə, son baxışına hətta son nəfəsinə kimi səni sevən insana qarşı bir hissini, hərəkətini görməyən də sandım ki, mənim həyatda yaşamağım bundan sonra bir heçdir. Bilirsən Fərid, necə də ölmək istəyirdim. Hətta, sənə bir nəfəsə bir şeir də yazdım.

Doğrudanmı kiməm mən?
Sənə bir söz söyləyəm.
Heç insafmı könlümün
Budağını de, əyəm?
Hərdən də hirsləndirib

Ürəyinə hökm edəm.
Səni sevdiyim üçün,
Gözünə görünmərəm.
Sənin məhəbbətini
Ürəyimdən üzmərəm
Qolların ağrıyırsa,
Ürəyimlə əvəz et.
Ürəyin ağrıyırsa,
Al canımı rahat et.
Onsuzda əriyirəm
Biganəlik əlindən.
Qorxuram nakam gedəm,
Səni xoşbəxt görmədən.
Sonralar xoşbəxt olub
Həyatında sevinsən,
O sevginin xətrinə
Qəbiristana gələrsən.
Məzarımın önündə
Bir anlıq diz çökərsən.
O gözəl gözlərindən
Göz yaşı tökərsən.
Hələ də səni sevən,
Ruhumu şad edərsən.
Səni sevən insanı
Beləcə yad edərsən.

Sən həmişə uşaqlarla söhbət edərkən, atanla Qərib dağına getməyinizdən, orada ov etməyinizdən söhbət açardın. Hətta, orada ceyranlara rast gəldiyinizdən danışardın. Mən xəstəxanadan çıxandan sonra sənin gəzdiyin yerləri görməkdən ötəri atama bəhanə uydurub dedim ki, yuxuda mənə deyiblər ki, Qərib dağına getsən

yaxşı olacaqsan.

İndi biz hər şənbə-bazar günləri o dağa gedirik. Bilirsən, uydurub içimdə gəzdirdiyim Fəridimi mən orada axtarıram. Onun iyini oradan alıram. Qismətimdən sən dediyin ceyraların ikisini aralıdan da olsa bir-birilərin üz-gözünü yaladıqlarını gördüm. Lap paxıllığım tutdu. Dağın başına çıxdım, arxa hissəsi sıldırım qayalıq idi. Nədənsə ikimizi orada təsəvvür etdim. Birdən düşündüm ki, mən Fərdin yolunda özümü oradan atmağa belə hazıram. Əsas odur ki, mənim Fəridim xoşbəxt olsun. Qoy tanrı bütün ömrümü ona bağışlasın. Onsuzda sənsiz bu dünyada nə arzum, nə də kamım var. Təki allah sənə dəyməsin.

Solmazın yazıları Fəridi yamanca tutmuşdu. O durub-durub birdən hönkürdü:

— Gör mən kimin xətrinə dəymişəm. Heyf ki, artıq gecdir. Mən ona tay ola bilmərəm. O, qürurlu həm də müqəddəs bir varlıqdır. Biz elə Zülfünaz ilə bir-birimizi yaxşı tapmışıq. İkimiz də əhlikefik. Allah sonrasından qorusun. O, beləcə düşüncələr içində yuxuya getmişdi.

* * *

"Məhəbbət bütün ehtiyacların ən güclüsüdür, çünki o eyni zamanda başqa ürəyə və bədənə sahib olur."

Volter

Solmaz Fəridlə sonuncu dəfə hərbi komissarlıqda görüşmüşdü. Artıq bir ilə yaxın idi ki, Fəridsiz "Fəridli" günlərini yaşayırdı. Ona hakim kəsilmiş eşqin qurbanı olmuşdu. Fəridin xiffətini edir, hər namazda ona can sağlığı, sağ-salamat qayıtmasını arzulayırdı. Hərdən də

düşünürdü ki, bəlkə sözləri ilə Fəridin xətrinə dəyib, onu incidib. Bir gecə o qədər düşündü ki, az qala dəli olsun. Sonra qəlbi bulaq kimi qaynadı, içindəkilər dilindən süzülməyə başladı.

Bir baxışla ürəyimi rahat etdin,
Can verərkən dünya dolu həyat verdin.
Bəs nə üçün sevinc dolu həyatımı,
Həsrət dolu göz yaşıyla əvəz etdin?

Solmaz Fəridin yaralandığı günün gecəsi, heç yata bilməmişdi. Səhərə yaxın onu yuxu aparmışdı ki, bir qəribə yuxu gördü. "Gördü ki, uzaq bir meşəyə, qrup yoldaşları ilə gəzməyə gediblər. Yoldaşlardan fərqli olaraq Fərid təsəvvür edilmyən bir qiyafədə idi. O, uşaqlardan ayrılaraq meşədən yuxarıda dayanan dağın qar örtüyü hissəsinə qalxmışdı. Birdən dağın o tərəfindən uçağan ilanlar düz onun üstünə gəlirdilər. Fərid əlindəki ağacla nə qədər onları vurub, qovsa da onlar əl çəkmirdilər. Hamı mat-məəttəl qalmışdı. Solmaz qaçıb ona kömək etmək istəsə də Fərid:— Solmaz, yaxın durma, mən sənə qıymaram — deyib qışqırdı.

O, Solmaza tərəf çevriləndə ilanların biri ağzını açıb onu dişlədi. Fərid buna baxmayaraq onları ağacla vurub dağın o tərəfinə keçirtdi. "

Solmaz qışqırıb, uşaqları köməyə çağırdı. Solmazın səsinə anası o biri otaqdan qaçaraq gəldi. O, Solmazı silkələyərək:

— Solmaz, ana qurban, nə olub? — deyib onu oyatdı. Solmazın isə gözündən yaş axırdı.

— Heç nə olmayıb, pis yuxu görürdüm. Narahat olma get yat, — dedi.

Dilbər xanım bismillah, bismillah deyə-deyə getdi. Bundan sonra ilan vuran yatdı. Solmaz yata bilmədi. Səhər tezdən durub erkən işə getdi. İşdə xəstə olduğunu bəhanə edib, bir saatlığa poliklinikaya getmək üçün icazə aldı. Çantasını götürüb otaqdan çıxdı. Marşurut avtobusuna minib 6 saylı xəstəxananın yanında düşdü. Xəstəxananın girişində icazə alıb 3-cü mərtəbəyə birnəfəsə çıxdı. Validə xanımın kabinetinin qapısını döyüb gözləmədən içəri girdi. Validə xanım xəstələrin xəstəlik kağızlarına baxırdı. Solmazı görən kimi ayağa durdu və:

— Xoş gəlmisən, qızım — deyib öpüşüb görüşdülər.

Sonra ona: — buyur, otur.

Solmaz həyəcanlı olduğundan oturmaq istəmirdi. Validə xanım onun sıxıntılı olduğunu görüb soruşdu:

— Hə, de görüm, nə olub, qızım?

Solmaz həyəcanından dolsa da utandığından danışa bilmirdi. Bir neçə dəqiqədən sonra gücünü toplayaraq:

— Sonuncu dəfə Fəridlə nə vaxt danışmısınız?

— Narahat olma qızım, şükür allaha demək olar ki, son iki ayda Fəridlə hər gün əlaqə saxlayırıq. Telefonla bizə zəng edir. Necə bəyəm?

— Mən çox pis yuxu görmüşəm. Siz onun yanında son zamanlar olmusunuzmu?

— Yox, qızım olmamışıq. O, tez-tez danışdığından ondan arxayınıq.

— Mən çox narahatam. Ürəyimə nə isə damıb. Yaxşı olardı ki, gedib onu gözünüzlə görərdiniz, — deyib ayağa qalxdı.

— Mən işdən icazə alıb gəlmişəm. Validə xala arxayınçılıq üçün mənə də zəhmət olmasa bir xəbər çatdırarsınız.

Solmaz gedəndən sonra Validə xanım narahat olmağa başladı. Ana hissləri onu bir anlığa sıxıb silkələdi. O, tez Mahmud müəllimə telefon açdı. Mahmud müəllim dəstəyi qaldıranda Validəni tez-tez, həyəcanla danışmasına:

— Nə olub, ay Validə, bir az aram-aram danış görək nə olub?

— Mahmud, axşam Fərid danışanda hiss etdim ki, məndən nə isə gizlədir. Deyirəm, sabah altıncı gündür, bəlkə ikimizdə işdən icazə alıb gedək ona baş çəkək. Allah eləməsin, uşaq xəstəxanaya-zada düşər bilmərik.

Elə bil Mahmud müəllim də sıxıldı:

— Nə deyirəm, gedək deyirsən gedək.

Axşam ikisi də evə tez qayıtmışdılar. Validə xanım Fəridə telefonla zəng etdi.

— Haycan, nə yaxşı zəng etmisən ana?

— Sabah atanla yanına gələcəyik. Hərbi and içmədən sonra səni görməmişik.

— Neynirsiz, əziyyət çəkməyin, şükür allaha lap yaxşıyam. Narahat olmağına dəyməz.

— O, nə deməkdir? Fərid, sən bizi görmək istəmirsən? Düzünü de, nə isə olub? Biz onsuzda atanla sabah mütləq yanına gəlirik. İşdən də icazə almışıq.

Fərid əlacsız qalıb, sıxıla-sıxıla yıxılıb ayağını yüngülcə əzdiyini dedi.

Validə xanımı heç nə saxlaya bilməzdi. Dözə bilməyib ağlaya-ağlaya:

— İndi hardasan, Fərid?

— Ələtdəki hərbi xəstəxanadayam.

— İndi atanla gəlirik.

Mahmud müəllim sürücüsünə zəng edib onlara gəlməsini söylədi. Bir saatdan sonra onlar Fəridin yanında

idilər. O, ata-anasına hər şeyi danışdı. Validə xanım isə:

— Yenə də Solmaz, əgər o qız mənim yanıma gəlib, səni yuxuda gördüyünü, çox narahat olduğunu, sıxıldığını deməsəydi, heç biz buraya gəlməyəcəkdik.

Bir neçə gündən sonra Fəridi Papanində yerləşən hərbi xəstəxanaya yerləşdirmişdilər. Mahmud müəllim belə şeylərdə nə qədər ciddi olsa da, oğlunun sağlamlığı onu yamanca narahat etmişdi. Validə xanım isə əldən-ayaqdan gedir, hər gün gözünün yaşını tökürdü. Mahmud müəllim xanımının ana ürəyinin sızıltısına dözə bilmirdi. Validə xanım Solmaza zəng etdi və onlar nahar fasiləsində görüşdülər. O, Solmazı qucaqlayıb:

— Sənin təmiz ürəyinə qurban olaram — dedi.

— Bəs mənə bir xəbər demək istəmirsiniz?

Validə xanım olanların hamısını Solmaza danışdı. Solmaz isə işi bəhanə edib:

— Validə xala, mən işə gecikmişəm. İcazə versəydiniz mən gedərdim.

— Get qızım, get — dedi.

Validə xanım danışanda, Solmazı qəhər boğmağı, onun gözündən yayınmamışdı. Solmaz uzaqlaşan kimi bir taksiyə oturub, hərbi xəstəxanaya sürməyi xahiş etdi. O, Fəridi öz gözləri ilə görmək istəyirdi. Solmaz qapıda dayanan əsgərin cibinə pul qoyaraq onu Fəridin palatasına aparmağı xahiş etdi. Fərid palatada tək idi. Solmaz dözə bilməyib hönkürdü və Fəridin boynunu qucaqlayıb:

— Bəs mən sənə demədim ki, nə olsa mənə de?

— Səni narahat etmək istəmədim.

— Nə narahtlıq, sən lap dəlisən. Mən sadəcə təmənnasız sənin qeydinə qalmaq istəyirəm. Təmənnasız başa düşdün? Sənin sağlığın mənə bəs edər. İndi işə gedrdim,

sadəcə dözə bilmədim, dedim gəlim səni öz gözlərimlə görüm. Salamat qal!

— Sağ ol, Solmaz, hər şeyə görə. Qoy Allah mənim günahlarımdan keçsin.

O, bir az fikirləşib: — Elə sən də.

* * *

Ürəkdə işığa həsrət varsa, o bu parıltılar tərəfindən cəzb olunur. Sevgi hissi də harada isə bu maraq və qorxunun, inam və şübhənin, tərəddüd və qətiyyətin vəhdətindən pərvazlanır. Yəni, sevgi əslində təkamüldə olan canlı prosesdir. Maraq məftunluq səviyyəsinə qalxırsa və qorxu duyğusundan ancaq müəmma qalırsa, — məhəbbətin yolu açıqdır. Tam qaranlıq qəlb işıqdan qorxar, yəni sevgi ancaq işıqlı, heç olmazsa qismən işıqlı adamların qismətidir. Yarıqaranlıq qəlb daha parlaq işıqlar tərəfindən cəzb olunur. Bu baxımdan yarımçıq olanın, bütövləşməyə ehtiyacı olanın sevmək ehtimalı daha çoxdur.

Yüksək mənəviyyatlı, incə ruhlu, parlaq qəlbli insanları heyrətləndirmək, məftun etmək üçün daha böyük gözəllik, daha həssas və daha mürəkkəb tərəf müqabili lazımdır. Ən böyük aşiq isə şübhəsiz, ancaq işıqlar işığına (Ş.Sührəvərdinin dili ilə desək, Nur əl-Ənvərə) səcdə edə bilər. Bu isə artıq ilahi eşqidir.

Fərid hərbi xəstəxanada olarkən çox düşünmüş, çox daşınmış, Solmazın ona qarşı təmənnasız və saf sevgisi onu düşünməyə vadar etmişdir. Lakin o daxilən pak və insanlara qarşı etibarlı bir xəttə söykəndiyindən həqiqətlər qarşısında donub qalmış, özünün hərəkətlərində nəyi düz, nəyi səhv etdiyini yəqin etmək istəyirdi. O, öz fikirlərində də, Zülfünaza qarşı da biganə deyildir.

Onunla ilk görüşü, bir-birilərinə qarşı səmimi və kövrək duyğuları hələ də onu rahat buraxmır, ona olan münasibəti səngitmirdi, sanki o sahibsiz bir dəniz kimi iki sahil arasında qalmışdı. Lakin üst-üstə gələndə Zülfünaz ilə daha yaxın olmuş, ona daha çox yararlı olmuşdu. Zülfünaz Fəridlə az qala həyat yoldaşı kimi davranar, Fəridin imkanı varmı, yoxmu onu maraqlandırmaz, geyim, bəzək əşları alarkən yalnız öz fikrini, mövqeyini önə çəkərdi. Özünün dediyi kimi: — Bəyəm mən ucuz qızam, ucuz şeylər də aldıram? — deyərdi.

Onlar yenə də adəti üzrə "Mirvari" kafesində oturub axşam yeməyini yeyirdilər. Zülfünaz ürəyi yanan adamlar kimi əlini Fəridin əlinin üstünə qoyaraq:

— Fərid, bilirsən sənin üçün nə qədər üzülmüşəm, deyirəm kaş o köpək oğunun gülləsi sənin baldırına yox mənim baldırıma dəyərdi. Amma sənə heç nə olmayaydı. Daha evdəkilər də mənim əlimdən gecə yata bilmirlər. Dəli kimi o tərəf-bu tərəfə gedirəm. Dərdimi bilən yoxdu. Bax beləcə nələr çəkdiyimi özün yaxşı bilirsən.

— Başa düşürəm, niyə başa düşmürəm. Təkliyi Allah heç kimə qismət etməsin.

— Deyirəm, Fərid, Allah mənim ömrümə sənlə olan günləri yazsın. Sən kişi oğlusan (ürəyində: yoxsa başqaları da var, çətini işləri düzələnə kimidir), sözündə düz, əməlində düz, daha nə deyim Allah göydən baxır.

— İmtahanlarınla neynirsən?

— Vallah Fərid, səndən sonra yaman əziyyət çəkdim, hətta istədim institutu buraxım. Sonra birtəhər əlac qıldım. Allah yaxşı adamların sənlə birlikdə canını sağ eləsin. Bir az mənim zəhmətim oldu, bir az da onların.

— Axırı ki, bu kursu bağlaya bildin ya yox?

— Bağladım, özü də necə bağladım (Zülfünaz yenə də ürəyində: əgər mən o, keçəl köpək oğlu, dekan müavini İntiqamla birlikdə eşq məcaraları axtarmasaydıq, hardan bu işləri yoluna qoya bilərdim?).

— Bəs telefonlarıma niyə cavab vermirdin?

— Nə dedin, eşitmədim.

— Telefonlarıma deyirəm, niyə cavab vermirdin?

— Düzü, əvvəlcə məni tək qoyduğuna səndən incimişdim. Sonra da düşündüm ki, sən yoxsan telefon mənim nəyimə lazım?

— Axı mən əsgərəm. Mənimlə hər şey ola bilərdi. Özüdə ki, düşmənlə üz-üzə dayandığımız zamanda. Oldu da. O çətin vaxtlarda bilirsən sənə necə ehtiyacım var idi?

— Bunu gərək atan düşünəydi. Hər-halda onun imkanı məndən daha böyükdür.

Zülfünaz onu anlamadığına görə ürəyində çox təəssüfləndi. Sonra:

— Bəlkə də sən düz deyirsən.

Gecədən keçmiş Fərid hərbi xəstəxanaya qayıtmalı idi. O bir taksiyə əl etdi. Əvvəlcə Zülfünazı evlərinə aparıb sonra xəstəxanaya qayıtdı. Gözlərinə inanmadı. O, incə, gözəl və ürəyiyumuşaq Zülfünazın əvəzində başqa bir adam var idi. O adam ki, incəliyindən və zərifliyindən heç nə qalmamışdı. Danışıqlıqlarında bir biganəlik hiss olunurdu. Verilən sualları buraxıb başqa şeylər danışırdı. Fərid isə bütün olanlara inamır. Ürəyinin dərinliyində Zülfünaz ilə aralarında olan sevgi çarağını hələ də aram-aram yandığına ümid bağlayırdı.

Bütün gecəni yatmayan Fərid səhərə yaxın öskürməyə başladı. Səhəri günü hərbi xəstəxananın baş həkiminin icazəsi ilə Fərid üç günlüyə evə buraxılmışdı.

Onun dalınca anası ilə atasının şoferi gəlmişdi. Fərid yavaş-yavaş yerisə də söykənəcəkdən istifadə etmirdi. Evlərinə çatanda sanki olanları unutmuşdu. Evə girər-girməz vanna otağına keçib yuyundu, dərindən nəfəs alıb hər tərəfə göz gəzdirdi. Sanki anasının səliqə-səhmanı üçün darıxmışdı. Validə xanım həmişəki ahəngi ilə:

— Fərid, mətbəxə keç.

O, mətbəxə keçdi, stolun üstündə daha nələr yox idi. Fərid heç bilmirdi birinci nədən başlasın. Onun üçün anasının bişirdiyi bütün yeməklər dadlı idi.

Axşam Mahmud müəllim evə tez gəlmişdi. Onlar mehriban və sevgi dolu baxışlarla bir-birlərini süzə-süzə söhbət edirdilər. Sonra o:

— Fərid, sənin hərbi qulluğunu bitirməyinə üç ay qalıb. Mən sənin vəziyyətinlə (sağlamlıq durumun) əlaqədar Azərbaycan Müdafiə Nazirliyinə müraciət etmişəm. Onlar sənin qalan xidmətini ixtisasına uyğun olaraq hərbi prokurorluqda davam etdirəcəyin barədə sərəncam vermişlər.

Fərid əvvəlcə:

— Ata, sən nə cür istəyirsən. İstəyirsən cəbhəyə qayıdım, mən həmişə Vətənimizlə, sizinlə fəxr etmişəm.

— Oğlum, Vətənimizin hər bir vətəndaşı bilməlidir ki, bizim Azərbaycan adlı bir vətənimiz var.

Axşam Fəridin öskürəyi bir az da kəskinləşmişdi. Murov dağından düşəndə öskürdüyü acı öskürək yenə də sinəsini yandırıb-yaxırdı. Deyəsən dünən axşam Zülfünaz ilə içdikləri soyuq şampan şərabı ona pis təsir etmişdi. Hərarəti qalxmış, başı bərk ağrayırdı. Gecədən keçmiş hər kəs öz otağına çəkilmişdi. Fərid düşüncələr içində yuxuya getmişdi. Gecənin bir aləmində o birdən

hiss etdi ki, elə bil onun başını isti bir vannaya salıblar. Əvvəlcə bunun yuxu olduğunu düşündü, sonra gözlərini açıb gördü ki, öz otağındadır. Lakin, ağız-burnundan açılan laxtalı qan yastığın üstü ilə bir olmuşdu. Qorxub anasını çağırmaq istədi. Sonra onları tələşlandırmaq istəmədi. Durub yatağının üstündə oturub, yastığının üstünü örtmüş qara qan laxtalarına baxdı. Öz cavan taleyinə acıdı. Vərəm olduğunu qətiyyətlə beyninə yerləşdirdi. Düşündü ki, hər kəsdən kənar dursa daha yaxşıdır. O, barmaqlarının ucunda vanna otağına keçib yuyundu və qurulandı. Otağına qayıtdıqdan sonra tez yastığın üzünü çıxardaraq büküb kənara qoydu. Pəncərənin bir tərəfini açaraq yastığı pəncərənin arasına qoydu. Xoşbəxtlikdən qan qatı olduğundan yastığın içərisinə sızmamışdı. O, başının altına kənarda olan ədyalı qoyub yatdı. Səhər tezdən valideynləri onu oyatmadan işə getmişdilər. Fərid oyananda saat 11-i keçmişdi. O, oyanıb başına gələnlər haqqında xeyli düşündü. Sonra isə: "cəbhə bölgəsində, o, Murov dağında qar çovğununa" düşəndən sonra bir müddət hərarətinin yüksək olduğunu, həkimin isə ona soyuq suyun və ya hər hansı bir içkini bir neçə illiyə içməməsini tövsiyyə etmişdi. Onun dünən özünü Zülfünaz qarşısında sındırmayaraq sona qədər soyuq şampan şərabı içməyi ona baha başa gəlmişdi. O, səhər yeməyi yedikdən sonra qabları şanpunla əməlli-başlı yudu ki, xəstəlik valideynlərinə keçməsin. Zülfünaz ona bir neçə dəfə telefon açsada o telefona cavab vermədi. Xəstəxanadan icazəsi daha bir günə olsa da, o, paltarlarını geyinib xəstəxanaya qayıtdı. Sonra anasına telefon etdi və başa saldı ki, ayağı ağrıdığından xəstəxanaya qayıtmalı olub. Anası nə qədər israr etsədə Fərid gecəni orada qalacağını söylədi. Biçarə Fərid

bütün gecəni beləcə yatmayıb, ayıq gözlə başa vurdu. Ona qənim kəsilmiş bu dərdin çarəsini tapa bilmədiyi üçün az qalırdı ürəyi partlasın.

Bir neçə gündən sonra Zülfünazın onun dalınca xəstəxanaya gəlməsi heç ürəyincə olmamışdı. Olanları söyləyib "zavallı" qızın ürəyini üzmək istəmədi. Bənizinin sap-sarı olması isə heç Zülfünazı açmadı.

— Nə olub, niyə telefona cavab vermirsən?

— Heç, elə-belə səni narahat etmək istəmədim.

— Bu da təzə çıxdı, əynini geyin, xəstəxananın həyətində bir az söhbət edək.

Fərid əynini geyindi, onlar birlikdə həyətə çıxdılar. Gəlib bir skamyada oturdular. Zülfünaz Fəridin ona ad günündə aldığı qızıl bilərziyi sağa-sola çevirə-çevirə:

— Hə, danış görək nə olub?

Fərid durub-durub kövrələrək: — Zülfünaz, bilirsən ki, mən səni çox sevirəm, amma bizim bir yerdə olmağımız düzgün deyil.

— Danış görək nə olub? Üzmə ürəyimi.

— Sən gəncsən, mən sənin həyatını korlamaq istəmirəm. Elə şeylər var ki, sənə danışa bilmərəm.

— Partlatma ürəyimi, danış görək sənə nə olub?

Fərid olanların hamısını ona danışıb, hıçqıra-hıçqıra:— Mən istəmirəm ki, sən də, gələcəkdə olan körpəmiz də bu xəstəliyə tutulasınız.

Zülfünaz sanki donub qalmışdı. Birdən ayılıb, iyrənən adamlar kimi başını tərpədib, sifətini büzüşdürəndən sonra ağzının tüpürcəyini yerə tüpürdü: — Fərid, sən incimə, mənim anam babamın vərəm xəstəliyinə tutulmasından hələ indi də danışır.

Fəridin içərisində elə bil nə isə qırıldı. Sanki həyata olan ümid közü birdən-birə söndü. Düşündü ki, həyatın

ondan üzü nə tez döndü. Fərid özünü toparlayıb ayağa durdu və: — Ona görə də deyirəm biz uşaq deyilik, get yaxşı-yaxşı fikirləş. İnşallah sən fikirləşənə kimi mən də dünyamı dəyişərəm.

O, Zülfünazı xəstəxananın həyətində qoyub axsaya-axsaya uzaqlaşdı. Zülfünaz isə olanlardan, danışılanlardan heç nə başa düşməmiş halda ayaqlarını sürüyə-sürüyə xəstəxananın həyətindən çıxdı.

* * *

Eşq məntiqə qulaq asarsa məhv olar.
F. Saqan

Şərq anlamında eşqin, romantik məhəbbətin praktika ilə, əməllə əlaqəsi yoxdur. Eşq bir tərəfdən cismani dünyanın fövqündə durduğu, digər tərəfdən unikal olduğu üçün bu sahədə təcrübə toplamaq, bu sahənin peşəkarı olmaq mümkün deyil. Əqli nəzarətdən kənara çıxan böyük məhəbbət — "divaneyi eşq" daha çox nabələd olanların, ilk dəfə sevənlərin qismətidir. Fərid şama olan sevgisini onun oduna qovuşmağında görən pərvanə kimi əriyir, fələyin qəzəbinə tuş gəlmişdi. Çəkdiyi cəzanın səbəbini axtarırdı: — Axı günahım nədir? Bu qaranlıq taleyimin bir aydın sabahı yoxdurmu?

O, arzuolunmaz xəstəlik barəsində valideynlərinə nə desin? Onsuz da yaralanandan sonra stresə düşən atanasına bu xəbər yeni zərbə olmazdımı? O, hələ həyatda onları heç nəylə sevindirə bilməmişdi. Onu səhər yuxusundan tibb bacısının səsi oyatdı.

— Fərid, dərmanlarını iç, yəqin ki, inşallah gələn həftə səni buraxarlar.

Fərid yerində bir az eşələnib, sonra durdu. Dərman-

larını qəbul edib yuyunmağa getdi. Qayıdanda gözlərinə inanmadı. Solmaz onun "tumbuçkasının" üstündə ona səhər yeməyi hazırlamışdı. Qapı açılanda Solmaz da bir anlığa başını qaldırıb, Fəridə baxdı. O, sifətdən arıqlamış, gözlərinin altı qaralmışdı. Sanki o xəstəxanada deyil, həbsxanada idi. Fərid isə Solmazın gəlişinə sevinmişdi. Onun iri göy gözlərinə ilk dəfə idi ki, belə diqqətlə baxdı. Orada nələr yox idi. Sevgi, etibar, ehtiras, daha nələr, nələr.

— Xoş gəlmisən, Solmaz!

— Sağ ol. Gözümə yaxşı dəymədin.

— Yox, Fərid, mən yaxşıyam. Sənin nəyinsə var?

— Düz deyirsən, bu həyatda qazandığım heç nəyim yoxdur.

— Bağışla Fərid, istəmədim kövrələsən. Əvvəlcə çörəyini ye, sonra danışarıq.

Solmaz yuxa çörəyin üstünə qaymağı çəkib, sonra bal süzüb, səliqə ilə dürmək büküb Fəridə uzatdı. Sonra bir kənd yumurtasını soyaraq doğradı. Kəsilmiş dilimləri bir-biri məcburi şəkildə Fəridə yedizdirdi. Fərid nə isə demək istəsədə, danışmağa qoymadı:

— Əvvəlcə ye, sonra danışarıq.

Fəridin matı qurumuşdu. Solmaz onu idarə edirdi. Az qala gətirdiklərinin hamısını ona yedirtmişdi. Üstündən də bir südlü kakao içirtdi.

— Necədi, heç olmasa doydunmu, yoldaş zabit?

— Boynuma alım ki, son bir həftədə bu qədər yeməmişdim.

— İndi danış görək yoldaş hüquqşünasın dərdi nədir? Xəstədir özünü yoxlatdırsın, dərdi var etibar etdiyi adamla bölüşsün.

— Bizim qrupda sən həmişə fəal olmusan.

— Fərid, sən özünü uşaq kimi aparırsan. Bir şeyi yadından çıxartma ki, Allah dərd verəndə dərmanını da verir. Mənə nə isə demək istəmirsənsə demə, amma özünü itirmə.

— Yaxşı, düşünərəm, bəs sən nə ilə məşğul olursan?

— Vəkilin işi nə olar? Maşallah, bizim millətin də dərdi qurtaran deyil.

— Təəssüf ki, bu həqiqətdir.

— Hə, Fərid, lap yadımdan çıxarmışdım. Keçən həftə sənin Qərib dağına getmişdik, çox gəzsəm də, o cüt ceyranları görə bilmədim.

Özümdən asılı olmasa da kövrəldim. Düzü o cütlüyə həsəd aparsam da belə, onların təklənməyinə heç vaxt razı olmazdım. Doğrusu düşünürdüm ki, bir sevgi dolu həyat yaşayan ceyranlar təklənsələr bu ayrılığa dözə bilməzlər. Axı yaradanımız belə sevgi dolu cütlükləri barmaqla sayılacaq qədər az yaradıb. Yerdə qalanları isə birinin xoşbəxtliyi üçün digəri özünü çürüdüb məhv etməlidir.

— Sən Allah, üzmə ürəyimi, onsuz da öz dərdim özümə bəs edər.

— Vallah, elə biri mən, qurban olduğum nə qədər məni sınağa çəkəcəkdir? Niyə bu ürəyi mənə verib? Niyə məni başqaları xasiyyətdə yaratmayıb?

— Elə demə, Solmaz. Ulu Tanrı insanlığa layiq olan nə varsa hamısını sənə verib.

— Bağışla Fərid, mən yenə də mövzudan kənara çıxdım. Qurban sənə, gör son zamanlar nə qədər tibb mərkəzləri tikiblər, get özünü yoxlatdır. İstəsən mənimlə gedək. Sən cavan oğlansan, bir də ciddi nəyin ola bilər ki, mənə etibar edib danışa bilərsən.

Fəridin xəstəliyi ilə əlaqədar Zülfünaza danışmasın-

dan sonra ona olan münasibət yadına düşdü. İstədi danışmasın, sonra düşündü və ürəyində inandı ki, Solmaz ona qarşı belə biganə olmayacaq:— Desəm sənə pis təsir etməz ki?

— Sən nə danışırsan Fərid, yetər ki, mənə etibar edəsən.

Fərid başına gələnləri Solmaza danışırdı. Danışdıqca nə qədər əzab çəkdiyi açıq-aydın görünürdü.

— Bağışla məni, Solmaz, bəlkə də sənə və daha bilmədiyim kimlərəsə qarşı etdiyim haqqsızlıqların cəzasını çəkirəm. Ancaq istəməzdim ata-anam mənə görə əzab çəksinlər, mənə yaxın durmayın, sən Allah xəstəliyim sizə də keçər.

Solmaz Fəridin düşdüyü dərdlə bərabər çəkdiyi vicdan əzabına dözə bilməyib, onun halına içiində göynədi, qovruldu, yandı. Gözlərindən axan yaşlar damladamla yox, topa-topa töküldü. Sonra Fəridə yaxınlaşıb, onun boynunu qucaqlayıb ağlaya-ağlaya:

— Mən dünyanı töküb səni bu dərddən qurtaracağam bildin? Bacarmasam da bu dərdi bölüb çoxunu özümə götürəcəyəm. Onsuz da bu dünya mənə sənsiz bir cəhənnəmdir.

— Solmaz, mən sənə qıymaram. Onsuz da mənə görə çox əzab çəkmisən. Bir də, mənim kimisinin yüzü belə sənə layiq ola bilməz, istəyirəm bunu biləsən.

— Fərid, həyatım, sən mənim haqqımda düşünmə. Əsas sənin sağlamlığındır. Sən sağalmayınca səndən bir addım belə olsa uzaq durmayacağam. Qovsan belə gedən deyiləm. Sabah birinci gündür, gələrəm gedərik tibb mərkəzlərinin birinə, darıxma yaxşımı?

— Nə deyirəm ki?

— Hə valideynlərin gəlsə, onların yanında özünü sı-

xıntılı göstərmə. Dedim ki, darıxma biz bu işlərin öhdəsindən gələcəyik. Bir də ürəyim arxayındır ki, sən düşündüyün xəstəlik səndə yoxdur.

— İnşallah, təki sən deyən olsun. Amma doğrudan mən sənə minnətdaram, sən olmasaydın mən nə edərdim? Az qala havalanmışdım. Nə yaxşı ki, sən gəldin.

— Fərid müəllim, indi icazə versəydin gedərdim.

— Get Allah amanında!

Solmaz qapıya qədər gedib sonra birdən qayıtdı. Onun əllərini bərk-bərk sıxıb, sanki Fəridin ağzından çıxan havanı ciyərlərinə çəkdi.

— Qoy nə dərdin varsa mənə keçsin: – Deyib qapıdan çıxdı. Fəridin dili— dodağı qurumuşdu. Lakin gözlərindən sevinc və əzab göz yaşları selə dönmüşdü. Üzüquyulu yatağına uzanıb özünü sakitləşdirməyə çalışırdı. Anası Validə xanımın sözləri yadına düşdü: "Eşşək nə bilir zəfəran nədir" deyib güldü.

* * *

Atalar yaxşı deyib: "Taylı-tayını tapmasa, günü ahvayla keçər".

Zülfünaz hərbi xəstəxanaya girəndə Müzəffər müəllim onu görmüşdü. Maşınını saxlayıb bir az düşündükdən sonra, rolu döndərib maşını xəstəxananın giriş qapısından bir az kənarda saxladı. Zülfünazın buraya gəlməsinə çox maraq göstərmişdi. Bir də nə qədər uzun vaxt keçsə də o, Zülfünazni unuda bilməmişdi. Hələ də onunla təkrar bir yerdə olacağı arzusu ilə yaşayırdı. Ürəyində o "Bu gözəllikdə qızın, bir təcrübəsiz gəncə qismət olması ilə barışa bilmirdi." Heç yarım saat keçməmişdi ki, maşının güzgüsündən Zülfünazı gördü. Maşından düşüb ona yaxınlaşdı:

— Zülfünaz, xoş gördük. Xeyir ola, buralarda nə işin var?

Zülfünaz elə bil ki, ayıldı, olanları isə yenicə dərk etdi. Müzəffəri görən kimi ona olan qəzəbini unudub, kövrəldi:

— Nə bilim, heç özüm də bilmirəm ki, mənim qismətim niyə beləymiş?

— Gəl-gəl maşına otur. Yolda danışarsan.

Onlar maşına oturdular.

— Hə, indi danış görüm nə olub axı?

— Nə olacaq ki, Fərid vərəm tutub.

— Bu heç yaxşı olmadı.

— Onsuzda anası ilə dil tapa bilmirdik, bu hadisə də burdan çıxdı.

— Bəs Fərid nə deyir?

— Düzü, o məni çox sevir, ürəyi təmiz, qayğıkeş insandır. O, deyir ki, səni bədbəxt edə bilmərəm. Sən gəncsən.

— Ağıllı oğlandır.

Birdən Zülfünaz kövrəlib:

— Ay müəllim, görəsən mənim axırım necə olacaq? Yenə də tək qaldım.

Müzəffər müəllim onun başını qucaqlayıb, bağrına basdı:

— Heç vaxt, heç vaxt qoymaram ki, sən tək qalasan - deyib, maşını ilk görüşdükləri istirahət mərkəzinə sürdü. Zülfünaz susub, heç nə demədi. Müəllim əvvəlki vaxtlar olduğu kimi, istirahət otağı olan bir kabinet sifariş verdi və keçib oturdular, ləzzətli kabablar və şərab sifariş verdi. Zülfünaz əziz bir adamına danışırmış kimi:

— Deyirəm ee müəllim, adamınkı gətirməyəndə gətirmir dəə. Allah bu uşağı mənə yaxşı qismət etmişdi ki,

sonunda da əlimdən aldı. Yazıq canım, mən bu həyatda nə pis iş tutmuşdum ki, başıma da belə...

— Darıxma, mənim göyərçinim. Şükür Allaha. Nə olub ki, sənə? Maşallah, gözəl - göyçək qızsan.

— Eh, ay müəllim, adamın özü gözəl olunca, bəxti gözəl olsun.

Müzəffər müəllim gülümsədi.

— Sən niyə güldün birdən-birə?

— Heç, sən lap biz ticarətçilər kmi danışdın.

— Siz necə danışırsınız ki?

— Biz də deyirik ki, adamın malı mal olunca, bazarı bazar olsa yaxşıdır.

Onlar müəllimin bu sözünə təkrar güldülər.

Bir azdan süfrəni kababın iyi bürümüşdü. Onlar bir-birlərinin şərəfinə sağlıqlar deyirdilər. Müzəffər müəllo-im qədəhi qaldırıb:

— Mənim göyərçinim, bu gün bütün sağlıqlar sənin şərəfinə olacaqdır (və birdən açıldı). Zalım qızı, sənin heç mənə yazığın gəlmirdi? Qorxmurdun ki, ürəyim partlıyar?

O, stoldan ayağa qalxıb Zülfünazın şərəfinə içdi. Sonra o, kövrək halda Zülfünaza yaxınlaşaraq onu bağrına basdı.

— Ölərəm vallah sənin yolunda. Bil ki, bu yolda hər şeydən keçərəm.

— Doğrusu mən də darıxmışdım.

— Düzünü de, heç yadına düşürdümmü?

— Sənə qarşı nə qədər qəzəblənsəm də, sən həmişə mənim ürəyimdə olmusan.

— Mən daha səni heç yana buraxan deyiləm.

— Necə istəyirsən, indi bu həyatda səndən başqa bir kimsəm varmı?

— Özün görəcəksən ki, ürəyində olan bütün arzularını həyata keçirəcəyəm. Həyatından razı qalacaqsan.

Düzü, müəllim, bir kişi kimi səndən həmişə xoşum gəlib.

— Dilinə qurban olaram. Hələ görəcəksən bundan sonra sənə necə gözəl günlər bəxş edəcəyəm.

— Elə mən də düşünürəm ki, dünyanın dərdi bizə qalmayıb ki, həyatımızı ah-ufnan başa vuraq.

— Ay qız, sənin hələ nə yaşındır ki, dərd çəkəsən. Odey Avropada qızlar dünyanın ləzzətini alıb dadandan sonra 32-35 yaşlarında evlilik həyatı qururlar.

— Bundan sonra həyatım sənin əlindədir.Ancaq bir şərtim var.

— Düşünmədən belə bütün şərtlərinlə razıyam.

— Heç vaxt məni peşman etməyəcəksən. Məni qoyub yeni sevdalar dalınca qaçmayacaqsan.

— Gəl bu söhbətə bir də qayıtmayaq Zülfünaz. Sən bilməzsən ki, sənsiz keçən günlərim mənə necə də ağır olub. O gün olmayıb ki, sənin haqqında düşünməyim. İstəsən bir ev də tutaram ayrıca yaşayarıq.

— Hələlik lazım deyil. Elə belə də bizim üçün pis deyil.

— Sən necə istəsən elə də olacaq.

Həmin gün elə bil Müzəffər müəllimə dünyanı bağışlamışdılar. O, həyatından çox məmnun idi. Həsrətində olduğu arzunun vüsalına yetişmişdi. Beləliklə, ayrılmış cütlüyün yenidən birləşib, yeni həyata başlaması bir zərurətdən doğurdu. Çünki bu amalla yaşayan insanlar gec-tez bir-birilərini tamamlayırlar. Bəlkə də doğrusu budur.

* * *

Deyirlər əsl qadınlar dünyanın gedişatını daha yaxşı başa düşürlər. Onlarda olan qadın həssaslığı imkan verir ki, olacaq hər hansı bir hadisəni əvvəlcədən duysunlar.

Dilbər xanım artıq neçə müddət idi ki, qızının narahat davranmağının səbəbini onun şəxsi həyatı ilə bağlı olduğunu hiss etsə də tələsmir, gözləyirdi ki, Solmaz bu narahatlığın səbəbini özü danışsın. Solmaz isə susur, sanki hər hansı vacib bir hadisəni açıqlamaqdan ehtiyat edirdi. Vəkil olaraq cinayət və ya mülkü məcəllələri oxumaq əvəzinə tibb kitabları oxuyur, sanki hansısa xəstəliyin əlacını axtarırdı. Bir gün belə dözməyib, anasından qohumları Dağbəyi kişinin vərəm xəstəliyindən necə müalicə olunduğunu soruşanda Dilbər xanım:

— Qızım, bunların sənin işlərinə nə aidiyyatı var?— Deyə soruşdu.

— Anacan, heyif ki, biz ancaq iş haqqında danışırıq. İnsanların vəziyyəti, onların sağlamlığı ilə bağlı düşdükləri problemlər haqqında heç maraqlanmırıq da. Halbuki istəmədiyimiz hallar hər birimizin başına gələ bilər. Ona görə də bu tibbi kitablarda bəzi məqamları axtarıram.

— Ana qurban, mən nə dedim ki? Gördüm narahatsan elə-belə soruşdum.

— İncimə ana, mən də içimdə olanı dedim.

— Anladım, qızım, məndən bir kömək lazımdırsa mən hazıram.

— Yox anacan, elə bir şey yoxdur keçib-gedər.

— Sən deyən olsun. Amma bil ki, sənin hər bir narahatlığına şərik olmağa hazıram. Özü də tək bir ana kimi deyil, həm də qadın olaraq.

Solmaz məmnunluqla gülümsəyərək:

— Sağ ol, ana, mən bunu bilirəm. Allah siz valideynlərimə dəyməsin. Mənim həyatda yeganə arxam və ümidim sizsiniz.

— Biz ölənəcən siz övladlarımızlayıq.

Solmaz vanna otağına keçib duş qəbul edib öz otağına qayıtdı. Səhər tezdən durmalı, işə gedərək müdiriyyətdən icazə almalı idi. Beləcə Fəridlə bağlı qayğılar içində yuxuya getdi.

Fərid nə qədər gözlərini yumsa da yuxuya gedə bilmirdi. Solmaza qarşı etdiyi haqsızlıqlar onu için-için kəsirdi. O, Zülfünaz ilə bağlı həyat dəftərinin üstündən xətt çəkmək qərarına gəlmişdi. Solmazın ona qarşı olan sonsuz sevgisi onu yamanca kövrəltmişdi.

Qarşısında iki insan, iki qənirsiz gözəl dayanmışdır. Biri heç nə bəxş etməsə də təmənnasız onun yolunda canından keçməyə hazır — Solmaz, digəri isə o insan idi ki, Fərid onun yolunda hər şeydən, hətta öz canından belə keçməyə hazır olduğu Zülfünaz dayanmışdır. Bunların hansına gələcəyini, həyatını, sevgisini etibar edə biləcəyi göz qabağında idi. Fərid əlini uzadıb tumbanın siyirtməsindən Solmazın xatirə dəftərini götürüb oxumağa başladı. Səhifələrin birində yazırdı: — "Fərid, səni bu yazılarımla bezdirsəm də bağışlama məni. Mən gələcəyimi inan ki, sənsiz heç zaman təsəvvür etməmişəm. Canlı olmasa da həmişə ruhumla, düşüncələrimlə sənlə olmuşam. Sənsiz keçən günlərimi ömrümün son günləri hesab etmişəm. Nələrin başımıza gələcəyi haqqda düşünərkən bu sözlər ürəyimdən gəlib, beynimdə sətirlənərək dilimdən süzülməyə başladı:

" Ömür vəfa etmədi. Nə qədər ürəyimizdə yığılıb qalan sözlər, gözlərimizin aynasında donub qalan həqiqətlər qaldı.

Bu dünyadan, elə-beləcə, səssiz-səmirsiz köçəcəm. Nə edim ki, içərimdən keçənləri duyan olmadı. Yandım, atəşimi görən olmadı. Bir ilahi sevgiylə belə, sevənim olmadı.

Demirəm köçdüm bu dünyadan doymadım. Xeyr. Sadəcə, Tanrının verdiyi qisməti yaşaya bilmədim. Bir baxın, əzəli və sonu görünməyən bu haqq yolundan keçmək hər birimizin qismətinə yalnız bir dəfə düşür. Hər kəs bilir ki, bu yolun ikinci tərəfi yoxdur. Əgər belədirsə, niyə o paklığa layiq ola biləcək sevgilərimizə dönük çıxırıq? Nədən bir-birimizin ömrünü uzadıb, yaşada bilmirik? Nədən dərdi verib, ömrümüzü çürüdürük? Elə ona görə də sonda bir-birimizi kimsəsiz, tənha qoyuruq? Niyə? Nə üçün? Nədən? Bir eqoizmə görəmi? Heyf! Çox heyf! Heç əlimizin istisini belə bölə bilmədik. Heyf! Tək bir addım, yalnız qarşılıqlı bir addım qabağa ata bilsəydik, illərlə küsən ruhumuz qayıdıb rahat olardı, ürəklərimizdə solub qalan sevgilərimiz baş qaldırar, çiçək açar, eşqin səltənəti varlığını sübut edərdi. Bax onda, o düşünərdik, bundan sonra yaşamağa deyərmi? əlbəttə! Yalnız, olanlardan sonra ömür vəfa eləsəydi...”

Fərid gündəliyin bu hissəsini birnəfəsə oxudu. Nəfəsi daraldı, sanki ürəyi dayanacaqdı. İçindən gələn yanıqlı bir səslə dedi: “Bağışla məni, milyon dəfə bağışla, Solmaz! Mənim gözüm kor, qəlbim isə şeytan yuvasına dönüb. Bağışla!

Səhər saat 11-in yarısında Solmaz Fəridin yanında idi. Baş həkimin yanına keçib icazə aldıqdan sonra Respublika Tibbi müayinə mərkəzinə gəldilər. Orada Solmazın ata qohumu professor Tağı Məmmədzadə onları qəbul etdi. Hörmətli professor şəxsən ayağa duraraq onlarla yeni avadanlıqlarla təsis edilmiş kabinetə gəldi.

Fərid nə qədər həyacanlı idisə Solmaz ondan da həyəcanlı idi. Onun ağ ciyərinin fotoşəkilini çəkib professora verdilər. Professor Məmmədzadə bütün işçilərini toplayıb:

— Hörmətli kolleqalar, istəyirəm biləsiniz ki, bu cavan oğlan ata-anasının bir oğlu olsa da öz vətəndaşlıq borcunu yerinə yetirməkdən ötəri cəbhə bölgəsində xidmət edən igidlərimizdəndir. Orada isə təəssüf ki, mənfur düşmənlərimizin gülləsinə tuş gəlib, həm də xəstələnib. Mən indi onun ciyərlərinin fotoşəkilinə baxdım. Şükürlər olsun ki, onda ciddi heç bir xəstəlik yoxdur. Sadəcə soyuqdan sətəlcəm olubmuş. Laxtalı qan qusaraq ciyərləri təmizlənmişdir. Oğlum, səni təbrik edirik. Qoy allah sənin kimi cəsarətli və ləyaqətli vətən oğullarını bizə çox görməsin.

Fərid və Solmaz sevinclərindən dözməyib ağladılar. İkisi də professora yaxınlaşıb əlini sıxaraq öz təşəkkürlərini bildirdilər. Onlar ağ ciyər şöbəsindən çıxanda təsadüfən Zülfünaz qarşıdakı onkoloji şöbəyə girirdi. Onun da sağ döşündə yumurta boyda şiş əmələ gəlmişdi. Onları gördüyü anda qapının arxasında gizləndi. Sonra qayıdıb Fəridin çıxdığı şöbəyə girdi və gənc həkim qızdan o gələn cavan oğlanla qrup yoldaşı olduğunu bəhanə edərək vəziyyəti öyrəndi. Hündür, sarışın, gözəl həkim qız:

— Doğrudan da xanım, oğlan bura çox pis xəbərlə gəlmişdi. Lakin biz onun şikayəti ilə bağlı fotoşəkilini çıxarıb hörmətli professor Məmmədzadəyə verdik. O isə hamının yanında bu xəstəliyin vərəmlə heç bir əlaqəsi olmadığını söylədi. Qan qusmağının səbəbi isə o gəncin sətəlcəm olmağı ilə əlaqədardır. Sizə bir şey deyim xanım, mən paxıl deyiləm, ancaq onlar bir-birlərinə çox

yaraşırdılar. Qızın əldən-ayaqdan getməsindən hiss olunurdu ki, oğlanı çox sevir. Allah onları xoşbəxt eləsin.

Zülfünazın aşının suyu süzülə-süzülə oranı tərk etdi. Bir də heç vaxt Fəridlə qarşılaşmayacağına özündə qərar verdi.

Fəridlə Solmazın qanadları yox idi ki, uçsunlar. Onlar bir-birlərini təbrik edir, gözaydınlığı veiridilər. Sanki bir amansız əjdahanın əlindən qurtarmışdılar. Birlikdə dərdin zülmət daşını qaldırıb ata bilmişdilər. Bir taksiyə oturub əvvəlcə xəstəxanaya gəldilər. Fərid bilmirdi Solmaza necə minnətdarlığını bildirsin.

— Vallah, deməyə söz tapa bilmirəm. Məni bu zalım dərdin əlindən sən qopardın. Solmaz, Allah səni mənə çox görməsin.

— Sən nə danışırsan, Fərid? Allah eləməsin sənə bir şey olsaydı mən bu dünyada özümə yer tapa bilməzdim.

— İşə gecikirsən, get sonra görüşərik.

— Getmək istəməsəm də məcburam.

Onlar sağollaşdılar. Hər ikisi çox xoşbəxt idilər. fərid bu bir ildə birinci dəfə idir ki, belə rahat yuxuya getmişdir.

* * *

Fərid xəstəxanadan tam sağalaraq çıxdı. O, fiziki cəhətdən sağalıb möhkəmlənsə də, mənəvi sarsıntıları ona rahatlıq vermirdi. O, Solmaz kimi gözəl bir xanımın qarşısında olub-keçənlərə görə xəcalət çəkirdi. Ancaq necə deyərlər olan-olmuş, keçən-keçmişdi. Ona isə ən pis təsir edən, Zülfünazın keçmişini öyrənməmiş onunla tanış olub, ona bağlanması olmuşdu. O, dostu və qrup yoldaşı Eldarın yanına gələndə bir az da sarsılmışdı. Belə ki, Eldar müştəriləri, vəkili olduğu insanlar Zülfünazın anası Hüsnü və bacısı Lalə idi. Onlar Müzəf-

fər müəllimi Laləni zorlamaqda ittiham edərək məhkəməyə vermişdilər. Lakin burada başqa bir məsələnin də üstü açılmışdı. Sonradan Hüsnü, qızı Zülfünazın Müzəffərlə açıq-açığına birlikdə yaşadığını biləndə ürəyi az qala partlamışdı. Eldar olanları Fəridə danışanda bütün dünya-aləm Fəridin başına fırlandı. Özünü yıxılmaqdın zorla saxladı. O, dərman qəbul edərək özünü sakitləşdirməyə çalışdı. Ən dəhşətli mənzərə o idi ki, Müzəffər müəllim ticarətlə bağlı Dubaya gedib-gələn zamanlarda orada əlaqəyə girdiyi qadınlardan arzuolunmaz xəstəliyə tutulmuş, lakin kiçik bir zaman çərçivəsində bunu bilməmişdir. Zülfünaza ev tutub, birlikdə yaşamağa başladığı zamandan bir ay sonra bu xəstəlik barəsində məlumatları olub. Artıq ailəsindən ayrılıb Zülfünazın yanında yaşayırdı. İndi Hüsnü və qızları bu qadınların taleyinə qənim çıxan Müzəffər müəllim çıxılmaz vəziyyətlə üz-üzə dayanmışdılar. Necə deyərlər kələklə gələnlər, küləklə gedərlər.

Bütün bu olanlar Fəridə o qədər ağır, o qədər alçaldıcı görünürdü ki, o, özünü bağışlaya bilmirdi. Düşünürdü ki, vaxtında valideynlərini eşitsəydi, indi belə vicdan əzabı çəkməzdi. Atalar demişkən: “Böyüyün sözünə baxmayan, böyürə-böyürə qalar”.

Əsgərlik xidmətini başa vuran Fərid, Hərbi Prokurorluqda işə düzəlmişdi. O, yavaş-yavaş yeni həyata qədəm qoyurdu.

Solmazla nişanlansa da mənəvi sarsıntılardan azad ola bilmirdi. Özünü Solmazın qarşısında günahkar hiss edirdi. Solmaz ona nə qədər ürək-dirək versə də yenə də özünə gələ bilmirdi. Onun müəyyən zamana ehtiyacı var idi. Necə deyərlər zaman çox yaralara məlhəm olur.

Mahmud müəllimin və Murad müəllimin ailələri bu qohumluqdan çox məmnun idilər. Ailə, ailəyə gənclər

isə bir-birlərinə çox yaraşırdılar. Solmaz Fəridin qəlbinə vurulan yaralara məlhəm olmağa çalışırdı. O, öz muradına çatmışdı. Bir gün hamı onlarda yığışanda təklif buyurdu:

— Mən təklif edirəm ki, bu bazar günü iki ailə Qərib dağına gəzməyə getsin.

Hamı bir ağızdan:— bəyənilsin — dedilər. Fərid idman paltarında çox yaraşıqlı görünürdü. O, dağın döşündəki çiçəklərdən yığıb Solmaza verirdi. Solmaz isə çiçəkləri elə ürəkdən qoxulayırdı ki, sanki xoşbəxtliklərinin abı-havası bu çiçəklərdən asılı idi. Onlar bir-birlərinin əlindən tutaraq, gəzə-gəzə artıq dağın başına çıxmışdılar. Bu zaman onlar nə görsələr yaxşıdır. Onlar ikisi də görüb, sevdikləri ceyranlar sıldırım qayanın başında dayanıb, üzlərini bir-birlərinə sürtürdülər. Elə bu zaman hardansa açılan güllə ceyranlardan birinə dəyib, qayadan aşağı yuvarlatdı. O biri ceyran sağa-sola qaçıb özünü yaralı ceyranın arxasınca atdı. Fərid solmazla bu mənzərəyə baxaraq donub qalmışdılar. Onlar birdən ayılaraq ikisi də qaçıb qayanın üstünə çıxdılar. Nə görsələr yaxşıdır?! Sonradan özünü atan ceyran tərpənə bilməsə də gözlərindən yaş axa-axa can verən ceyranın yarasının qanını yalayırdı. Bu faciə onlara yaman pis təsir etmişdi. Hər ikisi hönkürərək ceyranların bu acı taleyinə ağlıyırdılar.

Solmaz hıçqıraraq üzünü Fəridin üzünə sürtərək pıçıltı ilə:

— Fərid, nə olar bir də heç zaman ayrılmayaq, ölsək belə bu ceyranlar kimi bir yerdə ölümü sevgi ilə qarşılayaq.



Firdovsi Cəfərxan (Firdovsi Cəfərxan oğlu Kazımov) 1955-ci ildə Zəngəzur mahalının Qubadlı rayonu, Yuxarı Mollu kəndində anadan olmuşdur. Rusiya Federasiyasının Krasnodar Politexnik İnstitutunun Texnologiya fakültəsini bitirərək mühəndis-texnoloq ixtisasına yiyələnmişdir. 1980-ci illərdə Sovet partiya orqanlarında müxtəlif vəzifələrdə çalışmışdır.

Azərbaycan "Ətsüd" ticarəti birliyində Texnoloji korpusun rəisi, sonralar Yeyinti məhsulları müəssisəsinin direktoru, 2000-2006-cı illərdə isə Azərbaycan Ekologiya və Təbii Sərvətlər Nazirliyində şöbə rəisi vəzifəsində çalışmışdır. Fiziki şəxs olaraq biznes və istehsalla məşğul olmuşdur.

Yaşadığı Sumqayıt şəhərinin ictimai-siyasi həyatında fəal iştirak edir.

Hal-hazırda "Yeganə Yol" beynəlxalq, ictimai-siyasi, ədəbi-bədii qəzetin təsisçisi və baş redaktorudur. 100-dən çox lirik, publisistik və siyasi məqalələrin müəllifidir. "Qızıl qələm" mükafatı laureatıdır.

MÜNDƏRİCAT

Yaradıcılıq və mənəviyyat aləmi 3

Bu haqsız dünyada haqqın özüsən... 9

Ruhun şad olsun, dədə.....10
Vətən oğlu.....12
Mənim Allahım.....14
Ana 15
Ata nəsihəti 16
Ürək neyləsin.....18
Qubadlı 19
Dünya yaman dəyişib.....20
Qaldı 21
Ağlama, xan araz 22
Amandır, səbr eylə, dayanma, ürək.....23
Ağlama anam, ağlama 24
Ay dəli qanlı.....25
Ay insafsız.....26
Ay qəlbi qara 27
Belə qalmaz bu dünya 28
Bu vətən dərdi 29
Xocalı.....30
Ağla, ürəyini boşalt, Həkərim 31
Biganə dünya.....32
Həkim 33
Mərd doğulmusan.....34
Vida nəğməsi.....35

Mən ola bilmədim sən deyən kimi.....39

Bəlkə qayıdasan, qurbanın olum.....40
Ağlama gözəlim, ağlama gülüm.....41
Axtarma məni 42

Bu qız nə tez böyüdü 43
Ay ağ dənizim 44
Ay novruzgülü.....45
Ay qız.....46
Ayrılıq.....47
Bənövşə 48
Dağlar 49
Daşın dərdi yadda qala 50
Gərək deyiləm 51
Yaman təsəlliyə ehtiyacım var.....52
Geri dön 53
Gedirəm 54
İnsaf eylə 55
Əl çək demədim 56
Mənə görə 57
Nə olar 58
Neyləyim 59
Necə unudum səni.....60
Şəkər dilli Nurayım 64
Sən olmadınmı... 65
Ruhumu şad edərsən.....66
Yalan dünya kimə qalar 67
Yanan olmuşam 68
Yanar ürəyim 69
Yaşamağa dəyərmi.....70
Mən ola bilmədim sən deyən kimi.....71
Bir bəndlik şeirlər.....72
Taleyimdən qorxuram.....73
Könlüm 74
Ömür vəfa etsəydi… 75
Nə, yaxşı ki, sən varsan.....76

Anasız görmədiyim, analı dünyamızı *(poema)* 78
Publisistika.....89

Zəlimxan ömrü 90
Səhnəmizin sönməz ulduzu.....95
Gözlərim hələ də yollardadır 103
Şəhidlik zirvəsi müqqəddəsdir 107
Ömürdən qalan yalnız xatirələrdi 111
Seçilən kimdir? 116
Ana vətən sevgisi bütün sevgilər üçün şərtdir.....121
Nisə qalası 124
Poeziyanın nurundan saçılan işıq 127
80 ilə layiq şərəfli ömür yolu.....131
Vətənsiz yaşamaq olmur.....135

...Hardan gəldi bu sevda *(povest)* 139

"Hər sevda bir sevgi ola bilməz" *(müəllifdən)* 140

Firdovsi Cəfərxan
*(*Firdovsi Cəfərxan oğlu Kazımov*)*
Səndən qalan bir sevgidir...
(Azərbaycan türkcəsində)

Kompüter dizaynı: Ramiz Hümmətov
Korrektor: Məftun Ənvəroğlu
Operator: Vəfa Bağırova

Yığılmağa verilmişdir: 14.02.2009. Çapa imzalanmışdır: 15.05.2009. Kağız formatı $60x84_{1/16}$. Şərti çap vərəqi 16. Tirajı: 5000. Qiyməti müqavilə ilə.

Müəllif kitabın işıq üzü görməsində göstərdiyi maddi dəstəyə görə özünə qardaş bildiyi, dayısı oğlu Mahir Məhərrəmova dərin minnətdarlığını bildirir.

TƏRCÜMEYİ-HAL

Firdovsi Cəfərxan oğlu Kazımov 1955 ildə Zəngəzur mahalının Qubadlı rayonunun Yuxarı Mollu kəndində anadan olmuşdur. 1980-cı ildə Rusiya Federasiyasının Krosnodar Politexnik İnstitutunun Texnologiya fakültəsini bitirərək, mühəndis-texnoloq ixtisasına yiyələnmişdir. 1980-ci illərdə Sovet partiya orqanlarında müəyyən vəzifələrdə çalışmışdır.

Azərbaycan ƏT.CUD ticarəti birliyində Texnoloji korpusun rəisi, sonralar Yeyinti məhsulları müəssisəsinin direktoru, 2000-2006-cı illərdə isə Azərbaycan Ekologiya və Təbii Sərvətlər Nazirliyində şöbə rəisi vəzifəsində çalışmışdır. Fiziki şəxs olaraq biznes və istehsalla məşğul olmuşdur.

Yaşadığı Sumqayıt şəhərinin ictimai-siyasi həyatında fəal iştirak edir.

Hal-hazırda "Yeganə Yol" beynəlxalq, ictimai-siyasi, ədəbi-bədii qəzetin təsisçisi və baş redaktorudur. 100-dən çox lirik, publisist və siyasi məqalələrin müəllifidir.